# AZƏRBAYCAN TEXNİKİ UNİVERSİTETİNİN NƏZDİNDƏ BAKI TEXNİKİ KOLLECİ

***"FƏLSƏFƏNİN ƏSASLARI"***

***MÜHAZİRƏ MƏTNLƏRİ***

***60 (saatlıq)***

# M Ü N D Ə R İ C A T

1 .Fəlsəfə dünyagörüşünün nəzəri əsasıdır. Fəlsəfənin predmeti və metodu........................................................................................................ 3

2. Qədim Şərq fəlsəfəsi. Qədim Azərbaycanda fəlsəfə..................................... 7

3. Antik Yunan fəlsəfəsinin yaranması və inkişafı. Qədim Roma fəlsəfəsi.................................................................................................... 14

4. Orta əsrlər Azərbaycan fəlsəfəsi. Orta əsrlər müsəlman Şərq fəlsəfəsi..................................................................................................... 21

5. Orta əsr fəlsəfəsinin xüsusiyyətləri. İntibah dövr fəlsəfəsi........................... 27

6. Yeni dövr fəlsəfəsində dinin ehkamçılığın tənqidi. İnsanın fəlsəfəsi..................................................................................................... 31

7. Klassik Alman fəlsəfəsi. Marksizm fəlsəfəsi................................................ 37

8. XIX-XX əsrlər fəlsəfəsi................................................................................ 44

9. Varlıq ən ümumi reallıq və fəlsəfənin əsas kateqoriyasıdır. Materiyanın fəlsəfi anlamı........................................................................................................ 56

10.Dialektika anlayışı. Dialektikanın kateqoriyaları. Dialektikanın qanunları......................................................................................................... 66

11. Cəmiyyət idrakın obyektidir. İdrak.Elmi idrakın metod və formaları.......... 90

12. Cəmiyyətin sosial strukturu. Cəmiyyətin siyasi tərkibi tərkibi................. 103

13. Şüurun ideal varlığı. İctimai həyatın təbii əsasları.................................... 109

14. Cəmiyyyətin mənəvi varlığı. Mədəniyyət və sivilizasiya......................... 115

15. Cəmiyyıtin iqtisadi həyatının fəlsəfi problemləri. Müasir dövrün qlobal problemləri.................................................................................................. 122

# I Mövzu

## Fəlsəfə dünyagörüşünün nəzəri əsasıdır.

## Fəlsəfənin predmeti və metodu.

Fəlsəfə müdriklik və hikmətsevərlik mənasını daşıyır. Yunan sözü olan “fileo” –(sevirəm), “sofia – (müdriklik) sözündən götürülmüşdür.

Bəşəriyyətin bilik və mənəvi mədəniyyətinin ən qədim və dəyərli sahələrindən biri kimi fəlsəfə dünyanın dərk edilməsinin xüsusi forması olub varlığın ümumi problemlərinə baxışlar sistemidir.

Fəlsəfə - ictimai şüur formalarından biri olmaqla yanaşı insanla aləmin qarşılıqlı münasibəti , təbiətin , cəmiyyətin və insan təfəkkürünün ən ümumi qanunauyğunluqları haqqında elmdir .

Sinifli cəmiyyətin yaranması və ilk dövlətlərin əmələ gəlməsi ilə əlaqədar insanların dünyagörüşü də yetkinləşməyə başlamış və ictimai şüurun xüsusi forması olan fəlsəfə təşəkkül tapmışdır . Fəlsəfə çox qədim tarixə malik bir elmdir .

Fəlsəfə şüurun dünyagörüşü formasıdır . Dünyagörüşü dünyaya baxışı ifadə edir . Daha dəqiq desək , dünyagörüşü dünya və dünyada insanın yeri haqqında təsəvvürlərə deyilir . Rus filosofu Vladimir Solovyov dünyagörüşünü “ əqli pəncərə ,, adlandırırdı .

Dünyagörüşünün müxtəlif kompanentləri – bilik , əqidə , etiqad , əhvali – ruhiyyə , cəhdlər , ümidlər , mənəvi dəyərlər , ideallar və s. vardır .

Dünyagörüşü strukturunda 4 əsas komponent var :

1) İdraki komponent
2) Dəyər normativ komponent
3) Əxlaqi – iradi komponent
4) Praktiki komponent

İdraki komponent – gündəlik , peşə , elmi və s. ümumiləşdirilmiş biliklərə əsaslanır . Həmin komponent dünyanın universal və konkret elmi mənzərəsini , fərdi və ictimai idrakın ümumiləşdirilmiş nəticələrini , insan birliklərinin , xalqların , yaxud dövrlərin təfəkkür üslubunu təmsil edir .

Dəyər - normativ komponenti –özünə dəyərli idealları , əqidələri , etiqadları , normaları , direktiv əməlləri və s . daxil edir. Dəyər insanın arzu və istəklərinin , tələbatlarının ödənilməsidir . İnsanın dəyərlər sisteminə xeyir və şər , xoşbəxtlik və

bədbəxtlik , həyatın məqsədi və mənası haqqındakı təsəvvürləri də daxil ola bilir. Məsələn , həyat insanın başlıca dəyəridir ; insanın təhlükəsizliyi – böyük dəyəridir .

İnsanın digər insanlarla münasibəti , sabit , təkrar – təkrar qiymətləndirilməsi sosial , əxlaqi , dini , hüquqi və s . normalara çevrilir . Həmin normalar isə ayrı – ayrı fərdlərlə yanaşı , bütövlükdə cəmiyyətin gündəlik həyatını nizamlayır .

Əxlaqi iradi komponent – birlik , dəyər və normaların praktiki olaraq reallaşdırılmasında mühüm rol oynayır . Şəxsi baxış , əqidə , inam komponentlərini emosional – iradi formada həyata keçirir .

Praktiki komponent – konkret şəraitdə müəyyən davranış tipinə insanın real hazırlığıdır . Praktiki komponent olmadan dünyagörüşü ifrat dərəcədə mücərrəd , qeyri –real xarakter daşıya bilərdi .

Dünyagörüşü insanın dünyaya münasibətlərini müəyyənləşdirərək baxışların , dəyər , norma və qaydalarının məcmusu olub,onun dayranışının istiqamətləndiricisi və tənzimləyicisi rolunda çıxış edir .

## Dünyagörüşünün formaları.

Tarixən dünyagörüşünün birinci forması mifologiya hesab olunur . Mifologiya –yunanca mifos və loqos sözlərindən əmələ gəlmiş , mənası əfsanə , nağıl , dastan , söz , anlayış kimi başa düşülür . Mifologiya ictimai inkişafın ilkin mərhələsi üçün səciyyəvi olan dünyanı anlama üsulu , ictimai şüurun formasıdır . Dünyada elə bir xalq yoxdur ki , onun özünəməxsus mifologiyası olmasın . İbtidai cəmiyyətlərin mənəvi həyatında mifologiya mühüm yer tuturdu . Qədim yunanlar allahlar və qəhrəmanlar haqqında yaranan əsərləri mifologiya adlandırırdılar .

Mif yaradacılığı bəşəriyyətin mədəni tarixinin vacib hadisəsi kimi min illər boyu onun mənəvi həyatı üzərində hökmranlıq etmişdir . Mif – qədim insanın hiss etdiyi, düşündüyü , inandığı , başa düşdüyü nə varsa onun idrakının şifahi izi hesab olunmalıdır . Alimlərin fikrincə ilk insanın dünyanı dərk etməsində , anlamasında mifologiyanın rolu əvəzsizdir . Bütün xalqların mifologiyasında təsnifat baxımından əsasən bunlar üstünlük təşkil edir :

1) Kosmoqonik miflər
2) Etnoqonik miflər
3) Antropormorfik miflər
4) Təqvim mifləri

Mifin əsas əhəmiyyəti dünya və insan , təbiət və cəmiyyət , fərdlər arasında harmoniyanı yaratmasıdır . Mifologiya dünyanı spesifik qanun və anlayışlarla izah edən dinamik işarələr sistemidir .

Din – dünyagörüşünün əsas formalarından biri olub , dünyanın qavranılmasında onun ikiyə bölünməsini irəli sürür . Axirət dünyası və təbii dünyaya bölünən dünya din tərəfindən fövqəltəbii qüvvələrin fəaliyyət məhsulu kimi təqdim olunur . Bəşər cəmiyyəti müxtəlif insanlardan ibarət olduğu kimi , həmin insanlarda müxtəlif əqidəyə , etiqada xidmət edirlər . Etiqad , əqidə - dini şüurun mövcudluq üsulu , insanın daxili vəziyyətini səciyyələndirən xüsusi əhvali – ruhiyyə , həyəcan və s. – dir . Dini təsəvvürlər cəmiyyətin tarixi inkişafının məhsuludur .

Dünya dinləri – islam , xristianlıq və buddizm hər birisi bir milyarddan çox tərəfdarı olan dinlərdir .

Təxmini hesablamara görə islam dininə etiqad edənlərin sayı bir milyardı ötmüşdür . Asiya və Afrikanın 28 ölkəsində islam rəsmi dövlət dini kimi tanınır . İslam tarixən formalaşan və indi də mövcudluğunu saxlayan ideoloji sistem kimi fəaliyyət göstərir .

Yetkin dinlərdə allah ideyası bütün qüvvələri üstələyir . Allah hər şeyə qadir , adil və xilaskardır . Allah əxlaq qoruyucusu , ədalət və yüksək mənəviyyat mücəssiməsidir .
Din olduqca mürəkkəb və ictimai tarixi hadisə olub , yüksək mahiyyətə malikdir. Dinin ən yüksək və tarixi missiyası insanlar arasında vahidlik əqidəsinin yaratmasıdır .

Dünyagörüşünün daha yüksək forması olan fəlsəfə bütün problemlərin həllini əql , təfəkkür vasitəsi kimi meydana çıxarır. Fəlsəfənin üstünlüyü onun insana daha yüksək münasibət bəsləməsidir . Fəlsəfə dünyanı və insanı anlamaqda biliyə əsaslanır .

Fəlsəfənin predmeti insandır . O , rəngarəngliyin və mədəniyyətin subyektidir . Fəlsəfənin predmeti dedikdə - „ dünya – insan “ sistemindəki ümumi başa düşülür. Fəlsəfənin predmeti maddi varlığı və insanı öyrənən xüsusi elmlərin predmetindən olduqca fərqlənir . Çünki fəlsəfə insanın dünyaya və dünyanın insana münasibətlərini təmsil edir .

Fəlsəfənin əsas anlayışları sırasına ,,Həqiqət”, „Gözəllik” , „Xeyir əməl” ,,Dünya”, ,, İnsan ” və s. daxildir .

Fəlsəfə gerçəkliklə sıx əlaqədardır . Müasir dünyanın dərk edilməsində onun rolu əvəzedilməzdir .

Sokrat fəlsəfəni həqiqətə məhəbbət elmi adlandırırdı . Platon fəlsəfəni xeyirxahlıq mücəssiməsi , Aristotel „ Başlanğıclar haqqında elm , biliklərin universal sistemi “ adlandırırdı .

Fəlsəfənin metodu – elmə münasibətdə evristik , koordinasiya və inteqrasiya məntiqi funksiyalarını yerini yetirir .

1 . Evristik funksiyanın əsas cəhəti elmi biliklərin artmasına kömək etməkdən , elmi kəşflərin yaranmasına şərait yaratmaqdan ibarətdir .

2 . Fəlsəfənin koordinasiya funksiyası elmi tədqiqat prosesində özünü aydın şəkildə göstərir , ilk baxışda artıq bir şey təəsüratı oyadır .

3 . Fəlsəfənin inteqrasiya funksiyası bir çox elmlərdə tətbiq olunur . Burada fəlsəfi biliyin birləşdirici rolu üzə çıxır . İnteqrasiya probleminin həllinin əsasında dünyanın vəhdətinin fəlsəfi prinsipi durur .

Elmin hər bir metodu özünün nəzəri – idraki və məntiqi imkanlarına malik olur və imkanlardan kənarda həmin metodun effektivliyi aşağı düşür . Müəyyən stuasiyalarda bir metod da kifayət edir . Ümumi fəlsəfi metodologiya xüsusi metod lara münasibətdə müxtəlif prinsiplərin əsaslandırılmasına xidmət edir, ayrı-ayrı metodlar qrupu arasında məntiqi əlaqəni yaradır .

Fəlsəfənin tarixi onun elmlə qırılmaz əlaqəsini sübut edir . Fəlsəfə elmi sahənin tərkibinə daxildir . Bir elmi bilik növü kimi onun predmet spesifikası dünyagörüşün əsas məsələsi baxımından informasiyanın hərtərəfli ümumiləşdirilməsi ilə əlaqədardır . Fəlsəfə cəmiyyətşünaslıq fənnidir . Fəlsəfə eyni zamanda cəmiyyəti öyrənir və onunla birlikdə kollektiv şüurun və ictimai varlığın qarşılıqlı münasibətini, eləcə də sosial idrakın spesifikasını öyrənir. Fəlsəfə xüsusi ictimai elmlərlə - hüquqşünaslıqla , iqtisadiyyat , politologiya və s. ilə sıx sürətdə əlaqədar olub, həmin elmlərin faktlarını müəyyən baxımdan ümumiləşdirir.

# II Mövzu

# Qədim Şərq fəlsəfəsi.

# Qədim Azərbaycanda fəlsəfə.

Qədim Şərq fəlsəfəsi təxminən eramızdan əvvəl I minilliyin əvvəllərində Misir , Çin , Hindistan , Babilistan , İran , Azərbaycan və digər ölkələrdə meydana gəlmişdir . Bütün ölkələrdən əvvəl fəlsəfi məktəb və ənənələr Qədim Hindistanda yarananıb inkişaf etmişdir . Hind fəlsəfi mədəniyyəti abidələrində qeyd edildiyi kimi II və I minilliyin başlanğıcında orada fəlsəfi məktəblər yaranmışdır . Qədim hindlilərin ilk fikir abidəsi Vedlər hesab olunur . Vedlər II və I minilliklərin qovşağında yaranmışdır və onlar bəşəriyyətin əbədi abidələri içərisində ən qədimi hesab olunur . Ved sözü bilik mənasını verir . Vedlərdə ən qədim dünyagörüşü – dünya , insan və mənəvi həyat haqqında ilkin fəlsəfi təsəvvürlər inkişaf etmişdir . Bütövlükdə vedlər şrut adlanan müqəddəs yazı mətnlərindən ibarət olmuş , əvvəlcə Brahmanizmin , sonralar isə İnduizmin ideoloji əsasını təşkil etmişdir . Vedlər 4 qrupa bölünür . Onlardan ən qədimi samhitlərdir . Samhitlər 4 məcmuədən ibarətdir : 1) Riqveda ; 2) Brəhmənlər ; 3) Aranyakilər ; 4) Upanişadlardır .

Qədim Hind materialist məktəbləri olan Vayşeviklər və Çarvaka – lokoyatanın adlarını çəkmək olar .

Vayşeviklər üçün atomların , ruhların kateqoriyasının xüsusiyyətləri birinci dərəcəli əhəmiyyət kəsb edir . Bu ilk atomizm məktəbidir . Onun məqsədi həqiqi idrak vasitəsilə iztirabdan , əzab - əziyyətdən qurtulmağa nail olmaqdır . Çarvaka – lokayata isə maddi dünyadan başqa bütün dünyaların mövcudluğunu inkar etmişdir .

Hind mədəniyyətinin mifoloji mərhələsi qədim Hind abidəsi , ,,Riqveda” da əks olunmuşdur . Qədim Hind mifologiyasında ilk insan Puruşadan danışılır . Həmin Puruşudan kosmosun elementləri , dünya ruhu ,,Mən” yaranmışdır . Puruşa kainatın maddi ,, tamamlayıcısı ” rolunda çıxış edir . Riqveda – dini himnlər məcmuəsidir .

Brəhmənlər – ritual mətnlər məcmuəsidir . Brəhmənizmə görə varlığın yeganə yaradıcısı fövqəltəbii olan Brəhmən allahıdır . O , əbədi , dəyişməz və mütləqdir . Brəhmənizm buddizmə qədər Hindistanda hakim din olmuşdur .

Aranyakilər – tərkidünya adamlar üçün davranış qaydalarıdır .

Upanişadlar b . er . əvvəl I minillikdə yaranmış sırf fəlsəfi hissədir . Burada ilk fəlsəfi təlimlərin formalaşması müşahidə olunur .

Epik dövrün hind fəlsəfəsinə gəldikdə isə həmin dövrün fəlsəfi fikrinin əsas mənbəyi 18 kitabdan ibarət olan epik „ Mahabharata” poemasıdır . Fəlsəfi nöqtəyi – nəzərindən maraq doğuran əsər “Bharavad – Qita” dır .

Hindistan ən qədim mədəniyyət ölkəsidir . Hindistan mədəniyyəti sırf Şərq mədəniyyətidir . Heç bir fəlsəfə Qərb dünyasına hind fəlsəfəsi qədər təsir göstərməmişdir .

## Qədim Çin fəlsəfəsi.

Qədim Çində fəlsəfi fikrin yaranması ənənəvi icma – tayfa münasibətlərinin pozulması ilə eyni vaxta təsadüf edir . Çində fəlsəfi cərəyanların formalaşması b. er. əvvəl VI - V əsrlərə aiddir .

Qədim Çin fəlsəfəsinin inkişafında daosizm təlimi mühüm rol oynamışdır . Daosizmdə dialektik ideyalar , idrak təlimi , etik və sosial – siyasi baxışlar mühüm yer tutmuşdur . Daosizmdən sonra qədim Çində geniş yayılmış təlimlərdən biri də konfutsi təlimidir . Konfutsi təhsilə və tərbiyəyə böyük yer verirdi . Konfutsiçilik rəsmi dövlət ideologiyası statusu əldə etmiş və onu yeni dövrə qədər saxlaya bilmişdir . Bu təlimdə əyanlara , valideynlərə hörmət , etik normalara riayət edilməsi tələblərinə rast gəlmək mümkündür.

Qədim Çin fəlsəfəsində Montszının idrak nəzəriyyəsi mühüm yer tutur. Bu məktəb nəzəri – idraki problemlərin tədqiqində mühüm rol oynamışdır. Məktəbdə öyrənilən əsas kateqoriyalar: varlıq , məkan , zaman , keyfiyyət , səbəbiyyət və s. idi . Montszı qədim Çinin görkəmli siyasi mütəfəkkiri olmuşdur . O , dövlətin mənşəyi və cəmiyyətin həyatında əməyin rolu haqqında dərin fikirlər söyləmişdir . Filosof belə hesab edirdi ki , onlarda mənəvi qüvvə vardır və həmin qüvvə onları “ ümumi məhəbbət və ümumi fayda” prinsipinə riayət etməyə məcbur edir .

## Babilistanda fəlsəfə .

Dəclə və Fərat çaylarının arasında qədim Mesopotomiya adlanan ölkədə ilk dövlət – lər b . e . əvvəl IV – III minillikdə yaranmışdır . Həmin dövlətləri yaradanlar Şumer və Semit tayfaları olmuşdur . Kiçik dövlətlərin birləşdirilməsi qüdrətli Babilistan dövləti – nin yaranmasına gətirib çıxardı . Babilistan təkcə müxtəlif dövlətlərin ərazilərinin işğalları ilə deyil , həmçinin mədəniyyəti ilə tarixə düşmüşdür . Həmin mənəvi dəyərlər sırasında İkiçayarası xalqlarının mifologiyası da özünəməxsus yer tutur . Şübhəsiz həmin sivilizasiyanı yaradanlar Şumerlər olmuşdur . Şumerlər Mixi yazılarını kəşf etmişlər . Zəmanəmizə qədər gəlib çatmış Şumer və Akkad miflərində dünyanın yaranması və quruluşu , allahların doğulması , onların xeyir – duaları və lənətləri , nəhayət allahların yaradıcı və dağıdıcı fəaliyyətləri əks olunmuşdur .

İkiçayarası ərazidə yaşayan xalqlar elmlərin əsasının yaranmasında mühüm rol oyna mışlar . B. e. əvvəl II minillikdən başlayaraq onlar təbabət sahəsində bir sıra nailiyyətlər əldə etmişlər .

Ümumiyyətlə , babilistanlılar astranomiya və astraloğiyanı yüksək qiymətləndirirdi lər . Ona ğörə də onların allahları da səma cisimlərini təcəssüm etdirirdilər . Məsələn , Sin və Şamaşa – Ay və Günəş , Marduka – Yupiter , Nerqala – Mars , İstara – Venera, Nabuya – Merkuriyə müvafiq gəlirdi .

Ümumiyyətlə , Qədim Şərq və ayrıca götürülmüş Mesopotamiya dini üçün səciyyə vi olan cəhət politeizm – çoxallahlıq olmuşdur .

Bütövlükdə Babilistan mədəniyyəti “ tunc əsrinin mədəniyyəti “ nin tipik nümunəsi hesab edilir . Mesopotamiya ərazisində elm çox tez meydana çıxmışdır . Tapılmış yüzlərlə riyaziyyat mətnləri ən qədim Babilistan padşahlığı dövrünə aiddir . Burada vurma cədvəli , kəmiyyət , kvadrat , say , xüsusilə məsələlər və onların həlli yazılmış mətnlər müasir dövrə qədər gəlib çatmışdır .

Qədim Babil astranomları səma cisimlərini sistemli şəkildə müşahidə edirdilər . Bizim eradan əvvəl II minilliyin başlanğıcında Ay – Gün təqvimi yaradılmışdır .

Şumerlilər həqiqəti və xeyirxahlığı , qanun və qaydanı , ədaləti və azadlığı , mərhə məti və s . yüksək qiymətləndirmişlər . Şumerlər cəbr və həndəsənin əsasını qoymuş lar , sonralar Pifaqor teoremi bunun əsasında yaradılmışdır . İlk dəfə olaraq şumerlər onluq və altı onluq say sistemini yaratmışlar . Bu günədək bəşəriyyət ondan istifadə edir :

1 saat = 60 dəq .

1 dəq = 60 san .

Bəşəriyyətin ümumi mədəni inkişafında qədim Şumer xalqı özünəməxsus yer tutur. Onların yaratdığı ilkin mədəniyyət dünyanın sonrakı inkişafında , o cümlədən onun tarixinin , mədəniyyətinin , fəlsəfəsinin , ədəbiyyatının inkişafına əvəzedilməz təsir göstərmişdir .

## Misirdə fəlsəfə .

Qədim Misirdə fəlsəfi fikrin yaranması IV minillikdə quldarlıq quruluşunun ən yüksək mərhələsinə təsadüf edirdi . Burada ilk təsərrüfat formaları əkinçilik , heyvan-darlıqla yanaşı daş və ağac emalı , dəri aşılanması , toxuculuq sənəti , papiruslar üzə - rində yazı və s . yaranmağa başlamışdır . Qulların əməyi ilə dünya mədəniyyətinin inciləri sayılan nəhəng ehramlar , məbədlər , saraylar inşa edilirdi . Belə bir istehsal fəaliyyəti insanlarda təbiət və ətraf aləm haqqında müəyyən biliklər əldə etməyə imkan

yaradırdı . Odur ki , burada bir sıra təbiət elmləri – mexanika , fizika , biologiya , astranomiya , kosmologiya , təbabət və s . eləcədə fəlsəfə sahəsində ilk addımlar atılırdı . Bu dövrdə günəş təqvimi və su saatı düzəldilmişdir . Daş süxurdan və qranitdən tikilmiş məhşur Misir ehramları , piramidaları həndəsə , cəbr , mexanika elmlərinin sayəsində inşa edilmişdir . Təbabət sahəsində Misir həkimləri meyitləri yarmaqla insanın anatomiyasına və qan dövranına dair məlumatları əldə etmişlər . Qədim Misirdə axirət dünyasına inam mühüm yer tuturdu . Onlar belə hesab edirdilər ki , ölüm - dən sonra bədənin saxlanılması şəraitində ruh yaşaya bilər . Mumiyalama , ölülər şə - hərinin salınması ( piramidalar ) , daş tabutlar məhz bu məqsədə xidmət edirdi .

## Azərbaycan fəlsəfəsi .

Azərbaycan xalqının dünyagörüşündə qədim dünya xalqlarında olduğu kimi təbiət qüvvələrinin şişirdilməsi , sehrbazlıq və s . uzun müddət hökm sürmüşdür . İndiki Cənubi və Şimali Azərbaycan ərazisində hələ ən qədim dövrlərdən başlayaraq zərdüştilik geniş yayılmışdır . Bu dinin yaranıb - yayılmasında Azərbaycanın ilk filosofları hesab etdiyimiz mağlar mühüm rol oynamışlar .

Mağlar Azərbaycanın ən qədim əhali birləşmələrindən olub , Midiya və İran imperiyaları daxilində mühüm rolu olmuşdur . Azərbaycan ədəbiyyatı tarixində isə mağlar muğlar kimi verilmişdir . Diogenin əsərlərində mağlar haqqında və I mağ Zərdüşt haqqında maraqlı fikirlər tapmaq olar . O , mağların bütün vaxtlarını allaha ibadətdə , dua oxumaqda keçirdiklərini göstərirdi . Aristotel mağların Misir ruhanilərindən də qədim olduqlarını söyləyirdi .

Zərdüşt özünə qədərki allahların hamısını rədd edərək yeganə allah Hörmüzü kainatın və bütün canlı varlıqların yaradıcısı kimi irəli sürmüşdür . “ Avesta” kitabında əks olunmuş Zərdüştilik mifologiyası qədim Azərbaycan düşüncəsinə geniş təsir göstərmişdir . Zərdüşt dinində dünyanın iki başlanğıcı – xeyir və şər , eləcə də həmin adlara qulluq edən allahlar arasında mübarizədə Hörmüz ən fəal mövqedə dayanır . İnsan özünün xeyir işləri ilə Hörmüzün qələbəsinə kömək edirsə , bəd əməlləri ilə Əhrimənin gücünü artırır . Xeyirxahlıq ruhu yaradıcı , bədxahlıq şər ruhu isə dağıdıcıdır . Həyat vermək , insanları yer üzündə məskunlaşdırmaq , heyvanları , bitkiləri bol etmək , insanlığı sağlam , güclü , xoşbəxt , tox etmək xeyir allahının fəaliyyətinin başlıca prinsipləridir .

“ Avesta “ da Hörmüz ilə Əhrimən arasında bu və ya digər tərəfin müvəqqəti məğlubiyyəti və qələbəsi təsvir olunur .

“ Avesta” dini , fəlsəfi , etnoqrafik , əbədi abidələr toplusudur . “ Avesta “ nın ayrı-ayrı bölmələri Azərbaycan ictimai və bədii fikrinin ilkin qaynaqları hesab olunur . Bu

dini– bədii– fəlsəfi əsərdə təqribən er. əvvəl II – I minilliyin yaradıcılıq məhsulları toplanmışdır . Makedoniyalı İsgəndərin əmrilə ,, Avesta “ nı yunan dilinə tərcümə edib, əvvəlki hissələrini məhv etmişlər . ,, Avesta “ kitabı ilk dövrlərdə şifahi şəkildə yayılmışdır . Tədqiqatçıların fikrincə bu böyük abidə ilk dəfə Əhəmənilər dövründə, sonralar isə Sasanilərin hakimiyyəti zamanında sistemləşdırilib yazıya alınmışdır . IX əsrdə yazılmış ,, Arda Virafnamə “ də qeyd edilir ki , ,, Avesta “ 12 min inək dərisi üzərində qızıl hərflərlə yazılıb xəzinədə saxlanılmışdır .

,, Avesta “ üç kitabda tərtib olunmuşdur . ,, Avesta “ 21 hissədən ibarətdir . Xeyir fikir , xeyir söz , xeyir əməl ,, Avesta “ da irəli sürülən əsas əxlaqi şüarlardır . Bu müqəddəs kitaba görə insan mülayim , mehriban , gözütox olmalı , düzlüyə həmişə əməl etməlidir . Paxıl , yalançı olmamalıdır . ,, Avesta “ da dualizm başlıca yer tutur .

,, Avesta “ böyük bir ərazidə yaşamış tayfa , qəbilə , nəhayət xalqın fəlsəfi , mənəvi mədəniyyət nümunəsidir .

,, Avesta “ da təbliğ olunan dualizm prinsipinə görə dünyada , hər yerdə iki əks qüvvə arasında barışmaz mübarizə gedir . Fiziki dünyada işıq və qaranlıq , üzvi aləmdə həyat və ölüm arasında , insanların ictimai həyatında ədalət və ədalətsizlik arasında , dini həyatda Hörmüzlə Əhrimənin , xeyirlə şər arasında mövcud olan mübarizə əbədidir . Bu o deməkdir ki , hələ qədim dünyada - ,, Avesta “ da irəli sürülən başlıca ideya hər bir predmetdə , hər bir hadisədə əksliklərin vəhdəti kimi özünü biruzə verir .

,, Avesta “ da qədim miflərin əksəriyyətindən istifadə edilmişdir . Ruhun üç xüsusiyyəti : fikirləşmək , danışmaq və hərəkət etmək prinsipləri Bundehşn abidəsində ətraflı təsvir olunur . ,, Avesta “ da insan , təbiət , hüquq , təbabət və s . haqqında maraqlı fikirlər vardır ki , indinin özündə də əhəmiyyətini itirməmişdir .

Dünya məqsədi kimi , işıq kimi Varlıq Zərdüştilik dininin ali predmetidir . Varlığın nurlu , təmiz başlanğıcı yaşayışa rövnəq verən qüvvədir .Günəşə , işığa , oda tapınma paklıq mücəssiməsinə , gözəlliyə , müqəddəslıyə tapınmaqdır . İşıq həyatın qaynağı , saflıq , xeyir , haqq rəmzi – timsalıdır . Zərdüştilik insanı cismən mənəvi təmizliyə , xeyirli , nəcib işlərə istiqamətləndirir .

Tarixdən bizə məlumdur ki , məzdəizm Urartu dövlətinin rəsmi dini olmuşdur . Urartu mədəniyyətinin varisi midiyalılar idi . Midiya qəbilələrindən biri – mağlar Urartu dövlətinin çiçəkləndiyi vaxt məzdəizm dinini qəbul etmiş və midiyalıların digər qəbilə dinlərinə qarşı amansız mübarizəyə başlamışlar . Məzdəizm mağların daha da inkişaf etdirilərək Ahura Məzdaya qurban vermək ayininə qədər tərəqqiyə çatmışdır Midiya tayfa ittifaqları inkişaf edib möhkəmləndikcə , onun siyasi uğurlarına mağların dini xeyli kömək etmişdir . Urartu və qədim Azərbaycan xalqlarından dini baxışları irs alaraq məzdəizm əvvəlcə Midiya qəbilələri arasında , sonra isə qonşu xalqlar arasında

yayılmağa başlamışdır . Deməli mağlar əvvəlcə Midiyada , sonra isə qonşu ölkələrdə dini fikrin və ayinçiliyin daşıyıcıları olmuşlar . Midiya dövləti yarandıqdan sonra mağlar Midiya padşahlarının rəsmi kahinləri oldular . Midiya dövlətinin işğal etdiyi ərazilərdə mağların dini sürətlə yayılmağa başladı .

Qədim Azərbaycanda bir sıra dini – fəlsəfi cərəyanlar inkişaf etmişdir . Məsələn Sasani dövründə zarvanizm ğeniş yayılmışdır . Zarvanistlər sonsuz zamanı başlanğıc kimi ğötürməklə bu ilk başlanğıcı şəxsləndirərək onu ilahi varlıq kimi qəbul edirdilər . Onların içərisində materialist və ateist fikirlilər olmuşdur ki , zərdüştilər həmin adamları tənqid atəşinə tutmuşlar .

İlkin feodalizm dövründə maniheyçilik də ğeniş yayılmışdır . Bu dinin yaradıcısı nəqqaş Mani olmuşdur . Yaxın Şərqdə həkim , rəssam , filosof və mühəndis kimi böyük şöhrət tapan Mani zərdüştilik kahinlərinin fitvası ilə edam edilmişdir . Öz dinini 40 il təbliğ edən Mani dualizm prinsipi – Nur və zülmətin mübarizəsini ön plana çıxarmışdır . Nur ruhu , zülmət isə bədəni (materiyanı) təmsil edir . Dünya inkişafı prosesinin məqsədi insan qəlbində yer tapmış nur ünsürlərini materiyanın (bədənin) hakimiyyətindən azad etməkdir . Maniyə ğörə allah dünyada şəri yaratmamışdır və deməli dünyanı da o , yaratmamışdır , çünki dünya (materiya şərdir , zülmətdir) materiya allahdan asılı olmayaraq mövcuddur , insan isə materiya ilə nurun qarışığıdır . Manilik xristianlığın bir sıra prinsiplərini rədd etmişdir . Maniheyçilik heyvan əti yeməyi qadağan edir , mütiliyi təbliğ edirdi ,asayiş və rahatlığı qorumağı üstün tuturdu . Uyğur türklərinin döyüşkən ruhuna uyğun olmasa belə onlar maniliyi qəbul etmişdilər . İslam dini və buddizm yayılana qədər bu din uyğurlar arasında ğeniş yayılmışdır .

Zərdüştiliyə müxalif cərəyanlardan biri də məzdəizm olmuşdur . Sasani hökmdarı I Qubadın zamanında Məzdək və onun tərəfdarları yüksək dövlət vəzifələri tutmuş , özü isə İranın baş kahini olmuşdur . Məzdəkilər xüsusi mülkiyyəti ləğv etməyə çalışmasalar da , var – dövləti adamlar arasında bərabər bölməyi təbliğ edirdilər . İctimai ədaləti qəbilə - tayfa quruluşuna qayıtmaq yolu ilə bərqərar etmək istəyirdilər .

Məzdəkilik dini , fəlsəfi və sosial təlim olub , qədim zərdüştülük prinsiplərinə əsaslansalar da , kahinlər və əyanlar qarşı çevrilmiş xalq hərəkatının ideologiyası olmuşdur . Manilikdəki dualizm Məzdəkilik üçün də səciyyəvidir . Onların fikrinə görə Xeyirin Şər üzərində qələbəsi o dünyada yox , „ bu dünyada ” baş verməlidir . Lakin onların əxlaq təlimində qəbuledilməz cəhətlər çoxdur . Məzdəkilik Xürrəmilik təliminə böyük təsir göstərmişdir . Akademik Ziya Bünyadov ilk dəfə olaraq xürrəm sözünün mənasını atəş sözünə istinadən izah etmək təklifini irəli sürmüşdür . O , haqlı olaraq yazır ki , feodal və burjua müəlliflərinin „ xürrəm ” sözünü əxlaqsızlıqla əlaqələndirmələri , şübhəsiz onların elmi və siyasi cəhətdən dar düşüncəli olmaları ilə izah edilməlidir . Çünki xilafətə qarşı iyirmi ildən artıq bir müddət ərzində

qəhrəmancasına azadlıq mübarizəsi aparmış Xürrəmiləri kefcil bir dəstə , əyyaş həyatı keçirən adamlar kimi göstərmək olmaz .

Xürrəm sözü , şübhəsiz , ,, Avesta ”dakı Xürrə sözündəndir . Sonrakı filosoflar onu ,, Mənəvi işıq ” mənasında işlətmişdilər . Bütün maddi varlıqlar məhz Xürrənin sayəsində vücuda gəlmiş sayılır . Bəlkə də buna görədir ki , Xürrəmilər oda sitayiş etmişlər .

# III Mövzu

## Antik Yunan fəlsəfəsinin yaranması və inkişafı

## Qədim Roma fəlsəfəsi

Bizim eradan əvvəl VI əsrin I yarısında antik fəlsəfə Elladanın Kiçik Asiya hissəsində , daha dəqiq İyoniyada – Milet şəhərində yaranmışdır . İlk yunan fəlsəfi məktəbi Milet məktəbi adlanır . Həmin məktəbin ən böyük nümayəndələri Fales , Anaksimandr , Anaksimen və onların şagirdləri olmuşdur .

,, Antik fəlsəfə “ anlayışı altında Qədim Yunanıstan və Qədim Romada yaranan fəlsəfə nəzərdə tutulur . Yunan fəlsəfəsi yunan mifologiyasının təsiri altında formalaşmışdır . Yunan mifologiyası isə Homerin ,, İliada “ və ,, Odisseya “, Hesiodun epik əsərlərində öz əksini tapmışdır . Əgər Yunan – Roma fəlsəfəsini inkişaf mərhələlərinə bölsək , aşağıdakı mənzərə alına bilər :

I-si , Milet məktəbi və həmin məktəbin fəlsəfi təsəvvürləri çox şeydə Homer və Hesiodun qədim görüşlərinə əsaslanırdı . Həm də Milet məktəbi ilk elmi təfəkkür cəhdi hesab olunur . Bu mərhələyə Heraklit , Eleya məktəbi ( b.e. əvvəl VI - V əsrlər ) də daxil edilir .

II- si , yunan fəlsəfəsinin bu mərhələsi böyük filosofların Sokrat , Platon , Aristotel , tomislər məktəbi ( Levkipp , Demokrit ) , Pifaqor məktəbi , sofistlər ( Protaqor , Qorqiy ) və s. adlarla bağlıdır .

III-sü , ellinizm mərhələsi adlanır . Bu dövr yunan quldarlıq cəmiyyətinin tənəzzülü ilə əlaqədardır . Nəticədə Yunanıstan parçalanır , bir sıra əyalətlər müstəqillik əldə edir . Lakin çox çəkmir ki , Yunanıstan və əyalətləri İsgəndərin imperiyasının tərkibinə daxil edilir . İsgəndərin ölümündən sonra isə cəmiyyətin bütün sahələrində böhran güclənir . Həmin dövrlərdə yəni er. əvvəl IV-III əsrlərdə fəlsəfədə üç böyük cərəyan yaranıb inkişaf etmişdir . Bunlar : skeptisizm , epikurçuluq və stoisizm idi .

Qədim Yunan fəlsəfəsi Yunanıstanın özündə deyil , Kiçik Asiyanın qərb sahillərində İyoniya şəhərində meydana gəlmişdir . Bu şəhərin əsasını yunanlar qoymuşdur . Ticarət yolları üzərində yerləşən bu şəhərlər xeyli inkişaf etmişdir . Onlardan biri də Milet şəhəri idi . İlk fəlsəfi məktəb həmin şəhərdə , yunanların ,,yeddi müdrik” içərisində saydığı ilk filosof Fales tərəfindən yaradılmışdır . Fales Babilistan və Misir dinləri və elmləri ilə tanış idi , Misir kahinlərindən riyaziyyat və astranomiyanı öyrənmişdi . Bu biliklərə əsaslanaraq o , günəşin tutulmasını qabaqcadan xəbər vermişdi . Fales bir sıra teoremlərin müəllifi idi . Ona təqvim məlum idi və günəşin illik hərəkətini göstərə bilirdi . Fales Avropa elminin və

fəlsəfəsinin banisi hesab olunurdu . Fales suyun dünyanın əsasında durduğunu qeyd etməklə kosmoqonik ideyanın yaradıcısı olmuşdur . Bir sözlə , dünyanın başlanğıcı haqqında ilk təlimi Fales yaratmışdır .

Anaksimandr ilk başlanğıcı qeyri müəyyən bir şey hesab etmişdir . Anaksimandra görə , günəşin dairəsi yerdən 28 dəfə , ayın dairəsi isə yerdən 19 dəfə böyükdür . Onun fikrincə , bütün canlılar günəşin buxarlandırdığı rütubətdən yaranır . İnsan heyvandan , meymundan deyil , balıqdan əmələ gəlmişdir .

Anaksimen ilk başlanğıc kimi havanı götürmüşdür . Anaksimenə görə havanı allah deyil , ilahələr yaratmışdır . Onun fikrincə kainat hava və onun formalarından ibarətdir .

Bizim eradan əvvəl 494 – cü ildə Milet şəhərində böyük bir üsyan baş vermişdi . Bu üsyan şəhərin dağılmasına , onun siyasi müstəqilliyinin itirilməsinə , fəlsəfənin inkişafının dayanmasına gətirib çıxardı . Lakin Yunanıstanın digər şəhərlərində Milet məktəbinin ardıcılları fəlsəfəni inkişaf etdirirdilər .

Həmin dövrdə Qədim İtaliyada Eleya şəhərinin adı ilə bağlı olan Eleya məktəbi fəaliyyət göstərirdi . Həmin məktəbin ən böyük nümayəndələri Parmenid , Ksenofan və Zenon olmuşdur .

Parmenid fəlsəfi dünyagörüşünü ,, Təbiət haqqında poema “ sında əks etdirmişdir . Poema ,, Həqiqətin yolu “ və ,, Mülahizənin yolu “ adlı iki hissədən ibarətdir . Onun fikrincə iki fəlsəfə vardır . Biri həqiqətə müvafiqdir , ikincisi isə rəylərə uyğun gəlir . Parmenidə görə , yer kürə şəklindədir . Kainat od və torpaqdan ibarətdir . Birincisi yaradıcı , ikincisi isə cisim və əşyadır . Kainat əbədi və tərpənməzdir . Parmenidin təlimi Eleya məktəbinin əsas məzmununu təşkil etsə də , məktəbin banisi Parmenidin müəllimi Ksenofan olmuşdur . O, tənqidi ağıla malik olmuş və poetik formada əsərlər yazmışdır . Onun fikrincə bütün allahlar insan təxəyyülünün məhsuludur . İnsanlar allahları özlərinə bənzər yaradaraq , özlərinin fiziki cizgilərini və əxlaqi qüsurlarını da onlara aid etmişlər . Ksenofanın fikrincə ,, Hər şey , daha dəqiq desək , kainat vəhdətdir ( vahiddir ) “. ,, Yeganə - Allahdır “. ,,Allah hər şeyi görür , hər şeyi eşidir , lakin nəfəs almır . O, ağıldır , təfəkkürdür , əbədiyyətdir “.

Ksenofana görə , insanlar allahlar tərəfindən yaradılmamışdır , torpaqdan və sudan doğulmuşdur .

Zenon Parmenidin sevimli şagirdi idi və dialektikanın yaradıcılarından biridir . Onun fikrincə kainatda heç bir boşluq yoxdur . Təbiət isti və soyuqdan , quru və yaşdan , onların müxtəlif birləşmə və çevrilmələrindən əmələ gəlmişdir . Aristotel də Zenona yüksək qiymət vermiş və onun paradokslarını xüsusi qeyd etmişdir .

Eleya məktəbi ilə təxminən eyni vaxtda Efesli Heraklit də fəaliyyət göstərmişdir. Dialektikanın banisi olan Heraklit doğma şəhərinin hakimi olmuşdur və hakimiyyətdən imtina edərək qardaşına vermişdir . Aptemida məbədinə çəkilərək ,, Təbiət haqqında" əsər yazmışdır . Heraklitə görə , hər şey oddan əmələ gəlir , mütəmadi olaraq dəyişir , suya , havaya , torpağa dönüb sonra yenidən oda çevrilir . O , tale ilə zərurəti birləşdirirdi . ,, Axan suya iki dəfə girmək olmaz " – kəlamı Heraklitindir .

Pifaqorçular məktəbi Samoslu Pifaqor tərəfindən yaradılmışdır . O , qədim dünyanın demək olar ki , bütün ölkələrində olmuşdur . Məs : Misirdə 22 il , Babilistanda 12 il yaşamışdır . Onun məktəbində poetika , tibb , musiqi , elm (xüsusilə riyaziyyat) bir – birini əvəz etmişdir .

Fəlsəfə sözünü ilk dəfə Pifaqor işlətmiş və özünü də filosof adlandırmışdır. ,,Hər şey harmoniya və rəqəmlərdən ibarətdir " – Pifaqor fəlsəfəsinin ilk başlanğıc prinsipi budur . Pifaqorçuluqda rəqəmlərin mistikası və musiqidə kəmiyyət münasibətlərinin konstruksiyalaşdırılması , astroloji – musiqi quruluşları dəqiq astronomik hesablamalarla özünəməxsus şəkildə uzlaşır .

Pifaqor fəlsəfə tarixində əsasən riyaziyyat və rəqəmlər haqqında yarımelmi və mistik simvollar müəllifi kimi və bəzi etik normaların və ən çox isə metepsixoz nəzəriyyəsinin ( ruhun bir canlıdan digər canlıya keçməsi ) yaradıcısı kimi tanınır .

Antik fəlsəfənin sonrakı mərhələləri 1) ekliktizm ; 2) sofizm üçün zəmin rolunu oynayan qnoseoloji problemlərin meydana gəlməsi , bilik qaydalarını izah edən Sokratın fəlsəfəsi ; 3) atomistlər tərəfindən təqdim edilmiş varlıqla olmuşun sintezi . Atomizm , yaxud mexanisizm müxtəlif formalarda ifadə olunmuşdur . Ya bir neçə keyfiyyətinə görə müxtəlif maddələr dünyanın başlanğıcı götürülür , yaxud da keyfiyyətinə görə vahid (atom) başlanğıc kimi qəbul edilirdi . Hərəkətin mənbəyi də müxtəlif cür başa düşülürdü . Atomizm Empedokl və Anaksaqorun mexanisizmindən inkişaf etmişdir .

Empedokl özündən əvvəlki nəzəriyyələrin sintezini yaratmağa çalışmışdır . O , 4 ünsürü (torpaq , su , hava və odu) dünyanın əsası hesab etmişdir . Hər şeyin dəyişkənliyini , keçiciliyini izah edərək dəyişikliyin - əksliklərin mübarizəsini məhəbbət və düşmənçiliyin münasibəti ilə əlaqələndirmişdir . Onun ,, Təmizlənmə " poemasında ruhun bədəndən bədənə keçməsindən söhbət açılır .

Mexanisizmin 2-ci nümayəndəsi Anaksaqora görə kainat sonsuz dərəcədə kiçik və əbədi hissəciklərdən təşkil olunmuşdur . Anaksaqora görə ağıl (nur) ən incə və yüngül materiya kimi zərrəcikləri birləşdirir , ayırır və hərəkətə gətirir . Anaksaqor Kiçik Asiyanın Lampsak şəhərində fəlsəfi məktəbini yaratmış və Eleya məktəbinin ideyalarını inkişaf etdirmişdir . ,, Təbiət haqqında " əsərində səma hadisələrinin (ayın

tutulması) təbii – elmi izahını vermişdir . Bu isə onu allahsızlıqda təqsirləndirmək üçün kifayət etmişdir .

Antik fəlsəfədə atomizm əsas etibarilə Demokrit tərəfindən təmsil olunmuşdur. Bu böyük , qədim yunan materialisti atomist fəlsəfəni işləyib hazırlamışdır . Demokrit mağların və eləcə də xaldeylərin tələbəsi olmuşdur . Misirdə , İranda , Hindistanda biliyini artırmışdır . Demokrit varlıq , qeyri – varlıq və boşluq anlayışlarını ayırmışdır . Varlıq boşluq vasitəsilə hissəciklərə bölünmüşdür . Onlar bütövlük , çəki və s. ilə fərqlənir . Dünya atomlar və onların hərəkətindən ibarətdir . Hərəkət atomların təbiətidir .

Fəlsəfi istiqamətlərlə bərabər sofistlər məktəbinə mənsub olan skeptik istiqamətlər də yaranıb inkişaf etmişdir . Sofist qədim yunanlarda ,, müdrik “ sözünü ifadə edirdi . Yüksək intellektual səviyyəli adamları o zaman belə adlandırırdılar . İlk sofistlər özlərini nəinki müdriklik müəllimləri , həmçinin xeyirxah adamlar kimi təqdim edirdilər . Sofistlər pul almaqla o zamankı elmi tədris edirdilər . Sofistlər ritorikaya – natiqlik məharətinə üstünlük verirdilər. ,,Sofist” sözü ,,natiqlik” məharəti öyrədən müəllimi ifadə edirdi . Sofistlər Qədim Yunanıstanda uzun müddət mövcud olmuşlar .

Prataqor insan probleminin qnoseologiyasını dərindən işləyib araşdıran ilk yunan filosofudur . Onun fikrincə faydalı olan bir şey ancaq həqiqətdir . ,,İnsan hər şeyin ölçüsüdür” – onun fikridir . Fəlsəfənin inkişafında sofistlər mühüm rol oynamışlar . Onlar biliyə marağı artırmışlar . Nəticədə fəlsəfədə yeni dövr başlanmışdır . Bu dövrdə fəlsəfə biliyə əsaslanır . Bu dövr Sokratla başlayır , Aristotelle qurtarır .

Sokrat özünü müdrik yox , „müdrikliyə məhəbbət bəsləyən” , onu sevən adlandırmışdır . Sokrata qədərki dövr naturfəlsəfə dövrü adlanır . Deməli , Sokrat antik fəlsəfənin ikinci dövrünün banisi hesab olunur .

Sokrat insan , onun təhsili və tərbiyəsi məsələsini fəlsəfəyə gətirən ilk filosofdur . O , dialektik metodun banisidir . Əsasən etik xüsusiyyət daşıyan dünyagörüşündə Sokrat insanda 4 keyfiyyəti yüksək qiymətləndirirdi . Bunlar : müdriklik , cəsurluq , xeyirxahlıq və ədalətlilikdir . Böyük filosof biliklə xeyirxahlığı eyniləşdirirdi . Sokrat çoxlu şagirdlər yetirmişdir . Onlardan Antisfen , Aristipp , Evklid , Ksenofon , Alkiviad və Platon məhşurları idi . Sokrat qoca yaşlarında dinsizlik və əxlaqsızlıqda təqsirlədirilib ölümə məhkum olunmuşdur . Zəhər içib intihar etmişdir. Ölümündən sonra onu məhkəmə edənlərin hamısı cəzalandırılmışdır .

Sokratın fəaliyyəti nəticəsində Qədim Yunanıstanda etik məktəblər yaranıb inkişaf etməyə başladı . Bunlar gedonik və sinik etik məktəbləri idi . Gedonik Sokratın şagirdi Aristipp tərəfindən əsası qoyulan məktəbdir . Aristipp həzzi həyatın yeganə

mənası hesab edirdi . Gedonik məktəb təxminən yüz il mövcud olmuşdur . Sonra Epikurçular məktəbi ilə birləşmişdir .

Epikurçuluq məktəbinin əsası isə bizim eradan əvvəl 305 – ci ildə Afinada Epikur tərəfindən qoyulmuşdur . Sokratın ardıcıllarının ikinci məktəbi Sinik ( yaxud Kinik ) etik məktəbidir . Bu Antisfen tərəfindən Afinada yaradılmışdır . Siniklər xeyiri hər şeydən əvvəl , maddi rifahdan tam şəkildə asılı olmamaq kimi , öz tələbatını məhdudlaşdırmaq qabiliyyəti kimi başa düşürdülər . Siniklər nimdaş paltar ilə kifayətlənir , yataq üçün quru yerden istifadə edirdilər . Onlar abırsızlığı nimdaş paltarda gəzməkdə yox , hər hansı asılılıqda görürdülər .

Siniklər ( Kiniklər ) məktəbi Sokratın ölümündən sonra 150 il mövcud olmuşdur. Siniklərdən biri də sinoplu Diogen olmuşdur . Diogen yoxsul həyat tərzi keçirmişdir . Bir dəfə Diogen dəniz quldurları tərəfindən tutulub bazarda satılır . Bir varlı ona yaxınlaşaraq soruşur ki , ,, nəyi bacarırsan ? ” . ,,Adamları idarə etməyi” – deyə Diogen cavab verir . Varlı onu alır və uşaqlarının tərbiyəsini Diogenə tapşırır .

Yunan fəlsəfəsinin yüksək inkişaf mərhələsi bizim eradan əvvəl IV əsr hesab olunur .

Platon Sokratın ən güclü tələbələrindən biri olmuşdur .  Platonu Avropa fəlsəfəsinin banisi hesab edirdilər . Afinada fəlsəfə müəllimi kimi məhşur olan Platon tədrisdən yığılan pullara torpaq sahəsi almış , orada özünün məktəbini təsis etmişdir . Fəlsəfədən başqa məktəbdə riyaziyyat da tədris edilirdi . Aristotel burada natiqlik sənətindən dərs deyirdi .

Platon öz fəlsəfəsini 3 hissəyə : dialektika , fizika və etikaya bölmüşdür . Dialektika varlıq haqqında , fizika təbiət haqqında , etika isə mənəviyyət haqqında təlim sayılırdı . Platon fəlsəfəsinin mərkəzində qnoseologiya – idrak nəzəriyyəsi durur. Platona görə , ideyalar həqiqi varlıqdır , ideya – hissi qavranılan predmetlərin mahiyyəti və səbəbidir . Beləliklə , ideya müəyyən predmetlər sinfinin formasıdır və predmetlərin mükəmməlliyidir .

Platonun etika təlimi də maraqlı fikirlərlə zəngindir . Filosofun etikası bizim fəaliyyətimizin ali məqsədi kimi Xeyir anlayışının başa düşülməsinə əsaslanmışdır .

Aristotel belə hesab edirdi ki , varlığın öyrənilməsi yalnız məntiqin sayəsində mümkündür . Aristotelin mühüm təlimlərindən biri də insan ruhu haqqındadır . İnsanın digər canlılardan başlıca üstünlüyü onun ağılıdır . Əql ümumini fikirləşmək qabiliyyətidir . Nitqin olması insanı heyvandan fərqləndirir . İnsanın elmi vardır , ümumi başlanğıclar haqqında biliyi vardır . Heyvan isə bundan məhrumdur . Əql insanın əməllərini şərtləndirir , onun iradəsini formalaşdırır . İradə cəhddən yaranır və insanı əxlaqi (mənəvi) seçməyə hazırlayır . Aristotel əqlə xüsusi məna verirdi .

Aristotelin əsas əsərləri : ,,Fizika “, ,,Metafizika” , ,,Ruh haqqında” , ,,Politika”, ,,Poetika” və s.- dir . Aristotel Makedoniyalı İsgəndərin müəllimi olmuşdur . O, Afinada ,, Likey ” adlı məktəb yaratmışdır . Bu məktəb bizim eranın IV əsrinə kimi fəaliyyət göstərmişdir .

Ellinizm fəlsəfəsinin əsas cərəyanları skeptisizm , stoisizm və epikurçuluq idi . Skeptisizm b. e. əvvəl IV əsrdə meydana gəlmişdi . Skeptikos – yunanca nəzərdən keçirən , tənqid edən deməkdir . Skeptikin fikrincə , cisim və hadisələrin mahiyyətləri yox , yalnız zahiri görünüşün dərk olunması kifayətdir . Skeptisizmə görə , həqiqətin meyarı yoxdur .

Ellinizm dövrünün ən sanballı fəlsəfi sistemlərindən biri də stoisizmdir . Onların həyat idealı sakitlik , daxili və xarici qıcıqlandırıcı amillərə reaksiya verməmək qabiliyyətidir . Stoiklər fəlsəfəsinin banisi Kitionlu Zenon olmuşdur . Stoiklərə görə insanın vəzifəsi təkcə müdrik olub , həzz almağı bacarmaq deyildir . Xeyirxah fəaliyyət göstərməkdir . Xeyirxahlığı dərk edib həyata keçirmək insanın kainat və bəşəriyyət qarşısında vəzifəsini yerinə yetirməsinin göstəricisidir . Stoiklərə görə həqiqətin əsas meyarı hissi qavrayışdır .

Qədim Romada populyar stoik Seneka , onun tələbəsi Epiktet və Mark Avreli olmuşdur . Panteizmə yaxın baxışları olan Seneka insanı maddi – fiziki aləmdən uzaqlaşıb mənəvi , ruhi aləmdə yaşamağa , hər cür həvəs və ehtiraslardan azad olmağa , sərvətdən qaçmağa çağırmışdır . İkinci böyük filosof Epiktet xoşbəxtliyi təbiətə itaət etməkdə görmüşdür . Onun fikrincə insan kainatın bir parçası olduğundan taleyi və qisməti ilə razılaşmalıdır . Stoiklərin nümayəndələrindən biri də Mark Avreli Roma imperatoru olmuşdur . Yunan dilində ,, Öz – özümlə söhbət “ əsərini yazmışdır . Təbiətlə həmahəng yaşamağı , taleyin hökmü ilə razılaşıb , səbirli və dözümlü olmağı öyrətmişdir . Həyat əbədi və daim təkrar olunandır .

Roma fəlsəfəsinin ən böyük nümayəndələrindən biri Tit Lukretsi Kar idi . Məhşur filosofun əsərlərində mədəniyyət , psixologiya , dünyagörüşü , etik problemlərin şərhinə geniş yer verilmişdir . Onun fikrincə , insan öldükdə onun ruhu da ölür . Dini insandakı qorxu hissi yaratmışdır . O, epikurçuluğu inkişaf etdirmişdir . Tit Lukretsi Kar məhşur fəlsəfi əsəri olan ,, Təbiət “ poemasında materialist mövqedən çıxış etmişdir .

Epikurçuluğun əsası məhşur yunan materialisti Epikur tərəfindən qoyulmuşdur . Epikur Afinada ,, Epikur bağı “ adlı məktəb yaratmışdır . Onun təlimində başlıca yer xoşbəxtliyə aparan davranış etikasıdır . Epikurun naturfəlsəfəsi qədim Yunanıstanın atomist fəlsəfəsinin inkişafının ən yüksək fəlsəfəsidir . Böyük yunan aliminin fikrincə , məkan , zaman və hərəkət obyektiv , əbədi və sonsuzdur . Bütün boşluqlarda atomlar

mövcuddur . Atomların öz hərəkəti ideyasına əsaslanan Epikur onu insan azadlığının zəruri şərti kimi şərh etmişdir .

Epikurun adamların tələbatı və arzuları haqqındakı fikirləri də maraqlıdır . Üç arzu növü var : 1) təbii və ya həyat üçün zəruri olanlar ; 2) təbii , lakin həyat üçün zəruri olmayanlar ; 3) həyat üçün zəruri və təbii olmayanlar .

Müdrik adam yalnız birinciyə meyl edir və qalanlara nəzər salmır .

Ümumiyyətlə Epikurun təlimi qədim yunan fəlsəfəsinin sonuncu və böyük materialist məktəbi olmuşdur .

Bizim eranın əvvəllərində dinə meyl gücləndiyindən dini təlim və kultlar geniş yayılmağa başladı . Zamanın tələblərinə cavab verən fəlsəfə dini fəlsəfəyə çevrildi . Qədim yunan fəlsəfəsi elə mühüm problemləri ortaya atdı ki , onun həlli ilə bəşəriyyətin sonrakı fikir tarixi məşğul olmağa başladı . Gənc yunan filosofu , qadın olmasına baxmayaraq , əzmkar , öz ideyasını sona qədər müdafiə etməyi bacaran İpatiyanın antik fəlsəfə haqqında mühazirələri olduqca məhşur idi . O , yunan mütəfəkkirlərinin təlimlərini yaxşı bildiyindən onları xristian ruhanilərinin mülahizələrinə qarşı qoyurdu . Böyük şöhrət qazanmış İpatiya haqqında ruhanilik bütpərəst kimi ağlagəlməz şeylər uydururdular . Nəticədə onu daşa basaraq öldürüb , bədənini isə tonqalda yandırdılar . Bu hadisə bizim eranın 415 – ci ilində İsgəndəriyyədə baş vermişdi .

# IV Mövzu

## Orta əsrlər Azərbaycan fəlsəfəsi

## Orta əsrlər müsəlman Şərq fəlsəfəsi

XI – XII əsrlər Azərbaycan ədəbiyyatı və incəsənəti üçün uğurlu dövrdür : şifahi və yazılı ədəbiyyatda , incəsənətdə , xüsusən poeziyada parlaq nümunələr qazanılmışdı . XI –XII əsrlərdə Azərbaycanda görkəmli şairlər yaşayıb – yaratmışlar . Onlardan Əbülhəsən Miyanəci , Ömər Gəncəvi , Məhsəti Gəncəvi , Əfzələddin Xaqani , Nizami Gəncəvi , Sührəvərdi və başqalarını qeyd etmək olar .

Orta əsrlərdə Azərbaycanda işraqilik fəlsəfəsinin yaradıcısı Şihabəddin Yəhya Sührəvərdi peripatetizmin ən görkəmli nümayəndəsi olmuşdur .Onun ,, Filosofların görüşləri “ , ,, Baxışlar “ , ,,Müqavimətlər” , ,, İşıq heykəlləri ” , ,, İşraq hikməti “ və s. əsərləri geniş yayılmışdır . O , fəlsəfi kateqoriyaların yeni təsnifatını işləyib hazırlamışdır . Filosof mühüm fəlsəfi məsələlərə - varlıq və onun növləri , materiya və forma , cisim və onun hərəkəti , səbəb və nəticə və s.- yə öz münasibətini bildirmişdir .

Sührəvərdi göstərirdi ki , ilk materiya elə bir substansiyadır ki , o , gah od formasına , gah da hava formasına , gah su , gah da torpaq formasına girir . Materiyanın təzahürləri , o cümlədən cisim , say , fiqurlar , rəng , isti , soyuq və s. ilə fərqlənir . Sührəvərdinin maraqlı ictimai – siyasi fikirləri də olmuşdur .

Orta əsrlərdə Azərbaycan filosofları içərisində Siracəddin Urməvi özünəməxsus fikirləri ilə seçilir . Onun məntiqə , fəlsəfəyə və s. dair əsərləri məhşurdur . Məntiqə və fəlsəfəyə dair ,, Nurların doğuşları ” , ,, Hikmət incəlikləri ” , ,, Haqqın bəyanı ” , ,, Metodlar ” , ,, Təhsil ” , ,, Suallar ” və s. əsərlər bu qəbildəndir .

Urməvi mövcudatda səbəbiyyətin obyektivliyini qəbul edir . Mövcud olan hər şey bir səbəbin nəticəsidir . Həmin səbəb də digər bir səbəblə nəticələnirdi . Bu , sonsuz davam edir . Filosofa görə , hərəkət on kateqoriyadan dördünə - kəmiyyət , keyfiyyət , məkan və vəziyyətə görə baş verir . Astronomiya sahəsində maraqlı fikirlər söyləyən Urməvi dövrünün elmi nailiyyətlərinə yiyələndiyini sübut etmişdir . Onun insan orqanizmi haqqında da maraqlı fikirləri diqqəti cəlb edir . İdrak nəzəriyyəsi , məntiq , etika və sosial – siyasi görüşləri də öz dövrünə görə mütərəqqi əhəmiyyət daşımışdır .

Orta əsrlərdə Azərbaycanın ən görkəmli alim və mütəfəkkirlərindən biri də Nəsirəddin Tusi hesab olunur . Böyük ensiklopedik biliyə malik olan N . Tusi ,, Əxlaqi – nasiri “ , ,, Elxani astronomik cədvəl “ , ,, Cəbr və müqabil “ , ,, Mövcudatın bölgüsü və onun cisimləri “ və s. əsərlərin müəllifidir . O , Marağa rəsədxanasını yaradaraq dövrünün ən görkəmli adamlarını ətrafına toplamışdır .

Varlıq təlimi , idrak nəzəriyyəsi və məntiq Tusinin fəlsəfi sistemində bir – biri ilə üzvi surətdə bağlıdır . Filosofun fikrincə cisimlər materiya və formadan təşəkkül tapmışdır . Od , hava , su , torpaq bəsit , onlardan əmələ gəlmiş minerallar , bitkilər və heyvanlar mürəkkəb cisimlərdir .

Maddı aləmin məhvolmazlığı , əzəlılıyı , əbədiliyi ideyası Tusini düşündürmüşdür. Onun varlıq təlimində təbiətşünaslıq məsələlərinin şərhi mühüm yer tutmuşdur . Tusinin təlimində duyğular və əqlin rolu eyni dərəcədə mühüm sayılmışdır . Əməli fəlsəfənin qayəsinə , əxlaq , etik və ictimai- siyasi məsələlərə də diqqət yetirmişdir . O, əxlaq elmi haqqında yazırdı : „ Bu elm insani nəfsin elə xüsusiyyətlər qazana biləcəyindən danışır ki , onun idarəsi ilə edilən bütün davranış və rəftar gözəl , tərifəlayiq olsun “ . Mütəfəkkirə görə , etikanın mövzusu nəfsdir . İnsani nəfs , yaxud düşüncəli nəfs idrak vasitəsidir , „ ağlın dərk etdiyi nə varsa , hamısı onun sayəsində olur “.

Nəsirəddin Tusi dövlət , siyasət , insanlar arasındakı münasibətlər haqqında da maraqlı fikirlər söyləmişdir .

Orta əsrlərin , eləcə də bütün dövrlərin dünya mədəniyyəti tarixində mühüm yer tutan böyük dühalardan biri – Azərbaycan xalqının şairi və filosofu Nizami Gəncəvidir. Bu böyük şair „ Avesta “ , antik fəlsəfəni , eləcə də zəmanəsinin bütün elmlərini dərindən mənimsəmiş , əsasən məsnəvi formasında yazdığı „ Xəmsə “ adlı əsərləri ilə məhşurlaşmışdır . O, əbədi dəyərləri - ədaləti , xeyirxahlığı , mərhəməti , zəhməti , sevgini tərənnüm etmişdir . Həm sevgi , həm də qəhrəmanlıq dastanlarında Nizami özünün fəlsəfi fikirlərini göstərə bilmişdir . Dünyanın , insanın mənşəyi , kainatın quruluşu və s . haqqındakı Nizaminin fikirləri indi də əhəmiyyətini saxlamaqdadır . Özü xeyirxahlıq mücəssiməsi olan Nizami bəzən tarixdə işğalçı , riyakar , zalım və hiyləgər kimi tanıdığımız hökmdarları belə az qala ideal şah kimi təsvir edir . Bir sözlə tarixi obrazlara öz dünyasının gözü ilə baxan şair „İsgəndərnamə” əsərində də bu prinsipə sadiq qalmışdır . Onun qəhrəmanları tərbiyə olunur , səhvlərini başa düşür və insanlara xidmət etməyə cəhd edirlər .

Dünya , kainat , ulduzlar və s. haqqında Nizami Gəncəvi maraqlı fikirlər söyləmişdir . O , materiya , forma , dörd ünsür ( od , su , hava , torpaq ) , maddi materiyanın itməməsi haqqında fikirlərin müəllifidir .

Orta əsrlərdə Azərbaycanda peripatetizmlə yanaşı , bir sıra hallarda müsəlman dini cərəyanlara müxalifətdə olan cərəyanlar da yaranıb inkişaf etmişdir . Allahın təbiətdə zühuru kimi anlaşılan , daha dəqiq desək , allahla təbiəti , eləcə də insanı qovuşdurmaq , eyniləşdirmək , bütün cisimləri ilahiləşdirmək meyllərinin üstün olduğu panteizm həmin cərəyanlardandır . Doğrudur , ölkəmizdə bu cərəyan müstəqil cərəyan olmasa da , sufilik və hürufilik adları altında insanın gerçəkliyə obyektiv –

real münasibətinin formalaşmasına mühüm təsir göstərmişdir . Dünyanı allahla eyniləşdirən panteizm anlayışı XVIII əsrdə yaranmışdır . Ancaq həmin ideyalar Qərb və Şərq fəlsəfəsində ən qədim dövrlərdə yaranıb inkişaf etmişdir . Dünya dinləri yarandıqdan sonra panteizm daha mükəmməl təlim kimi təqdim olunmağa başlamışdır. Panteizm allahın təbiətlə yaxınlaşdırılması , qovuşdurulması və nəhayət , eyniləşdirilməsi , Allahla təbiətin və insanın vahidliyi haqqında dini – fəlsəfi təlimdir . Çox vaxt dini – mistik səciyyəli panteistlər allahı mənəvi tamlıq , ilkin ruhi varlıq kimi qəbul edir . Şəxsi allah ideyasını kənara atırdılar . Orta əsrlərin tanınmış Azərbaycan filosoflarının əsərlərində panteizm ideyaları mühüm yer tutmuşdur . Qeyd etmək lazımdır ki , orta əsrlərdə islam zəminində yaranıb inkişaf edən , bəzən isə ona müxalif olan cərəyanlardan biri də sufilik olmuşdur . Bəzi mənbələrdə sufi sözü yunanca sofios - „ müdrik ” sözünün təhrif edilmiş şəkli kimi başa düşülmüşdür . Sufiliyin dünyagörüşü ya monoteist , ya da bu və ya digər dərəcədə panteist məzmun daşıdığını nəzərə alsaq , islamda „ Allahdan başqa ilahi yoxdur “ ( „ La ilahə illəllah“ ) hökmü ilə Allahın birliyi iqrar edilir .

Onların „ Mən haqqam “, „ Sufi allahdır “ hökmləri dindarların qəzəbinə səbəb olmuşdur . Sufiliyin əsasını qoyanlar həqiqətə 4 mərhələdə çatmağı müəyyənləşdirmişlər.

Birinci mərhələ şəriət mərhələsidir . Bütün müsəlmanlar dini qanunları , qaydaları , hüquqları mənimsəməlidir .

İkinci mərhələ təriqət mərhələsidir . Bu mərhələ insanın öz iradəsini allaha tabe etmək , müdriklik mərhələsidir .

Üçüncü mərhələ mərifət mərhələsidir . Mərifət mərhələsində sufi ağlı , idrakı ilə deyil , könlü , qəlbi ilə varlığın allahla vəhdətini , xeyir və şərin nisbətini dərk edir .

Dördüncü mərhələ həqiqət mərhələsidir . Burada artıq sufi ilahi həqiqətə yetişir, qəlbi işıqlanır .

Orta əsrlərdə Azərbaycanda ən geniş yayılmış təriqətlərdən biri də hürufizm olmuşdur . Hürufilik ərəbcə hüruf sözündən əmələ gəlmiş , mənası hərflər deməkdir . Hürufizmin əsası Fəzlullah Nəimi tərəfindən qoyulmuşdur . Əsas ideya Allaha məxsus keyfiyyətlərin təcəssümü , insanın allahlaşdırılması , kainatın əbədiliyinin qəbul edilməsidir . Hürufilik Teymurləng tərəfindən ciddi təqib edilmişdir . Nəticədə Nəimi həbs edilərək , sonralar edam edilmişdir . Fəzlullah Nəimi həbsxanada məhşur „ Cavidannamə “ əsərini yazmışdır .

Hürufizmin tərəfdarları müsəlmançılığın müqəddəs kitabı „ Quran “ ın bütün şeylərin məcmusu olduğunu göstərirdilər . „ Allah mənəm “ , „ Allah mənim özümdədir “ fikri ilə hürufilər allahın tam inkarını deyil , onun insanda öz əksini tapmasını bildirirdilər .

Orta əsrlərdə Azərbaycanda sufi – panteist və hürufilik təlımlərinin əsas nümayəndələri Mahmud Şəbüstəri , Fəzlullah Nəimi və İmaməddin Nəsimi olmuşdur .

Mahmud Şəbüstəri sufi – panteizm və mütəfəkkiri olmuşdur . Şair , alim Şəbüstəri orta əsr Azərbaycan fəlsəfi fikrində mühüm rol oynamışdır . Cəmi 33 il yaşayan M . Şəbüstəri ,, Şahidnamə “ , ,, Aləmlərin dərkində yəqin həqiqətlər “, ,,Həqiqət axtaranların güzgüsü “ , ,, Sirr gülşəni “ , ,, Səadətnamə “ və s . əsərlərini yazmışdır . M . Şəbüstərinin yaradıcılığı və elmi fəaliyyəti monqol əsarəti dövrünə təsadüf etmişdir . Bu dövrdə islam dini ideologiyasının mövqeləri daha da möhkəmlənirdi . Nəticədə ilahiyyat inkişaf edirdi . Şəbüstəri olduqca məhşur şair və filosof olmuşdur . XVII əsrdən başlayaraq onun ,, Sirr gülşəni “ əsəri dünyanın bir sıra dillərinə tərcümə olunmuşdur . M . Şəbüstərinin fikrincə , insan təkcə allah ilə deyil , bütün aləm və onun müxtəlif təzahürləri ilə eynidir , vəhdətdədir . Filosof panteizmi inkişaf etdirmiş , allah , insan və təbiəti eyni təzahürlər saymışdır . M . Şəbüstəri qədim yunan fəlsəfəsi ilə dərindən tanış olmuşdur . Əslində antik fəlsəfə Şərq fəlsəfəsi ilə birlikdə onun yaradıcılığının ideya mənbəyi olmuşdur . M . Şəbüstəri Azərbaycan ictimai fikrində olduqca əhəmiyyətli mövqeyə malik olmuşdur .

Azərbaycan ictimai fikrində İmaməddin Nəsiminin də böyük rolu olmuşdur . İ . Nəsiminin şerlərinə materiya , forma , səbəb , nəticə ,vacib , mümkün və başqa kateqoriyalar peripatetizm fəlsəfəsindən keçmişdir . Hürufi – panteist dünyağörüşlü Nəsimi allahı , təbiəti və insanı eyniləşdirmişdir . ,,Ən -əl həqqəm “( ,, Mənəm allah “) hökmü ilə çıxış etmək orta əsrlərdə çox böyük cəsarət tələb edirdi . Hürufilər Teymurlənğ tərəfindən təqib olunduğuna görə Nəsimi vətəndən didərgin düşmüşdür . O , hürufilik təlimi əsasında irəli sürdüyü panteist ideyalarına görə Hələb şəhərində edam edilmişdir .

Orta əsrlərdə Şərq ölkələrində müsəlman fəlsəfəsi geniş inkişaf etmişdir . VIII əsrdən başlayaraq Yaxın və Orta Şərq ölkələrində tərcüməçilik hərəkatı güclənməyə başladı . Nəticədə müsəlman dünyası antik fəlsəfə və mədəniyyətlə yaxından tanış oldu . Yaxın və Orta Şərq , Orta Asiya və Azərbaycan alimləri Aristotel , Platon və başqa alimlərlə tanış olaraq yeni – yeni əsərlər yaratdılar .

Ərəbdilli müsəlman filosoflarının təlımlərinin əsasında dünyanın əbədiliyi prinsipi , heç nədən yaranmanın qeyri – mümkünlüyü ideyası dururdu . Bu prinsip ilk dəfə ərəbdilli müsəlman regionunda ,, Şərqin Aristoteli “ Əl – Fərabi tərəfindən inkişaf etdirilmişdir . Əl – Fərabiyə görə Allah – zəruri mahiyyətdir .

Orta əsr ərəbdilli filosof İbn Ruşdun fikrincə , materiya əbədidir və deməli əbədi olan hər şey heç vaxt yaradıla bilməz . Dini ehkamları qara camaat üçün zəruri hesab edən İbn Ruşd kainatın milyonlarla intellektdən əmələ gələn vahid ruh tərəfindən idarə olunduğunu iddia etmişdir . Onun ,, İkili həqiqət haqqında “ məhşur əsəri orta əsr Avropasında geniş şöhrət qazanmışdır .

Orta əsrlərin ən böyuk filosof və alimlərindən biri Əbu Reyhan Biruni olmuşdur. Ensiklopedik mütəfəkkir öz dövrünün bütün elmləri sahəsində kəşflər etmişdir . 150 – yə qədər əsərin müəllifi idi . Astranomiya , geodeziya , riyaziyyat , coğrafiya , minerologiya , fizika , farmakologiya , fəlsəfə , tarix , etnoqrafiya ,

ədəbiyyatşünaslıq və s . aid əsərləri uzun illər alimlərin stolüstü kitabları olmuşdur . Onun „ Hindistan tarixi “ , „Qədim xalqlarin xronologiyası‘‘ , „ Ötən nəsillərin yadigarları‘‘ əsərləri indi də əhəmiyyətini saxlamaqdadır. Biruni varlığın əsasında materiyanın durduğunu və onun müxtəlif formalarda kainatın hər yerində təzahür etdiyini göstərmişdir. O, allahın varlığını qəbul etsə də, hər yerdə materialist kimi çıxış etmişdir.

Orta əsr Şərq fəlsəfəsinin görkəmli nümayəndələrindən biri İbn Sina idi . İbn Sina yaradıcılığı fəlsəfə ilə yanaşı riyaziyyat , astronomiya , botanika , geologiya , təbabət və s. sahələri əhatə edirdi. O, 450-yə qədər əsər yazmışdır. İbn Sina dünyanın zamanda yaranışını inkar edir. Onun fikrincə kainatın hökmdarı zərurətdir və bu zərurətin maddi ifadəsi olan varlıq və kainat əbədidir, dəyişməzdir. İdrak və ağıl isə təbiətin tacıdır. Ərəbdilli müsəlman filosofları İbn Sinanı ateizimdə, dinlə fəlsəfəni qarışdırmaqda tənqid edirdilər. İbn Sina böyük alim olmuşdur. Onun tibbə dair ,,Qanun kitabı‘‘ yüz illərlə dünya alimlərinin stolüstü kitabı olmuşdur.

Orta əsr müsəlman filosofları içərisində özünəməxsus yer tutan teoloq və filosoflardan biri də Əl-Qəzali olmuşdur. Əslən iranlı olan Əl-Qəzali əsasən ərəbcə yazmışdır. Bağdadda müsəlman hüququ müəllimi olmuşdur. Onun fikrincə, allahın rasional dərki qeyri-mümkündür (allah ali həqiqətdir). Lakin Qəzali ətraf mühitin qanunauyğunluqları haqqında bilik verən rasional elmləri inkar etmirdi. Qəzaliyə görə, allahın dərki yalnız estetik həyəcanlar vasitəsilə mümkündür. O, maddi aləmin əbədiliyi və qanunauyğun inkişafı ideyasına qarşı çıxmışdır. Dünya allahın iradəsi sayəsində mövcud olub, zaman və məkanda mövcuddur.

Qəzalinin ideyaları orta əsr müsəlman fəlsəfəsinin , eləcə də yəhudi fəlsəfəsinin inkişafına böyük təsir göstərmişdir. O, ,, Filosofların məqsədləri ‘‘ , ,, Filosofların təkzibi ‘‘ , ,, Dini elimlərin dirçəlməsi‘‘ və. s. əsərlərin müəllifi kimi məhşur olmuşdur.

Orta əsr ərəbdilli müsəlman filosofları içərisində İbn Xaldun mühüm yer tutur . Fəlsəfədə o , İbn Ruşdun davamçısı və şərhçisi olmuşdur . Həqiqətin rasional və obyektiv xarakterini müdafiə etmişdir . Onun sosial fəlsəfəsi xüsusilə siyasi həyatın və dövlətin əmələ gəlməsi və inkişafı nəzəriyyəsidir . Böyük alimin fikrincə , insanlar əvvəlcə vəhşi həyat tərzi keçirir , tədricən təbiətdən ayrılaraq sosial kollektiv şəklində yaşayırlar . Dövr keçdikcə əkinçilik və maldarlıqla , sonra isə sənətkarlıq , ticarətlə məşğul olur , elm və incəsənəti yaradırlar . İstehsal məhsulu artdıqca maddi həyat zənginləşir , sivilizasiya formalaşır . Bəzi xalqlarda vəhşilikdən sivilizasiyaya keçid istilaçılıq yolu ilə baş verir . Alim cəmiyyətin primitiv səviyyədən mədəniyyətə keçidini bərabərliyin qeyri – bərabərliyə keçməsi ilə əlaqələndirir . O, dövlətin əmələ gəlməsi və inkişaf mərhələləri haqqında maraqlı fikirlər söyləyir . İbn Xaldun fəlsəfi fikir tarixində ilk dəfə olaraq dövlətlə onun iqtisadiyyatı arasında əlaqənin elmi şərhini verə bilmişdir .Ümumiyyətlə , orta əsrlərin Yaxın və Orta Şərq filosoflarının yaradıcılığı təkcə müsəlman dünyasının deyil , eyni zamanda xristian Qərbinin mənəvi mədəniyyətinin inkişafına böyük təsir göstərmişdir .

Ərəbdilli müsəlman fəlsəfəsinin inkişafında Azərbaycan alimləri də yaxından iştirak etmişdir .Onların içərisində Əbülhəsən Bəhmənyar özünəməxsus yer tutur . Məhşur İbn Sinanın şagirdi olan Bəhmənyar Aristotelin şərhçiləri içərisində ən

güclüsüdür . Şərq peripatetizminin ən böyük nümayəndəsi olan Bəhmənyar ,, Təhsil “ , ,,Gözəllik “ , ,, Səadət “ , ,, Musiqi kitabı “ , ,, Metafizikanın mövzusu “ , ,, Mövcudatın mərtəbələri “ və s . əsərlərini yazmışdır .

Bəhmənyara görə , hər şeyin səbəbi və nəticəsi var , bədən əqlin sayəsində mövcud olur . Mövcudat zəruri və mümkün olandır . Hərəkət zamana görə deyil , zaman hərəkətə görə müəyyən olunur . Bəhmənyarın varlıq təlimi hərtərəfli işlənmiş təlimdir . Onun məntiqə dair yazdığı əsərləri indi də əhəmiyyətini saxlamaqdadır . O , idrakı – hissi və məntiqi olaraq iki hissəyə bölmüşdür . İdrakın mənbəyi də ikidir : hissi təcrübə və əqli təfəkkür . Bəhmənyar materiya , forma , cisim , zaman , hərəkət və s . kimi fəlsəfi kateqoriyaları qarşılıqlı əlaqədə götürüb tədqiq etmişdir .

Peripatetik filosof Aristotel və İbn Sinanın mövqelərindən çıxış edən Bəhmənyar hərəkəti potensialdan aktuala keçid kimi səciyyələndirmişdir . Filosofa görə cisim , onun hərəkəti və zaman bir – birindən ayrılmazdır . Biri digərini şərtləndirir .

Orta əsr Azərbaycan və müsəlman Şərqində məhşur filosoflardan biri Eynəlqüzat Abdulla Miyanəçidir . 28 – 29 yaşlarında azad fikirlilik üstündə müsəlman qanunçuları tərəfindən təqib edilmişdir . Onu kafir elan edərək , ölümünə fitva verirlər. Nə tanınmış ailədən çıxması , nə də Həmədanın baş qazısı vəzifəsini tutması onu ittihamdan xilas edə bilməmişdir . Eynəlqüzat Miyanəçi Bağdad zindanında olarkən ,, Ölkələrin alimlərinə vətəndən ayrı salınmış qəribin şikayəti “ əsərini yazmışdır . 33 yaşında Həmədan şəhərində dərs dediyi mədrəsədə edam edilmişdir . Filosof yazdığı ,, Həqiqətlərin məğzi “ , ,, Müqəddimələr “ , ,, Qəribin şikayəti “ kitablarında sufizmin müxtəlif aspektlərini işıqlandırmış , ona bitkin fəlsəfi məzmun vermişdir . Miyanəçiyə görə , allah çoxsaylı atributlara malik olan substansiyadır .

Həm varlıq , həm də idrak təlimində maraqlı fikirlər söyləyən Eynəlqüzat Miyanəçi Yaxın və Orta Şərq ölkələrində azadfikirlilik və panteizmin yayılmasına böyük təsir göstərmişdir .

## Saflıq qardaşları .

IX əsrin ikinci yarısında Bəsrə şəhərində ,, Saflıq qardaşları “ adlı dini – fəlsəfi cəmiyyət yaranmışdır . Bu cəmiyyət 890 –cı ildə din və müxtəlif bilik sahələrinə həsr edilmiş 52 traktat çap olunandan sonra çox məhşurlaşmışdı . Bu təlım sinkretik ( yunanca qovuşma deməkdir.) xarakter daşıyırdı . Məntiq və fizikada ,, Saflıq qardaşları “ əsasən Aristotelə , təbabət və psixologiyada Qalenə , ümumi fəlsəfi məsələlərdə isə sufizmə əsaslanaraq bu mövqedən çıxış edirdilər . ,, Saflıq qardaşları “ göstərirdilər ki , idrakın üç mərhələsi var : hissi , rasional və intuitiv idrak .

Bu təlimin tərəfdarları hesab edirdilər ki , din və şəriət öz ilkin təmizliyini itirib . Odur ki , dini çirkabdan təmizləmək lazımdır . Cəmiyyət pis işlərlə dolub , əxlaq pozulub . Yalnız fəlsəfə cəmiyyəti dağılmaqdan xilas edə bilər .

# V Mövzu

## Orta əsrlər fəlsəfəsinin xüsusiyyətləri.

## İntibah dövrü fəlsəfəsi

Orta əsrlər fəlsəfəsi feodalizm dövrünün (V-XV) məhsulu olmuşdur. Orta əsrlər öz tarixini Qərbi Roma imperiyasının süqutundan başladığı halda, bu dövrün fəlsəfi təlimi I-IV əsrdən formalaşmışdır. Bu , özünü stoiklərin , epikurçuların və neoplatonçuların epik konsepsiyalarında göstərirdi.

Çox vaxt orta əsrlər fəlsəfəsini bütövlükdə sxolastika ( yəni formal-məntiqi və dini fəlsəfə tipi) adlandırırdılar. Orta əsrlər də fəlsəfənin əsas cəhətlərini ifadə edən və öz mahiyyətinə görə teosentrik olan sxolastika həmin dövrdə filosofluq etmənin əsas üsulu kimi çıxış etmişdir. Bu fəlsəfə üçün bütün varlığı müəyyən edən reallıq təbiət deyil , allah olmuşdur. Orta əsr sxolastikasının ikinci vacib əlaməti “ məktəblərin ” təsiri ilə müəyyənləşmişdir. “ Məktəbə ” mənsub olmaq , onun ideologiyasına riayət etmək əsas şərt hesab olunur.

Yunan fəlsəfəsi politeizmlə (çoxallahlıqla) əlaqədar idisə , orta əsrlər fəlsəfəsi də monoteizmlə (təkallahlıqla) bağlı idi. Ona ğörə də müxtəlif təlimlərdən ibarət olmasına baxmayaraq , yunan fəlsəfəsi bütövlükdə naturalist xarakter ( hər şeyi, o cümlədən insanı da əhatə edən bütöv olan təbiətdir) daşımışdir. Orta əsr fəlsəfəsinə isə dini xarakter (hər şey-allahdır) xas olmuşdur.

Orta əsrlərin Avropa fəlsəfəsi , hər şeydən əvvəl , iki böyük şəxsiyyətin- Avqustin və Akvinalı Fomanın adı ilə bağlıdır. İlkin xristianlıq fəlsəfəsi tam şəkildə Avqustinin təliminə əsaslanmışdır. Əslində , sonrakı dövrün sxolastikası da Avqustinin ənənələrinə sadiq qalmışdır. Akvinalı Foma isə Avqustinin təlimini Aristotel təlimi ilə sintezləşdirmişdir. Avqustin orta əsrlərin ən görkəmli filosofu , nəzəriyyəçisi və teoloqu olmuşdur. Onun fəlsəfi ideyaları “ Həqiqi din haqqında ”, “ Azad iradə haqqında ”, “ Tövbə ”, “ Allah şəhəri haqqında ” əsərində öz əksini tapmışdır. “ Allah şəhəri haqqında ” əsəri daha mühüm yer tutur. Avqustinin “ Allah haqqında təlimi” sxolastikaya həlledici təsir göstərmişdir. Allah elə varlıqdır, dünya qaydalarını şərtləndirən əbədi və dəyişməz ideyaların mənbəyidir. Allah zərurətə görə deyil , öz iradəsinə görə dünyanı heç nədən yaratmışdır.

“ Allah şəhəri haqqında ” əsərində Avqustin yazırdı ki , dünya zamandan deyil , zamanla birlikdə yaradılmışdır. Beləliklə , fəal yaradıcı başlanğıc təbiətdən , kosmosdan alınaraq allah verilirdi. Avqustinin təlimində antik dializm (əql və materiya) rədd edilir, əvəzində monizm əsas mövqeyə çıxır. Monizm prinsipinə görə , yalnız mütləq başlanğıc - allah vardır , qalanları isə ikincidir , allahın yaratdığıdır. Allah və onun yaratdığı dünya iki reallıqdır.

Avqustin özünün fəlsəfə təlimini teologiya haqqında təlim kimi təqdim etmişdir. O , teologiyanı təbii elm hesab edirdi. Avqustinin fikrincə , allah müdriklik simvoludur. Ona görə də müdrikliyi sevən filosoflar allahı da sevməlidirlər . Avqustin insan ruhunun psixologiyasına xüsusi diqqət ayırmışdır. Onun üçün insan ruhunun incəlikləri allah tərəfindən yaradılan başqa şeylər kimi sirli bir aləmdir. Ruhun günahlardan təmizlənməsi olduqca vacibdir. Bu səbəbdən tövbə böyük əhəmiyyət kəsb edir. Fəlsəfədə tövbə anlayışının başlanğıcına görə Avropa mədəniyyəti Avqustinə minnətdar olmuşdur.

XII əsrdə Qərb sxolastikasının ən böyük nümayəndələrindən biri Pyer Abelyar olmuşdur. Pyer Abelyara görə , yalnız təkcə substansiyalar mövcud ola bilər, onlar öz arasında bir-birinin eynidir. Abelyar əqlə haqq qazandırır, sxolastikada mötədil pealizmin inkişafına şərait yaradırdı. Abeleyar öz məktəbini (Parisdə) təsis edərək orada uğurlu fəaliyyət göstərmişdir. Avropanın müxtəlif yerlərindən onun şagirdləri yanına axışırdı.

Abelyarın əsərləri içərisində yazdığı“Mənim müsübətlərimin tarixi”adlı avtobioqrafik əsəri mühüm əhəmiyyət kəsb edir. O, belə hesab edirdi ki, filosof üçün başlıca cəhət nə avtoritetə, nə adamların rəyinə qulaq asmaq deyil, əqlin prinsipinə riayət etməkdir.

Orta əsrlərin Qərb sxolastikasında ən görkəmli yerlərindən birini Akvinalı Foma tutur. A. Foma orta əsrlərin tanınmış teoloqu və təbiətşünası Böyük Albertin şagirdi olmuşdur. Ölümündən sonra A. Foma Roma katolik kilsəsinin qərarı ilə evliyələr cərgəsinə-müqəddəslər sırasına salınmışdır. Əsas əsəri “Bütpərəslər əleyhinə külliyyat” və “Teoloji külliyyatdır” Bundan əlavə o, həm də Aristotelin və digər filosofların əsərlərinin şərhçisi də olmuşdur. Akvinalı Foma sxolastikanın sistemləşdiricisi, tomizmin banisi hesab olunur. A. Foma Aristotel məntiqinin köməyi ilə xristian teologiyasının başlıça prinsiplərini əsaslandırmışdır. A. Fomaya görə ali başlanğıc allah olan- varlığın özüdür. “Bütpərəslər əleyhinə külliyyat” da o, göstərirdi ki, ali ilahi mütləq sayılan İsus

Xristos bir tərəfdən insan obrazındandır, maddidir, digər tərəfdən Allaha məxsus keyfiyyətlərə malikdir. O, ilahi və insanın vəhdəti simvoludur.

Beləliklə Akvinalı Fomaya görə, ali həqiqət-allahın özüdür, İlahi həqiqətdir. Bilik tam şəkildə insanın əqlinə xasdır, lakin o məhduddur. Ona görədə insan əqlin dərk edə biləcəyi həqiqəti qəbul etməlidir. Etiqadın və əqlin münasibəti belədir ki, burada üstünlük etiqada verilməlidir.

Onun fikrincə , fəlsəfə ilahi həqiqətin dərk edilməsi ilə məşğul olandır, daha dəqiq desək teologiyadır.

"Teologiya külliyyatı" əsərində o, varlığın 5 yolla subutuna göstərirdi. Onun fikrincə, "müqəddəs təlim"- elmidir . Lakin elmin təbiəti ikili xarakter daşıyır. Məsələn hesab, həndəsə və.s. elmlərdə olduğu kimi; onlardan bir hissəsi təbii idrak üsullarla özünü göstərir, digəri isə ali vasitələrlə özünü sübut edir. Bax, müqəddəs təlimlər belə elmdir. Ali vasitə, ali qüdrət və allahın özüdür.

A. Fomanın təliminin dördüncü prinsipi onun sosial problemlərə münasibəti ilə bağlıdır. Lakin onda sosial problemlər də katolik təlimi ruhunda həll edilmişdir. Dövlət hakimiyyəti-allahdandır. İdarəçilik forması şəraitlə əlaqədar dəyişdirilməlidir. Akvinalı Foma üçün ideal dövlət forması monarxiyadır.

Akvinalı Fomanın tomizm adlanan təlimi katolikliyin ideoloji dayağı və nəzəri silahı olmuşdur. Orta əsrlərdə Avropada fəlsəfənin əsas cizgiləri belədir. O , Qərbi Avropada da , Şərqdə də - Bizansda inkişaf etmişdir . Bu fəlsəfədə dünyagörüşü dini etiqada əsaslanmışdır. Həmin fəlsəfədə mərkəzi yeri - allah tutmuşdur.

İntibah dövrünün mühüm cəhəti dünyagörüşünün incəsənətə istiqamət götürməsidir . Əgər orta əsrlər dinin hökmranlığı dövrü idisə , intibah dövrü bədii - estetik dəyərlərin üstünlük təşkil etdiyi dövr idi. Əgər antik dövrün diqqət mərkəzində təbiət , kosmos münasibətləri dururdusa , intibah dövründə mərkəzi yerdə insan dururdu. Ona görə də həmin dövrün fəlsəfi təfəkkürünü antroposentrik adlandırmaq olar. Təbiət isə panteizm ruhunda şərh edilirdi.

İntibah dövründə panteist təfəkkürün ən böyük nümayəndəsi Nikolay Kuzanski (1400-1464 ) və Cordano Bruno (1548-1600) və başqalarını qeyd etmək olar. İntibah dövrü fəlsəfəsi incəsənətə, humanitar biliklərə istiqamətlənmişdir. İntibah fəlsəfəsi əsasən orta əsr sxolastikasının tənqidinə yönəlmişdir . Bu tənqid XVII əsrdə daha da gücləndi . İki istiqamət :

nominalizm (hissi təcrübəyə arxalanan) və realizm ( əqlə arxalanan) arasındakı mübarizə, mübahisə davam edirdi.

Nikolay Kuzanski intibah dialektikasının əsaını qoymuşdur. Onun fikrincə “ vahid ” hər şeydir. Vahid hüdudsuzdur , sonsuz ilə eynidir. Sonsuz isə elə bir şeydir ki , heç nə ondan artıq ola bilməz . N. Kuzanski əksiliklərin maksimum və minimum üst-üstə düşməsi prinsipini kəşf etmişdir. Bu prinsip onu yeni Avropa dialektiklərindən biri edir . Kuzanskiyə ğörə kosmosun mərkəzi və əhatə dairəsi Allahdır. Onun fikrincə səciyyəvi olan varlığın ali başlanğıcını əksliklərin vahid və sonsuz eyniyyəti kimi fikirləşmə meyli , Allah və dünyanın , yaradıcı və yaradılanın panteistcəsinə yaxınlaşdırılması nəticəsi idi.

İtalyan mütəfəkkiri C. Bruno intibah dövrünün fəlsəfi fikrini daha yüksək zirvəyə qaldırmışdır . O , “ Səbəb və prinsip haqqında ”, ,, Sonsuzluq , kainat və dünyalar ” haqqında əsərlərində aləmin sonsuzluğu , onun dinamik birliyi və əbədiliyi problemini qoymuşdur. Kainatın yeni materialist konsepsiyasını yaratmışdır. Onun fikrincə kainat vahiddir , maddidir , sonsuzdur və əbədidir.

İntibah dövründə bir sıra təlimlər meydana gəlmişdir. Bu təlimlərin yaranmasında feodal dünyasının iqtisadi , siyasi və mədəni həyatında baş vermiş əhəmiyyətli dəyişikliklərin xüsusi rolu olmuşdur. XVI əsrdə meydana gəlmiş utopik təlimlər , birinci növbədə , ingilis humanisti Tomas Morun və italyan monarxı - rahib Tommazo Kampanellanın ideyaları Avropa rasionalı təfəkkürünə , xüsusilə də maarifçilik fəlsəfəsinə müsbət təsir göstərmişdir. Fəlsəfi fikir tarixində intibah dövrünün fəlsəfəsi mühüm yer tutur.

# VI Mövzu.
# Yeni dövr fəlsəfəsində dinin, ehkamçılığın tənqidi.
# İnsanın fəlsəfəsi.

Adətən orta əsrlərdən sonra başlanan dövrü «Yeni dövr» adlandırırlar. XV əsrdən başlayaraq Avropanın sosial-iqtisadi və mənəvi həyatında mühüm dəyişikliklər baş verdi. Kilsənin nüfuzunun getdikcə aşağı düşməsi və elmin rolunun artması onun mənəvi simasını yeni cizgilərlə zənginləşdirdi. Mədəniyyətdə dünyəvi elementlər dini elementləri sıxışdırmağa başlamışdı. Dövlət uzun müddət kilsənin əlində olan funksiyaları ələ keçirərək idarəçilik orqanı kimi elmə nəzarəti gücləndirmişdi.

Yeni dövr hər şeydən əvvəl, antik mədəniyyətin dirçəlişini təmin etdi. Təsadüfi deyildir ki , bu dövr yüksəliş dövrü adlanır. Elm texnikaya qovuşduqdan sonra tamamilə yeni bir dünyagörüşünü təsdiq etdi. Texnika özü ilə bir növ hər şeyə qadirlik abı-havası gətirdi. Əvvəlki dövrlərdən fərli olaraq insan təbiətin hökmranlığı altından çıxmağa başlamışdı. XVII əsr fəlsəfəsi elmin avtoritetinə arxalanırdı və bu əsri inqilab əsri adlandırırdılar. Elmi inqilab istehsal proseslərini səmərələşdirir, əməyin istehsalda bölgüsünü müəyyənləşdirir, elmin inkişafını təmin edirdi.

Böyük ingilis filosofu F.Bekon (1561-1626) empirizm metodunun banisi hesab olunur. O, eyni zamanda müasir induktiv metodun və elmi fəaliyyət prosesinin məntiqi sistemləşdirilməsinin əsasını qoyandır. Onun «Yeni orqanon», «Ləyaqət və elmin inkişafı haqqında» əsərləri çox məhşur olmuşdur. «Ləyaqət və elmin inkişafı haqqında» əsəri bir sıra cəhətdən olduqca müasirdir. «Bilik qüvvətdir» - məhşur fikri ona məxsusdur. Həmin fikir bilyin praktiki əhəmiyyətə malik olduğunu göstərirdi. Hər şeydən əvvəl Bekonun fəlsəsi praktiki əhəmiyyət daşımışdır. O, elmi biliklərin, kəşflərin köməyi ilə təbiət qüvvələrinə üstün gəlməkdə bəşəriyyətə yardımçı olmaq məqsədi güdür. Bekon dinə etiqad etsə də

onun fəlsəfəsi teologiyaya qarşı çıxırdı. Bekon belə hesab edirdi ki, əql çox şeyə qadirdir. Hətta onun köməyi ilə Allahın varlığını da sübut etmək olar. Fəlsəfə yalnız ağıldan asılı olmalıdır. Lakin insan əqli gücsüz olduğu yerdə etiqada da müraciət edə bilər. Beləliklə, Bekon «ikili həqiqət»: əqli həqiqəti və etiqat həqiqəti tərəfdarı olmuşdur. Bekon idrakın induktiv metodunu işləyib hazırlamışdır. O, «Elmlərin böyük bərpası» adlı ensiklopedik əsərində öz yeni, induktiv metodunu bu məqsədlərlə yaratdığını göstərirdi: ömrü uzatmaq, müəyyən dərəcədə cavanlaşdırmaq, insanın bədən qurulunu və simasını dəyişdirmək, yeni növlər yaratmaq, havaya hakim olmaq və tufan yaratmaq məqsədlərinə çatmaq, qızıl hazırlamaq və s.

Adətən müasir fəlsəfənin banisi kimi Rene Dekartın adı çəkilir. Dekart fəlsəfi sistemi yenidən təşkil etməyə çalışmışdır. Onun iki əsəri – «Metod haqqında mülahizələr» və «Metafizik düşüncələr» əsərləri daha məhşur olmuşdur.

Rene Dekart kartezian fəlsəfəsinin banisi hesab olunur. Görkəmli fransız dualist filosofu, riyaziyyatçısı və təbiətşünası özünün kartizian metodunu əsaslandırmışdır. Dekart hər şeyə şübhə ilə yanaşmaq ideyasını irədi sürmüşdür. Onun fikrincə, idrak yox, hisslər bizi aldada bilər. Dekart vahid elmi metod adlandırdığı universal riyaziyyat metodunun köməyilə elmlər sisteminin yaradılmasını mümkün hesab etmişdir. Dekarta görə, təbiətin dərk edilməsinin həqiqi idrakı metodu riyaziyyat ola bilər.

Kartezian metafizikasının mərkəzi anlayışı substansiyadır. Həmin anlayış Dekartın dualist fəlsəfəsinin mahiyyətini başa düşməyə imkan verir. Hər şeydən əvvəl, Dekart Allahı və onun yaratdığı dünaynı fərqləndirirdi. Əslində, Dekarta görə, substansiya yalnız Allahın özüdü. Bu zaman o, yaradılmış dünyanı iki substansiyaya – mənəvi və maddi hissəyə bölürdü.

Dekarta görə, mənəvi substansiya təcrübədə əldə edilməyən, ona daxildən xas olan anadangəlmə ideyalara malikdir. Anadangəlmə ideyalara Dekart mükəmməd varlıq kimi Allah ideyasını, həmçinin riyazi və s. elmi ideyaları da aid edirdi.

Ümumiyyətlə, XVII əsrdə bu cür anadangəlmə ideyaların mənbəyi haqqında mübarizə çox geniş yayılmışdı. Maddi substansiya dedikdə təbiət nəzərdə tutulurdu. Onun əsas artibutu ölçü hesab olunurdu. Dekarta görə, təbiətdə hər şey mexaniki qanunlara tabedir, bu da yalnız riyazi elm olan mexanikanın köməyi ilə tədqiq oluna bilər. Əslində dünyanın mexaniki mənzərəsi həmin dövrdən başlayaraq formalaşmışdır ki, bu da XIX əsrin başlanğıcına qədə təbiətşünaslığın və fəlsəfənin əsasını təşkil etmişdir.

Dekartın metafizikası substansiyaların (maddi və mənəvi) dualizmidir. Onlara iki elm – materialist fizika və idealist psixologiya əsaslanmışdır. Onların arasında həlqə Allah olmuşdur ki, O da təbiəti hərəkətə gətirmiş və onun qanunlarını, fəaliyyətini təmin etmişdir.

Dekart klassik mexanikanın əsasını qoyanlardan biridir. Dekartın dualizmi elmin və sxolastikanın dualizmidir.

Böyük Hollandiya mütəfəkkiri B.Spinoza Dekartın güclü təsirində olmasına baxmayaraq onun dualizmini qəbul etməmişdir. Milliyyətcə yəhudi olan Spinoza Hollandiya filosofu kimi tarixə düşmüşdür. Onun fəlsəfəsində Allah ideyası hökm sürsə də, ruhanilər onu ateizmdə təqsirləndirmişlər. O, təbiəti fəal, müstəqil qüvvə kimi təsvir edirdi, Teologiyanın «Allah» ideyası bütün varlığın yaradıcısı rolunu itirirdi. Buna görə də ruhanilər onu allahsızlıqda günahlandırırdılar.

Spinoza «Dini-siyasi traktat», «Siyasi traktat», «Etika» əsərləri ilə məhşur olmuşdur.

Spinozanın fəlsəfəsinin əsas cəhəti aşağıdakılardır:

1. Onun fəlsəfəsində üç substasiya mövcuddur: «Allah, ruh və materiya». Substansiyanı allah, yaxud təbiət adlandıran Spinoza qeyd edirdi ki, Allah nə şəxsiyyətin, nə də təbiətin yaradıcısı deyildir. Spinozanın panteizmi XVIII və XIX əsr materialist konsepsiyalarının yaranmasının əsası olmuşdur.

2. «Azadlıq dərk edilmiş zərurətdir» - tezisinin məntiqi sübutu Spinozaya məxsusdur. Dünyada hər şey mütləq zərurət tərəfindən idarə olunur. Bütün

dünya prosesləri yalnız zərurət sayəsində baş verir. Insan iradəsi heç nəyi dəyişdirməyə qadir deyildir. Spinoza qəbul etmirdi. Çünki insan yalnız dünya prosesini dərk edərək, öz həyatını ona uyğun qura bilər.

Spinozanın dünyagörüşü stoiklərin (onun Allaha, zərurətə və ölümə münasibəti baxımından) təliminə yaxın olmuşdur. O yazırdı ki, insanı heç nə ölümsüz edə bilməz, ona görə də yaxınlaşan ölümə görə narahat olmağa dəyməz. Ölüm qorxusundan əzab çəkmək qulçuluq (köləlik) növüdür. O deyirdi ki, azad insan ölüm haqqında o qədər də düşünmür.

Yeni dövr fəlsəfəsinin nümayəndələri Bekon, Hobbs, Spinoza insanı təbiət münasibətləri sisteminə daxil edərək, onu idrakın predmeti hesab edirdilər. Dekart isə insanın mahiyyətini onun ağıl və zəkasında görərək: «Mən düşünürəmsə – məsudam» deyirdi.

Insanın abstrakt tərifi ilə kifayətlənməyib onu hərəkətə, fəaliyyətə və ictimai həyat mühitində nəzərdən keçirilməsi Yeni dövr mütəfəkkirlərinin ən böyük xidməti olmuşdur. Bununla belə insan varlığının bioloji stimullarla izah edilməsi, insanın mahiyyətinin yalnız duyğu qabiliyyəti ilə məhdudlaşdırılması nəticəsində Yeni dövr filosofları insan konsepsiyasının «insan bioloji varlıqdır» ideyasından qabağa getməmişdilər.

Alman filosofu Q.Leybnits anlamında dünya canlı kimi təsvir olunur, hər şeydə çoxsaylı canlı varlıqlar – monadolar da görünür. Monado (yəni substansiya) sadə, bölünməz bir şeydir. O, monadolara eşq, həvəs, maraq və qavrayış keyfiyyətlərini aid edərək onu insan ruhuna oxşar kimi başa düşürdü. Leybnitsin fikrincə, ətraf mühit çoxsaylı mikroorqanizmlərdən ibarətdir. Onun monadologiyası mikroskopun gəlcək elmi kəşfinin bir növ özünəməxsus fəlsəfi ümumiləşdirilməsi hesab oluna bilər. Elmi kəşflər təbiətə yeni baxışlar tələb edirdi.

XVII əsr ingilis maarifçisi Con Lokkdan başlayaraq fəlsəfədə metafizikanın konsepsiyalarının tənqidi idrakın empirik nəzəriyyəsinə qarşı qoyulurdu. Con Lokkun əsəri «Insan əqli haqqında təcrübə» adlanır.

İngiltərədə Lokkun ardıcılları Berkli və Yum, Fransada Volter və digər mütəfəkkilər olmuşdur.

## *İnsanın fəlsəfəsi.*

Fəlsəfə meydana gələndən bu günə qədər insan onun diqqət mərkəzində olmuşdur. İnsan haqqında mövcud təsəvvürlər başlıca olaraq fərziyyələrə əsaslanır. İnsan haqqında müasir elmi təsəvvürlər 300-400 il bundan əvvəl formalaşmağa başlamıqdır. Bu isə bəşəriyyətin çoxəsrlik tarixində bir ana bərabərdir. İnsan haqqında ilk ideyalar fəlsəfə meydana gəlməmişdən əvvəl olmuşdur. Bu barədə bizə gəlib çatan miflər və ibtidai dini təsəvvürlər çoxlu məlumat verir. Antik dövr nümayəndələri insana kosmosun bir hissəsi, hardasa zamandan kənarda təbiətin «nizamı», «qaydası» kimi çıxış edən, özündə dünyanın ilk əsaslarını – suyu, odu, havanı, torpağı birləşdirən varlıq kimi baxırdılar. Yunan filosofu Platon insanın ruh və bədəndən ibarət olduğunu, Aristotel isə iki – ruh və bədəni bir reallığı təşkil edən kimi təsvir edirdi. Sokrat insan haqqında təlimi yaradan ilk filosof kimi göstərilirdi. Sokrat əsas diqqəti insanın daxili həyatına vermişdir. Aristotel insana təbii inkişafın məhsulu kimi baxmışdır. Insanın heyvandan prinsipial fərqi odur ki, insan siyasi varlıqdır. Çünki təbiət adamlara dövlət ünsiyyətinə cəhdi aşılamışdır ki, bunun da sayəsində dövlət yaranmışdır. İnsanın ikinci fərqli cəhəti onun dilə, nitqə malik olmasıdır ki, bunun köməyi ilə də o, xeyir və şər, ədalət və ədalətlsizlik anlayışlarını qavramaq və ifadə etmək imkanına malik olmuşdur. İnsanın və dövlətin mənşəyi və onların qarşılıqlı əlaqəsi məsələsinə toxunaraq, Aristotel belə hesab edirdi ki, insan bütün hallarda fərddən irəlidə durmalıdır.

İnsan fiziki və mənəvi, təbii və sosial, irsi və həyatta əldə edilənlərin vəhdətindən ibarət canlı sistemdir. İnsan həm hadisələrin təbii əlaqəsinə qoşulur, həm də bioloji qanunauyğunluqlara tabedir. Insan şüuru psixik və şəxsiyyət

səviyyəsində spesifik qanunauyğunluqları olan sosial varlıqdır. İnsan fiziki, morfoloji orqanizm kimi kainatda materiyanın ən yüksək, mütəşəkkil formasıdır. Deməli, irnsan bütövlükdə bioloji, sosial və psixik-mənəvi ölçülərin təşkil etdiyi tamlıqdır. Bioloji cəhət insanın varlığı üçün ilkin şərt olan morfofizioloji , genetik , beyin-əsəb sistemi , elektrokimyəvi və s. kimi hadisə və prosesləri ifadə edir. Psixik-mənəvi cəhət insanın daxili mənəvi aləminin (şüur, iradə , əhvali-ruhiyyə , yaddaş , xarakter , temperament və s.) əks etdirir. İnsanda sosial aspekt onun başqa adamlarla qarşılıqlı əlaqə və münasibətlərini , sosial əlaqələrini , ictimai mühitdə kəsb etdiyi xassə və keyfiyyətlərini əhatə edir. Öz bioloji təbiəti tərəfindən hər bir fərd müəyyən genotipdən – valideynlərindən aldığı genlərdən asılıdır. Doğulan zamandan o, bu və ya digər bioloji irsi alır , o da genlərdə əks olunur. Bunlar , öz növbəsində , fərdin xarici , fiziki keyfiyyətlərinə ( boyuna , rənginə , üzünün formasına , səsinə və s.) və onun psixi keyfiyyətlərinə (emosiya , temperament , xarakterinin ayrı-ayrı cizgilərinə və s.) təsir edir. Bəzi alimlərin fikrincə , adamların qabiliyyəti də irsən keçir (bədii yaradıcılıqda, musiqidə, riyaziyyatda və s.) . İrsi vergi – insanın qabiliyyətinin ilkin şərtləridir. Ümumi şəkildə qabiliyyətlər üç amilin vəhdətindən ibarətdir . Bioloji (irsən verilən) , sosial (sosial mühit və tərbiyə) və psixik (insanın daxili «Mən»I , onun iradəsi və s.).

## VII Mövzu.

## Klassik Alman fəlsəfəsi.

## Marksizm fəlsəfəsi.

XVIII əsrin sonu XIX əsrin I rübündə Fransa burjua inqilabından sonra Avropa ölkələrinin bir çoxunda, o cümlədən Almaniyada burjua inqilabları üçün sosial-siyasi və iqtisadi şərait yetişmişdi. Feodal üsul idarəsi, onun dini-teoloji ideologiyası böhran keçirirdi . Alman klassik fəlsəfsi həmin dövrün sosial-tarixi şəraiti, təbii-elmi inkişafın və mənəvi tərəqqinin zəruri nəticəsi kimi ortaya çıxmışdır.

Alman klassik fəlsəfəsinin banilərindən biri, dialektika ideyasını oyatmış İmmanuel Kant idi . Kantın Günəş sisteminin nəhəng qaz-dumanlıqlardan əmələ gəlməsi haqqında kosmonoqiya konsepsiyası indi də elmin ən fundamental ideyalarından biridir. I.Kantın fəlsəfi görüşləri mürəkkəb və ziddiyyətli idi. O, metafizik təfəkkür metodunu tənqid edərək , nəinki kainatın quruluşu , həm də onun əmələ gəlməsi və inkişafı haqqında zəngin dialektik-elmi müddəalar irəli sürmüşdü . Həmçinin insan nəslinin və başqa canlıların təbii mənşəyi haqqında da mühüm elmi fikir söyləmişdir. Kanta görə, materiya, maddi gerçəklik hadisələri obyektivdir. Lakin o, maddi gerçəkliyin məkan-zaman daxilində mövcudluğunu qəbul etmirdi . Kanta görə , məkan-zaman real deyil , idealdır. Eyni ilə Kant kateqoriyaları da , məsələn , səbəbiyyət , zərurət və s. təbiətin obyektiv, qanunauyğun əlaqələri hesab etmir, onları şüurun aprior əlaqələri, formaları adlandırırdı . Kant belə hesab edirdi ki , varlıq , əxlaq , din və s. kimi fəlsəfi kateqoriyaların mahiyyəti , sərhədi ancaq insaq insan zəkasının imkanları əsasında müəyyən oluna bilər. Kant subyektin özündə iki səviyyəni – empirik və transendental səviyyəni fərqləndirməyi tələb edirdi. Empirik səviyyəyə hər bir insanın , fərdin psixoloji səviyyələri , əhval-ruhiyyə aid edilirsə , transendental səviyyəyə insana məxsus ən ümumi keyfiyyətlər və cəhətlər aid edilirdi.

İ.Kant özünün idrak haqqında təlimində daha çox yeri dialektikaya verirdi: ziddiyyətə idrakın zəruri momenti kimi baxırdı. Kant dinlə elmi, materializmlə idealizmi barışdırmağa çalışır, bilik sahəsinin tədqiqi ilə məşğul olurdu ki, etiqada, dinə yer qalsın. Bütövlükdə İ.Kantın fəlsəfi yaradıcılığını iki dövrə bölmək olar: «tənqidəqədərki» və «tənqid» dövrü.

İ.Kanta göə, insanın mühakimə qabiliyyəti canlı seyrdən keçərək ,, təcrübi biliyə " istinad edir. Kant insanın başlıca mənəvi keyfiyyəti kimi , öz həyatını və sağlamlığını qorumağı hesab edirdi. O, intihar, sərxoşluğu və acgözlüyü insan üçün ən mənfi mənəviyyat forması , ədaləti , səmimiyyəti , vicdanlığı , ləyaqəti və s. isə yüksək mənəvi keyfiyyət hesab edərək , onları yalançılıq və qul itaətinə qarşı qoyurdu. Insanlararası münasibətlərdə isə Kant sevgi və hörmətə üstünlük verir, ,,vicdan mühakiməsini" isə mənəviyyatın tənzimçisi hesab edirdi. Bunlar Kantın etikasının humanizmini tam əks etdirir.

Alman klassik fəlsəfəsi , xüsusilə onun idealist istiqaməti İ.Kantdan sonra İ.Q.Fixte və F.Şellinq tərəfindən inkişaf etdirilmiş , zənginləşdirilmişdi . Fixte dünyanın dərk edilməsinin əsasına mütləq eyniyyəti – ,,Mən"i qoyur , varlıq və təfəkkürün mütləq eyniyyəti ideyasını müdafiə edirdilər. Fixteyə görə, bütün mövcudatın mütləq başlanğıcı kimi götürülən ,,mütləq Mən"in fəaliyyəti bütün varlığı –,,qeyri Mən"i obyektiv aləmi yaradır. Onlar dialektik kateqoriyalar haqqında idealist məzmun daşıyan mükəmməl ideyalar vermiş , xüsusilə azadlıq və zərurət , eyniyyət , ziddiyyət , tək , çox , ümumi və s. haqqında dialektik müddəalar irəli sürmüşlər. F.Şellinqə görə , fəlsəfə iki mühüm suala cavab verməlidir : necə olmuşdur ki , şüursuz təbiətin inkişafı şüurun əmələ gəlməsinə gətirib çıxarmışdir ? və özlüyündə subyekt olan şüur necə olmuşdur ki , obyektə çevrilmişdir ? Onun fikrincə , birinci suala ,, təbiət fəlsəfəsi", ikinci suala isə ,,transendental idealizm təlimi" cavab verməlidir . Şellinq dünyanın ideal , ilahi başlanğıcı ideyasını da qəbul edirdi . Ona görə dünyanın rəngarəngliyinin vahid başlanğıcından necə yaranması dərkedilməzdir , zəka üçün əlçatmazdır . Bu ancaq qeyri-rasional yolla , intellektual intuisiya vasitəsilə dərk oluna bilər ki ,

bu da hamıya deyil , ancaq ,,seçilmiş adamlara" - fəlsəfə və incəsənətin görkəmli nümayəndələrinə nəsib ola bilər.

Alman klassik fəlsəfəsinin ən böyük nailiyyətini Hegel dialektikası təşkil edir . Ümumiyyətlə , XIX əsr fəlsəfəsinə Hegelin təsiri olduqca böyük olmuşdur. Hegelin fəlsəfəsinin əsl əhəmiyyəti və inqilabi xarakteri ondan ibarətdir ki , o, insan təfəkkürü və hərəkəti nəticələrinin son – qəti xarakteri haqqındakı hər cür təsəvvürə birdəfəlik son qoydu. Hegelin ,, Ruhun fenomenologiyası " əsərində insana , onun tarixinə və şüurunun meydana gəlməsi və inkişafına dair məsələlərə toxunulmuşdur . O, substansiyanı subyekt halında , lakin fəal başlanğıc kimi təqdim edir , varlıq və təfəkkürün eyniyyəti ideyasını verir və ya real dünyaya , maddi varlığa , obyektiv idealist filosof olmaqla mütləq ideyanın , anlayışların , ruhun təzahürü kimi baxırdı. Varlıq və təfəkkürün eyniyyəti, maddi dünyanın , mütləq ideyanın öz inkişafının nəticəsi və daim inkişafda olması müddəalarını Hegel ,,Fəlsəfi elmlər ensiklopediyası" əsərində vermişdir. Onun fikrincə , bütün təbiət və cəmiyyət hadisələrinin əmələ gəlməsi , inkişafı və rəngarəngliyinin əsasında mütləq , mənəvi və zəkalı başlanğıc – ,,mütləq ideya", ,,dünya zəkası" və ya ,,dünya ruhu" durur. Həmin ilkin əsas fəaliyyətdədir , daim ,, öz inkişaf " halındadır. Bu inkişaf Hegelin obyektiv idealist sisteminin əsasını təşkil edən üç mərhələdən keçir: a) ideyanın özlüyündə, «xalis təfəkkürün kor-təbii inkişafı» mərhələsi – Məntiq. Bu mərhələdə ideya öz məzmunun bir-birilə əlaqədə olan və qarşılıqlı surətdə bir-birinə keçən məntiqi kateqoriyalar vasitəsilə açır , biruzə verir; b) ideya ,,başqa formada", ,,başqa varlıq" halında və ya təbiət formasında inkişaf edir , təbiətə ,,mənəvi mahiyyət" verilir ; c) ideyanın təfəkkürdə və tarixdə (,,ruh"da) inkişafı mərhələsi – Ruh fəlsəfəsi. Bu mərhələlərdə mütləq ideya yenə də özünə qayıdır, cəmiyyətin ictimai şüuru və mədəniyyətinə , ictimai fəaliyyətin müxtəlif növlərində təzahür edir. Varlıq və təfəkkürün belə idealist eyniyyət prinsipi xarici aləm və təfəkkür qanunlarının vəhdəti ideyasını əsaslandırır.

Hegelin fəlsəfəsinin məğzini və ən böyük nailiyyətini dialektika haqqında təlim , xüsusilə inkişaf ideyası təşkil edir. Hegel dialektikası – obyektiv idealist məzmun daşısa da, bəşər sivilizasiyasını zənginləşdirən mənəvi-fəlsəfi xəzinədir. Bu xəzinədə öz dəyərini həmişə saxlayan hədsiz sərvətlər vadır. Hegel dialektikası tam şəkildə onun ,,Məntiq elmi" əsərində əks olunmuşdur. Bu əsərdə Hegel inkişafın mütləqiliyi və sonsuzluğu ideyasını əsaslandırmış, inkişafın ziddiyyətli və inkarlı mahiyyətini , mənbələrini geniş təhlil etmiş , dialektikanın özünün , onun mühüm qaydaları və kateqoriyalarının mahiyyətini açmış dialektika, məntiq və idrak nəzəriyyəsinin vəhdəti haqqında təlim işləmiş, dialektik məntiq haqqında ilk mükəmməl nəzəriyyə vermişdir. Metafizik təfəkkür metodunu tənqid və rədd etmiş , dialektik təfəkkür metodu və dialektik inkişaf konsepsiyasını işləyib hazırlamışdır.

İdrak nəzəriyyəsinin işlənməsində Hegelin xidmətləri hədsiz olmuş , o, Kantın dualizmini və antiqonizmini ciddi tənqid etmiş , dialektikanı elmin aktual problemlərinin öyrənilməsinə tətbiq etmişdir. O, demək olar ki , fəlsəfə elmlərinin hamısı ilə məşğul olmuşdur. Bu cəhətdən onun ,, Hüquq fəlsəfəsi ", ,,Fəlsəfə tarixindən mülahizələr ", ,, Estetika üzrə mülahizələr " , ,,Tarix fəlsəfəsinin mülahizələri " və s. əsərləri xüsusi maraq doğurur.

Feyerbax – alman klassik fəlsəfəsinin nümayəndələrindən biri , materialist-ateist filosof idi . Feyerbaxın materializmi antropoloji səciyyə daşıyırdı ki , o da inqilab ərəfəsindəki alman burjuaziyasının inqilabi idealına uyğun idi. Antropologizm – insana ən ali varlıq və təbiətin ən mükəmməl əsəri kimi baxan materializm mövqeyidir , təbiətlə insanın vəhdəti haqqında fəlsəfi təlimdir. Antropologizm idealizmə , ruh və canın dualist bölünməsi haqqında ideyalara qarşı olan fəlsəfi baxışdır. Həmin baxışın nümayəndələi feodalizm və dinlə insanın təbiətən birgə mövcudluğunu rədd edir , onları insana yabançı sayırdılar.

Feyerbaxın ,, Xristianlığın mahiyyəti " əsərində deyilirdi ki, təbiət hər hansı bir fəlsəfədən asılı olmadan mövcuddur . Təbiət elə bir əsasdır ki , onun məhsulu olan insanlar onun üzərində yetişmişdir , təbiətdən və insandan kənar

heç bir şey yoxdur və biz dini təxəyyülümüzün yaratmış olduğu ali vücudlar bizim öz mahiyyətimizin ancaq əfsanəvi inikaslarıdır . Feyerbaxın mühakimə yürütdüyü materializm antropoloji materializm adlanır . Feyerbax formaca realistdir . Feyerbaxın baxışları mexanizmdən fərqlənirdi . Ona görə təbiət mexanizm deyil , orqanizmdir. Fəlsəfənin mərkəzində insan durmalıdır. ,,Gələcək fəlsəfənin əsas müddəaları" əsərində o yazırdı: ,,Yeni fəlsəfə – insan fəlsəfəsi kimi mahiyyətcə həmçinin insan üçün fəlsəfədir".

Feyerbax insanın mənəvi varlıq kimi şərh edilməsini – rədd edir , eyni zamanda insanı ruhun və cismin vəhdəti kimi qəbul edir. Onun hətta cisim və ruhun dualizminə qarşı yazılmış əsəri də var. Onun fikrincə , insan öz təbiətinin müxtəlif təzahürləri ilə zəngindir.

Feyerbaxın fikrincə , reallıq bizə hisslərimiz vasitəsilə məlum olur . Varlıq hisslərin , məhəbbətin , düşüncənin sirridir . Feyerbaxa görə , ,, məhəbbət olmayan yerdə həqiqət də yoxdur " . Allah yox , yalnız insan məhəbbətə layiqdir. O, dini məhəbbəti real məhəbbət hesab etmirdi .

Feyerbax antropologiyanı universal elm kimi , cəmiyyətin də öyrənilməsinin yeganə vasitəsi hesab edirdi . Feyerbax dini təbiət və cəmiyyətin insanlar üzərində ağalıq hisslərinin nəticəsi hesab etsə də , onun mahiyyətini insan xassələrinin özgələşməsində , ikiləşməsində görürdü . Onun fikrincə , insan Allahın simasında özünün xüsusi mahiyyətini görür , din insanın ,,özünüdərketməsinin" , ,,mənlik şüurunun" qeyri-şüuri formasıdır . Feyerbax dünya dinlərinin əleyhinə olsa da , cəmiyyətin dinsiz keçinəcəyinə inanmamış , yeni din – ,,məhəbbət dini" yaradılması zərurətini irəli sürmüşdür. O, insanları ,,ümumi məhəbbətə" , öz tələbatlarını zəkalı şəkildə məhdudlaşdırmğa , ,,sinfi sülhə" çağırırdı . Feyerbaxın əsas əsərləri : ,, Hegel fəlsəfəsinin tənqidinə dair ", ,, Xristianlığın mahiyyəti ", ,, Fəlsəfi islahata dair ilkin tezislər ", ,, Gələcəyin fəlsəfəsinin əsasları " .

Marksizim fəlsəfəsi XIX əsrin 40-cı illərində Avropadakı sosializm və kommunizm ictimai hərəkatının təsiri altında formalaşmışdır. Bu dövrdə

kapitalizmin inkişafı ilə əlaqədar iri sənaye müəssisələri meydana çıxdı , bununla yanaşı , fəhlə sinfi də formalaşdı və inkişaf etdi . Getdikcə proletariatın istismarı artdı , o fəallaşdı və inqilabçı sinif kimi mübarizə meydana atıldı . Lakin onun mübarizəsi çox vaxt kortəbii və qeyri-mütəşəkkil səciyyə daşıyırdı . Bu şəraitdə proletariata inqilabi nəzəriyyə lazım idi . Fəhlə hərəkatı ilə inqilabi nəzəriyyə birləşməli idi . Belə bir nəzəriyyə Marksizm oldu .

Heç bir təlim təbii-elmi və nəzəri ilkin şərtlər yetişməyincə meydana çıxa bilməz . Marksizm fəlsəfəsinin də formalaşmasının belə ilkin şərtləri vardır . XIX əsrin ortalarında cəmiyyətə baxışlarda yeni iqtisadi və sosial-mənəvi təlimlərin meydana çıxması marksizmin formalaşmasında təbii-elmi ilkin əsaslar oldu və onun inkişafına təkan verdi.

K.Marks unudulmuş dialektik metodu yenidən meydana çıxarmış , onun Hegel dialektikası ilə əlaqəsini habelə ondan fərqini göstərmiş və eyni zamanda ,, Kapital “da həmin metodu müəyyən empirik elmin faktarına , siyasi iqtisadın fatklarına tətbiq etmişdir . K. Marks öz dialektik metodunun Hegelin dialektik metodundan fərqləndiyini , hətta tamamilə əksi olduğunu bildirirdi . K. Marks xüsusi mülkiyyət cəmiyyətində insanın özgələşməsi ideyası və gələcək kommunist cəmiyyətində həmin özgələşmənin aradan qaldırılmasını diqqətə çatdırırdı. Marksa görə , özgələşmə insanın fəaliyyətinin müstəqil qüvvəyə çevrilərək onun üzərində ağalıq etməsini səciyyələndirən sosial prosesdir . Marks özgələşmə dedikdə , ilk növbədə , əməyin özgələşməsinin mahiyyətini göstərir . Özgələşmiş əmək nə fiziki , nə də mənəvi zövq vermir, çünki bu əmək adamın özünə deyil , sahibinə sərf olunur. Həmin əməyin nəticəsi də işçiyə məxsus deyildir . Nəticədə , əməyin özü də bir növ yaddır , özgədir .

Deməli , birinci , əmək işçi üçün həyatın özü deyil , həyatın vasitəsidir .

İkincisi , işçi üçün seçim yoxdur . Yəni , işləmək , yaxud işləməmək ! O, yaşamaqdan ötrü işləməlidir . Lakin bu əməyə olan tələbatın ödənilməsi deyil , ancaq digər tələbatların ödənilməsi vasitəsidir . Ona görə də insan özünün həyati reallığını əməkdə deyil , əməkdən kənarda axtarır . Çox vaxt bunlar primitiv-

heyvani tələbatlar – yemək , içmək , mənzil , yaxud özünün geyimi və s. insanın yüksəlmək funksiyasında onun alçaldılması funksiyasına keçir .

Üçüncüsü , özgələşmiş əmək insanı mexanizmə çevirir . Bu cür əməklə məşğul olan insan azad və məsuliyyətli adam ola bilməz . O , istehsalın quludur. Bu cür adamların arasındakı münasibət azad adamlar arasındakı münasibət deyil, özgə , düşmən mexanizmlərin münasibətidir.

Marksın bu sxemində əməyin özgələşməsi əsas yer tutur. O da özlüyündə cəmiyyətdə olan digər özgələşmə formalarını : siyasi , hüquqi , iqtisadi , mənəvi və s. doğurur.

Marksda əməyin özgələşməsi xüsusi mülkiyyətin mövcudluğu ilə bilavasitə əlaqədardır . Marks xüsusi mülkiyyəti bütün sosial həyatın anlaşılmasının sosial açarı hesab edirdi . Bütün dəyişikliklər yalnız xüsusi mülkiyyətin ləğvi ilə əlaqələndirilirdi .

# VIII Mövzu .

# XIX - XX əsrlər fəlsəfəsi .

**XIX əsr və XX əsrin əvvəllərində rus fəlsəfəsi.**Rus fəlsəfəsi XIX əsrin sonuna qədər bütöv kimi formalaşmışdır . Həmin dövrdə rus fəlsəfəsi müxtəlif fəlsəfi məktəblərdən və sistemlərdən ibarət olmuşdur . Onlardan ikisini xüsusi qeyd etmək olar : „ Totallıq ( yaxud birlik ) fəlsəfəsi “ və „ Fərdiyyətçilik fəlsəfəsi “ .

XIX əsr rus fəlsəfəsi fransız maarifçilik fəlsəfəsinin (Volter , Russo , Didro) həmçinin klassik alman fəlsəfəsinin ( Kant , Şopenhayer , Hegel , Feyerbax ) təsiri altında olmuşdur .

L . Tolstoy , B. Solovyov , N. Berdyayev XIX və XX əsrin başlanğıc dövründə rus fəlsəfəsinin klassikləri hesab olunurlar . Onların hər biri digərindən fərqlənən orijinal fəlsəfi təlim yaratmışdır .

L . Tolstoyun yaradıcılığı ruhun və qəlbin psixologiyası , dini mənəviyyat və özünü təkmilləşdirmə problemlərinə müraciətinə görə dünya mədəniyyətinə mühüm təsir göstərmişdir .

Həyatın mənası məsələsi L .Tolstoy üçün şəxsiyyətin mənəvi yüksəlişini müəyyən edən „ başlıca “ məsələ olmuşdur . Onun „ Tövbə “ , „ Allahın məkanı bizim daxilimizdədir “ və s. əsərləri bu qəbildəndir .

B . Solovyov XIX əsrdə geniş yayılmış rus dini fikrinin əsas ideyalarını öz fəlsəfəsində əks etdirə bilmişdir . Xristian allah – insan prosesinin nəzəriyyəsini də o , yaratmışdır . Onun əsərləri - „ Müharibənin mənası “ , „ Rus ideyası “ , „ Müharibə , tərəqqi və ümumdünya tarixinin sonu haqqında üç söhbət “ və s.-dir.

N . Berdyayev demokratiya və sosializmin , indinin və gələcəyin təhlilini rus vətənpərvərliyi və xristian personalizmi mövqeyindən çıxış edərək vermişdir. Onun ən böyük əsərləri „ Yaradıcılığın mənası “ , „ Rusiyanın taleyi”, „ Qeyri – bərabərlik fəlsəfəsi “, „ Özünü dərketmə “ hesab olunur .

# XIX əsrdə Azərbaycan filosofları .

XIX əsrin ikinci yarısında əgər Cənubi Azərbaycanda bir sira dini ideoloji cərəyanlar ( babilər və s .) canlanırdısa , Şimali Azərbaycanda maarifçilik yeni ideoloji cərəyan kimi yaranıb inkişaf edirdi . Maarifçilik xurafat və cəhalətlə mübarizədə misilsiz bir rol oynamışdır .

Abbasqulu Ağa Bakıxanovun Azərbaycan fəlsəfi fikrinin inkişafında mühüm rolu olmuşdur . Bütün elmlər sahəsində yüksək biliyə malik olan A . Bakıxanov varlığın peripatetik və panteist fəlsəfədə araşdırılan ən ümumi prinsiplərini islam ehkamlarının şərti kimi təqdim etmişdir . O, ,,Əxlaqın islahı " , ,, Qanuni – Qüdsi ", ,,Gülüstani – İrəm " və digər əsərlərin müəllifidir . Klassik fəlsəfə və əxlaq təlimləri ilə yaxından tanış olan A. Bakıxanov özünün ontoloji mühakimələrini etik - əxlaqi fikirlərlə tamamlamışdır . Bu baxımdan onun ,, Nəsihətlər " kitabı misilsiz əhəmiyyətə malikdir .

XIX əsr Azərbaycan elminin ən böyük nümayəndələrindən biri Mirzə Kazım bəydir . Onun ,, Müridizm və Şamil " , ,, Bab və babilər " , ,, Firdovsi əsərlərində fars mifologiyası " əsərlərində maraqli fikirlər çoxdur . M . Kazım bəyin ən iri əsərlərindən biri də ,, Bab və babilər " dir . Bu əsərində ədib İrandakı dini – siyasi hərəkatın mahiyyətini açmağa çalışmışdır .

M. F. Axundov Azərbaycan ictimai – siyasi , bədii – fəlsəfi fikrində mühüm yer tutan görkəmlı alimdir . O, kainatın maddiliyini və yaradılmazlığını , maddinin və cismin məkan və zaman daxilində mövcudluğunu təsdiq edirdi . Onun ,, Babilik əqidələri " , ,, Yek kəlmənin tənqidi " və s . əsərləri fəlsəfi dünyagörüşün formalaşmasında mühüm əhəmiyyət kəsb edir .

XIX əsrin II yarısında Azərbaycan ictimai – siyasi , təbii – elmi və fəlsəfi fikrində özünəməxsus yeri olan şəxsiyyətlərdən biri Həsən bəy Zərdabi olmuşdur . H. Zərdabi maarifçi – materialist kimi dünyanın allah tərəfindən yaradılması və axirət haqqında dini təlimi qəbul etməmişdir . Təbiətin dialektik izahına üstünlük verən alim hərəkət , məkan , zaman və kainatın dərk edilməsi

haqqında da maraqlı fikirlər söyləmişdir . Onun dünyagörüşündə təbii – elmi və materialist məzmun üstünlük təşkil etmişdir .

N . Nərimanov Azərbaycan fəlsəfi fikrində xüsusi xidmətləri olmuş şəxsiyyətdir . Maarifçi , inqilabçı – demokrat fikirli yazıçı olan N . Nərimanov əqidəsinə görə , xalqın azadlığını , sosial – siyasi və iqtisadi tərəqqisini arzu edən bir ziyalı idi .

O , dialektik materialist filosof kimi formalaşmışdır . N . Nərimanov dialektikanın qanunlarını düzgün başa düşmüşdür . Onun fikrincə , təbiətdə hər şey dəyişildiyi kimi , insanın şüuru , fikri , biliyi də dəyişir . Lakin bu dəyişmə xarici qüvvənin təsiri ilə deyil , öz obyektiv daxili qanunauyğunluğun nəticəsi kimi meydana çıxır .

M.Ə . Rəsulzadə Azərbaycan Demokratik Respublikasının yaradıcılarından biri , görkəmli ictimai – siyasi və dövlət xadimi , istedadlı ədib , alim , filosof olmuşdur . Onun „ Əsrimizin Səyavuşu " , „ Azərbaycan cümhuriyyəti " və s . əsərləri xalqımızın zəngin mənəvi , siyasi və fəlsəfi dünyasının öyrənilməsində qiymətli mənbələr sırasına daxildir . Azərbaycan milli qurtuluş hərəkatının böyük ideoloqu olan M . Ə . Rəsulzadə özünün həyat və fəaliyyəti , istiqlal savaşına bağlılığı və milli dövlətçiliyimizə xidməti ilə XX əsrin tanınmış siyasətçiləri və dövlət adamları arasında müstəsna yer tutur .

## XX əsr Azərbaycan filosofları .

XX əsrin Azərbaycan fəlsəfəsi əvvəlcə rus imperiyasının , sonra isə Sovet İttifaqının tərkibində inkişaf etmişdir . Bu dövr fəlsəfəsini müstəqil fəlsəfə kimi səciyyələndirmək qeyri – mümkündür . İki ilə yaxın hakimiyyətdə olan A. D. R. dövründə müstəqil düşünən alimlər , siyasi xadimlərin çoxunu represiyalar susdurdu . Bütün bunlara baxmayaraq bir sıra Azərbaycan filosofu Azərbaycan fəlsəfi fikrinə dair maraqlı fikirlər söyləmiş , qiymətli əsərlər yazmışdır .

Mehbalı Qasımov XX əsr Azərbaycan filosofları içərisində özünəməxsus yer tutur . „ Ömər Xəyyamın rübailərində materializm " , „ M . F . Axundov və XIX əsr rus inqilabçı demokratik estetikası " , „ XIX əsrdə Azərbaycan xalqının qabaqcıl fəlsəfəsi və ictimai – siyasi fikir tarixinin oçerkləri " onun qələminin məhsuludur .

Əhməd – Kərədi Zəkuzadə filosof , şərqşünas , yazıçı , psixoloq , məntiqçi olmuşdur . „ Bəhmənyarın fəlsəfi görüşləri “ , „Psixologiya “ , „ İbn Sinanın psixologiyası “ , „ Əl – Nəzzamın fəlsəfəsi “ , „ Orta əsr ərəbdilli Azərbaycan məntiqinin tarixindən “ və s . əsərlərin müəllifidir .

Heydər Hüseynov çoxsaylı məqalələrin , kitabların müəllifidir . „ XIX əsr Azərbaycanda ictimai və fəlsəfi fikir tarixindən “ adlı əsərinə görə təqiblərə məruz qalmışdır və nəticədə intihar etməyə məcbur edilmişdir .

Ziyəddin Göyüşov etik fikir tarixinin tədqiqi ilə məşğul olmuşdur . „ Azərbaycan maarifçilərinin etik görüşləri “ , „ Əxlaqi sərvətlər “ , „ Həzz və iztirab “ , „ Fəzİlət və Qəbahət “ , „ Daxilə pəncər “ , „ Sovet Azərbaycanında fəlsəfi fikir “ və s . əsərlərin müəllifidir .

Aslan Aslanov filosof , şair , tərcüməçi olmuşdur . Akademikin bir sıra şer kitabları ilə yanaşı , „ İncəsənət və tərbiyə “ , „ Estetika aləmində “ və s . əsərləri çapdan çıxmışdır . O, eyni zamanda Azərbaycanda nəşr olunan bir sıra estetika dərsliklərinin müəllifi idi . Çoxsaylı alimlərin yetişdirilməsində onun rolu böyükdür .

Bütün bu filosoflarla yanaşı , Sovet dövründə Azərbaycanda çoxlu filosof ordusu yetişmişdir . Onlardan F. Köçərli , Maqsud Cəlilov , Zümrüd Quluzadə , Ağayar Şükürov , Gülnaz Abdullazadə , Qabil Hüseynli , Vəli Həbiboğlu , Niyazi Mehdi və başqalarını qeyd etmək olar .

## XX əsr Avropa fəlsəfəsinin xarakteristikası .

XX əsr fəlsəfi fikrinin inkişafında başlıca fərqli cəhət çoxsaylı fəlsəfi məktəb və cərəyanların mövcudluğudur . Təbiətşünaslığın nailiyyətindən , ilk növbədə fizika , kimya və biologiyanın uğurlarından fəlsəfi konsepsiyaların yaradılmasında fəal surətdə istifadə olunur . Fəlsəfə varlıq haqqındakı mövcud olan təsəvvürləri daha da dərinləşdirərək , materiyanın mürəkkəb quruluşuna daxil olur , insanın mövcudluğunu daha aydın dərk etməyə çalışır .

Qeyd etmək lazımdır ki , XX əsr həyatın bütün sahələrində böhranlar əsridir . Müəyyən ictimai quruluşun əsaslarını dəyişdirən sosial çevrilişlər həyatın ayrılmaz əlamətinə çevrilir . Lokal müharibələr kütləvi xarakterli hadisələr olaraq bəşəriyyəti yeni bir ümumdünya yanğınına sürükləyə biləcək bir amildir . Bu dövrdə yer kürəsində ekoloji təhlükə təsəvvüredilməz surətdə

irəlıləyir , elmi – texniki , inqilabi nailiyyətlər bəzən xeyirdən çox şəri doğuran mənbəyə çevrilir .

Ümumiyyətlə , XX əsr fəlsəfəsi müxtəlif istiqamətlər üzrə inkişaf etmişdir . Buraya dini fəlsəfənin çoxsaylı formaları , həmçinin pozitivizmin ən yeni növləri də daxildir .

XIX əsrdə və XX əsrin əvvəllərində elmin rolunun artması fəlsəfədə də öz təsirini göstərmişdir . Hətta sayentizm ( latınca : bilik , elm sözündəndir ) istiqaməti də meydana gəlmişdi ki , burada da fəlsəfənin konkret elmə meyilli olan müəyyən təfəkkür tipinə arxalanması irəli sürülmüşdü .

## „ Həyat fəlsəfəsi ." ( Şopenhayer və Nitşe )

Qərbdə XIX – XX əsrdə ən geniş yayılmış cərəyanlardan biri „ Həyat fəlsəfəsi " dir . Bu fəlsəfi istiqamətdə mərkəzi problem insan problemi , onun mahiyyəti və mövcudluğudur . „ Həyat fəlsəfəsi " nin banisi alman filosofu A . Şopenhayer hesab olunur . Əsas əsəri „ Dünya kor iradə və boş təsəvvürdür " adlanır . Şopenhayer dünyanı kor iradə və qüvvə kimi öz fəlsəfəsində təsvir etmişdir . Şopenhayer məqsədsiz , kor fəaliyyət göstərən „ iradə " nin dərkedilənliyini təsdiq etmişdir . „ İradə " təsəvvürləri doğurmuşdur . Şopenhayerin dünyagörüşü subyektiv idealist mahiyyət daşıyır . Onun üçün subyektsiz obyekt yoxdur . Filosofa görə , dünya bir tərəfdən , dərkedənin təsəvvürüdür , digər tərəfdən isə dərkedən dünyanın məhsuludur . Şopenhayerə görə dünya – təcəssümləşmiş iradədir . Həyat – uzun yuxugörmədir .

A . Şopenhayerin fəlsəfəsinin təsiri altına düşən filosoflardan biri F. Nitşedir . Onun yaradıcılığında keçmişə , hər şeydən əvvəl , xristian mənəvi dəyərlərinə yenidən qiymət vermək ön planda durmuşdur . Nitşe dini mədəniyyətdə həqiqi insani dəyərləri təhrif etməkdə günahkar hesab etmişdir . Nitşenin fikrincə xristianlıq bəşəriyyətin nəslinin kəsilməsinə şərait yaradır , bu isə gizli məhvetmə instinktidir . Nitşe öz fəlsəfəsini „ həyatın müdafiə instinkti " adlandırmışdır . Başqa sözlə , o, həmin fəlsəfəni antixristian fəlsəfəsi də adlandırırdı . Nitşenin həyat fəlsəfəsi həyatdan ayrı düşmüş rasionalizmin tənqidinə , həmçinin mənəviyyatsızlığa , ikiüzlüyə , avamlığa qarşı çevrilmişdir .

## Freydizm və yeni freydizm .

Fəlsəfi konsepsiya kimi psixoanalizin əsaslandırılması Ziqmund Freydin adı ilə bağlıdır . Avstriyalı həkim – psixiatr Z . Freyd psixoanalizm fəlsəfəsini antropoloji prinsip səviyyəsinə qaldırdı . Freydə görə , şüurlu ,, mən “ iki obyektiv qüvvənin - ,, o “ ilə cəmiyyət qaydalarının mübarizəsi meydanına dönür . ,, Kütlə psixologiyası və insan ,, mən “ – inin analizi” əsərində isə Freyd sosial əlaqələrin təbiətindən söz açır .

Təhtəlşüur haqqında Freyd təlimi psixoanalizin elə müddəalarına əsaslanmışdır ki , burada psixoloji narahatlıqlar , zədələr , arzuların həyata keçməməsi və s .- nin insanı ömrü boyu izləməsi göstərilir . Bunlar özünü nevroz formasında təzahür etdirir .

Freyd etiraf edirdi ki , şüurun öyrənilməsi vacib şərtdir . Əslində şüur dünyada insanın oriyentasiya götürməsinə imkan verir , özünün ,, Mən “ ini formalaşdırmağa şərait yaradır .

Təhtəlşüur , Freydə görə , şüurdan fərqlənir və öyrənilməlidir . Təhtəlşüur şüurla , beynin fəaliyyəti və s . ilə çoxsaylı keçidlərlə əlaqədardır . Təhtəlşüur özünü yuxugörmədə , hipnotik vəziyyətlərdə , davranışda təzahür etdirir . O, müxtəlif səviyyələrdə özünü göstərə bilər . Yüksək səviyyə yaradıcılıq prosesləri ilə əlaqədar olduğundan burada intuisiya , təxəyyül böyük rol oynayır . Təhtəlşüur təlimi cinsi meyl , həyata meyl , ölümə meyl və s . terminlərlə tamamlanır və izah edilir .

K. Yunq Freydin təlimini inkişaf etdirən şagirdləri içərisində özünəməxsus yer tutur . K. Yunq təhtəlşüurun yaratdıqları struktur , obrazlar mədəniyyəti üçün ümumi oxşarlığını göstərmişdir . Yunq ,, Psixoloji tiplər “ əsərini yazmışdır . O , psixoloji tipləri iki yerə bölür : bunlar introversiya tipi və ekstraversiya tipləridir . Fərddə müxtəlif funksiyalar : 1) təfəkkür ; 2) emosiya ; 3) hiss ; 4) intuisiya hökm sürür . Hər bir funksiyaya adamların müvafiq psixoloji tipi uyğun gəlir . 1) təfəkkür tipi ; 2) emosional tip ; 3)hissedici tip ; 4) intuitiv tip .

Psixoloji tiplər ümumi psixik proseslərlə şərtlənir ki , bunu da K . Yunq ,, kollektiv təhtəlşüur “ adlandırmışdır . Yunqun psixoloji konsepsiyasında müxtəlif sistemlər birləşir . Yunqa görə , insanın daxilində 4 insan yaşayır : ,, Mən “ , ,, Maska “ , ,, Kölgə “ və nəhayət ,, Ruhun obrazı “ . ,, Mən “ – fərdin inkişafıyla bağlı son məqsəddir . ,, Maska “ – şəxsin sosial dərisidir . ,, Mən “ üçün qalxan rolunu oynayan ,, Maska “, eyni zamanda son nəticədə onu simasızlaşdıra bilər . ,, Kölgə “ ,,Mən “ in tutqun və aşağı oxşarıdır . Yunq

analitik psixologiyanın banisidir . O, təfəkkürün inkişaf tarixini əks etdirməyə çalışmışdır .

Freydizmi yeni dövrdə yeni Freydizm kimi təbliğ edən alman – amerikan filosofu , sosioloqu Erix Fromm olmuşdur . Frommun diqqət mərkəzində fərdin subyektiv – şəxsi fəaliyyəti kimi yox , ontoloji fakt kimi götürülmüş insanın mövcudluğunun ziddiyyətləri durur . Fromma görə , insan düşünən varlıq kimi bir tərəfdən azadlığa və müstəqilliyə can atan , digər tərəfdən , azadlığından öz təhlükəsizliyi naminə əl çəkməyə razı olan bir canlıdır .

## Neopozitivizm

XIX əsrdə ən geniş yayılmış cərəyanlardan biri də pozitivizm olmuşdur . Həmin cərəyanın nümayəndələrinin fikrincə , əsas məsələ elmin qarşılıqlı münasibəti məsələsidir . Pozitivizm öz inkişafında iki mərhələ keçmişdir . Birinci mərhələ öz banisi fransız filosofu O . Kontun fəlsəfi məktəbi ilə əlaqədar olmaqla XIX əsrin 30-40-cı illərini əhatə edir . Kontun məqsədi əhatəli şəkildə elmlərin təsnifatını yaratmaq olmuşdur .

Neopozitivistlərə görə , fəlsəfənin əsas məsələsi elm dilinin məntiqi təhlilindən ibarətdir . Bu təhlilin vasitəsi kimi onlar riyazi məntiq və aksiomatik metoddan istifadə etməyi təklif edirlər . Elmə münasibətdə fəlsəfə bu və ya digər konkret elmi nəzəriyyələri təhlil etmək deyil , nəzəriyyə dilinin məntiqi təhlilini yerinə yetirməlidir .

Məntiqi neopozitivizmin əsasları Vyana dərnəyində XX əsrin 30-cu illərində işlənib hazırlanmışdır . Bu dərnəyə tanınmış alim və filosoflar M . Şlik , K . Qedel, A . D . Ayer , K . Karnap və başqaları daxil idi .

Linqvistik təhlil fəlsəfəsinin formalaşmasına Ludviq Vitgenşteynin yaradıcılığı mühüm təsir göstərmişdir . Bu böyük məntiqçi və filosof bir sıra problemlərə toxunsa da , ən çox nitqin məntiqi məsələləri ilə məşğul olmuşdur . Linqvistik fəlsəfəsinin məqsədi kəşf deyil , aydınlaşdırma , həqiqət deyil , əhəmiyyətdir .

Neopozitivizm idrak prosesində yaranan bir çox çətinlikləri aşkara çıxartdı və müəyyən tarixi mərhələlərdə onların həll edilməsinə kömək etdi . Lakin elm daim inkişafdadır və yeni- yeni metodoloji problemlər doğurmağa qadirdir .

## Elm fəlsəfəsi .

Təbiətşünaslıq elmləri , fizika və riyaziyyat elmləri nəticələrinin başa düşülməsinə tələbat , həmin elmlərin strukturunun və onların metodologiyasının izah edilməsi zərurəti fəlsəfənin müstəqil hissələrini təşkil edən çoxsaylı fəlsəfi konsepsiyaların yaranmasına gətirib çıxartdı . Buraya „ riyaziyyatın fəlsəfəsi “ , ,, fizikanın fəlsəfəsi “ , „ biologiyanın fəlsəfəsi “ və s . daxil olmuşdur . Elmin fəlsəfəsinin meydana gəlməsinin əsas səbəblərindən biri neopozitivist elm konsepsiyasının tənqidi təhlilinə olan zərurətlə əlaqədardır .

Dünyanın məhşur təbiətşünaslarından olan H . Bor , M . Plank , B . Geyzenberq və başqaları fəlsəfəyə xüsusi diqqət yetirmişlər . Elm fəlsəfəsinin görkəmli nümayəndələrindən biri , ingilis filosofu Karl Popper hələ vaxtı ilə Vyana dərnəyinin fəal iştirakçısı olmuşdur . Məntiqi pozitivizmin nümayəndəsi olan K. Popper eyni zamanda həmin fəlsəfənin bir sıra müddəalarına tənqidi münasibət bəsləmişdir . Bu tənqiddə başlıca cəhət pozitivizmin naturalizmə və apriorizmə böyük yer verməsi ilə əlaqədardr .

Elm fəlsəfəsinin digər görkəmli nümayəndəsi Amerika filosofu T . Kun hesab olunur . Onun ,, Elmi inqilabların strukturası “ əsəri çox məhşurdur . Burada o , elm problemlərinin təhlilinə mühüm yer vermiş , elmin inkişafının qanunauyğunluqlarını aydınlaşdırıb təhlil etməyə çalışmışdır .

Fəlsəfənin inkişafında elm fəlsəfəsinin mühüm rolu vardır . Hazırda elm fəlsəfəsi daha da inkişaf etdirilir . Kompüterləşmə və informasiya vasitələrinin çoxalması elm fəlsəfəsinin imkanlarını artırmaqdadır .

## Fəlsəfi antropologiya

XX əsrin I yarısında Qərb fəlsəfəsi diqqətini insana doğru çevirdi . Fəlsəfi antropologiya üçün başlıca vəzifə insan idrakının , fəaliyyətinin və etiqadının predmetinə yeni formada yanaşmaqdır . Fəlsəfi antropologiyanın əsas zəmini E. Qusserlinin fenomenoloji fəlsəfəsi və eksiztensializmlə qoyulmuşdur .

Fəlsəfi antropologiya tərəfindən tədqiq olunan konsepsiyalar şərti olaraq iki qrupa bölünür . Bunlar : subyektiv – antropoloji və obyektiv – ontoloji qruplardır .

Öz fikirləri , müddəaları , prinsiplərinə görə fəlsəfi antropologiya cərəyanının nümayəndələri fizikalistlərə , sosiobioloqlara və strukturalistlərə bölünür . Birincilərin baxışlarının əsasını dünyanın fiziki mənzərəsi , fiziki inkişaf qanunlarının dərk edilməsinə oriyentasiya təşkil edir . ( U . Kuayn , C .C . Smart , C . Armstronq ). Sosiobioloqlar insanın davranışı haqqında təsəvvürləri bioloji qanunlarla əlaqələndirirlər . ( K . Lorens , Uilson , P . Qrivers , P . Aleksander ). Strukturalistlərin fikrincə həqiqi mənada tarix yoxdur . İctimai həyat və insanın özü müvafiq bütövlüyün ancaq konkret ifadəsidir . Ona görə də insan azadlığı yoxdur . Bu azadlıq rol və funksiyalarla əvəz olunmuşdur . ( K . Levi – Stross , M . Fuk , J . Derrida ) . 70 – ci illərdə fəlsəfə antropologiyası problematikasının dəyişilməsi müşahidə edilir . Bu dövrdə insan təbiətinin təbii – elmi təhlilinin dairəsinə ruh və mədəniyyət haqqında elmlər də cəlb edilir . Daha doğrusu , ,, yeni antropologiya " haqqında söhbət başlanır . Bu dalğanın nümayəndələri M . Şeler və Q . Plesner idi . M . Şeler ,, İnsanın kosmosda vəziyyəti " əsərində fəlsəfi antropologiyanı insanın mahiyyəti haqqında əsas elm kimi təqdim edir . Q . Plesnerin ,, Üzviliyin pillələri və insan " adlı böyük əsərində insanın mahiyyətinin bəzi aspektləri heyvanlar və bitkilər aləminə münasibət baxımından araşdırılmışdır .

Fəlsəfi antropoloji tədqiqatların sonrakı inkişafı din və mədəniyyət sahəsindəki tədqiqatlarla zənginləşdirilməsi nəticəsində ,, mədəni antropologiya " xətti də inkişaf etməyə başlamışdır .

Fəlsəfi – dini antropologiya isə ( Q . E . Xenqstenberq , F . Xammer ) insana etiqada əsaslanan , öz həyatını allahla münasibətdən asılı olaraq təşkil edən varlıq kimi yanaşır .

## Ekzistensializm .

Ekzistensializmin banisi , XIX əsrin I yarısında yaşamış danimarkalı mistik filosof S. Kyerkeqonun təlimindən istifadə edən alman filosofu Haydeggerdir .

Ekzistensialistlərin irəli sürdükləri ən ümumi problem – həyatın mənası , insanın dünyada yeri və onun özünə həyat yolu seçməsi məsələsindən ibarətdir. ( latınca : eksiztensiya sözü ,, mövcudluq " deməkdir ).

İnsanın mövcud olması faktının insan üçün ən mühüm olduğu irəli sürülür. Şərti olaraq eksiztensialistləri dini və ateist eksiztensialistlərə bölürlər .

Eksiztensializmin həm müsbət , həm də mənfi cəhətləri vardır . Onların fikrincə , mövcudluq insanın özüdür , onun dünyaya gəlişidir . O, nə xeyirxah , nə də bədxahdır . O , xeyirxah və ya bədxah ictimai münasibətlər prosesində olur . İnsan özlüyündə həqiqətdir . İnsanın mahiyyəti ictimai münasibətlərin məcmusudur . Eksiztensialistlər K . Marksı özgələşmə probleminə görə özlərinin sələflərindən biri hesab etmişlər . Özgələşmə problemi eksiztensialistlərdə də mərkəzi problem olmuşdur . Onlardakı özgələşmə insan həyatının cəmiyyətdə əsas xarakteristikası idi .

## Personalizm

Personalizm müasir fəlsəfədə teistik istiqamətdir . Bu fəlsəfədə ilkin yaradıcı reallıq və ali mənəvi sərvət hesab olunur . Şəxsiyyətin yaşadığı və fəaliyyət göstərdiyi dünya Ali şəxsiyyət – Allahın yaradıcılıq fəallığının təzahürüdür .

Personalizmin formalaşması XIX əsrin sonunda Rusiya və ABŞ – da başlamışdır . Personalist fəlsəfənin əsas prinsipləri H. A. Berdyayev və L. Şestov tərəfindən formulə edilmişdir . Sonralar isə həmin ideyalar H. Losskinin , C. Bulqakovun , A. Belının yaradıcılığında öz əksini tapmışdır . Personalizmin Fransada yayılması həmin cərəyanın inkişafında xüsusi mərhələni təşkil edir . Onun ən böyük nümayəndəsi Emmanuel Munyedir .

İdrak sahəsində personalizm ənənəvi fəlsəfənin idrak subyektinin – insanın konkret təzahürləri ilə tam şəkildə antropoloji ümumiliyi ilə əvəz olunması zərurətindən çıxış etmişdir . Eləcə də subyektin fəal rolu qeyd olunur . Şəxsiyyət öz təcrübəsi ilə yeganə reallığı təşkil edir . Lakin şəxsiyyətin mənbəyi özündə deyil , allahdadır .

XX əsrin I yarısında personalizm yeni prinsiplərlə inkişafa qədəm qoymuşdur . Fransız personalizminin banisi E. Munye marksizmin və ekzistensializmin təsirini qeyd etmişdir . Qarşısına bitkin fəlsəfi təlim yaratmaq məqsədi qoymayan E. Munye şəxsi mövcudluğun probleminin işlənməsinin üsullarını axtarmağa cəhd etmişdir . Bir sözlə başqa XX əsr fəlsəfi cərəyanları kimi , şəxsiyyət problemi personalizmin əsas tədqiqat problemi olmuşdur .

## Praqmatizm.

XX əsrin ən geniş yayılmış fəlsəfi cərəyanlarından biri praqmatizmdir . Bu cərəyan ABŞ – da yaranmışdır . Yunanca praqma sözündən olub , mənası iş , əməl deməkdir . Bu cərəyanın banisi Amerikanın görkəmli məntiqçisi Çarlz Pirsdir . Onun ən məhşur əsərlərindən biri ,, Praqmatizm nədir ? “ əsəridir .

Praqmatizm daim işdən , əməldən danışır , ideyaların və nəzəriyyələrin əməli surətdə yoxlanılması lüzumunu göstərir . C. Pirs mürəkkəb və ziddiyyətli bir fəlsəfi sistem yaradaraq , burada bəzi elmi təsəvvürləri dinin mənafeyi ilə əlaqələndirməyə çalışmışdır .

Uilyam Ceyms bilik əvəzinə qeyri – şüur irrasional etiqada sahib olmağı , hər şeydən əvvəl , məntiqi təfəkkürü rədd edən dini etiqad sahibi olmağı təklif edir .

Praqmatistlərə görə , təfəkkür insana bilik vermir , ona yalnız çətin vəziyyətdən çıxmaq və müvəffəqiyyət qazanmaq bacarığını öyrədir . Əgər ideya və ya nəzəriyyə müvəffəqiyyət qazanmağa imkan verirsə , yaxşıdır , yəni düzgündür ; əgər buna imkan vermirsə , pisdir , yəni səhvdir .

Praqmatizm dinin müddəalarını çox faydalı , buna görə də düzgün hesab edir . Praqmatistlər fayda prinsipini yalnız idraka deyil , həmçinin mənəvi və əməli fəaliyyətin bütün formalarına şamil edirlər .

## Neotomizm .

Neotomizm Akvinalı Fomanın ideyalarını inkişaf etdirən dini – fəlsəfi təlimdir . Neotomizm XX əsrdə daha sürətlə yayılmış böyük və nüfuzlu cərəyandır . Onun tərəfdarları qeyd edirlər ki , ,, yalnız din nicat verə bilər “. Neotomistlər təliminin ən ümdə əsası bundan ibarətdir ki , allah aləmin xaliqi və külli – ixtiyar sahibidir . Neotomistlərin fikrincə , həqiqəti dərk etməyin üç forması vardır : elm , fəlsəfə və din . Bu formaların ən aşağısı elmdir . Onlara görə elmin verdiyi bilik mötəbər deyildir . Elmdən fərqli olaraq fəlsəfə aləmin mövcudluğunun səbəbini mənəvi başlanğıc , aləmi yaradan Allahla bağlayır . Neotomistlərin təliminə görə , ali həqiqət yalnız dini iman yolu ilə dərk edilir .

Neotomistlərin ən görkəmli nümayəndələri J. Mariten , E. Jilson , Q.Better, Y.Boxenski hesab olunur . Ümumiyyətlə , neotomizm təlimi müxtəlif fənnlər sisteminə əsaslanır . Onlardan metafizika , naturfəlsəfə , etika , estetika , sosiologiya və s. – ni göstərmək olar .

## Sovet fəlsəfəsi .

XX əsrin Sovet dövrü fəlsəfəsini üç mərhələyə bölmək lazımdır .

I mərhələni şərti olaraq 1922 – 1930 – cu illərlə əlaqələndirmək mümkündür . Bu dövr diskussiya və mübahisələr dövrü hesab edilir . Bu dövr mübahisəsinə V. İ. Leninin 1922 – ci ildə çapdan çıxan ,, Mübariz materializmin əhəmiyyəti haqqında " əsəri daha çox səbəb olmuşdur . Bu əsərdə əsas ideya mübariz materializm anlayışında ifadə edilmiş fəlsəfənin marksist partiyalılığı ideyasıdır . Bu , kütlələr içərisində dialektik materialist dünyagörüşünü , xüsusilə ateizm təbliğatını gücləndirməkdən ibarətdir . Bir sözlə , 20 – 30 cu illər fəlsəfəsi qızğın diskusiyalar dövrüdür .

Bu dövrdə İ. Stalin , A. Boqdanov ,M. Baxtin ,A. Losev , Q. Şpet , L. Vıqotski , V. Vernadski , S. Rubinşteyn , A. Leontyevin və digər nümayəndələrin fəaliyyəti olmuşdur .

II mərhələ 1930 – 1953-cü illəri əhatə edir . Bu dövrdə Moskvada , Leninqradda , universitetlərdə fəlsəfə fakultələri yaranır . 1947-ci ildən ,, Fəlsəfə məsələləri " jurnalı çap olunmağa başlayır . Bütün bunlara baxmayaraq bu dövr nəzəri tənəzzül dövrü , bu və ya digər müəllifə qarşı çıxmağa məcbur olmaq dövrüdür .

III mərhələ Stalinin ölümündən başlayaraq SSRİ – nin dağıdılmasına qədər davam etmişdir . 60 – cı illərdən başlayaraq fəlsəfi fikirdə böyük bir canlanma hiss olundu . 1956 – cı ildən fəlsəfəni müstəqil predmet kimi nəinki humanitar ali məktəblərdə , həmçinin digər universitetlərdə də keçməyə başladılar . Bu dövr filosoflarından M. Rozental , E. İlyenkov , L. Mankovski , N. Lapin , B. Kedrov və başqalarının adlarını çəkmək olar .

Eyni zamanda bu dövrdə dialektik məntiq məktəbi J.Abdildin , Z. Orucov , V. Bosenko , elmlərin metodologiyası sahəsində A. Spirkin , V.Tuqarinov , P. Kopnin , M. Kaqan və başqa filosoflar fəlsəfəni inkişaf etdirmişlər .

## IX Mövzu

## Varlıq ən ümumi realıq və fəlsəfənin əsas kateqoriyasıdır. Materiyanın fəlsəfi anlamı

Varlıq fəlsəfənin ən fundamental və ən ümumi kateqoriyalarındandır. Varlıq probleminin mənasını anlamaq üçün, hər şeydən əvvəl, onun insanların real həyatı və praktikasındakı köklərini aşkara çıxarmaq lazımdır. Varlıq haqqındakı insan təsəvvürləri mənşəcə qədimdir. Cəmiyyət əmələ gəldiyi ilkin dövrlərdən gerçəklik, mövcudluq, varlıq haqqındakı mifoloji-dini səciyyədə olsa da, müəyyən təsəvvürlər olmuşdur. Gerçəklikdə baş verən hadisələri – insanın doğulması, yaşaması, ölümü, yaranma və yoxolma hadisələri, təbiətdə, xüsusilə bitki və heyvanlar aləmində baş verən proseslər və i.a. hamısı insanın gözü qabağında baş verir. İbtidai insan və ümumiyyətlə, empirik bitki səviyyəsində yaşayan insan bütün bu hadisə və prosesləri idarə edən varlıq, bütöv dünyanın varlığı və mövcudluğu haqqında təsəvvürlərə malik olur, özünün varlıq anlayışını formalaşdırır. Sonralar insanda fövqəltəbii varlıqlar, təbiəti və cəmiyyəti yaradan və idarə edən ilahi varlıq haqqında baxışlar formalaşır. Nəhayət, insan maddi və mənəvi dünyanı vəhdətdə əhatə edən real varlıq, obyektiv mövcudluq haqqında elmi-fəlsəfi təsəvvürlərə yiyələnir. Deməli, varlıq, dünya, mövcudluq, yaşayış, ölüm, ölməzlik haqqında təsəvvürlərin ifadəsi kimi ən ümumi şəkildə varlıq anlayışı insan zəkasını həmişə məşğul etmişdi.

İnsanların hər cür fəaliyyəti doğruluğu heç bir şübhə oyatmayan ən sadə və anlaşıqlı ilkin şərtlərə, prinsiplərə əsaslanır. Bunlardan ən ilkin və universal olanı isə insanın onu əhatə edən aləmin mövcudluğuna, varlığına təbii inamıdır. Aydındır ki, dünyanın varlığı haqqındakı məsələ yalnız onda problem xarakteri ala bilər ki, insanın bu inamı şübhə altına alınmış olsun.

Bizi əhatə edən aləmin mövcudluğu faktı nə qədər şəksiz və açıq-aşkar görünsə də, ciddi nəzər saldıqda aydın olur ki, bu faktın sübut edilməsi o qədər də asan iş deyildir. İnsanın gündəlik həyat təcrübəsindən ona predmet və hadisələrin varlığı, mövcudluğu bəllidir. Subyektin müşahidə hüdudlarından kənarda varlıq, ümumiyyətlə desək, açıq məsələdir. Dünyanın məkan və zaman etibarı ilə hüdudsuzluğu ideyası da özlüyündə açıq-aşkar deyildir. Əksinə, insan həyatının konkret məkan və zaman hüdudları ilə məhdudlaşması insana dünyanın sonsuzluğu deyil, daha çox sonlu, məhdud olması ideyasını təlqin edir.

Hər bir fəlsəfi kateqoriya digər kateqoriyalardan heç birinin əhatə etmədiyi xüsusi məzmunu ifadə edir. Varlıq kateqoriyasının xüsusiyyətni nəzərə çapdıraraq, İ.Kant qeyd edir ki, o, predmetin heç bir konkret xassəsini ifadə etmir. Bu kateqoriya predmet və hadisələri, onların xassə və münasibətlərini vahid bir əlamət – «mövcud olmaq» əlaməti əsasında birləşdirir. Lakin şeylərin onların mövcud olması baxımından nəzərdən keçirilməsi onlarda heç bir yeni xassə aşkara çıxarmır və ya onlara heç bir konkret xassə istinad vermir. Yəni, «mövcud olmaq» obyektdəki hansısa konkret xassənin ifadə deyildir. Bunu əsas götürərək bəzi mütəfəkkirlər varlıq kateqoriyasını məzmunsuz bir məfhum kimi fəlsəfi kateqoriyalar sistemindən çıxarıb atmağı təklif edirlər. Lakin yaddan çıxarmaq lazım deyil ki, fəlsəfi kateqoriyaların spesifikliyi məhz ondadır ki, onlar predmet və hadisələr arasındakı konkret əlaqələri (onların konkret xassələrini) deyil, ən ümumi, universal əlaqələri və xassələri əks etdirirlər. Varlıq kateqoriypası da məhz bu cür universal əlaqəni – predmetlərin, hadisələrin, ideyaların və s. Mövcudluğunu özündə ifadə edir. Sözün ən geniş mənasında varlıq son dərəcə əhatəli reallığı, obeyktiv mövcudluğu, insan şüurundan asılı olmayan gerçəkliyi bildirən ən ümumi fəlsəfi kateqoriyadır. Varlıq – dünyanın real mövcudluğunun məcmusu, təbiət və cəmiyyətin, maddi və mənəvi aləmin vəhdətinin ən ümumi ifadəsini bildirən fəlsəfi kateqoriyadır. Maddi predmetlər, proseslər, xassələr, əlaqə və münasibətlər, miflər, nağıl və əfsanələr, ictimai-siyasi, elmi və s. İdeyalar – bütün bunlar hamısı varğılın müxtəlif növləridir. Göründüyü kimi, varlıq kateqoriyası özündə həm maddi, həm də mənəvi, ideal olanı əhatə edir.

Daha konkret olaraq varlığın növlərini belə qruplaşdırmaq olar: a) təbii və ya maddi varlıq. Buraya insanı əhatə edən maddi gerçəklik daxildir ki, onun da iki aspektini qeyd etmək olar: təbii mühit və insan əməyi ilə yaradılmış «süni mühit» və ya «ikinci təbiət». Bunu insan şüurundan asılı olmayan təbii – maddi mövcudluq da adlandırmaq olar; b) mənəvi və ya ideal varlıq. Burayan insanı əhatə edən mənəvi aləm, ideal mövcudluq: mədəniyyət, elm, incəsənət, adət-ənənələr, ideoloji formalar və s. Məcmusu daxildir; c) əsasında ictimai istehsal prosesi və ictimai münasibətlərin, sosial-siyasi strukturların durduğu sosial-siyasi varlıq. Buraya cəmiyyətin bütün sosial-siyasi strukturların, ictimai, siyasi, sinfi, mifli və i.a. proseslərin idarə edilməsi və s. Bağlı insan fəaliyyəti sahələri daxildir; ç) insanın obyektiv real mövcudluğu və ya insan varlığı. Bunu da iki qismə ayırmaq olar: ictimailəşmiş insan – şəxsiyyət aləmi və fərdiləşmiş insan – fərd aləmi.

Varlıq kateqoriyası öz mahiyyəti etibarilə dərin dlialektik təbiətə malikdir. Varlığıq bu dialektik təbiətini Hegel hərtərəfli şəkildə tədqiq edərək aşkara çıxarmışdır. O yazırdı: «Əgər biz dünyanı nəzərdən çeçirərək yalnız «o mövcuddur», - deyib, artıq heç nə əlavə etmiriksə, onda biz bütün müəyyən olanı nəzərdən qaçırır və deməli, mütləq dolğunluq əvəzinə, mütləq boşluq əldə edirik».

### *Materiya anlayışının formalaşması və mahiyyəti*

Materiya haqqındakı təsəvvürlərdə öz kökləri etibarilə mədəniyyətin ağlagəlməz qədimliyinə aparıb çıxarır. Həqiqi və illüzor aləmlər, varlıq və yoxluq, əbədi və fani arasındakı fərqin kifayət qədər müəyyən şəkil almış ifadəsinə Qədim Şərqin qorunub sazlanmış yazılı abilələrində rast gəlmək mümkündür. Qədim hind mədəniyyətinin ilk abidələrindən olan «Bhaqavadqita» fəlsəfi poemasında Allah Krişna epik qəhrəman Arcunaya varlığın mənası və mahiyyətini, həqiqi, əbədi varlıqla keçici və fani yer aləmi arasındakı fərqi izah edir. Bütün mövcudatın əsasını təşkil edən əbədi olanla müvəqqəti olanın qarşılaşdırılması Qədim Çin fəlsəfəsinin nüfuzlu cərəyanlarından olan daosizm üçün də xarakterikdir. Materiya haqqındakı fəlsəfi təlim öz mənşəyinə görə qədim insanların zamanca başlanğıcı olmayan, yəni heç kim tərəfindən yaradılmamış və bütün dəyişmə və çevrilmələrində həmişə özünə bərabər qalan, heç vaxt yox olmayan əbədi varlığın mövcudluğan inamı ilə bilavasitə bağlıdır. Tarixən bu inam öz ifadəsini bütün mövcudatın əsasın təşkil edən «ilk başlanğıc» konsepsiyasında tapmışdır: dünyada mövcud olan hər şey zaman etibarilə başlanğıcı və sonu olmayan əbədi varlığın – ilk başlanğıcın – müxtəlif şəkil dəyişmələrindən başqa bir şey deyildir. Bu mütləq ilk başlanğıc kainatın, Kosmosun sanki ilk tikinti materialı, ilk «kərpicliyi» kimi təsəvvür olunaraq belə güman edilirdi ki, məkan və zamanca sonlu olan konkret predmetlər nəinki öz başlanğıcını bu ilk «kərpiciklərdən» götürür, həmçinin yox olub gedərkən də həmin ilk maddəyə çevrilir – dünya ilk başlanğıcın əbədi dövranından başqa bir şey deyildir. Kainatın strukturu haqqındakı təsvir etdiyimiz bu mənzərə özünün ən qabarıq və klassik ifadəsini Qədim Yunan fəlsəfəsinin ilk məktəblərində tapmışdır. Qədim Milet fəlsəfəsi məktəbinin banisi Fales dünyanın ilk, mütləq başlanğıcını, «əsasını» sudan, Anaksimen havadan, Heraklit və başqaları ilə oddan ibarət hesab edirdi. İlk başlanğıc kimi götürülən hər üç maddənin

xarakterik cəhəti ondan ibarətdir ki, onların hamısı insanlara məlum olan konkret predmetlərlə müqayisədə kifayət qədər qeyri-müəyyən struktura və xarici görünüşə malikdir. Məsələn, suyun konkret predmetlər qədər dəqiq müəyyən forması yoxdur, onun aldığı forma suyun özünün deyil, onun doldurulduğu qabın formasıdır. Dünyanın ilk əsası olan varlığın qeyri-müəyyən formada təsəvvür olunması təsadüfi deyildir. Əvvəla, dəqiq müəyyən struktura və konkret formaya malik olan predmetin öz dəyişmələri və çevirmələri vasitəsi ilə bir-birindən ən müxtəlif əlamətlərinə görə fərqlənən saysız-hesabsız cisimləri necə yaratdığını məntiqi cəhətdən ardıcıl və ziddiyyətsiz yolla izah etmək çox çətindir. İlk başlanğıc kimi götürülmüş predmetin dəqiq strukturu və forması onun başqa cisimlərə çevrilməsinə «müqavimət göstərir». Digər tərəfdən, gündəlik həyat təcrübəsi göstərir ki, insana məlum olan bütün konkret əşyaların hamısı onlapr üçün sanki «tikinti materialı» rolunu oynayan başqa cisim və ya maddədən, məsələn, heykəl mərmər qaya parçasından, fincan şüşədən, stol ağacdan və s. hazırlanmışdır. Bu axırıncılar, yəni «tikinti materialları» üçün xarakteri olan bir cəhət vardır: onların hansısa müəyyən formaya malik olması sanki heç bir əhəmiyyət kəsb etmir. «Bu stol ağacdan hazırlanmışdır» dedikdə, ağacın forması tamamilə qeyri-müəyyən, mücərrəd reallıq kimi canlanır. «Material» o vaxt konkret əşyaya çevrilir ki, ona konkret struktur və forma verilir, deməli, buna qədər o, formaca qeyri-müəyyən varlıq kimi çıxış edir. Buna görə də bütün mövcudatın ilk tikinti materialı kimi götürülən «ilk başlanğıclar» elə obyektlərdən seçilməli idi ki, onlar konkret predmetlərlə müqayisədə kifayət qədər qeyri-müəyyən formaya malik olsun.

Lakin hansısa obyektin ilk başlanğıc seçilməsindən asılı olmayaraq, onlar hər halda təbiətdə mövcud olan konkret təbii maddələr ili və buna görə də onlar formaca az-çox qeyri-müəyyən olsalar da, tam keyfiyyət müəyyənliyinə malik idilər, Qədim yunan fəlsəfəsinin başlanğıc mərhələsi üçün bu tamamilə təbii hal kimi qiymətləndirilməlidir, belə ki, mifoloji dünyagörüşün bütün başlıca stereotiplərini hələ tamamilə qoruyub saxlayan təfəkkür hər cür ən ümumi və mücərrəd olanı yalnız əyani şəkildə təsəvvür oluna bilən hissi-konkret predmet şəklində qavraya bilərdi. Öz mahiyyəti etibarilə özünü mücərrəd bir mütləq qeyri-müəyyən varlıqla eyniləşdirməyə «çalışan» ilk başlanğıc ideyası, hələlik, əsasən əyani obrazlarla iş görməyi bacaran qədim yunan təfəkküründə yalnız keyfiyyət müəyyənliyinə malik olan varlıq şəklində reallaşa bilərdi. Buna görə də təfəkkürün hələ əyani-obrazlı xarakter daşıdığı bir dövrdə «ilk başlanğıc» yalnız keyfiyyət müəyyənliyinə malik olan obyekt şəklində düşünülə bilərdi.

Təfəkkür əyani obrazlardan azad olduqca «ilk başlanğıc» ideyası da daha mücərrəd formada meydana çıxır. Qədim yunan atomistlərinin təlimində bu öz ifadəsini onda tapır ki, əgər Milet fəlsəfəsində və Heraklitdə ilk başlanğıc formaca, yeni qeyri-müəyyənliyi də kəsb edir. Levkipp və Demokrit atomlara konkret cisim və əşyaların malik olduqları heç bir keyfiyyət xarakteristikası isnad vermirlər. Atomların varlığı onların yalnız kəmiyyət müəyyənliyi ilə – onların müxtəlif həndəsi formala malik olması ilə müəyyənləşir. Keyfiyyətcə qeyri-müəyyənlik kəmiyyət qeyri-müəyyənliyinə münasibətdə predmeti daha da çox qeyri-müəyyən etdiyinə görə və «ilk başlanğıc» ideyası məntiqi cəhətdən yalnız mütləq qeyri-müəyyən varlıq kimi düşünülə bildiyinə görə atomistlərin təlimini həmin ideyanın inkişafında növbəti mərhələ kimi qiymətləndirmək olar.

Qədim yunan atomistlərinin mütləq varlıq konsepsiyası yunan fəlsəfəsinin iki nüfuzlu cərəyanının – Milet və Eley fəlsəfəsi ənənələrinin maddi təsiri altında formalaşmışdır. Əgər milet məktəbindən olan filosoflar mütləq, əbədi varlığı «ilk başlanğıc» şəklində hissi predmetlər dünyasında axtarırdılarsa, eley məktəbi, əksinə, mütləq varlığın keçici, dəyişkən hissi predmetlər aləmində mövcud olmasını qəti inkar edirdilər. Parmenidin vahid varlığı hisslərlə qavranıla bilməz; o yalnız ağla gətirilə bilər, onlara görə «Təfəkkür və haqqında fikir söylənən predmet eyni bir şeydir». Atomistlər, bir tərəfdən milet məktəbindən gələn ənənəyə sadiq qalaraq, mütləq varlığı «dünya binasının» ilk «kərpicləri» olan ilk başlanğıclar – atomlar kimi təsəvvür edir, digər tərəfdən isə Eley filosofları kimi mütləq varlığın hissi predmetlər aləmində mövcudluğunu inkar edirdilər. Atomistlərə görə atomlar hisslərlə deyil, yalnız zəka ilə dərk oluna bilərlər. Lakin eleylilərdən fərqli olaraq, atomistlər mütləq varlığı hissi predmetlərdən keçilməz sədlə ayırmırlar: atomlar yalnız həddən artıq kiçik olduqlarına görə zisslərlə qavranmağa müyəssər deyillər.

Mütləq varlığın başlanğıcını Eley fəlsəfəsindən götürən və atomistlərin təlimində öz təsirini buraxan ikiləşməsi, onun maddi və formal (ideal) komponentlərə bölünməsi prosesi Platon və Aristotel sistemlərində özünün ən yüksək pilləsinə çatır.

İlk başlanğıcın qeyri-müəyyənliyi prinsipinin inkişafı Platon və Aristoteldə son mərhələyə çatır. Materiya kəmiyyət və keyfiyyətcə mütləq qeyri-müəyyənlikdən ibarət olan və buna görə də Platonun «qaranlıq başlanğıc», «yoxluq» və s. kimi neqativ epitetlərlə xarakterizə etdiyi bir aləmdir. Platona görə materiyanın bu mütləq «narahatlığı», qeyri-dayanaqlığı hissi predmetlər aləmində hökm sürən dəyişkənliyi və keçiciliyi şərtləndirir. Beləliklə, hətta

ardıcıl idealist Platon belə materiya kateqoriyasına müraciət etmədən keçinə bilmir. Platonda materiya, miletlilərdə ruh, Heraklitdə loqos, pifaqorçularda ədəd, Anaksaqorda Nus (ağıl), Empedoklda məhəbbət və nifrət şəklində öz əksini tapan formal başlanğıc – ideya dünyanı izah etməyin maddi başlanğıc prinsipi kimi çıxış edir. Platon və Aristotel passiv, formasız materiyanı onu idarə edən fəal, yaradıcı başlanğıca qarşı qoyurdular. Bu qarşıqoymanın aradan qaldırılması İntibah dövrü fəlsəfəsindən başlanır. Materiya ilə yaradıcı, ilahi qüvvələrin əzəli və ayrılmaz vəhdətinə olan panteist inam hərəkət və inkişafın materiyaya daxilən xas olması haqqındakı fəlsəfə konsepsiyasının başlanğıcını qoydu.

Materiya haqqındakı təsəvvürlərin inkişafında yeni dövrün xarakterik xüsusiyyəti diqqəti mütləq varlığı bütün mövcudatın əsasını təşkil edən ilk başlanğıc şəklində axtarmaq üzərində deyil, bu varlığın ayrılmaz xassələrinin – atributlarının axtarılıb tapılması üzərində cəmləşdirilməsidir. Dekara görə, materiyanın bu əsas xassəsi uzunluqdur. Lokkun fikrincə, «materiya ideyası uzunluğa və sıxlığa malik substansiyadan ibarətdir; belə substansiya olan hər yerdə materiya və onun mahiyyəti vardır». Materiya xassələrin daşıyıcısı olan substrat, xassələr isə bu substrata sanki mexaniki şəkildə «bənd edilmiş» və çox vaxt müstəqil mövcudluq kimi düşünülən reallıqlar şəklində təsəvvür olunurdu. Təsadüfi deyildir ki, yeni dövr materializminin banisi F.Bekon materiyanı hissi olaraq qavranıla bilən xassələrin – «sadə təbiətlərin» məcmusu hesab edirdi. Materiya ilə onun xassələri arasındakı qarşılıqlı münasibətin belə anlaşılması metafizik təfəkkürün birtərəfliliyi və mexaniki mhdudluğu ilə şərtlənirdi. Xassə kateqoriyasının materiyaya münasibətdə bu cür sərbəst təfsiri başqa bir ifratçılığa – materiyanı duyğular kompleksindən ibarət hesab elən berkliçiliyə gətirib çıxarmaya bilməzdi. Berkli və onun ardıcılları xassəni subyektiv şəkildə şərh edərək onu duyğularla eyniləşdirirdi.

Lakin bütövlükdə yeni dövr fəlsəfəsi üçün materiyanı xassələrin daşıyıcısı olan, kəmiyyət və keyfiyyət cəhətdən mütləq qeyri-müəyyənliyi üzündən bizə naməlum qalan substrat şəklində anlamaq meyli xarakterik idi. Empirik baxımdan tam naməlum olan belə mücərrəd varlığın qəbul edilməsi yeni dövr fəlsəfəsinin ruhuna qətiyyən uyğun gəlmirdi və buna görə də daha adekvat konmepsiya ilə əvəz olunmasını tələb edirdi. Bu tələbat XVIII əsrin görkəmli fransız filosofu Holbax tərəfindən müvəffəqiyyətlə və parlaq şəkildə ödənildi. Son dərəcə universal həcmə malik olan materiya kateqoriyasının mahiyyətini yalnız ona əks olan kateqoriya ilə – subyektlə münasibətini aşkara çıxarmaqla

aydınlaşdırmaq olardı. Bu münasibətin isə iki başlıca momenti vardır: 1) materiya subyektdən kənarda, ondan asılı olmayaraq mövcuddur və 2) materiya subyektə təsir edərək onda duyğu oyadır. Holbax tərəfindən materiyaya verilən tərif məhz bu iki cəhəti özündə birləşdirir: «Bizə münasibətlə materiya, ümumiyyətlə, bizim hisslərimizə hansı yollasa təsir göstərən bütün şeylərdir …».

Sonralar bu tərif dialektik materializm tərəfindən bütünlüklə mənimsənilərək, sistematik təlimə çevrildi. Marksist fəlsəfi kosepsiya bunlara əsaslanaraq materiyaya «insanı əhatə edən obyektiv reallıq» və s. kimi təriflər verilmişdir. Nəhayət, dialektik materialist fəlsəfədə materiyanın belə tərifi meydana çıxmışdır: «Materiya – insana öz duyğuları ilə verilən, duyğularımızdan asılı olmayaraq mövcud olan və duyğularımızda əks olunan, surəti alınan, şəkil alınan, inikas edən obyektiv reallığı göstərmək üçün fəlsəfi bir kateqoriyadır».

Holbaxın tərifinin və materiyanın marksist anlayışının mühüm metodoloji və nəzəri əhəmiyyəti ondadır ki, o, materiyanı heç bir «ilk başlanğıc» və konkret cisimlə eyniləşdirmir. Materiyanın hansısa "ilk başlanğıcla" eyniləşdirməyin perspektivsizliyi və yarasızlığı müasir mikroaləmin fizikasının və verdiyi məlumatlar baxımından xüsusilə aydın görünür. Məlum olur ki, bütün təbiətin «qurulduğu» heç bir mütləq, ən elementar ilk obyekt mövcud deyildir. Elmin son vaxtlara qədər elementar, yəni struktursuz qəbul etdikləri hissəciklərin özlərinin mürəkkəb quruluşa malik olduqları aşkara çıxmışdır.

Materiyanın yeganə əsas xassəsi onun maddiliyidir. Bəzən maddiliklə «obyektiv reallıq» kateqoriyalarını eyni mənada işlədirlər. Lakin predmet və hadisələr arasında elə münasibətlər vardır ki, onların mövcudluğu subyektdən asılı deyildir (məsələn, məkan və zaman münasibətləri). Materiyanın «yeganə xassəni obyektiv reallıq» hesab etmək belə münasibətlərə materiya statusu vemək deməkdir. Deməli, «maddilik» təkcə obyektiv reallıqla yanaşı, mateianın ən ümumilik, tükənməzlik, yaradılmazlıq, sonsuzluq, daim hərəkətd olmaq, əbədilik və s. kimi fəlsəfi xassələrinin də olduğunu qeyd etmək olar.

## *Hərəkət*

İnsanların gündəlik təcrübəsi və təbiətşünaslığın verdiyi faktlar belə bir ümumfəlsəfi nəticə çıxarmağa imkan verir ki, dünyada mütləq sükunətdə olan

heç bir reallıq mövcud deyildir. Bizi əhatə edən hər bir predmet və hadisədə həmişə bir-birin əks olan iki momenti görmək mümkündür: bir tərəfdən obyekt öz keyfiyyət müəyyənliyini, bütövlüyünü və dayanıqlığını müəyyən zaman intervalı ərzində qoruyub saxlayaraq, sanki özünə bərabər qalır. Digər tərəfdən isə bəşər praktikası sübut edir ki, əbədi olan heç nə yoxdur; obyektin özünün-özünə bərabər qalması nisbi xarakter daşıyır, çünki onda baş verən aramsız dəyişiklik prosesi gec-tez predmetin yox olub getməsinə, yeninin yaranmasına gətirib çıxarır. Predmet və ya hadisənin sabitliyi, onun dayanıqlığı müvəqqəti, bu dayanıqlığın pozulmasına gətirib çıxaran dəyişmələr isə arasıkəsilməz proses olduğundan obyektlərin zəruri tərəfləri kimi çıxış edən sükunət momenti nisbi, dəyişkənlik isə mütləq xarakter daşıyır. Dünyaya olan bu dinamik baxış tarixən müxtəlif formalar alan fəlsəfi zərəkət konsepsiyasını meydana gətirmişdir.

Fəlsəfələ hərəkət dedikdə, ümumiyyətlə, hər cür dəyişkənlik başa düşülür. Materializmə görə dünya yalnız materiyadan, onun hallarından və xassələrindən ibarət olduğundan və qeyd etdiyimiz kimi, dəyişkənlik prosesindən kənarda heç bir şey mövcud olmadığından hərəkət materiyanın atributu, onun «mövcudluq üsulu» kimi anlaşılır. Lakin hərəkət kateqoriyasının belə geniş təfsiri bütün tarixi dövrlər üçün xarakterik deyildir.

Milet məktəbi üçün hərəkət problemi mövcud deyildir, çünki dünyanın daxili fəallığı və hərəkətliyi heç bir sübuta ehtiyacı olmayan özlüyündə aydın bir fakt kimi təsəvvür olunurdu. Belə bir dünyaduyumu, ümumiyyətlə dəyişkənlik kimi başa düşülən, mücərrədi hərəkət kateqoriyasını doğura bilməzdi. Təsadüfi deyildir ki, ilk yunan filosoflarının əsərlərindən bizə qədər gəlib çatmış fraqmentlərin heç birində hərəkəti ifadə edən mücərrəd terminlərə rast gəlmirik. Məsələn, Anaksimandr heç vaxt dünyanın ilk başlanğıcını – apeyronu əbədi hərəkətdə olan varlıq kimi deyil, «qocalmayan», «ölməyən» və «məhv olmayan» kimi xarakterizə edir. Hətta qədim yunan dialektikasının nəhəng siması olan Heraklit belə «hərəkət», «dəyişiklik» və s. kimi mücərrəd sözlər işlətmir; universal ümumdünya prosesini o, «yuxarı-aşağı yol» - oddan dünyanın təşəkkül tapması və axırıncının yenidən oda çevrilməsi kimi ifadə edir.

Hərəkət və sükunət haqqındakı məsələni ilk dəfə olaraq yalnız Eley filosofları diskussiya predmetinə çevirdilər. Bu vaxta qədər sarsılmaz və özlüyündə aşkar bir həyat faktı qavranılan hərəkətin mövcudluğuna olan «anadangəlmə» inam şübhə altına alındı. Eley fəlsəfəsi hərəkət məsələsini məhz bu problem kimi bütün kəskinliyi ilə qədim yunan mütəfəkkirləri qarşısında qoydu. Lakin Eley məktəbi hərəkət problemini yalnız qoymaqla kifayətlənərək,

onu nəzəri təhlilə cəlb etmədi. Fəlsəfi hərəkət konsepsiyasının formalaşmasında son dərəcə mühüm bir addımı Empedokl və Anaksaqor atdılar: onlar ilk dəfə olaraq hərəkətin mənbəyi (Empedoklda məhəbbət və nifrət, Anaksaqorda ağıl, «nus» formasında) kimi fundamental məsələ qaldırdılar. Sözün tam mənasında ümumi dəyişkənlik prosesinin heç bir konkret növünə (mexaniki yerdəyişmə, keyfiyyətcə dəyişmə, yaranma, yoxolma və s.) müncər edilməyən və intuitiv olaraq ümumiyyətlə «dəyişmə» kimi qavranılan mücərrəd «hərəkət kateqoriyası ilə ilk dəfə pifaqorçuların, xüsusən Filolayın təlimində rastlaşırıq. Hərəkət haqqında ilk sistematik nəzəri təlimi isə yalnız Platon, xüsusən də Aristotel yaratdılar. Onlarda hərəkət haqqında pifaqorçuların dərin mənası olan intuitiv təsəvvürlərinin yerini hərəkət kateqoriyasına verilən dəqiq nəzəri təriflər əvəz etdi. Burada yalnız Aristotelin tərifini vermək kifayət edər: «Hər bir növdən olan mümkün varlıqla gerçək varlıq fərqləndiyinə görə mən hərəkət dedikdə, imkan şəklində olanın həyata keçməsini başa düşürəm».

## *Məkan və zaman*

Dünyada mövcud olan predmet və hadisələrə müəyyən tərəflərdən ölçü anlayışını tətbiq etmək mümkündür. Bu ölçü ən müxtəlif xarakter daşıya bilər. Ölçü olaraq cisimlərin uzunluğunu, enini, hündürlüyünü, onların həcmlərini nəzərdə tutmaq mümkündür. Predmetlər bir-birinə nəzərən müxtəlif vəziyyətlərdə – yuxarıda, aşağıda, solda, sağda və s. yerləşə bilərlər. Cisimlərin malik olduqları bu xassə və münasibətlər məkan kateqoriyasının məzmununu təşkil edir.

Predmet və hadisələrin nisbi sabitliyinin, dayanıqlığının, keyfiyyət bütövlüyünün də ölçüsü vardır. Həmin ölçü predmetin və ya prosesin mövcudluq, davametmə müddətini ifadə edir və sürəklik adlanır. Cisim və hadisələr nəinki öz yerləşmələrinə görə, həmçinin universal yaranma və yox olub getmə aktlarına nəzərən də bir-biri ilə müəyyən münasibətlərdə olurlar. Bu axırıncılar öz əksini «əvvəl», «sonra», «gec», «tez» və s. kimi anlayışlarda tapır. Obyekt və proseslərin sürəkliyi və onlar arasındakı «gec», «tez» qəbildən olan münasibətlər zaman kateqoriyasının mahiyyətini təşkil edirlər.

Məkan və zaman varlığın ən xarici və bilavasitə bəlli olan xarakteristikaları olduqlarına görə, dialektik materializm onları materiyanın mövcudluğunun obyektiv-real formaları kimi nəzərdən keçirir.

Deməli, məkan və zaman varlığın, materiyanın mövcudluğunun obyektiv real formalarıdır. Gerçəklikdəki bütün cisim və proseslər müəyyən məkan və zamanda mövcuddurlar. Məkan – maddi cisimlərin və hadisələrin müəyyən yer tutumuna malik olmasını, cisimlər arasında xüsusi surətdə yerləşməsini ifadə edir. Zaman isə cisim və hadisələrin müəyyən ardıcıllıq və sürəkliklə davam etməsini, dövrlər, mərhələlər üzrə inkişaf etməsi xassəsini ifadə edir. Məkan-zaman obyektivdir, insan şüurundan asılı deyildir. Məkan-zaman sonsuzdur, tükənməzdir, onların sonsuzluğu konkret cisim və hadisələrin sonluğunun vəhdətindən, məcmusundan yaranır. Gerçəklikdəki bütün cisim, hadisə və poseslər dördölçülü məkan-zaman xassələrinə malikdir. Bu o deməkdir ki, hər bir maddi cismin məkanda üç ölçüsü vardır: uzunluğu, eni, hündürlüyü. Müvafiq surətdə bu cisim bir-birinə perpendikulyar üç istiqamətdə hərəkət edə bilər. Zamanın isə yalnız bir ölçüsü vardır: cisimlər zamanca ancaq keçmişdən gələcəyə doğru istiqamətdə hərəkət edə bilərlər. Zaman qayıtmazdır, keçmişi qaytarmaq mümkün deyildir, zaman ancaq irəliyə hərəkət edir.

Məkan və zaman haqqındakı təsəvvürlərin meydana gəlməsi və onların kateqoriyalar şəklində təşkili uzun bir tarixi yol keçmişdir. Bu tarixi prosesi, xüsusən zaman haqqındakı təsəvvürlərin inkişafı timsalında əyani şəkildə izləmək mümkündür. Cəmiyyətin inkişafının elə bir mərhələsi olmuşdur ki, insanlar həmin dövrlə uzun müddət varlığın zaman xarakteristikasını sanki hiss etməmişlər. Cəmiyyətin qəbilə-icma təşkili, hər bir fərdin öz icmasından, bu axırıncının isə bütövlükdə onu əhatə edən təbii mühitdən amansız asılılığı həmin dövrün təfəkkür tərzinə öz təsirini göstərməyə bilməzdi.

Lakin bu cür təfəkkür ibtidai cəmiyyət üçün xarakterik olan müvafiq stereotip doğurmaya bilməzdi: indi mövcud olan hər şey artıq uzaq keçmişdə də mövcud idi; «indi», keçmişin əbədi dövranından başqa bir şey deyidir. Təsadüfi deyildir ki, arxaik miflərdəki süjetlərin heç birində «keçmiş», «indi» və «gələcək» arasında keçidlər və ümumiyyətlə, bu kateqoriyalar özləri mövcud deyildir. Dünyanın nə vaxtsa formalaşmış ilkin halı, həmin miflərdə demək olar ki, dəyişilmədən hər yerdə və həmişə mövcud reallıq kimi iştirak edir.

# X Mövzu

# Dialektika anlayışı.

# Dialektikanın kateqoriyaları.

# Dialektikanın qanunları

Fəlsəfə tarixində dialektika nəzəriyyəsinin ən görkəmli təmsilçiləri Hegel və Marks olmuşlar. Bütün görkəmli filosoflar bu və ya digər dərəcədə dialektika məsələlərinə toxunmuşlar.

Heraklit dəyişiklik ideyasını əsaslandırırdı ("hər şey axır və dəyişir"). Sabit, dəyişməyən yeganə şey maddə və substansiya deyil, dəyişmə qanunudur.

Aristotelə görə hər bir mümkün təbii hadisələrdə zəruri olaraq iki əsas ünsürü görmək lazımdır: nə isə dəyişməyən və həqiqətən dəyişən keyfiyyətlər.

"Dialektika" sözünün ilkin mənası sərbəst dialoq vasitəsilə inandırmaq metodologiyasıdır, söhbət aparmaq sənətidir. Sokrat sual verə bilən və ona cavab tapan adamı dialektik adlandırırdı. "Dialektika" termini Hegel Platondan qəbul etmiş, lakin ona daha geniş məna vermişdir. Platona görə dialektika məntiqi prosesin bir növüdür, məntiqi terminlərindən istifadə edərək subut etmək metodudur. Bu metod hər hansı başqa tərəfdən informasiya almaq üçün istifadə edilir. Əks tərəfdə informasiya olsa da, onun bundan xəbəri yoxdur.

Hegelin "dialektika" anlayışı Platonun bu anlayışa verdiyi məna ilə xeyli dərəcədə üst-üstə düşür. Bu belə məntiqi prosesdir ki, tezisdən başlayır, antitezisdən keçir, hər iki tərəfi özündə birləşdirən sintezdə başa çatır. Lakin dialektika deyəndə, Hegel verbal (şifahi) arqument (dəlil) mənasında sadəcə məntiqi prosesdən daha geniş hər şeyi nəzərdə tuturdu. Onun fikrincə dialektika dünya hadisələrinin ardıcıl olaraq baş verdiyi prosesdir. Bütün dəyişikliklər, xüsusən tarixi hadisələr, dialektikanın qanunlarına uyğun olaraq keçir: əvvəlcə tezis meydana gəlir, sonra isə öz əksini (antitezisi) yaradır; bundan sonra onlar arasında münaqişə başlayır və bu münaqişə tezis və antitezis özündə birləşdirən sintez vasitəsilə həll edilir. Belə mübarizə nəticəsində daha yüksək səviyyədə olan yeni sivilizasiya meydana gəlir. Tezis və antitezisdə olan bütün müsbət cəhətlər sintezdə birləşir.

Dialektik materializm fəlsəfəsini yaradan Marks Hegelin idealist dialektikasının əsas prinsiplərini qəbul etmiş və materializmə əsaslanan yeni

dialektik metod irəli sürmüşdür. Dialektik materializmə görə dünyada baş verən proseslər arasında sonsuz dərəcədə müxtəlif əlaqələr mövcuddur, çünki, varlığın tükənməzliyi predmetlər, təzahürlər və proseslər arasındakı əlaqələrin də tükənməzliyini göstərir. Proseslər arasındakı konkret əlaqələrin öyrənilməsi ilə xüsusi elmlər məşğul olur. Dialektika isə əlaqələri hərəkət və inkişafın ümumi qanunauyğunluğu kimi şərh edir və bu əlaqələri dərk etmək üçün konkret elmlərin məlumatlarına əsaslanır. Hərəkət və inkişaf prosesi həmişə obyektlər, proseslər və təzahürlər arasında qarşılıqlı təsirin olmasınını tələb edir, qarşılıqlı təsir isə eyni zamanda onlar arasında əlaqə deməkdir. Dialektika nəzəriyyəsində əlaqə obyektlərin bir-biri ilə qarşılıqlı münasibəti, onların bir-birini şərtləndirməsi kimi başa düşülür. Geniş mənada əlaqə dünyanın vəhdətini əks etdirən ümumi, unversal əlaqə kimi nəzərdə tutulur. Bu mənada "əlaqə" anlayışı, " münasibət" anlayışı ilə eynilik təşkil edir.

Dialektik təlim tərəfdarları təsdiq edirlər ki, tarixən əlaqə kateqoriyası elmi-tədqiqat obyektinə o vaxt çevrilir ki, əşyaların tədqiqindən proseslərin tədqiqinə keçid başlayır. Onlar deyirlər ki, məhz bu mərhələdə əlaqə haqqında təlim-dialektika meydana gəlir.

Dialektika, onun təmsilçilərinin fikrincə, sadəcə olaraq eyni əhəmiyyətli iki hissədən-əlaqələr haqqında təlim və inkişaf haqqında təlimdən ibarət deyil; dialektika-inkişaf haqqında bütöv təlimdir ki, burada hər şey, o cümlədən əlaqələr haqqında təlim, daha ümumi inkişaf nəzəriyyəsinə tabedir. Bu təlimə görə bütün predmetlər, onların təzahürləri, ideyalar daim hərəkətdədir, dəyişməkdədir, daim bir sabitlik vəziyyətindən başqasına keçirr. Bir sözlə onlar sabitlik ilə dəyişikliyin vəhdətidir.

Dialektik materialistlər təsdiq edirdilər ki, inkişafın iki konsepsiyası var: dialektika və metafizika. Metafiziklərin izahında inkişaf ümumi, hərtərəfli deyil, birtərəfli götürülür. Köhnə yenini yarada bilməz, çünki köhnə qapalı dairədə fırlanır, onda elə daxili qüvvə yoxdur ki, bu dairədən kənara çıxa bilsin.

Dialektikaya görə isə köhnə və yeni elə nisbi əksliklərdir ki, bir-birinə keçə bilərlər. Bu təlimə görə hərəkər və inkişafın səbəbini, qaynağını hərəkət edən obyektin daxilindəki ziddiyyətlərdə axtarmaq lazımdır. Yeni ilə köhnənin münasibəti inkişafı probleminin mərkəzində dayanır.

## *Dialektikanin kateqoriyaları*

Kateqoriyalar gerçəklikdəki obyektiv, unversal, ən ümumi, determinlik, struktur, sistemlilik və.i.a. əlaqə və münasibətləri ifadə edir. **“ Kategoriya”** yunan dilində “kategoria” sözündən əmələ gəlib, mənası “fikir söyləmək”, “mülahizə yürütmək”, “mühakimə etmək”, “şahidlik etmək” və.s deməkdir. Fəlsəfi mənada kateqoriyalar- real gerçəklikdə (təbiətdə, cəmiyyətdə və təfəkkürdə) mövcud olan obyektiv,qanunauyğun və mahiyyətli əlaqə və münasibətləri əks etdirən ən ümumi və fundamental anlayışlardır.

Biz danışığımızda hər an müxtəlif sözlər deyir, anlayışlar işlədirik. Anlayışlar olmadan heç bir fikir söyləmək mümkün olmazdı. Anlayışın əsas xüsusiyyətini onun ümumiləşdirmə qabiliyyəti təşkil edir. Anlayış hər bir əşyanı, hadisəni deyil, uyğun eyni qəbildən olan çoxsaylı və müxtəlif əşya və hadisələri ümumiləşdirərək əks etdirir: məslən, “çay”, “torpaq”, “vətən” və.s anlayışları kimi. Danışığımızda işlənən bu ümumi anlayışlardan başqa, bir də ayrı-ayrı elm sahələrində işlədilən anlayışlar vardır: “elektrik”,“ komediya”, “siyasət”, “bazis”, və.s. Lakin elə anlayışlar da vardır ki, onların ümumiləşdirmə imkanı,əhatə dairəsi çox genişdir; onlar nə elmin bir sahəsi, nə də varlığın bu və ya başqa sahəsi ilə mədudlaşmır, bütöv gerçəkliyə aid olurlar. Belə anlayışlar ən ümumilik və qanunauyğunluq bildirirlər. Bu cür ən ümumi fundamental anlayışları kateqoriyalar adlandırmaq olar. Məsələn “varlıq”, “təfəkkür”, “idrak”, “qanun”, “hərəkət”, “inkişaf”, “əlaqə”, “səbəb” və.s fəlsəfi anlayışlar kateqoriyalardır.

Bu qısa təhlil əsasında kateqoriyalara belə bir tərif vermək olar: idrakın xüsusi növ pilləsi və forması olmaqla, kateqoriyalar real gerçəklikdə-təbiətdə, cəmiyyətdə və təfəkkürdə predmet, hadisə və proseslərin dəyişmə inkişafına şərtləndirən obyektiv, qanunauyğun və mahiyyətli əlaqə və münasibətləri əks etdirən ən ümumi və fundamental fəlsəfi anlayışlardır.

Kateqoriyalar haqqında ilk təsəvvürlər çox qədim dövrlərdə-varlığın əsas prinsiplərini müəyyənləşdirmək məqsədilə meydana çıxmışdır. Kateqoriyalar haqqında ilk mükəmməl fəlsəfi baxış Aristotelin “Kateqoriyalar” adlı traktatında verilmişdir. Aristotel dünya və onun dərk edilməsi vasitələrindən bəhs edərkən, kateqoriyalara gerçəklikdə obyektiv mövcud olan əşyaların, hadisə və proseslərin başlıça mühüm xassələrini əks etdirən ümumi anlayışlar kimi baxmışdır. Aristotel hətta ilk dəfə kateqoriyaların təsnifatı sisteminə dair xüsusi bölgü cədvəli də vermişdir. Aristotel (substansiya) kəmiyyət , keyfiyyət, münasibət, yer (məkan), zaman, vəziyyət, hal hərəkət və iztirab. Bu bölgü uzun zaman, yeni dövrə qədər fəlsəfədə dəyişməz qalmış, ancaq XVII-XVIII əsrlərdə

fəlsəfə və təbii-elmi biliklərin inkişafı və nailiyyətləri əsasında onda müxtəlif dəyişikliklər aparılmışdır.

Bir cəhətə də diqqət yetirmək lazımdır ki, Aristoteldən əvvəl də kateqoriyalar haqqında müəyyən fəlsəfi baxışlar olmuşdur. Bu baxışlar əsasən idealist səciyyə daşımış, kateqoriyaların obyektiv məzmunu qəbul edilməmiş, onlar subyektiv "təfəkkür hadisəsi" kimi təhlil edilmişdir;kateqoriyalara "ilkin əsas" kimi baxmışdır: od, su, hava, atom və.s. Platon isə bu əsasda kateqoriyaların beş növünü qeyd etmişdir: mahiyyət, hərəkət, sükunət, eyniyyət, fərq. Aristotel də kateqoriyalara dünya və onun dərk edilməsinin ümumi formaları kimi baxsa da, o "ilkin səbəb", "ilkin forma", "formalar forması" və.s adlarla "lkin səbəb" ideyasına qayıdır, çox vaxt onlar "Allah" anlayışı ilə eyniləşdirilirdi (sonralar ilahiyyatçılar həmin ideyalardan Allahın varlığının sübutu kimi istifadə etmişlər) Aristotel həmçinin kateqoriyalar arasındakı dərin daxili əlaqələri, onların bir-birinə keçməsini mütəhərrikliyini də axıradək ardıcıl izah etmişdir.

## *Ən ümumi və ya unversal əlaqələri ifadə edən kateqoriyalar*

1. Tək, xüsusi və ümumi. Hər bir əşya, hadisə və prosesdə yalnız onun özünəməxsus, onun başqalarından, hətta ona çox oxşar hadisələrdən fərqləndirən bir sıra xüsusi cəhətləri vardır. Məsələn, müəyyən konkret bir şəxsin (Əli, Kərim, Məhəmməd və.b) özünəməxsus danışıq tərzi, qavrama qabiliyyəti, vərdişləri, yerişi və.s vardır. Məhz bu cəhətləri ilə başqa adamlardan ayrılır, fərqlənir, təklənir. Deməli, obyektiv aləmin məlum konkret fərdi əşyası, hadisə və prosesi təki təşkil edir. Tək özünəməxsus keyfiyyət, zaman, məkan və digər xüsusiyyətləri ilə başqa, hətta oxşar əşya, hadisə və proseslərdən fərqlənən ayrıca götürüləni, təkcəni səciyyələndirir. Hər bir əşya, hadisə və prosesdə eyni zamanda onu başqaları ilə yaxınlaşdıran, ümumiləşdirən "eyniləşdirən" bir sıra ümumi cəhətlər də vardır. Məhz bu keyfiyyət xüsusiyyətləri ilə tək bir nəfər bir ailə, kollektiv, sinif, millət nəhayət, cəmiyyətlə qovuşur, ümumiyə çevrilir. Bu isə o deməkdir ki, tək hadisə ayrılıqda mövcud ola bilməz; bir adamın ölkədə, regionda, Yer kürəsində yaşayan milyonlarla insanlara çoxlu ümumi cəhətləri, əlaqələri oxşar taleləri vardır. Bütün insanların ümumi anatomik-fizioloji quruluşu, psixik-şüurlu fəaliyyəti, sosial-ictimai əlaqələri vardır. Deməli, tək həm də ümumidir, tək ümumiyə doğru aparan çoxsaylı əlaqələrdə mövcuddur ümumi

isə təkdir, təklərin oxşar cəhətlərinin məcmusundan ibarətdir; tək və ümumi arasında sintetik çevrilmə əlaqəsi mövcuddur. Ümumi odur ki, onun vasitəsilə çoxlu tək-tək, ayrı-ayrı əşya hadisələr və proseslər arasındakı oxşar, ümumi cəhətlər təmsil edilmiş olar. Deməli ümumi ayrıca götrülmüş xüsusi əşya, hadisə və prosesin başqaları ilə oxşar, ümumi cəhətlərinin birgə ifadəsi vasitəsi, məcmusudur; ümumi-təkin başqaları ilə eyni qrup, sinif və millətə mənsub olduğunu bildirən ümumi əlaqələr sisteminin ifadəsidir.

Gercəklikdə konkret real predmet təkdir; lakin mütləq tək predmet mövcud ola, yaşaya bilməz; o yalnız ümumilə, milyon tellərlə başqaları ilə əlaqə və vəhdətdə mövcuddur. Odur ki, konkret real predmet həm də ümumidir, başqaları ilə əlaqədə mövcuddur. Ümumi ilə tək arasında möhəm dialektik qarşılıqlı əlaqə vardır. Fikrimizi misalla izah edək: SSRİ-nin dağılması prosesi, xüsusilə sovet imperiyasının iqtisadi, siyasi, mənəvi sahələrdə həyata keçirdiyi inzibati-amirlik siyasəti nəticəsində bütün keçmiş sovet respublikalarını istiqlaliyyət, suverenlik uğrunda milli azadlıq hərəkatları bürüdü. Bu hərəkatlar acıq və gizli şəkildə davam edirdi, ümumi hal almışdır. Milli azadlıq hərəkatları ümumi cəhətlərə, "eyniyyət" məzmununa malik idi.

2. ***Qanun və qanunauyğunluq*** kateqoriyasından "Dialektik qanunlar və qanunauyğunluqlar"adlanan fəsildə bəhs olunduğuna görə, burada onların üzərində dayanmağa ehtiyac yoxdur.
3. ***Mahiyyət və təzahür-*** dialektikanın ən ümumi, unversal kateqoriyalarından biridir. Mahiyyət-cisim, hadisə və prosesin müəyyənliyidir, mənliyidir, onu başqa cisim, hadisə və proseslərdən fərqləndirən, onu məhz həmin cisim və hadisə edən başlıca keyfiyyətdir. Mahiyyət cisim, hadisə və prosesin daxili mənası, nisbi sabit cəhəti, özünəməxsusluğudur. Fəlsəfə üçün "mahiyyət" anlayışı hər hansı sistemi, substansiyanı başqalarından fərqləndirmək üçün mühüm əhəmiyyət kəsb edir.

## Struktur əlaqələri ifadə edən kateqoriyalar

**1.*Məzmun və forma-*** struktur əlaqələri ifadə edən kateqoriyalardan biridir. Bu və ya digər cismi, hadisəni və prosesi təşkil edən bütün elementlərin, cəhətlərin, tərəflərin, qabiliyyət, əlaqə və münasibətlərin məcmusuna məzmun deyilir. Forma isə məzmunun qurulması qaydaları, məzmunun təşkili sistemi və strukturunun ifadəsidir, onun tərkib hissələri arasında əlaqə vasitəsidir; həmin

cisim, hadisə və prosesi təşkil edən hissələrin məcmusudur məzmunun ifadəsi və təzahürürü vasitəsidir, onun mövcudluq üsulubur.

Forma məzmunun zahiri ifadəsi deyil, ona daxilən xasdır. Buna görə də formanı "zahirilik", "görünüş" anlayışlarından fərqləndirmək lazımdır. Görünüş də məzmunla bağlıdır, lakin görnüş məzmuna daxilən xas deyil, forma isə məzmunun daxili strukturu, yerləşməsi qaydasıdır. Görünüşün dəyişməsi və hətta itirilməsi məzmunda o qədər də dəyişiklik əmələ gətirmir. Məsələn yazıçı İ. Şıxlının "Dəli Kür" romanının üz qabığındakı kənd mənzərəsi, at çay və.i. onun məzmunundan xəbər versə də, onun məzmununu tam ifadə etmir. Romanın üzərindəki təsvirin verilməməsi də onun məzmununa heç bir xələl gətirməzdi. Lakin romanın məzmun ardıcıllığı, hadisələrin süjet xətti, kulminasiyası və s. olmazsa, yəni əlverişli forması olmazsa, onun məzmunundan da söhbət gedə bilməz.

"Məzmun" və "mahiyyət" anlayışları da bir-birinə yaxın və ya oxşardır. Lakin aralarında mühüm fərqlərdə vardır. Məzmun predmet , hadisə və prosesi təşkil edən bütün ünsürlərin və təriflərin məcmusu olduğu halda, mahiyyət onu daxili, nisbi, sabit, qanun mahiyyəti daşıyan başlıca cəhətinin ifadəsidir.

2. ***His və tam ( bütöv)-*** pedmet və hadisələri (və onların ünsürlərini) və onlar arasındakı əlaqələri məcmu halda ifadə edən və ya predmetin daxili tərəfləri arasındakı əlaqə və qnunauyğunluqları əks etdirən fəlsəfi kateqoriyadır. Məhz bu əlaqələr əsasında ayrı-ayrı predmet və hadisələri birləşib tamı əmələ gətirirlər, özləri də hissə kimi çıxış edirlər. Hissə və tamın əlaqəsinin nəzərə alınması gerçəkliyin dərk edilməsində mühüm əhəmiyyət kəsb edir. Hissə və tam kateqoriyası bütövlük prinsipinin ifadəsidir. Hissə elə predmet və hadisədir ki, onların məcmusu yeni, daha mürəkkəb predmet və hadisəni əmələ gətirir. Tam isə predmeti, hadisəni təşkil edən hissələrin tamamlanması, məcmusu nəticəsidir.

Hissə və tamın əlaqəsi, mahiyyəti haqqında ilk fikirlər antik fəlsəfədə Platon və Aristotel tərəfindən irəli sürülmüşdür. İdealist fəlsəfədə tama hissələrin sadəcə toplusu kimi baxmaq meyli güclü olmuş, onlara mənəvi fəaliyyətin məhsulu kimi yanaşmışlar. Şelinq, Hegel hissə və tam dünya ruhunun inkişafı nəticəsi kimi baxmışlar. Dialektik materializm predmet və hadisələrin öyrənilməsində tamlıq prinsipini əsas tutmaqla, hissə və tamın qarşılıqlı əlaqəsinin nəzərə alınmasına xüsusi əhəmiyyət verir, onların real gerçəklikdə obyektiv mövcudluğunu qəbul edir, həm də qeyd edir ki, mürəkkəb

quruluşlu orqanizimlərdə tama hissələrin sadəcə toplusu kimi baxmaq düzgün olmazdı. Tamda elə yeni keyfiyyət və xassə ola bilər ki, müəyyən hissədə (elementdə) olmasın. Odur ki, burada əsas hissə ilə tam arasındakı inteqrativ əlaqələri tapmaq, onlara istinad etməkdir.

***3. Struktur və element (ünsür)*** kateqoriyası- struktur əlaqələr sistemində mühüm əhəmiyyət kəsb edir. Bu kateqoriya bir sıra fəlsəfi ədəbiyyatda“Sistem, struktur və element” şəklində də qeyd olunur. Çünki bu kateqoriya ümumi sistemlik prinsipinə istinad edir və hər hansı strukturu və elementi müəyyən yarımsistem, sistemdaxili və sistemlərarası əlaqələrdə götürür. Sistemsiz struktur və element ayrılıqda əlahiddə mövcud ola bilməz.

Sistemlilik prinsipi əsasən XIX əsrdə formalaşmışdır. Ona qədər elmi idrak mexanizmi və elementarizm mövqeyindən əsasən hissələrdən tama doğru getmiş, tam hissələrin məcmusu kimi yanaşılmışdır. Yalnız təbiətşünaslığın inkişafı əsasında İ. Kant qeyd edir di ki, “elm aqreqat deyil, sistemdir”. XIX əsrdə bəşər cəmiyyəti və bioloji aləmin qanunauyğunluqlarını kəşf edilməsi əsasında sistemlik prinsipi qəbul edildi. Burada isə Ç. Darvin və K. Marksın kəşflərinin əhəmiyyəti böyük olmuşdur. Məhz bu əsasda sistemlilik prinsipi və sistem yanaşma üsulu formalaşmışdır. Sistem-struktura və təşkilat qruluşuna malik olan müəyyən nizamla yerləşmiş, qarşılıqlı əlaqədə olan elementlərin, hissələrin ümumiliyidir.

Element (ünsür) müəyyən sistem daxilində hər hansı pedmet, hadisə və prosesin ayrılmaz daxili parçası, komponentidir.

Struktur isə- bu və ya digər tamın elementlərinin qarşılıqlı əlaqəsinin nisbi sabit üsulu, qanunudur.

Uzun zaman mütəfəkkirlər düşünmüşlər ki, hər hansı cisimi, hadisəni təhlil və təsdiq edərkən onu tərkib hissələrinə “kərpicciklərinə” ayırmaq lazımdır, “sadə” və “mürəkkəb” anlayışlar keçicidir, onlar müəyyən sistemdə öyrənilməlidir. Hazırda elmdə element (ünsür) anlayışı adı altında başqa obyektlərlə əlaqədə olan mürəkkəb kompleksə daxil olan hər hansı obyekt nəzərdə tutulur.

## *Determinlik əlaqələrini ifadə edən kateqoriyalar*

Determinlik- fəlsəfənin ən qədim prinsipi və konsepsiyasıdır (latınca "determino")- " müəyyən edirəm" deməkdir.) Bu , maddi və mənəvi aləm hadisələrinin obyektiv qanunauyğunluğunun qarşılıqlı əlaqələnməsi, qarşılıqlı səbəblə bağlı olması və qarşılıqlı şərtlənməsi haqqında ən ümumi prinsipdir. Determinizim konsepsiyasının özəyini səbəbiyyət ideyası, bir hadisənin səbəb, başqasının nəticədən ibarət olması, onların bir-birinə qarşılıqlı keçməsi müddəası təşkil edir. Hələ antik fəlsəfədə determinliyin əsasında səbəb əlaqəsinin durduğunu , səbəbiyyətin zərurəti eyni olduğunu, təsadüfün isə səbəblə heç bir əlaqəsinin olmadığını və ya bütövlükdə təsadüfün heç olmadığını iddia edən baxışlar olmuşdur (Demokrit və sonrakı dövrdə isə Spinoza). Mexaniki determinizm isə hadisənin ancaq xarici səbəblə (şəraitlə) bağlı olduğunu qəbul etmişdir. Determinizm prinsipini inkar edən baxış isə fəlsəfədə indeterminizm adlanmışdır. İndeterminizm hadisənin inkişafının qanunauyğunluğunun və səbəblə şərtlənməsini inkar edir. Lakin gerçəklik indeterminizm baxışını təsdiqləmir. Determinlik əlaqələri özünün əsas istifadəsini səblə nəticənin qarşılıqlı münasibətində daha qabarıq şəkildə büruzə verir.

***1.Səbəb və nəticə.*** Gercəklikdə cisim və hadisələr arasında obyektiv səbəb - nəticə əlaqəsi mövcuddur: səbəbi olmayan heç bir nəticə; nəticə ilə bağlı olmayan heç bir səbəb yoxdur. Onlar dialektik vəhdətdədir, biri digərinə çevrilə bilər. Müəyyən münasibətlər şəraitində nəticəyə çevrilə bilər və əksinə inkişaf üçün isə şərt aparıcı, mühüm başlıca səbəblərin müəyyən edilməsindən ibarətdir. Səbəb özündən sonra müəyyən bir predmet və hadisənin əmələ gəlməsinə imkan verən, müxtəlif predmet və hadisələrin qarşılıqlı əlaqəsini yaradan amilləri ifadə edən fəlsəfi kateqoriyadır. Nəticə isə səbəbin təsiri ilə əmələ gələn hadisəni ifadə edən fəlsəfi kateqoriyadır. Səbəb həmişə nəticədən əvvəl gəlsə də, səbəb-nəticə müəyyənliyi üçün heç də həmişə belə zaman ardıcıllığı tələb olunmur. Məsələn, ilin fəsilləri ardıcıl olaraq birini əvəz etsə də, heç də bir-birinin səbəbi deyildir.

Səbəb o hadisədir ki, o nəticədən əvvəl gəlsin və hökümən yeni bir hadisəni (nəticəni) doğursun. Məsələn, Yerin Günəş və öz oxu ətrafında fırlanması ilin fəsillərindən və gecə-gündüzdən əvvəl gəlir, ilin fəsillərini və gecə-gündüzü əmələ gətirir.

Səbəbi vəsilə ilə də qarışdırmaq düzgün olmazdı. Vəsilə (bəhanə də demək olar) hadisəni törədən səbəb deyil, onun baş verməsini sürətləndirən və ya ləngidən amildir. Deməli vəsilə səbəb deyil, səbəbin fəaliyyətinə təkan verən hadisədir. Məsələn, Ermənistan Azərbaycana qarşı özünün işğalçılıq ərazi iddialarını örtbasdır etmək üçün belə bir bəhanədən (vasilədən) istifadə etməyə çalışmışdır ki, guya Dağlıq Qarabağ ermənilərinin öz müqəddəratını təyin etmək hüququnu müdafiə edir. Əslində isə Dağlıq Qarabağ ermənilərinin muxtariyyət hüququ təmin edilmişdir. Bir millətin öz müqəddəratını təmin etməsi üçün dövləti olmalıdır. Ermənilər isə Ermənistan Respublikasının simasında belə bir dövlətə malikdirlər. Bir millətin 2-3 dövlətinin olması iddiası isə həqiqətə uyğun deyildir, işğalçılıq, ərazi iddiası isə həqiqətə uyğun deyildir, işğalçılıq ərazi tutmaq məqsədlərini pərdələmək vasitılərindən başqa bir şey deyildir, ancaq bəhanədir.

Səbəbin fəaliyyəti üçün imkanların məcmusuna şərait deyildir. Şərait olmadan da səbəbin fəaliyyəti mümkün deyil, bunsuz heç bir nəticə əldə etmək olmaz.

Səbəbiyyət və ya hadisələrdəki determinlik əlaqəsi obyektivdir,unversal səciyyə daşıyır. Bu, o deməkdir ki, səbəbiyyət insan zəkasının və ya hər hansı fövqəltəbii qüvvənin fəaliyyəti təsrində yaradıla bilməz. Lakin səbəbiyyətin obyektivliyini qəbul etməyən müəyyən baxışlar da vardır. Əgər indeterminizim, yuxarıda da qeyd etdiyimiz kimi, zərurəti və səbəbiyyəti tam inkar edirsə, diniteleoloji baxış səbəbiyyəti başqa mövqedən izah edir.

***2. Zərurət və təsadüf*** . Müəyyən şərait olduqda daxili qanunauyğun əlaqələrin fəaliyyəti nəticəsində hökmən (mütləq) baş verən hadisəyə zərurət deyilir. Deməli, zərurət inkişaf edən cisim, hadisə və prosesin daxili qanunauyğun əlaqələrindən, mahiyyətindən əmələ gəlir. Zərurət obyektivdir, müəyyən sistem hadisələr çərçivəsində nisbi sabit və əbədidir. Təsadüf isə müəyyən şərait daxilində baş verməsi məcburi olmayan hadisədir, həmin şəraitdə baş verə bilər, baş verməyə də bilər. Təsadüf cisim və hadisənin daxili təbiətindən irəli gəlmir, sabit deyildir, müvəqqətidir. Həmin anda mövcud şəraitin deyil, başqa hadisələr sisteminin fəaliyyəti nəticəsində meydana çıxır. Məsələn, ilin fəsillərinin bir-birini əvəz etməsi, ğecədən sonra gündüzün gəlməsi obyektiv zərurətdir, lakin nə zaman, hansı əraziyə, meteorit və ya dolunun düşməsi isə təsadüfidir. Toxumun torpağa düşməsi ilə əlverişli şəraitdə (su, hava ,Günəş şüalarının təsiri və.s) cücərməsi, gövdə bağlaması və dən verməsi zərurətdirsə, dolu vurub zədələməsi və ya məhv etməsi təsadüfüdür. Çünki həmin anda dolu məhz bu ərazidə düşə də bilərdi, düşməyə də.

Zərurətlə təsadüfin dialektik qarşılıqlı əlaqəsi vardır. Təsadüf də səbəbsiz deyildir, onun da bu və ya başqa hadisələr sistemində əsaslı səbəbləri vardır. Eyni bir hadisə eyni zaman daxilində həm zəruri, həm də təsadüfi ola bilər. Çünki hadisə bir sistemdə zəruri, o biri sistem daxilində təsadüfi ola bilər. Dolunun bitkinin məhv etməsi təsadüfdürsə, dolunun məhz ərazidəki atmosfer şəraitində baş verməsi zərurətdir.

Fəlsəfə tarixində zərurətlə təsadüfün qarşılıqlı münasibətlərinə dair müxtəlif baxışlar da olmuşdur. Metafizik təfəkkür metodunun bəzi nümayəndələri yalnız zərurəti qəbul edir, həyatda baş verən hər şeyi zərurətlə bağlayır, təsadüfi tam inkar edirlər. Onlara görə hər şey zərurət üzündən baş verir, insanlar onların qarşısında acizdir, insan yalnız hadisələrin labüd, qarşısıalınmaz gedişini fəaliyyətsiz surətdə gözləməlidir, onun "çalışıb-çapalaması əbədidir".

***3. İmkan və gerçəklik.*** Məlumdur ki, inkişaf üçün əsas şərt yeninin meydana çıxmasıdır. Yeni inkişafın irəliyə doğru qarşısalınmazlığını ifadə edən, hadisələrin zəruri və qanunauyğun əlaqələrindən yaranan, öz imkan, sərvət və vasitələri ilə indi meydana çıxan hadisə və prosesdir. Köhnə isə inkişafın tənəzzül meylini ifadə edən, tarixi rolunu oynamış, öz imkan, sərvət və vasitələrini sərf etmiş hadisə və prosesidir. İnkişaf prosesində yeni ilə köhnənin mübarizəsində yenilik daim özünə yol açır, meydana çıxır, çünki o hadisələr arasındakı obyektiv, qanunauyğun və zəruri əlaqələrdən doğur.

Lakin yenilik öz-özünə, kortəbii surətdə əmələ gəlmir, onun üçün şərait yaradılır,uğrunda mübarizə aparılır. Yeni üçün anca belə subyektiv və zəruri inkişafı şəraitində zəmin, ilkin əsaslar yaradılmalıdır. Həmin ilkin əsaslar, zəmin və amillər tədricən yetişir, inkişaf edir, obyektiv qanunların fəaliyyəti təsirində yeniliyin meydana çıxmasına səbəb olur. Yeninin meydana çıxmasına şərait yaradan həmin zəminə və ilkin əsasların məcmusuna imkan deyildir. Gerçəklik imkanının həyata keçməsi, fəaliyyət göstərməsidir.

İmkan obyektiv qanunauyğunluqların fəaliyyəti təsirindən zəruri olaraq meydana çıxır. Müəyyən obyektiv şərait mövcuddursa, yenilik üçün lazım olan imkan da meydana çıxır və gerçəkliyə çevrilir. Onun fəaliyyətini ləngitmək və ya sürətləndirmək olar, lakin obyektiv qanunauyğunluqlar əsaslandırdığı üçün qarşısını almaq olmaz. Məsələn, SSRİ-də 70 ildən yuxarı davam etmiş kommunist ictimai-siyasi üsul- idarəsi sovet imperiyası buradakı bütün millətlərin mənafeyini düzgün əlaqələndirib təmsil etdiyinə, ayrı-ayrı xalq və millətlərin hüquqlarını inzibati-amirlik metodları ilə tapmadığına görə, ayrı-ayrı millətlər öz müqəddəratını özləri həll etməyinə və.s. görə hökmən dağılmalı idi. Çünki bu müddətdə həmin dağılma prosesinin sosial-iqtisadi, siyasi, mənəvi və i.a əsasları,

zəmini formalaşmışdı, o qarşısıalınmaz obyektiv zərurətə çevrilmişdi. Məhz buna görə də SSRİ-də 1985-ci ildən sonra başlanan yenidənqurma prosesi onun möhkəmlənməsi ilə deyil, dağılması ilə nəticələndi. Müstəqil, milli respublikaların, o cümlədən suveren Azərbaycan Respublikasının yaranması imkanı gerçəkliyə çevrildi.

Mütərəqqi və mürtəcə imkanlarda ola bilər. Dövrünü başa vurmuş qüvvə və amillərə istinad edən imkan mürtəce, yeni, mütərəqqi qüvvə və amillərə əsaslanan imkan isə mütərəqqidir. Bəzən hələ yeniliyin hələ zəif olması, köhnəlikdən möhkəm yapışan qüvvələrin üstünlüyü və ciddi müqaviməti nəticəsində mürtəce imkan fəallaşır, yeniliyin inkişafı ləngiyir, hətta müəyyən şəraitdə mürtəcə imkan əsasında köhnə ilə yeninin mübarizəsində köhnəlik qələbədə çala bilər. Lakin bu hal hadisələrin irəliyə doğru zəruri inkişaf meylinə, mütərəqqi qüvvələrin mənafeyini ifadə etmədiyinə görə müvəqqəti səciyyə daşıyır, gec-tez öz yerini yeniliyə verir.

İmkandan bəhs edərkən real və abstrakt(formal) imkanların və imkansızlığı da bir-birindən fərqləndirmək lazımdır. Real imkan-elə imkandır ki, müəyyən konkret şəraitdə onun həyata keçməsi üçün real, zəruri və obyektiv zəmin vardır. Yuxarıda qeyd olunan misalda keçmiş SSRİ-nin dağılması və müstəqil milli respublikaların əmələ gəlməsi məhz belə real imkanı ifadə edir.

## Dialektikanın qanunları

Gerçəklikdəki predmet, hadisə və proseslərin mövcudluğu və inkişafı onların arasındakı mühüm əlaqə və münasibətlərlə şərtlənir. Predmet və hadisələrin bir-biri və daxili tərəfləri arasındakı ən mühüm qarşılıqlı əlaqə və qarşılıqlı münasibətləri isə əsasən qanun və qanunauyğunluq anlayışları ifadə edir. Çünki bu anlayışların hər ikisi predmet və hadisələrin mövcudluğu və inktşafını şərtləndirən obyektiv, mühüm və başlıca əlaqələri əks etdirir. Bu mənada onlar yekcins, eynimənalı anlayışlar hesab olunur. Hadisələr arasındakı ümumi qarşılıqlı əlaqələr qanunauyğun səciyyə daşıdığı üçün, qanun da həmin zəruri və daxili mahiyyəti əlaqələri ifadə etdiyi üçün hər iki anlayış «eyniləşir».

Lakin bunlar «qanun» və «qanunauyğunluq» anlayışları arasındakı müəyyən fərqləri tamam aradan qaldırmır. Əvvələn, qanunlar xüsusi sistemlərdəki mühüm əlaqələri ifadə etdiyi halda, qanunauyğunluq daha geniş miqyaslıdır, ən ümumi mahiyyət kəsb edir; ikincisi, müəyyən bir

qanunauyğunluq çoxlu qanunların fəaliyyəti təsirində həyata keçirilir, çoxsaylı qanunların məcmusundan yaranır. Məsələn, Azərbaycan Respublikasının suverenliyinin təmin edilməsi qanunauyğunluğu çoxlu iqtisadi, siyasi, hüquqi, sosial, mənəvi və s. qanunların birgə, kompleks fəaliyyəti nəticəsində həyata keçirilə bilər. Bu sahələrdən yalnız birinin inkişaf qanunlarına əməl edilməsinə laqeyidlik göstərilməsi, respublikamızın ümumi müstəqil inkişafı qanunauyğunluğunun həyata keçirilməsinin ləngiməsinə və ya pozulmasına səbəb olardı; üçüncüsü, qanunlar daha çox konkret səciyyə daşıdığı halda, qanunauyğunluq öz mücərrədliyi ilə fərqlənir. Bunlara əsasən qanunauyğunluq – fəaliyyətdə olan çoxlu qanunların məcmusu və zəruri istiqamətlənməsi kimi başa düşülməlidir. Deməli, qanunauyğunluğu vahid qanun kimi başa düşmək düzgün olmazdı. Qanunauyğunluq qanuna nisbətən həm geniş anlayışdır, həm də bir çox əlaqə və münasibətləri məcmu halda ifadə edir. Başqa sözlə, qanunauyğunluq bir çox müxtəlif və ardıcıllığını əks etdirdiyi halda, qanun konkret mühüm əlaqə və münasibəti əks etdirir.

Qanun – predmet və hadisənin mövcudluğu və inkişafını şərtləndirən obyektiv, ümumi, təkrarlanan, mahiyyətli, nisbi sabit, zəruri, daxili və ən mühüm əlaqə və münasibətləri əks etdirən fəlsəfi kateqoriyadır. Tərifdən də göründüyü kimi, qanun heç də predmet və hadisələr arasındakı hər cür əlaqələri əks etdirmir. Qanun əlaqələrinin bir sıra spesifik xüsusiyyətləri vardır: a) qanun predmet və hadisələrdə nisbi sabit və təkrarlanan əlaqə və münasibətdir, bir predmet və hadisə deyil, onların bir qrupuna deyil, müəyyən bir sistemə və ya sistemlərə xas olan əlaqə və münasibətdir. Məsələn, enerjinin itməməsi və çevrilməsi qanunu, maddənin nbvlərinin çevrilməsi qanunu və s. Bütün maddi cisimləri əhatə edir; b) qanun «təbiətdə ən ümumilik formasıdır» (F.Engels). O, tək bir əlaqə və münasibəti deyil, ümumini, ən ümumini ifadə edir; c) qanun, həmçinin, zəruri və mühüm əlaqə və münasibətdir, elə hadisədir ki, müəyyən şərait çərçivəsində onun fəaliyyəti hökmən baş verir, qarşısıalınmaz səciyyə daşıyır; ç) başlıcası isə, qanun obyektiv əlaqə və münasibətdir, onun fəaliyyəti insanın iradə və şüurundan asılı deyildir.

Qanunların müxtəlif cür təsnifləşdirilməsi mövcuddur. Fəaliyyət xarakterinə görə qanunların iki növü qeyd olunur: funksiya və inkişaf qanunları. Funksiya qanunları müəyyən zaman və məkan daxilində mövcud olan cisim və hadisələr sırasındakı mühüm və zəruri əlaqələri ifadə edən qanunlardır. Məsələn, ümumdünya cazibə qanunu və s. inkişaf qanunları isə hadisələrin aşağı mərhələlərindən yüksəyə, sadədən mürəkkəbə doğru inkişafını ifadə edən

əlaqələri əks etdirən qanunlardır. Məsələn, cəmiyyətin bir ictimai-iqtisadi formasiyasından digərinə doğru inkişafını şərtləndirən qanunlar və s.

Fəaliyyə miqyasına görə də qanunları qruplaşdırmaq olar. Bu cəhətdən qanunların üç növü məlumdur: ən ümumi, ümumi və xüsusi. Ən ümumi qanunlar – təbiətdə, cəmiyyətdə və təfəkkürdə fəaliyyət göstərən, gerçəkliyin bütün sahələrinə aid olan ən ümumi əlaqə və münasibətləri əks etdirən qanunlardır. F.Engels dialektik fəlsəfənin üç əsas qanununu («kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə keçməsi», «əksliklərin vəhdəti və mübarizəsi» və «inkarı inkar») ən ümumi qanunlar adlandırmışdır. Ümumi qanunlar – obyektiv gerçəkliyin ancaq bir tərəfində, müəyyən sistem daxilində və sistemlərarası miqyasda fəaliyyət göstərən qanunlardır. Məsələn, ictimai qanunlar, siyasi qanunlar, mənəvi qanunlar və s. «Məhsuldar qüvvələrlə istehsal münasibətlərin xarakter və səviyyəcə uyğunluğu qanunu» ümumi ictimai qanunların başlıca nümunəsibir. Xüsusi qanunlar isə gerçəkliyin ancaq müəyyən bir hissəsində, elmin bu və ya digər sahəsində fəaliyyət göstərən qanunlardır. Cisimlərin atom çəkisinə dair elementlərin dövri sistemi qanunu, bazisin üstqurumu, nisbətin müəyyənediciliyi, dəyər qanunu və s.

Qanun və qanunauyğunluğu fəaliyyət təsiri dairəsinə görə dinamik və statistik olmaqla da iki növə ayırmaq olar. Dinamik qanun və ya qanunauyğunluq – bütöv predmet, hadisə və proseslər məcmusunun hər bir ayrıca ünsürü üçün təsir qüvvəsinə malik olan əlaqə və münasibətlərin əks olunmasıdır. Statistik qanun və qanunauyğunluq isə bütöv hadisələr, bütöv sistem üçün təsir qüvvəsinə malik olan qanunları ifadə edir ki, bu qanun və qanunauyğunluqlar bütövün hər bir ayrıca ünsürü üçün təsir qüvvəsinə malik deyildir. Statistik qanunauyğunluqda bir çox hadisələr içərisində bir ümumi əlaqə, əlamət müxtəlif şəkildə yayılmışdır. Bu ümumi əlamət, qanunauyğunluq çoxsaylı hadisələr sistemində müxtəlif şəkildə təzahür edir, aşkara çıxarılır. Lakin bunu belə başa düşmək düzgün olmazdı ki, guya müəyyən hadisələr ancaq dinamik, bəziləri isə ancaq statistik qanunlar əsasında baş verir. Hər bir hadisə yüz cür vasitələrlə başqa hadisələrlə əlaqədar olduğu üçün, bu iki cür qanunlar da bir-birilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Məsələn, qabdakı qazın molekulunun hərəkəti başqa molekullarla statistik qanunauyğunluğa əsasən əlaqədardır, lakin qabdakı başqa molekullarla birlikdə həmin molekul da qabın məkandakı vəziyyətini müəyyən edən dinamik qanunauyğunluğa tabedir.

### *Kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə qarşılıqlı keçməsinin dialektikası*

Kəmiyyət dəyişikliklərinin keyfiyyət dəyişikliklərinə qarşılıqlı keçməsi gerçəkliyin ən ümumi, obyektiv qanunlarından biridir. Bu qanunun mahiyyətini və fəaliyyət mexanizmini başa düşmək üçün «keyfiyyət», «xassə», «kəmiyyət», «ölçü», «sıçrayış» və s. anlayişları bir-birindən fərqləndirmək və mənimsəmək lazımdır.

Məlumdur ki, gerçəklikdə çoxsaylı predmet və hadisələr vardır. Onlar nə qədər çox, bir-birinə bənzər və mürəkkəb olsalar da, əsasən biz onları qarışdırmır, bir-birindən fərqləndiririk. Ona görə ki, onların hamısının spesifik, ancaq özünəməxsus fərqləndirici xüsusiyyətləri, xassələri, keyfiyyətləri vardır, məsələn, metallardan dəmir, polad, mis, qızıl və s. metal kimi ümumi xassələrə malik olsalar da, onların hər birinin ayrılıqda özünəməxsus atom çəkisi, elektriki keçirmə qabiliyyəti, hava və rütubətə davamlılığı xassəsi, istilik keçirmə xüsusiyyətləri və s. vardır. Predmet və hadisələri bir-birindən fərqləndirmək imkanı verən əsas cəhət onların özünəməxsus xassələrinin, ən başlıcası isə keyfiyyətlərinin olmasıdır.

Keyfiyyət – predmet və hadisəyə daxilən xas olan, onu başqa predmet deyil, məhz həmin predmet edən, saysız-hesabsız başqa predmetlərdən fərqləndirən ən başlıca cəhətdir, bütün mühüm xassələrin, qabiliyyət və cəhətlərin məcmusudur. Keyfiyyət, necə deyərlər, predmetin müəyyənliyi, mənliyidir. Keyfiyyətini itirdikdə cisim daha mövcud halını da itirmiş olur, başqa keyfiyyətə keçmiş, çevrilmiş olur. Bütün predmet və hadisələrin öz keyfiyyəti olmasaydı onda bir canlını cansızdan, insanı başqa canlılardan, təbiətdəki müxtəlif maddələri və cəmiyyət hadisələrini bir-birindən fərqləndirə, ayırd edə bilməzdik.

Məhz bu cəhətlərinə görə Hegel qeyd edirdi ki, keyfiyyət predmetin özüdür, onu təşkil edən cəhətdir, onsuz predmet özü mövcud olmazdı. Predmet öz keyfiyyəti ilə mövcuddur. Keyfiyyətini itirdikdə cismin yaşaması dayanır, daha köhnə halında mövcud ola bilmir.

Keyfiyyət xassələrdə təzahür edir, xassə predmet və hadisələrin başqaları ilə qarşılıqlı münasibətlərində meydana çıxır. Xassə – predmet və hadisənin ancaq konkret bir cəhətini, bir xüsusiyyətlərini ifadə edir. Məsələn, metalın

bərkliyi, ərimə temperaturu, elektrik keçirməsi, atom çəkisi və s. onun konkret xassələridir. Deməli, xassə predmet və hadisənin ancaq bir cəhətini, konkret bir xüsusiyyətini bildirdiyi halda, keyfiyyət predmetin bütövlüyünü ifadə edir. Cisim bu və ya digər xassəsini itirməklə köhnə keyfiyyətindən çıxmır, yenə də yaşayır, lakin keyfiyyətini itirməklə köhnə halını da itirir, başqa keyfiyyət kəsb edir. Lakin cismin bütün xassələrini itirməsi, onun elə keyfiyyətini itirməsi deməkdir. «Alma» əgər dadını, iyini, görünüşünü, fiziki xassələrini və s. itirirsə, o artıq alma deyil, lazımsız bir əşya, tullantıdır. Keyfiyyət və xassə obyektivdir, cisim və hadisələrə daxilən xasdır, atributiv səciyyə daşıyır.

Kəmiyyət də cisim və hadisələri fərqləndirən obyektiv dərəcədir. Kəmiyyət – predmet və əşyanın məkanda ölçüsünü, çəkisini, yerləşmə ardıcıllığını, böyüklüyünü, həcmini, sürəkliyini, dəyişmə sürətini, inkişaf dərəcəsini, intensivliyini, ümumiyyətlə, miqdar müəyyənliyini ifadə edən fəlsəfi kateqoriyadır. Bir qayda olaraq, kəmiyyət rəqəmlə ifadə olunur, ölçü, çəki, həcm və s. bildirir.

Ölçü anlayışı ilə müəyyən zaman və interval daxilində cisim və hadisənin vəhdət halında götürülmüş öz kəmiyyət və keyfiyyətinin olduğunu ifadə edir. Deməli, hər bir cismin keyfiyyət və kəmiyyəti müəyyən ölçü daxilində mövcud olur. Bu mənada Hegelqeyd edirdi ki, ölçü cismin kəmiyyət-keyfiyyətidir. Ölçü – kəmiyyət xassələrinin elə mövcudolma intervalıdır ki, həmin çərçivə daxilində mütləq cismin keyfiyyəti də mövcud olur. Ölçü pozulduqda, onun «sərhədi keçildikdə», necə deyərlər, cisim köhnə halında qala bilmir, o başqa cismə çevrilir. Ölçü – kəmiyyətlə keyfiyyətin vəhdətidir, onun pozulması isə kəmiyyət dəyişikliklərindən keyfiyyətə keçilməsidir. Məsələn, civə – 39 dərəcədən aşağı temperaturda bərkiyir, +357 dərəcədən yuxarıda isə qaynayır, yeni keyfiyyət halına keçir. +100 dərəcə temperaturadək istilikdə su köhnə keyfiyyət halında qalır, bundan daha yüksək temperaturda ölçü przulur, su buxara çevrilir, yeni keyfiyyət halına keçir. Məhz bu proses kəmiyyət dəyişikliklərindən ölçü daxilində yığılması, nəhayət, ölçünün pozulması və yeni keyfiyyətə keçilməsi kimi səciyyələnir.

Kəmiyyət və keyfiyyət eyni predmetə obyektiv vəhdətdə mövcuddur. Lakin onlar arasında əsaslı fərqlər də vardır. Əgər kəmiyyət dəyişiklikləri azalma və artmaya, kiçilmə və böyüməyə səbəb olur, müəyyən ölçü daxilində yeni keyfiyyət halı doğurmursa, cismin keyfiyyətcə dəyişməsi ölçünü pozur, yeni keyfiyyət halının əmələ gəlməsi ilə nəticələnir. Bütöv inkişaf məhz kəmiyyət dəyişmələrinin müəyyən səviyyədə ölçünü pozması, yeni keyfiyyət

dəyişikliklərinin baş verməsi prosesidir, kəmiyyət və keyfiyyət dəyişikliklərinin qarşılıqlı bir-birinə keçməsindən ibarətdir. Bu, inkişafın ən ümumi, obyektiv, dialektik qanunudur. Bu, ona görə ən ümumi qanundur ki, bütün real gerçəklikdə – təbiətdə, cəmiyyətdə və təfəkkür prosesində fəaliyyət göstərir, inkişafı səciyyələndirir. Bu əsasda bərk cisim mayeyə, elementar hissəciklər bir-birinə, atom çəkisi dəyişməklə kimyəvi elementlər bir başqasına və s. çevrilirlər. Məhz bu mənada F.Engels qeyd edirdi ki, «kimyanı kəmiyyət tərkibinin dəyişməsi təsiri altında cisimlərin keyfiyyət dəyişmələrinə keçməsi haqqında elm adlandırmaq olar».

Kəmiyyət dəyişmələrinin ölçünü pozaraq müəyyən səviyyədə keyfiyyət dəyişmələri doğurması, köhnə keyfiyyətdən yeni keyfiyyətə keçilməsi də düzxətli, birbaşa baş verən proses deyildir. Burada kəsilməzlik və kəsilənlik, tədricilik və sıçrayışlı inkişaf formaları vəhdət halında özünü göstərir. Kəsilməzlik (və ya fasiləsizlik, tədricilik) – yavaş-yavaş baş verən, çox az nəzərə çarpan, kəmiyyət yığımı prosesidir. Bu mərhələdə mövcud olan artır və ya azalır, lakin keyfiyyət dəyişmir, cisim və hadisə köhnə halında qalır. Kəsilənlik (və ya sıçrayışlı inkişaf) mərhələsində (ona fasiləlik də deyilir) cisim və hadisənin keyfiyyətində dəyişiklik əmələ gəlir, köhnə keyfiyyətin mövcudluğu sanki kəsilir, yeni keyfiyyət halına keçilir, köhnə keyfiyyət artıq köhnə forma və şəraitdə mövcud ola bilmir.

Sıçrayış – köhnə keyfiyyətdən yeni keyfiyyətə keçid formasıdır, predmet və hadisənin açıq, sürətli keyfiyyət dəyişkənliyinin ifadəsidir. Keyfiyyət dəyişkənliyinin tədricən baş verməsi belə, yenə sıçrayışdır, çünki burada köhnə keyfiyyət halından yenisinə keçilir. Buna görə də sıçrayışın da iki növü fərqləndirilməlidir: tədrici (yavaş-yavaş) və ani, sürətlə (təcili, qəflətən) baş verən keyfiyyət dəyişikliklərini idarə edən sıçrayışlar. Deməli, sıçrayışlar vaxt etibarilə qəflətən, ani olaraq da baş verə bilər, illərlə davam edən bir müddət ərzində də baş verə bilər. Məsələn, Yer üzərində insanın əmələ gəlməsi milyon illərlə davam edən ən böyük keyfiyyət sıçrayışıdır. Müəyyən bir sosil inqilab isə bir il müddətində və ya bir ya, bir neçə gün və bir an içərisində baş verə bilər. Əgər mikroproseslərdə sıçrayış ani, hətta bir saniyədə baş verirsə, kosmik proseslərdə milyard illəri əhatə edir.

Məhz bu cəhətlərə görə inkişafın təkamül və inqilab kimi iki formasını da qeyd etmək olar. Təkamül tədrici kəmiyyət artımı mərhələsinə, inqilab isə keyfiyyət dəyişikliyi mərhələsinə, sıçrayışlara uyğundur. Təkamül – mövcud olanın tədricən, kəmiyyətcə dəyişməsini nəzərdə tutursa, inqilab mövcud olanın

əsaslı keyfiyyət dəyişiklikliyidir, sıçrayışdır. Onlar qarşılıqlı əlaqədədir və inkişaf prosesində biri digərinə keçə bilər. Lakin fəlsəfə tarixində təkamül və inqilabın qarşılıqlı təsir əlaqələrini qəbul etməyə baxışlar da olmuşdur. Məsələn, inkişaf haqqında metafizik konsepsiya tərəfdarları, inkişaf prosesində inqilabi sıçrayışları rədd edir, keyfiyyət dəyişkənliyini deyil, təkamülü tədrici inkişafı məqbul sayırlar.

İnkişafın ən ümumi və obyektiv qanunu olan kəmiyyət dəyişmələrinin keyfiyyət dəyişmələrinə qarqılıqlı keçməsi – «öz hərəkətin», «özinkişafın» mexanizmini, xarakterini, mahiyyətini ifadə edir, inkişafın necə, hansı formalarda baş verdiyini müəyyən edir, insanları inkişafın səciyyəvi xüsusiyyətləri, formaları, mərhələləri və s. haqqında qanunauyğunluqlarla silahlandırır. Bu da insanlarda nəzəri təfəkkürün inkişafına və əməli işlərində daha fəal olmasına kömək edir.

### *Varlıq və təfəkkürün ziddiyyətliliyi. Əksliklərin vəhdəti və mübarizəsi*

Bu qanun ümumi hərəkət və inkişafın səbəblərini, mənbələrini, hərəkətverici qüvvələrini müəyyən edir, «inkişaf nə səbəbə baş verir?» sualına cavab verir. Bu nöqteyi-nəzərdən bir sıra materialist filosoflar «əksliklərin vəhdəti və mübarizəsi»nə inkişafın mənbələrini müəyyən etdiyi üçün «dialektikanın nüvəsi, məğzi, özəyi» kimi baxırlar. Həmin filosoflara görə cisim və hadisələrin bir-biri və daxidi tərəfləri arasındakı ziddiyyətlər, onların mübarizəsi və həll edilməsi hərəkət və inkişafın mənbəyi, səbəbidir, bunsuz heç bir inkişaf baş verə bilməzdi. Bu mənada inkişaf «özünüinkişafdır», hərəkət «özhərəkətdir», «əksliklərin vəhdəti və mübarizəsidir».

Əksliklərin vəhdəti və mübarizəsi qanununun mahiyyətini, inkişaf prosesində rolunu və fəaliyyət mexanizmini dərindən anlamaq üçün «eyniyyət», «fərqlilik», «ziddiyyət», «əkslik», «münaqişə» («konflikt») və s. anlayışların mahiyyətini bilmək, onları fərqləndirmək zəruridir. Bu anlayışları iki mənada səciyyələndirmək olar: a) «əkslik» gerçəklik hadisələrinə xas olan, onların inkişafını şərtləndirən ən ümumi müəyyənlikdir, digər anlayışlar («fərqlilik», «ziddiyyət», «münaqişə» və s.) isə əksliyin təzahür xüsusiyyətləridir; b) «əkslik» ziddiyyətlərin kəskinləşməsi dərəcəsi, mənafe fərqlərinin artıb tam

qütbləşməsi və barışmazlığı forması və təzahürüdür. Bu mənada «əkslik» fərqliyin ziddiyyətə, ziddiyyətin inkişaf edib əksliyə və münaqişəyə çevrilməsi prosesinin ifadəsi, ziddiyyətin yüksək və kəskin dərəcəsidir.

Bütün predmet və hadisələrdə ümumiləşdirilən, eyniləşdirilən oxşar cəhətlər, həm də onu başqalarından ayıran fərqli cəhətlər, müxtəlifliklər vardır. Deməli, bir hadisədə onu həm ümumi hadisələrlə birləşdirən, «eyniləşdirən» eyniyyət cəhətləri, həm də onları ümumidən ayıran fərqlilik vardır. Eyniyyət – predmet, hadisə və proseslərlə başqa predmet, hadisə və proseslər və onların öz daxili tərəfləri arasındakı əlaqə və münasibətlərin məzmun və formaca, xassə və vasitəcə oxşar, ümumi eyniyyət təşkil edən cəhətlərinin ifadəsinə deyilir. Fərqlilik – predmet, hadisə və prosesin daxili tərəf və meyllərini bir-birindən və başqa xarici hadisələrdən ayıran, fərqləndirən cəhətlərin ifadəsinə deyilir. Eyniyyət və fərqlilik anlayışları nisbidir, müəyyən şərait dəyişdikdə bir-birinə keçə, çevrilə bilərlər. Ümumiyyətlə, təbiətdə və cəmiyyətdə mütləq və əbədi eyniyyət mövcud deyildir, bütün cəhətləri, xassələri ilə bir-birilə «eyniyyət» təşkil edən iki insan, iki bitki və s. tapmaq mümkün deyildir. Hadisələr arasındakı müxtəliflik, fərqlilik cəhətləri, meylləri isə mütləqdir, onlar inkişaf edərək ziddiyyətə gətirib çıxara bilərlər. Ziddiyyət – predmet, hadisə və proseslər və onların daxili tərəfləri arasındakı fərqliliyin dərinləşməsi, kəskinləşməsidir, mənafe uyğunsuzluğu və əksliyinin ifadəsidir. Ziddiyyət əksliyə, əkslik də ziddiyyətə çevrilə bilər. Məsələn, kapitalizmin ilkin dövrlərində burjuaziya və fəhlə sinfi arasında mövcud olan ümumi cəhətlər tədricən fərqliliyə və ziddiyyətə çevrilmiş, onlar arasında mənafe əksliyi üzrə ziddiyyət isə əksliyə, əkslik münaqişəyə çevrilə bilər.

Predmet və hadisələr daxilən obyektiv ziddiyyətli təbiətə malikdir. Məhz belə ziddiyyətli mahiyyət hadisənin ümumi inkişafını şərtləndirir. Lakin fəlsəfə tarixində bu ümumi qanunauyğun müddəaya münasibət müxtəlif cür olmuşdur. Heç də bütün fəlsəfi cərəyanlar ziddiyyətin obyektivliyini və hadisələrə daxilən xas olduğunu qəbul etməmişlər. Hələ Aristotel qeyd edirdi ki, ola bilməz ki, bir hadisəyə həm «hə», həm də «yox» deyəsən. Müsbət və mənfi cəhətlər eyni hadisəyə daxilən əks ola bilməz, «hə – hədir, yox – yoxdur», başqa cür ola bilməz. Aristotel «Metafizika» əsərində qeyd edirdi ki, «əgər bir şeyi eyni zamanda təsdiq və inkar etməklə düz danışmaq mümkün olmazsa, eynilə o da mümkün deyildir ki, bir-birinə əks olan tərəflər birlikdə (müəyyən bir şeydə) verilmiş olsun». XVII-XVIII əsr metafizikləri də iddia edirdilər ki, cisim və hadisələrdə heç bir daxili ziddiyyətlər yoxdur, «onlar özləri-özlərinin eynidir».

Müasir praqmatizmin nümayəndəsi Sidney Huq qeyd edir ki, «Aristotel zamanından bəri məntiq nəzəriyyəsi belə hesab etmiqdir ki, şeylər və hadisələr deyil, mühakimələr, iddialar, sübutlar ziddiyyətli ola bilər». Hələ vaxtilə ziddiyyətləri idealist mövqedən təhlil edən, onu ideyaların inkişaf mənbəyi sayan Hegel isə iddia edirdi ki, «ziddiyyətlər irəliyə hərəkət etdirir, inkişafı doğurur». Metafiziklərin bir çox müasir nümayəndələri isə predmet və hadisənin ziddiyyətli mahiyyətini qəbul etmir, ziddiyyətin real mövcudluğunu rədd edir, onun ancaq fikirlərdə, təfəkkürdə ola biləcəyini söyləyir.

Lakin əslində ziddiyyət obyektivdir, predmet və hadisənin başqa hadisələrlə və daxili tərəflərlə qarşılıqlı münasibətindən irəli gəlir: həyat və ölüm, maqnitin müsbət və mənfi qütbləri, canlı və cansız, müsbət və mənfi yük, təsir və əks təsir, maddələrin assimilyasiyası və dissimilyasiypası, siniflər mübarizəsi – məhz bu obyektiv ümumi qanunauyğunluğu ifadə edir. F.Engels qeyd edirdi ki, cisim ancaq daxili tərəfləri arasındakı qarşılıqlı münasibətdə mbvcuddur. Bu münasibətlər bir-biri ilə fərqlənən, ziddiyyətə girən tərəflərin vəhdətini yaradır. Ziddiyyət də məhz belə tərəflər arasındakı münasibəti ifadə edir. Müxtəlif tərəfləri olmayan ziddiyyət yoxdur. Almanın yarısı yedikdən sonra onun bütöv qalmadığı kimi, «ziddiyyətin də müxtəlif tərəfləri olmadan o, mümkün deyildir». Ziddiyyətin tərəfləri bir-birini həm tələb edir, biri olmadan digəri yaşaya bilmir, həm də bir-birini rədd edir, aralarında mübarizə mövcud olur. Bu isə inkişaf üçün əbədi və obyektiv qanunauyğunluq olan «əksliklərin vəhdəti və mübarizəsini» doğurur. Bu, təbiətdə, cəmiyyətdə və təfəkkürdə fəaliyyət göstərən ən universal qanunauyğunluqdur.

Əksliklərin mübarizəsinin kulminasiya nöqtəsi, toqquşması səviyyəsi münaqişədir. Onu deyək ki, yeninin meydana çıxması müəyyən müddət (bəzən uzun zaman ərzində) köhnənin içərisində, laikn köhnə ilə yeninin mübarizəsi şəraitində baş verir. Bəzən hətta mübarizə edən tərəflər, ziddiyyətə girən meyllər arasında müvəqqəti tarazlıq, müvazilik vəziyyəti də əmələ gələ bilər. Bu vaxt mənafe əksliyi olan tərəflərin mübarizəsi nisbəti dinc formalarda davam edir. Lakin bu müvazilik müvəqqəti, nisbi səciyyə daşıyır. Yeninin qarşısıalınmazlığı zəminində mənafe əksllikləri kəskinləşir, köhnə yeninin qələbəsi üçün buxova çevrilir. Bu şəraitdə ziddiyyətlər kəskinləşir, münaqişə, toqquşma baş verir. Yeni qüvvələr qalib gəlir, köhnəlik geri çəkilir və ya ləğv edilir, inkişaf yeni formalarda davam edir.

Ziddiyyətlər müxtəlif və rəngarəngdir. Ayrı-ayrı konkret elmlər gerçəkliyin bu və ya digər sahəsində, hərəkətin bu və ya digər növündə təzahür edən

ziddiyyətləri öyrənir, aşkar edir, onlardan əməli məqsədlərlə istifadə olunması və həll edilməsi yollarını öyrənir. Lakin fəlsəfə gerçəkliyin bütün sahələri üçün ümumi olan universal ziddiyyətləri öyrənir. Həimn ən ümumi ziddiyyətləri daxili və xarici, əsas və qeyri-əsas, başlıca və başlıca olmayan, antaqonist və qeyri-antaqonist və s. kimi növlərə ayırmaq olar.

Daxili ziddiyyətlər – predmet və hadisənin daxilində bir-birinə zidd və ya əks tərəflərin qarşılıqlı təsir münasibətlərini ifadə edən ziddiyyətlərdir. Xarici ziddiyyətlər isə – müəyyən predmet və hadisənin başqa xarici predmet və hadisələrlə, təbii və sosial mühitlə qarşılıqlı əlaqə və qarşılıqlı təsir münasibətlərini əks etdirən ziddiyyətlərdir. Daxili ziddiyyətlər mühüm və aparıcıdır, inkişafın mənbəyidir, «özhərəkətin» səbəbidir. Lakin xarici ziddiyyət də fəaldır, ciddi təsir gücünə malikdir, inkişafı üçün, daxili və aparıcı ziddiyyət məhsuldar qüvvvələrlə istehsal münasibətləri arasındakı ziddiyyətdir. Onu tənzim və həll etmədən cəmiyyət yaşaya bilməz. Lakin cəmiyyət üçün xarici ziddiyyət hesab olunan müharibə də onun mövcudluğu və inkişafı üçün mühüm təsir gücünə malikdir. Müharibə ilə bağlı ziddiyyətin kəskinləşməsi, daxili ziddiyyəti də daha da dərinləşdirə, münaqişə doğura bilər, cəmiyyətin inkişafı gedişinə çox əhəmiyyətli təsir göstərə bilər. Onu da qeyd edək ki, xarici və daxili ziddiyyətlərin qarşılıqlı münasibəti nisbidir. Müəyyən sistemin daxili və xarici ziddiyyətləri başqa sistem daxilində və sistemlərarası miqyaslarda yerlərini dəyişib, bir-birinə keçə də bilərlər.

İnkişaf prosesində çoxsaylı ziddiyyətlərlə qarşılaşmaq olar. Lakin onlardan baş açmaq, gerçəklikdə onların rol və əhəmiyyətini müəyyənləşdirmək üçün əsas ziddiyyətləri qeyri-əsaslarlan, ikinci dərəcəli ziddiyyətlərdən fərqləndirmək, ayırmaq lazımdır. Əsas dərəcəli ziddiyyətlərdən fərqləndirmək, ayırmaq lazımdır. Əsas ziddiyyət – inkişafında aparıcı rol oynayan, həll edilməsi ilə bir çox başqa ziddiyyətlərin də həll edilib aradan çıxılmasına səbəb olan ziddiyyətə deyilir. Məsələn, canlı orqanizm üçün maddələr mübadiləsinə girmək orqanizm və mühit arasındakı ziddiyyətlər əsas ziddiyyətlərdir. Qeyri-əsas ziddiyyət isə – inkişaf üçün aparıcı olmasa da, müəyyən təsiredici ziddiyyətlərdir, onların da mühüm əhəmiyyəti vardır. Məsələn, cəmiyyət miqyasında iqtisadi ziddiyyətlərin həll edilməsi əsas olsa da, sosial-siyasi, mənəvi, məişət və s. kimi ziddiyyətlərin də həll edilməsi, qeyri-əsas olsa belə çox əhəmiyyətli hesab edilir, onlar da laqeydlik göstərirlər, orada cəmiyyətin bütövlükdə hərtərəfli tərəqqisi və inkişafından da söhbət gedə bilməz.

Başlıca və başlıca olmayan ziddiyyətlər də mahiyyət etibarilə əsas və qeyri-əsas ziddiyyətlərə yaxındır, onlara bənzəyirlər. Lakin burada əsasən bir cəhətə (fərqə) diqqət yetirilməlidir. Başlıca ziddiyyət daxili və xarici, əsas və qeyri-əsas olmasından asılı olmayaraq, müəyyən zaman daxilində birinci yerə çıxan, həllini tələb edinə ziddiyyətdir. Məsələn, bütün 1988-1993-cü illərdə bizim müstəqil Azərbaycan Respublikası üçün başlıca ziddiyyət Ermənistanın törətdiyi təcavüzlə bağlı yaran müharibə və onunla bağlı problemlərdir. Bu zaman çərçivəsində isə bütün başqa ziddiyyətlər başlıca olmayan ziddiyyətlərdir. Həmin zaman daxilində cəmiyyət əsas diqqətini bütövlükdə başlıca ziddiyyətin, yəni müharibə ilə bağlı problemlərin həllinə yönəltməli idi. Lakin rəsmi dairələrin siyasi ziddiyyətləri ön plana çəkməsi, iqtisadi islahatlara laqeyidlik, mənəvi ziddiyyət və pozğunluqlar diqqəti əsas ziddiyyətin (müharibənin) həllindən uzaqlaşdırmış, bununla da müharibə xalqımız dalbadal uğursuzluqlar qazanmış, məğlubiyyətə düçar olmuşdur. Həmçinin iqtisadi, siyasi, sosial, mənəvi və i.a. ziddiyyətlər daha da kəskinləşmih, ölkəmiz ciddi tənəzzülə uğramışdır.

Ziddiyyətlərin növlərindən birini də antaqonist və qeyri-antaqonist ziddiyyətlər təşkil edir. Bunlar təbiətdə bu və ya digər ziddiyyətlərdir, cəmiyyətdəki müxtəlif ictimai və sosial-siyasi mənafeləri olan siniflər, sosial təbəqələr, qruplar, xalq və millətlər, ictimai hərəkatlar, partiyalar və i.a. arasında mövcud olan qarşılıqlı əlaqə və münasibətləri əks etdirən ziddiyyətlərdir.

Antaqonist ziddiyyətlər – ictimai-iqtisadi və sosial-siyasi mənafeləri bir-birinə əks olan siniflər, sosial qruplar və təbəqələr arasındakı ziddiyyətlərdir. Bu ziddiyyətlərin əsas xüsusiyyəti odur ki, onlar çox hallarda münaqişəyə, toqquşmaya gətirib çıxarır, bu toqquşmada ziddiyyətə girən tərəflər biri və ya hər ikisi sıradan çıxır, onları yeni ictimai qüvvələr əvəz edir. Və ya bu ziddiyyətlər tənzimetmə, idarəçilik, islahat yolu ilə deyil, münaqişə yolu həll olunur. Qeyri-antaqonist ziddiyyətlər – əsas mənafeləri bir-birinə uyğun gələn, lakin müəyyən mənafeləri fərqli olan tərəflər və ictimai təbəqə və siniflər arasında olan ziddiyyətlərdir.

### *İnkişafın inkarlı xarakteri. «İnkarı inkar»*

İnkarı inkar – dialektikanın ən ümumi qanunudur, gerçəklikdəki inkişafın perspektivlərini, meyllərini və istiqamətlərini, forma və nəticələrini bildirir. İnkarı inkar – gerçəkliyin bütün sahələrində (təbiətdə, cəmiyyətdə və idrakda) fəaliyyət təsirinə malik olan, inkişafın qarşısıalınmazlıq və varisliyini vəhdət halında əks etdirən, köhnənin bir çox cəhətlərinin yenidən təkrarlandığını ifadə edən bir çox cəhətlərinin yenidən təkrarlandığını ifadə edən ümumi qanundur. İnkişaf prosesində inkar yeninin köhnəni əvəz etməsidir; ölüb getməkdə olanın yeni yaranmaqda olanla əvəz olunmasıdır, köhnəlik zəminində yaranan yeninin tədricən möhkəmlənməsi, inkişaf etməsi və qələbəsidir, eyni zamanda köhnənin bir çox cəhətlərinin yenidən təkrarlanmasıdır. «İnkar» terminini fəlsəfəyə ilk dəfə Hegel gətirmiş, «inkar inkarı» bir ümumi dialektik qanun şəklində də Hegel işlətmişdir. Lakin obyektiv idealizm mövqelərində duran Hegel bu qanunun fəaliyyət mənbəyini və mahiyyətini də idealistcəsinə mənalandırmışdır. Hegelin dialektik sistemində inkişaf məntiqi ziddiyyətlərin əmələ gəlməsi və aradan qaldırılmasından ibarətdir. Bu mənada inkişaf köhnə mərhələnin daxilən inkar edilməsidir, sonra isə həmin inkar edəe yenə də bir müddət inkişafından sonra inkar olunur: inkarı inkar baş verir. Bu inkarlı innkişafda isə köhnə tama yox olmur, sanki inkar olunan həm də bərpa olunur, yenidən təkrar edilir. Hegelin fikrincə, inkarın əsasında ideyanın, fikrin inkişafı və dəyişməsi durur, gerçəklikdəki inkarlılıq fikri inkarın əşya və hadisələrdə özünü göstərməsidir. Lakin bu qanunun məzmununa daxil olan bir sıra məsələlər – yeninin qarşısıalınmazlığı, köhnənin inkar edilməsi, inkişafda varislik əlaqəsi, inkişafın düz xətt üzrə getməməsi və s. fləsəfə tarixində Hegeldən çox əvvəllər də məlum idi.

İnkarlı inkişaf xüsusiyyəti gerçəklik hadisələrinə daxilən xasdır, o, hadisələrə kənardan gətirilə bilməz, obyektivdir, maddi hadisələrin inkişafının real momentidir. «Heç bir sahədə öz əvvəlki mövcudluq formalarını inkar etməyən inkişaf baş verə bilməz» (K.Marks). Təbiət, cəmiyyət və təfəkkür inkişafının verdiyi çoxsaylı və hətta sadə, adi məlumatlar belə inkarı inkarın ən ümumi qanun olduğunu aydın sübut edir. Neçə milyon illərlə davam edən Yer qabığının inkişafı və formalaşması bir neçə geoloji dövrlərdən keçmişdir. Əvvəlki mərhələ üzərində əmələ gələn hər bir yeni dövr köhnədən özünə zamin götürərək onu əvəz etmiş, bu prosesin təkrarı üzrə inkarlı inkişaf baş vermişdir. Elmi məlumatlara görə, Yer üzərində insanın əmələ gəlməsindən indiyədək təqribən 55-ə yaxın nəsil bir-birinə əvəz etmiş, bəşəriyyətin inkişafı mümkün olmuşdur. Lakin hər nəsil köhnə nəslin yaratdığı maddi və mənəvi sərvətlərdən özünə faydalı olanları mənimsəmiş, ümumi varislik yaradaraq köhnəni inkar edə-edə inkişaf etmişdir. F.Engels «Anti Dürinq» əsərində arpa dəninin

timsalından inkarı inkar belə izah etmişdir: «Əlverişli iqlim şəraitində, rütubət və Günəş şüaları altında torpağa düşmüş arpa dəni cücərir, həmin cücərti üçün əlverişli nə varsa «götürülür», sonra əmələ gələn arpa gövdəni inkar edir, lakin toxum «yox olmur», onda düdərti üçün əlverişli nə varsa «götürülür», sonra əmələ gələn arpa gövdəni inkar edir, inkarı-inkar baş verir, inkişafa davam edir».

İnkarı inkar qanununu səciyyələndirən əsas anlayışlar bunlardır: inkar, varislik və inkişaf. Bu qanunun mahiyyətinin dərk edilməsi üçün «dialektik inkar» anlayışının məzmununa daha çox diqqət yetirməlidir. Bu isə o deməkdir ki, fəlsəfə tarixində inkarın anlaşılmasına münasibətdə başqa mövqelər də olmuşdur. İnkarın anlaşılmasında əsasən iki münasibət – dialektik və metafizik mövqe fərqləndirməlidir. Fəlsəfədə iki cür metod olan dialektika və metafizikanın «inkar» anlayışına münasibəti də fərqlidir. Təkamülçü və təftişçi cərəyanların inkar-inkarı tam rədd etməsinin əksinə olaraq, metafizik filosofların çoxu inkarı qəbul edirlər, lakin onlarn inkarın mənasını ancaq yox etmək, köhnənin mütləq məhv edilməsi kimi, tamamilə kənara atılması kimi şərh edirlər. İnkara dialektik münasibət isə başqa cür yanaşır, inkara köhnə ilə yeni arasında «əlaqə momenti», köhnədə yeniyə lazım olan keyfiyyətlərin mənimsənilməsi kimi, inkişafda varislik əlaqəsi kimi baxır, «yox etmək», «məhv etmək» kimi «quru», «əbəs» inkarı rədd edir. Dialektikaya görə, köhnə inkar edilmədən yeninin meydana çıxması və yetkinləşməsi, deməli, bütövlükdə inkişaf prosesi mümkün deyildir. İnkişaf mərhələlərdə davam edir ki, hər bir mərhələ də özlüyündə üç yarım mərhələyə bölünür: obyektiv çıxış nöqtəsinin öz əksliklərinə çevrilməsi və ya inkar, həmin əksliklərin də öz əksliklərinə çevrilməsi. Dialektik inkar fasiləsizlikdə fasiləni, inkişafda varisliyi, yüksək mərhələdə ibtidainin təkrarını və i.a. ifadə edir. Məsələn, kapitalizmdə xüsusi mülkiyyət əvvəlki quldarlıq və feodalizmdəki kimi təkrar olunur, sanki geriyə qayıdılır, lakin bu tamam yeni keyfiyyətli xüsusi mülkiyyətdir, ancaq istehsal alət və vasitələri üzərindəki xüsusi mülkiyyətdir, insanlar, işçi qüvvəsi üzərində yox. Deməli, dialektikaya görə inkişaf düz xətlə deyil, «spiralabənzər» davam edir, burada ilkin ana qayıtma, köhnənin təkrarı vardır, lakin bu qayıdış və təkrarlar daha yeni əsaslarla, daha dolğun və zəngin baş verir. Yeni köhnəni tamamilə atmır, köhnədə mütərəqqi olanların hamısını mənimsəyir, yaşadır və inkişaf etdirir. Bununla da inkişafda varislik əlaqəsi yaranır, yeni köhnə zəmin üzərində yüksəlir, inkişaf edir. Bu qanunauyğun prosesi mədəniyyətin inkişafı tarixi tam aydınlığı ilə əks etdirir. Əgər varislik, köhnədən istifadə ənənələri olmasaydı, onda bəşəriyyətin yaratdığı mədəniyyət nümunələri – yazı, musiqi,

heykəltaraşlıq nümunələri, elm, bədii ədəbiyyat və s. bir kənara atılmalı, rədd edilməli idi, hər gələn yeni nəsil üçün yeni mədəniyyət yaratmalı idi. Bu isə ən böyük çətinlik və həlledilməz problemlər törədə bilərdi.

# XI Mövzu

## Cəmiyyət idrakın obyektidir.

## İdrak. Elmi idrakın metod və formaları

Cəmiyyət dedikdə biz nə başa düşürük? Bu söz çox bir mənalarda işlənir. Bəzən bir birilə ünsiyyətdə olan insanlardan ibarət kiçik bir qrupu cəmiyyət adlandırırlar. İnsanların könüllü birliklərinə də cəmiyyət deyilir. Məsələn azərkeşlər cəmiyyət və.s. Cəmiyyətin daha geniş mənaları da vardır. Məsələn elmdə dünyanın bir hisəsi "cəmiyyət" adlanır. Bu zaman dünyaya aid edilən bütün əsas əlamətlər cəmiyyətə də aid edilir. Məsələn, dünya daima dəyişkəndir. Ona görə cəmiyyət də daima dəyişilən varlıq kimi başa düşülür. Yaxud müasir dünyanın indiki vəziyyəti, ondan əvvəlki vəziyyəti və gələcəyi vardır. Cəmiyyətin də keçmişi, indisi və gələcəyi vardır. Dünyada daima mövcud olan heç nə yoxdur. Cəmiyyətlər də daim olmur, biri o birini əvəz edir. Keçmiş cəmiyyətlərdə yaşamış insanların yaratdıqları (kəndlər, şəhərlər, mədəniyyət abidələri, elm sahələri və.s) indiki cəmiyyətlərin adamlarına qalmışdır. Bu mənada başa düşülən cəmiyyət aşağıdakı əlamətlərə malikdir:
-maddi aləm (dünyanın) təbiətdən ayrılmış hissəsidir; təbiətlə sıx bağlıdır; iradə və şüura malik fərdlərdən ibarətdir; insanların qarşılıqlı fəaliyyət üsulları və birlik formalarıdır;daima öz-özünə inkişaf edən və dəyişəndir.

Cəmiyyət insanların tarixi inkişafının müəyyən mərhələsi mənasında da işlənilir. Onların bəziləri ilə siz artıq tanış olmusunuz. Məsələn ibtidai cəmiyyət, quldarlıq cəmiyyəti və feodalizm cəmiyyətini bir-birindən fərqləndirə bilərsiniz.

Cəmiyyət bir dövlətin xalqı ( və ya xalqlar toplusu), əhalisi mənasında da işlənilir. Azərbaycan Respublikası cəmiyyətinə burada yaşayan Azərbaycan xalqı, digər xalqların nümayəndələri və etnik qruplar daxildir.

Ümumi məqsəd. İnsanların bir-biri ilə bağlılığı. İbtidai cəmiyyətdə insanın meydana gəlməsi haqqında öyrəndiklərinizi yada salın. İbtidai insan tək yaşaya bilərdimi? Niyə o, mütləq başqa insanlarla yaşamalı idi? Çünki həyat şəraiti, vəhşi heyvanlardan qorunmaq və qida əldə etmək zərurəti ibtidai insanların birgə yaşamasını tələb edirdi.

Bir fakta da fikir verək. Balaca bir heyvan (siz hansını çox sevirsinizsə, onun balansını təsəvvürünüzə gətirin) doğulmuşdur. O hansı isə hərəkəti edə bilər,hansını edə bilməz? Hansı heyvana hücüm edə bilər? Hansı heyvandan çəkinməli, qaçmalıdır? Bu cür mürəkkəb vəziyyətlərdə heyvanın balasına istiqamət verən onun instinktidir. İnsan övladı-uşaq doğulur. Bütün canlılar içərsində o, ən aciz varlıqdır. Bu varlıq hələ həyata uyğunlaşmamışdır. Heyvanın balasından fərqli olaraq o, mürəkkəb vəziyyətlərdə özü üçün əlverişli

olanı seçə bilmir. Heyvandan fərqli olaraq insan şüurlu varlıqdır. Onun ailədə cəmiyyətdə yaşamağa öyrədirlər.

İnsanın şürunu formalaşdıran isə onu başqa insanların içərsində yaşamışdır. İnsani keyfiyyətlər, məsələn, nitq, fikirləşmək və b. qabiliyyətlər yalnız insanlar içərsində yaşayarkən formalaşır. İnsanın meydana gəlməsi üçün başqa insanların olması lazımdır.

**Cəmiyyət həyatı**

Cəmiyyət həyatı bir neçə sahəyə bölünə bilər. Burada "sahə" sözü heç də məkan mənasında işlənilmir. Bu söz bütöv cəmiyyətin həyatını ayrı-ayrı hissələrə bölmək üçün ifadə edilir. Cəmiyyət həyatını aşağıdakı sahələrə bölürlər:

1. İqtisadi; 2. Sosial; 3 Siyasi; 4. Mənəvi.

İqtisadi sahənin nə olduğunu başa düşmək üçün "iqtisadiyyat" sözünün mənasını aydınlaşdırmaq. İqtisadiyyat dedikdə, cəmiyyətdə təsərrüfat sahələrinin toplusu başa düşülür. Bu söz elmin bir sahəsi mənasında da işlənilir.

Cəmiyyətin iqtisadi həyatı iki elementdən ibarətdir:

1. Maddi istehsal; 2. İstehsal münasibətləri.

Maddi istehsal iqtisadiyyatın əsasını təşkil edir. İstehsal üçün üç əsas amilin olması zəruridir: işçi qüvvəsi;əmək cisimləri;əmək vasitələri İnsanın işçi qüvvəsi onun əmək qabiliyyətinin göstəricisidir. Əmək maddi nemətlər yaratmaq və xidmət məqsədilə adamların fiziki və zehni qüvvə sərf etməsidir. Əmək prosesində insanlar təbiətin verdiyi və ya özlərinin yaratdıqları əmək cisimlərinə təsir edirlər. İnsan əməyinin yönəldiyi bütün şeylər əmək cisimi adlanır. İnsan əmək vasitələri ilə əmək cisimlərinə təsir edir və onlardan cəmiyyətə lazım olan məhsulları istehsal edir.

Məhsulların istehsalı, mübadilə, bölgü və istehlakı prosesində insanlar arasında müxtəlif münasibətlər yaranır. İnsanlar məhsul istehsal edir, onu öz arasında bölüşdürülür, fəaliyyətlərini ( və ya məhsulları) mübadilə edir və hər kəs öz payına düşən məhsulu nəyəsə sərf (istehlak) edir işlədir. Bunların hamsı birlikdə istehsal münasibətləri və ya iqtisadi sistem adlanır. Bu sistemdə daxil olan elementlər bir-birilə sıx bağlıdır və cəmiyyət həyatının başqa sahələrinə təsir edirlər.

Bəzən belə bir yanlış fikirlərlə rastlaşırıq ki, ətraf mühitin çirklənməsi istehsal həcmindən aslıdır. İstehsal artdıqca ətraf mühitin çirklənməsi artır. Lakin hər iki amil bir-birilə bağlı olsa da, əslində ətraf mühitin qorunması istehsalın həcmindən çox, istehsal mədəniyyətindən aslıdır. Məhz belə bir şəraitdə "yaşıl iqtisadiyyat" anlayışı yaranmışdır. "Yaşıl iqtisadiyyat" üzvi yanacaqlara (kömür, neft və təbii qaz) əsaslanan "qara" iqtisadi modeldən fərqli olan surətlə artan yeni iqtisadi inkişaf modelidir. Üzvi yanacaqları əvəz etmək, ekoloji çirklənmənin, qlobal istiləşmənin, təbii sərvətlərin tükənməsinin qarşısını almaq

məqsədi daşıyır. Müasir iqtisadi proqramlar yüksək ekoloji standartlar uyğun həyata keçirilir. Xüsusi ekoloji proqramlara riayət olunur.

**Cəmiyyətin sosial həyatı.** Cəmiyyətin sosial həyatına sosial təbəqə və qruplar arasındakı münasibətlər, millətlər və millətlər arasındakı münasibətlər, ailə. ailədəki münasibətlər, tərbiyyə, tibbi xidmət və asudə vaxtla əlaqədar müəssisələr daxildir. Cəmiyyətdə yaşayan hər bir insan müəyyən birliklərlə birləşir. Feodal cəmiyyətində ən böyük sosial qruplardan biri feodallar sinifi idi.Avropada bu sinifin içərsində müxtəlif feodal qrupları vardır: hersoq, qraf, baron və cəngavər. Bu qruplara daxil olan feodallar arasında da müxtəlif əlaqələr vardı. Feodalizim cəmiyyətindəki kəndlilər də eyni cür deyildi. Avropadakı Şərq ölkələrindəki feodal cəmiyyətlər öz sosial qruplarına və onların arasındakı münasibətlərə görə bir-birindən fərqlənirdi. Ümumilikdə isə sosial birliklərdəki insanlar arasında, habelə bu birliklərin öz arasında olan əlaqələr feodalizm cəmiyyətini başqa cəmiyyətlərdən fərqləndirir.

**Cəmiyyətin siyasi həyatı**. Cəmiyyət həyatının mühüm sahələrindən biri siyasi həyatdır. “Siyasi” sözü “siyasətə, siyasətin həyata keçirilməsinə aid olan” mənasında işlənilib. Bəs siyasət nədir? Siyasətə çox tərif vermişlər. Onlardan biri ilə tanış olaq: siyasət böyük insan qruplarının mənafeyinin dövlət vasitəsilə həyata keçirilməsinə yönəlmiş məqsədlər və onlara nail olmaq vasitələrdir. Böyük Karl imperiyasında feodallar yeni torpaqlara və kəndlilərə sahib olmaq istəyirdilər. Dövlətin başında duran Karl özü də iri feodal idi. Ona görə də Karlın dövləti işğalçılıq müharibəsi aparmaq yeni torpaqlar ələ keçirirdi. Deməli, Böyük Karl dövlətin feodallarının mənafeyi üçün torpaqlar ələ keçirmək məqsədinə işğalçı müharibələr vasitəsilə nail olmaq istəyirdi. Bu böyük Karlın, onun dövlətinin siyasəti idi.

Hər hansı siyasətin həyata keçirilməsində dövlət mühüm rol oynayır. Niyə? Çünki hər hansı ölkədə ordu, keşikçilər, polis, məhkəmə və həbsxanalar yalnız dövlətin əlindədir. Bunların köməyi ilə cəmiyyətdə insanların bir böyük qrupu öz idarəsini başqasına qəbul etdirir.

**Cəmiyyət həyatının dəyişməsi**

Cəmiyyət həyatının irəliyə inkişafı-tərəqqi. Cəmiyyət yerində dayanıb durmur. O daim dəyişir, inkişaf edir. XX əsri xatırlayaq: televiziyanın yaradılması, İkinci Dünya müharibəsi, insanın Aya uçuşu, sosial sahədə əsaslı dəyişikliklər və.s. Cəmiyyət həyatının dəyişməsi və inkişafın öyrənərkən aşağıdakı suallara cavab vermək lazım gəlir:

Cəmiyyətdə baş verən dəyişikliklər və inkişaf hansı istiqamətdə cərəyan edir? İnkişafın mənbəyi nədir, o hansı amillər hesabına baş verir? İnkişaf və dəyişikliklər hansı formada baş verir? İnkişaf və dəyişikliklər hansı formada baş verir?

Cəmiyyətin inkişafı müsbət irəliləyişlərə gətirib çıxarırsa, bu halda söhbət proqresdən –tərəqqidən gedə bilər. Tərəqqi irəliləyən,artan inkişafdır. Bu zaman bütün dəyişikliklər yüksələn xətlə sadədən mürəkkəbə,ibtidaidən aliyə doğru gedir. Cəmiyyətin mütərəqqi istiqamətdə inkişaf etməsi o deməkdir ki,əmək vasitələri təkmilləşir, məhsuldarlıq artır, insanların yaşayışı yaxşılaşır, əhali çoxalır, insanlar arasında sosial, iqtisadi, mənəvi və ticarət əlaqələri genişlənir, şəhərlər salınır. və.s. Sivilizasiyanın yüksəklik mərhələsinə keçid prosesi sosial tərəqqi adlanır. O, iqtisadi,texniki və mədəni tərəqqidən ibarətdir.

Əgər cəmiyyət geriləyirsə, əldə edilmiş nailiyyətləri itirilirsə tərəqqidən əvvəlki səviyyəyə qayıdılırsa, yaxud durğunluq yaranırsa, bu reqres-tənəzzül adlanır. Cəmiyyət həyatının ayrı-ayrı sahələrində, elementlərində tənəzzül baş versə də, bütöv cəmiyyətin həyatının ayrı-ayrı sahələrində, elementlərində tənəzzül baş versə də, bütöv cəmiyyətin reqres etməsi tarixdə heç vaxt olmamışdır.

Cəmiyyətin inkişafının mənbəyi nədirsə, inkişaf hansı amillər hesabına baş verirsə,onlar ictimai inkişafın hərəkətverici qüvvəsi adlandırılır. Alimlər müxtəlif amilləri cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi hesab etmişlər.

Bu amillərdən biri texniki ixtiralar və elmi kəşflərdir. Bunların sayəsində əmək alətləri inkişaf edir, müəssisələrdə texnikanın tətbiqi genişlənir, maşınlı istehsal yaranır. Maşınlı istehsala əsaslanan cəmiyyət meydana gəlir. Bir sıra inkişaf etmiş ölkələrdə isə (ABŞ, Qərbi Avropa, Yaponiya) artıq cəmiyyətin hərəkətverici qüvvəsi istehsalın kompyuterləşdirilməsi, robortlaşdırılması və avtomatlaşdırılması olur. Bu cür cəmiyyətlərdə informasiya (kompyuter) mühüm rol oynayır.

**Münaqişələr və onların həlli**

Münaqişə əks tərəflərin toqquşmasıdır. Bəşər cəmiyyətinin mövcud olduğu bütün bütün dövr münaqişılərlə zəngin olmuşdur. Müxtəlif insan qrupları formalaşdıqca, münaqişələr və onların səbəbləri, formaları da dəyişmişdir. Çünki insan mövcud olduqca onun müxtəlif maraqları da olmuş və istər-istəməz maraqlar arasında ziddiyyətlər münaqişələrə səbəb olmuşdur. Deməli münaqişələrin kökündə mənafelərin toqquşması və onlar arasında ziddiyyət dayanır. Bu ziddiyyət, mənafe müxtəlifliyi inkişaf edərək münaqişəyə çevrilir. Bəzən hər hansı bir fikir ayrılığı, anlaşılmazlıq tədricən həlledilməz problemə çevrilir və yeni bir münaqişənin təməli olmuşdur. Təssadüflər olur ki, insanlar münaqişədən qaçmağa, ondan uzaq olmağa çalışsa da, münaqişələr həyatın

qaçılmaz tərəfi olmuşdur. Münaqişələrin səbəbləri, miqyası və forması kimi əhatə dairəsi də müxtəlif ola bilər. Münaqişələr bəzən insanın daxili aləmini, ətrahını, ailəsini və ya iş kollektivini əhatə edə bilər. İnsanların dünyagörüşü, dəyərləri, siyasi baxışı, dini etiqadları,mənafeləri arasında olan ziddiyyətlər münaqişələrə səbəb olur. Maddi maraqlar, siyasi və dini fikir ayrılığı və.s. münaqişələrin başlıca səbəblərindən ola bilər.

**Münaqişələrin növləri**. Münaqişələrin növləri aşağıdakılardır:

Şəxsiyyətdaxili münaqişə. Bu münaqişənin əsasında daha çox insanın mənəvi aləmi,bir-birinə əks olan fikir və düşüncələr, arzu və duyğuları, maraqları durur. İnsanın ailə rifahı, işlərində uğurlar bu münaqişənin uğurlu həllindən asılıdır.

**Şəxsiyyətlərarası münaqişə** iki və ya bir neçə tərəf arasında olur. Bu münaqişələrin səbəbləri kimi davamlılığı da müxtəlif olur. Bu münaqişələrin tərəfləri də fərqli ola bilər. İnsan bəzən ən yaxın adamı qohumu, dostu və ya iş yoldaşı ilə, bəzən isə heç tanımadığı, küçədə təsadüfi rastlaşdığı biri ilə də münaqişə edə bilər.

**Qrupdaxili münaqişələr** hər hansı sosial qrupun daxilində baş verir. İş yerində, ailədə, komanda üzvləri arasında və.s. baş verən münaqişələr qrupdaxili münaqişələrə misal ola bilər.

**Etnik (milli) münaqişələr** müasir dövrümüzdə ən geniş yayılmış münaqişə növlərindən sayılır. Etnik münaqişələrin tarixi qədim zamanlara gedib çıxır. Bu münaqişələr daha çox ərazi və sosial problemlərlə bağlı olur.

**Dini münaqişələr** insanların dünyagörüşü formalarından biri olan müxtəlif dini etiqadlar arasında ziddiyyətlərdən yaranır.

**Münaqişələrin həll edilməsi yolları**. Biz, münaqişələr qaçılmaz olan dünyada yaşayırıq. Münaqişələrdə ayrı-ayrı insanlar və ya bütün xalqlar, dövlətlər iştirak edir. Hər bir insanın şəxsi xarakteri, tələbatı, zövqü, baxışları və maraqları var.

### Dövlətlər arasında silahlı münaqişələr və onun nəticələri

Silahlı münaqişə və müharibə bəşəriyyətin bəlasıdır. Müharibə və ya silahlı münaqişə zorakılıq təzahürüdür. Dövlətlər fikir ayrılıqlarını və ya müharibələri sülh danışıqları masası arxasında həll edə bilmədikdə, yaxud etmək istəmədikdə silahlar işə düşür. Müharibə labüd surətdə ölçüyə gəlməyən əzablara və ağır

maddi itkilərə gətirib çıxarır. İkinci Dünya müharibəsinin əsas hərbi cinayətkarlarının mühakimə olunduğu Nurnberq tribunalarının qərarında müəyyən edildiyi kimi, müharibə aşkar bir bəladır. Bu gün heç kim müharibəyə öz məqsədləri naminə haqq qazandırmaq həvəsinə düşməzdi. Bununla belə dövlətlər bir-biri ilə müharibə aparır, insanlar isə hökümətdən ədalətli rəftara ümidini itirdikdə ona qarşı silaha əl atırlar. Heç kəs ərazisinin 20%-i işğal edilmiş Azərbaycanı öz ərazi bütövlüyünü bərpa etməyə, onu müstəqilliyinə təcavüz edən Ermənistan dövlətini dəf etməyə cəhd göstərərək apardığı müharibədə qınaya bilməz. Bizim dövlətimiz sülhsevər dövlətdir. Heç bir dövlətə qarşı ərazi iddiası yoxdur. İşğal edilmiş torpaqlarımızı sülh və ədalət yolu, beynəlxalq hüququn müəyyən etdiyi yolla azad etmək istəyir. Lakin bütün sülh vasitələri tükəndikdə, silahlı yolla öz ərazisini azad etmək hüququnu da özündə saxlayır.

Silahlı münaqişə və onun səbəbləri. Biz artıq əvvəlki paraqraflardan münaqişə anlayışı ilə tanışıq. İki və ya daha çox tərəfin maraqları toqquşursa və onlar bunu güc vasitəsilə həll etməyə başlayırsa münaqişə yaranır. Dövlətlər güc tətbiq etdikdə, yaxud bir dövlət daxilində belə qruplar arasında uzunmüddətli silahlı mübarizə baş verdikdə silahlı münaqişə müharibə olur. Beynəlxalq hüquqa əsasən müharibə iki dövlət arasında və ya iki dövlətlər qrupu arasında yaxud bir dövlət və dövlətlər qrupu arasında aparılır və adətən, diplomatik əlaqələrin pozulması və zorakı hərəkətlərlə səciyyələnir.

Təcrübə göstərir ki, silahlı qarşıdurmaların səbəbləri döyüşən tərəflərin bizə təlqin etdiyi, yaxud bizim hər hansı tərəfə rəğbət və nifrətimizdən asılı olaraq dərk etdiyimiz kimi də sadə deyildir. Adətən, silahlı münaqişənin və müharibənin bir neçə səbəbi olur. Bu səbəbləri belə təsnif edirlər:

1. **İdeoloji səbəblər**: münaqişə edən tərəflər qarşıdurmaya aparıb çıxaran ideoloji səbəblər irəli sürürlər. Bunlar siyasi, yaxud dini səbəblər ola bilər. Çox vaxt belə deyirlər: müharibə “cilidini dəyişmiş ideologiyadır”
2. **İqtisadi səbəblər**: münaqişə edən tərəflər zəngin sərvətlərə nəzarət etmək istəyirlər. Onlar müəyyən strateji və hərbi üstünlüyə malik olmaq üçün əlverişli yerlərdə baza yaratmaq, yaxud okean, göl və çayları nəzarət altına almaq istəyirlər. Dünyada qeyri- sabitlik yaratmaq, müharibələr təşkil etmək silah istehsalından külli miqdarda qazanc götürmək və.s. də iqtisadi səbəblərlə bağlıdır. Kasıblar daha yaxşı həyat şəraiti tələb etdiyi zaman meydana çıxan silahlı münaqişələri də bu qrupa aid etmək olar. Keniya və Albaniyada olduğu kimi.

3. **Etnik səbəblər**: müharibə tərəfdarları hərbi münaqişələrə haqq qazandırmaq üçün sosial və etnik amillərdən istifadə edərək, insanlarda qərəzli fikir, qarşılıqlı inamsızlıq yaradır. Konkret olaraq, Ermənistanda uşaqları "dədə-baba" düşmənləri hesab etdikləri türklərə qarşı nifrət ruhunda tərbiyə edirlər. Belə hallar gələcəkdə asanlıqla yeni münaqişənin yaranmasına səbəb olur. Ermənistan-Azərbaycan münaqişəsi kimi.
4. **Psixoloji səbəblər**: "Zorakılıq mədəniyyəti" və ənənəsi olan silahlanmış, şovinizmi tərənnüm edən bir ölkə, humanizm ideyalarına əsaslanan cəmiyyətə nisbətən silahlı münaqişələrə daha tez cəlb oluna bilər.

## İdrak

İnsanın təbiətə münasibətinin rəngarəng formaları sistemində mühüm yeri idrak, yaxud insanı əhatə edən aləm haqqında biliklər, onun təbiəti və strukturu, inkişaf qanunauyğunluqları, həmçinin insanın özü və bəşər cəmiyyəti haqqında bilgi tutur. İdrak insanın yeni bilik əldə etməsi prosesi, əvvəllər məlum olmayanın kəşfi deməkdir. İdrakın mühüm nailiyyətləri insanın həmin prosesdə fəal rolu ilə əldə edilir. Əslinə qalanda elə fəlsəfi təhlili də maraqlandıran həmin məsələdir. Başqa sözlə desək, söhbət həqiqətə çatmaq yolları, anlayışları və metodlarından gedir.

İdrakın fəlsəfi problemləri dedikdə, idrak nəzəriyyəsinin predmeti, yaxud qnoselogiya nəzərdə tutulur. "Qnosologiya" yunan mənşəli olub, qnozis-bilik, loqos-söz təlim deməkdir. İdrak nəzəriyyəsi aşağıdakı suallara cavab verir: idrak nədir? Onun hansı əsas formaları vardır? Biliksizlikdən biliyə keçidin qanunauyğunluqları necədir? İrakın subyekti və obyekti nədir? İdrak prosesinin strukturu necədir? Həqiqət nədir və onun hansı kriteriyaları vardır? və.s Fəlsəfəyə "İdrak nəzəriyyəsi" terminini ilk dəfə Şotlandiyalı filosof C. Ferrey 1854-cü ildə gətirmişdir.

İdrak vasitələrinin təkmilləşdirilməsi insanın fəaliyyət tarixinin ayrılmaz hissəsidir. Keçmiş dövrlərin filosofları çoxsaylı idrak məsələlərinin həllinə diqqət yetirmişlər. Təsadüfi deyildir ki, bu problem fəlsəfi fikrin inkişafında müəyyənedici yer tutmuşdur.Əvvəlcə idrak sadəlövh, bəzən isə hətta prmitiv formada çıxış edir . yəni adi idrak kimi mövcud olur. Onun funksiyası bu günə qədər öz əhəmiyyətini itirməmişdir. İnsan praktikasının inkişaf səviyyəsi ilə əlaqədar olaraq onun ətraf aləmi qavramaq vərdişləri və bacarıqları da təkmilləşmişdir. Nəticədə təkcə idrak vasitələri ilə deyil, elmin bu vəya digər növləri ilə gerçəkliyin öyrənilməsi davam etdirilmişdir. Bu zaman bütövlükdə dünyanı əhatə edən ümum fəlsəfi prinsiplərlə yanaşı, idrak sahəsi (insan idrakının dünyaya münasibəti), eləcə də xüsusi elmi təfəkkür prinsipləri və xüsusi elmi nəzəriyyələrin prinsipləri inkişaf etmişdir.

Ümumiyyətlə, XX əsrdə elmi cəmiyyətin həyatını dəyişə bilən qüdrətli amillərdən birinə çevrilmişdir. Bu zamandan başlayaraq elm özünü tədqiqat obyektinə çevirmiş və onun tədqiq etməyə başlamışlar. Bununla yanaşı, cəmiyyətin və insanın idraki fəaliyyəti mərkəzi tədqiqat obyektinə çevrilmişdir. Elmi yaradıcılığın psixologiyası, elmin məntiqi, elmin sosiologiyası, elmin tarixi, nəhayət, elmşünaslıq-bütün bunlar elmi idrakın müxtəlif forma və sahələrini öyrənən xüsusi fənlərin qısa siyahısıdır. Lakin fəlsəfə də kənarda qalmamışdır. Bu sahədə yaranan elm fəlsəfəsi (konkret sahələrə gəldikdə isə, biologiyanın fəlsəfəsi, riyyaziyyatın fəlsəfəsi və.s) geniş fəaliyyətə başlamışdır.

Ümumiyyətlə, "idrak" mövzusunun öyrənilməsi üçün bir sıra anlayışları nəzərdən keçirmək lazımdır. Filosofların və digər elm sahələrinin bir sıra cəhdləri sayəsində belə bir fikir formalaşmışdır ki, idrakın mühüm prinsiplərinə əsaslanaraq subut etmək olar ki, elm mürəkkəb, dinamik və funksional bir sistemdir. "Sistem", "struktur" anlayışları bu baxımdan fikrimizin anlaqlı olmasına kömək edir.

Birinci növbədə təbiətşünaslıq sahəsindəki tədqiqatlarda alimlər belə bir nəticəyə gəldilər ki, hər bir hadisəni daha kiçik hissələrə və elementlərə bölmək olar. Uzun müddət belə bir fikir hakim idi ki, mexaniki yollarla (mexanisizim) mürəkkəbi sadəyə, bütövü hissələrə, sistemi öz elementlərinə, cansız təbiətdəki və cəmiyyətdəki rəngarəng hadisələri isə mexaniki hərəkətlə müncər etməklə onların düzgün izahını anlamaq mümkündür. Lakin yeni-yeni faktların aşkarlanması ilə aydın oldu ki, bu cür təfəkkür üsulu kifayət qədər təsirli deyildir. Onun məhdudluğunu aradan qaldırmaqdan ötrü sistemlilik prinsipinin işlənməsi zəruri hesab edildi, sonra isə bu, elmdə və praktikada sistemli yanaşmanın yayılmasına gətirib çıxardı.

Hər hansı bir obyekti hansı üsullarla olur-olsun tərkib hissələrinə bölmək mümkündürsə, ona sistem deyilir. Sistem yunanca bütöv, tam sözündən olub ayrı-ayrı hissələrdən çoxsaylı elementlərdən ibarət olana deyilir. Əslində elmi idrakın hər bir obyektinə sistem kimi baxmaq daha düzgün hesab edilir. Sistemlər isə bəzən sabit, funksiyaları və dinamik kimi növlərə bölünür.

Struktura gəldikdə isə obyektə, predmetə, prosesə bütövlük verən elementlərin nisbətən sabit vəhdəti və onların əlaqə və münasibətlərini ifadə edən anlayışdır.

## İdrakın subyekti və obyekti

Əgər elmi idrak prosesinə bütövlükdə sistem qurumu kimi baxsaq, onun elementi kimi birinci növbədə idrakın subyekti və obyektini ayırmaq lazımdır.

İdrakın subyekti-predmet-praktiki fəaliyyətin və idrakın daşıyıcısı, idrak predmetinə istiqamətlənmiş idraki fəallığın mənbəyidir. İdrakın subyekti kimi ayrı-ayrı insanlar (fərdlər, eləcə də müxtəlif sosial, qruplar), bütövlükdə cəmiyyət çıxış edə bilər. İdrakın subyekti ayrı-ayrı fərdlər olduqda o zaman həmin fərdin şüur və özünüdək (şəxsi "Mən") bəşər tarixi boyu yaradılmış bütün

mədəniyyət dünyası ilə müəyyən olunur. Uğurlu idraki fəaliyyət yalnış idrak prosesində subyektin aktiv rolu sayəsində mümkündür.

İdrak obyekti-subyektin praktiki və idraki fəaliyyətinin istiqamətləndiyidir. Obyekt nə materiya, nə də obyektiv reallıqla eyni deyildir. İdrak obyekti həm maddi qurumlar (kimyəvi elementlər, fiziki cisimlər, canlı orqanizimlər), həm də sosial hadisələr (cəmiyyət, adamların qarşılıqlı münasibətləri, onların davranışı və fəaliyyəti) ola bilər. İdrakın nəticələri də (eksperimentin yekunu, elmi nəzəriyyələr, bütövlükdə elm) idrak obyekti ola bilər. Beləliklə, insandan asılı olmayaraq mövcud olan şeylər, hadisələr və.s. idrak obyekti hesab edilə bilər. Bununla əlaqədar demək olar ki, obyekt anlayışı və predmet bir-birindən fərqlənir. Predmet bu və ya digər elmin diqqət yetirdiyi obyektin yalnız bir tərəfidir. Lakin bununla yanaşı, qeyd etmək lazımdır ki, predmet anlayışı öz həcminə görə obyekt anlayışından genişdir.

Fəlsəfə yaranandan bəri subyektin obyektə münasibəti problemi dərkedilənin münasibəti kimi həmişə filosofların diqqət mərkəzində durmuşdur. Bu münasibət səbəb və xarakterin izahını mürəkkəb bir təkamülə uğratmışdır. Subyektin özü və onun fəaliyyəti konkret və tarixi şəraitin eləcə də subyektin digər subyektlərlə vasitəliliyi nəzərə alınmaqla düzgün başa düşülə bilər.

Elmi idrak nəinki subyektin obyektə, həmçinin subyektin özünə (refleksiya) şüurlu münasibətini zəruri edir.

## İdrakın formaları

İdrak obyektiv aləmin, onun qanun və qanunauyğunluqlarının insan beynində müəyyən məqsədə yönələn fəal inikasıdır. İdrakın mənbəyi insanı əhatə edən xarici aləmdir. Xarici aləm insana təsir göstərir və onda müvafiq duyğular, tsəvvürlər anlayışlar doğurur. İnsan idrakın fəallığı, müəyyən məqsədə yönəlməsi məhz praktikada, insanların maddi istehsal fəaliyyətində meydana çıxır. Praktika prosesində insan dünyaya təklikdə deyil, başqa adamlarla, bütövlükdə cəmiyyətlə qarşılıqlı əlaqədə fəal təsir göstərir. Bu isə o deməkdir əgər idrakın obyekti, onun mənbəyi maddi aləmdirsə, idrakın subyekti, onun daşıyıcı bəşər cəmiyyətidir. İdrakın ictimai təbiətini qəbul etmək dialektik idrak nəzəriyyəsinin mühüm fərqləndirici cəhətidir. Dialektik fəlsəfəyə görə, idrak təfəkkürün dərk edilən predmetə yaxınlaşdırılmasından, fikrin biliksizlikdən biliyə doğru, yarımçıq və mükəmməl olmayan bilikdən daha tam, mükəmməl biliyə doğru hərəkətindən ibarət sonsuz bir prosesdir.

Uzun illər Sovet fəlsəfəsi ədəbiyyatında idrakın hissi və məntiqi idraka bölünməsi ehkam kimi qəbul edilmişdir. Biz əvvəlcə hissi idrak və məntiqi idrak mərhələləri haqqında məlumat verərək, sonra isə indiyə qədər fəlsəfi ədəbiyyatda olmayan idrak formalarından da danışacağıq. Hissi idrakın əsas forması duyğudur. Duyğu predmetin ayrı-ayrı xassələrinin, xüsusiyyətlərinin,

tərəflərinin inikasıdır. Predmetlər isti və soyuq,tünd və açıq, hamar və kələ-kötür ola bilər. Onların bütün bu və ya bir çox başqa xassələri bizim hiss üzvlərimizə təsir göstərərək müəyyən duyğular yaradır. Duyğulardan başqa, qavrayış və təsəvvür də hissi idrakın formalarıdır. Bununla belə, qavrayış hissi idrakın daha yüksək formasıdır. Qavrayış predmeti onun bilavasitə hissi bütövlüyü halında, onun xarici tərəflərinin, xüsusiyyətlərinin məcmusu halında əks etdirir. Təsəvvür əvvəlcə qavranılanın insan şüurunda bərpasıdır.

Məntiqi idraka gəldikdə isə o, hissi idrakın gördüyü işi bir növ tamamlayır. Hiss üzvlərinin verdiyi bilik son dərəcə zəngin və rəngarəngdir. Lakin o tam deyil, məhduddur. Hissi bilik bizə şeylərin yalnız ayrı-ayrı xarici tərəfləri haqqında təsəvvür versə də, onların daxili təbiətini, onların mahiyyətini, onların inkişaf qanunlarını aşkara çıxara bilməz. İdrakın əsas vəzifəsi isə məhz bundan ibarətdir. Məntiqi təfəkkür pilləsində gerçəkliyin inkişafının insana öz əməli işlərində son dərəcə zəruri olan qanunları dərk edilir. Anlayış predmetlərin bütün tərəflərini deyil,yalnız mühüm, tərəflərini əks etdirir, ikinci dərəcəli əlamətləri nəzərə almır, bunları kənara atır. Anlayışların inkişafı prosesi iki istiqamətdə davam edir:1. Qabaqkı anlayışlar dərinləşdirilir, dürüstləşdirilir və daha yüksək abstraksiya səviyyəsinə qaldırılır; 2. Yeni anlayışlar meydana gəlir. Anlayışlar əsasında təfəkkürün başqa formaları- mühakimələr, əqli nəticələr formalaşır.

Mühakimə elə bir idrak formasıdır ki, bunda nə isə iqrar edilir və yan nəisə inkar edilir. Mühakimənin tərkibinə müəyyən anlayışlar daxildir. Bundan başqa hipotezlərdən də idrak prosesində istifadə edilir. Hipotezlər hadisələr, qanunlar haqqında ehtimaldır. Həmçinin idrakda elmi nəzəriyyələrdən də istifadə olunur. Elmi nəzəriyyələr gerçəkliyin hər hansı müəyyən prosesləri və ya sahələri haqqında dərin, hərtərəfli bilikdir.

## İdrakın metod və vasitələri

Məlum olduğu kimi, müxtəlif elmlər özünün spesifik tədqiqat metodları və vasitılərinə malikdir. Fəlsəfə bu spesifikanı unutmayaraq idrakın yalnız ən ümumi ( həm nəzəri,həm də praktiki elmlər üçün) metod və vasitələrinə üstünlük verir.

Psixologiyadan fərqli olaraq fəlsəfəni idrak prosesinin ümumi qanunauyğunluqları maraqlandırır. Fəlsəfədə metodologiya (metod haqqında təlim) adlanan böyük bir sahə vardır. Bu, gerçəkliyin dəyişdirilməsi, idrak üsulları, dünyagörüşü prinsiplərinin idrak prosesinə, yaradıcılığa, praktikaya tətbiqini əks etdirən fəlsəfi təlimdir. Əslində elmi idrakın vəzifəsi predmetlərin və hadisələrin daxili təbiətini, mahiyyıtini, onların fıaliyyət və inkişaf qanunlarını aşkara çıxarmaqdan ibarətdir. Lakin mahiyyət, qanunlar hadisələrin səthində deyildir, bunları aşkara çıxarmaq üçün elmin və praktikanın uzun sürən mürəkkəb inkişafı prosesində bütöv bir elmi-tədqiqat üsulları işlənib hazırlanmışdır. Bu üsullar ən ümumi əhəmiyyətə malik olub, gerçəkliyin ən müxtəlif hadisələri araşdırılarkən hər hansı elmə tətbiq edilə bilər. Emprik

tədqiqatların əsas vasitələri (metodları) müşahidə və eksperimentdir. Onları çoxsaylı ölçü prosedurları tamamlayır.

Müşahidə-ətraf aləmin predmet və hadisələrinin məqsədyönlü və təşkil olunmuş qavrayışdır. Müşahidə hissi idraka əsaslanır. Müşahidə obyekti kimi təkcə xarici aləm predmetləri çıxış etmir. Müşahidəyə subyektin özünü əhval-ruhiyyəsi həyəcanlarının, hisslərinin,psixi və emosional vəziyyətlərinin özü də daxildir (burada söhbət özünümüşahidədən-intpospeksiyadan gedir).

Qeyd etmək lazımdır ki, müşahidə təkcə faktların mexaniki və avtomatik qeydiyyatı ilə məhdudlaşmır. Müşahidə prosesində fəal funksiyanı insanın şüuru yerinə yetirir. Bu o deməkdir ki, müşahidəçi təkcə faktları qeydə almır, eyni zamanda məqsədyönlü şəkildə onları axtarır, öz axtarışında hipotezlərdən və mövcud təcrübədən istifadı edir. Əldə edilən nəticələrdə hipotezlər (nəzəriyyələr) ya təsdiq olunur, yaxud da təkzib olunur. Müşahidələr subyektin hissi, arzu, istək və iradəsindən asılı olmayaraq, nəticədə verməlidir, daha dəqiq desək, onlar obyektiv informasiya verməlidir. Müşahidələr bilavasitə kimi iki hissəyə bölünür. Bilavasitə müşahidələrdə fərqli olaraq, bilavasitə (dolayısı ilə) müşahidələrdə tədqiqat predmeti rolunda bəzən obyektin, yaxud prosesin özü iştirak etmir, digər predmet və proseslərlə qarşılıqlı əlaqədə (təsirdə də demək olar) iştirak edir. Bu cür müşahidələrə fizika istənilən qədər material verir.

Elmi tədqiqatlarda müşahidə aşağıdakı funksiyaları yerinə yetirir:emprik informasiya ilə təminat:eksperiment vasitəsilə həyata keçirilməsi mümkün olmayan nəzəriyyə və hipotezlərin yoxlanılması; nəzəri tədqiqatlar gedişində əldə edilən nəticələrin müqayisəsi; onların həqiqiliyi və adekvatlığının yoxlanılması və.s.

## Tarixilik və məntiqlik

İdrakın inkişaf qanunlarını, onun dialektikasını dərindən anlamaq üçün şey haqqındakı konkret biliyin əldə edilməsi prosesində tarixi ilə məntiqinin qarşılıqlı münasibətlərini aydınlaşdırmaq lazımdır. Tarixi dedikdə, real şeyin özünün hərəkəti nəzərdə tutulur; məntiqi isə tarixinin inkasıdır. Tarixi əvvəl gəlir.onun arxasınca isə məntiqi gəlir. Məntiqi tarixinin əsas mərhələlərini əks etdirir. Tarixilik və məntiqilik ilk dəfə Hegel tərəfindən irəli sürülmüşdür. Məntiqi tarixini bütün təfərrüatı ilə təkrar etmir, onun başlıca cəhətini, mahiyyətini abstraksiyalarda, real inkişaf prosesini bütün zənginliyin öyrənmək əsasında bərpa edir. Doğrudur, şeyin inkişafında təsadüflər, dolanbaclar,əsas yoldan bu və ya digər tərəfdə uzaqlaşmalar vardır. Lakin bütün bunlara baxmayaraq, məntiqi ilə tarixi vəhdət təşkil edir, lakin bunlar bir-birinin eyni deyildir; bunlar başlıca, mühüm cəhətlərdən bir-birinə müvafiqdir. Məntiqi özüdə tarixdir. Lakin tarixi formanın təsadüfi cəhətləri məntiqdən kənar edilmişdir. Onlar həm vəhdətdədir, həm də bir-biri ilə müəyyən hallarda ziddiyyətə girirlər. Məntiqi yanaşma olmadan tarixi yanaşma kordur,tarixsiz isə

məntiqi məzmunsuzdur.Məntiqi yalnız tarixini dərk etmək vasitəsidir. O, hərtərəfli öyrənmə üçün prinsip verir.

## Həqiqət və onun meyarları

İdrakın əsas məqsədi elmi həqiqətə nail olmaqdır. Həqiqət dedikdə dialektik fəlsəfə o bilikləri nəzərdə tutur ki, bunlar həmin predmeti düzgün əks etdirsin, ona uyğun olsun. Fəlsəfədə həqiqət təkcə idrakın məqsədi deyil,həm də tədqiqat predmetidir. Belə demək olar ki, həqiqət anlayışı elmin mahiyyətini ifadə edir. Filosoflar çoxdandır ki, elə bir idrak nəzəriyyəsi yaratmağa çalışmışlar ki, ona elmi həqiqətin əldə edilməsi prosesi kimi baxsınlar. Bu yolda əsas ziddiyyətlər subyektin fəallığının və bilik əldə etmək imkanının müvafiq obyektiv real dünyaya qarşı qoyulmasıdır.

.Lakin həqiqət çoxlu aspektlərə malikdir, onun müxtəlif nöqteyi-nəzərdən, yəni məntiqi, qnoseoloji və nəhayət ilahiyyat nöqteyi- nəzərdən baxmaq olar. Bəs həqiqət nədir? Həqiqətin klassik fəlsəfi konsepsiyalarında baxılması tarixi antik dövrə gedib çıxır. Məsələn Platon belə hesab edirdi ki, şeylərə müvafiq şeylərdən danışanlara doğru danışır. Onların haqqında başqa cür danışanlar yalan danışır. Uzun müddət həqiqətin klassik konsepsiyası idrak nəzəriyyəsində üstün yer tutmuşdur. Fikirlərin gerçəkliklə adekvatlığı bu qəbildəndir. Avqustin həqiqi ideyaların anadangəlmə olması haqqında təlimi inkişaf etdirmişdir.

Avqustindən fərqli olaraq materialistlər elmin nailiyyətlərinə və bəşəriyyətin əsrlər boyu davam edən praktikasının uğurlarına arxalanıb iddia edirlər ki, həqiqət obyektivdir. Həqiqət obyektiv surətdə mövcud olan dünyanı əks etdirdiyinə görə, həqiqətin məzmunu insan şürundan asılı deyildir. Həqiqətin məzmunu tamamilə onun əks etdirdiyi obyektiv proseslərlə müəyyən olunur.

Bəs həqiqətin kriteriyası nədir? Həqiqətin kriteriyasını müəyyənləşdirmək məsələsi fəlsəfənin başlıca problemlərindən biri hesab olunur. Bu məsələdə filosoflar arasında böyük fikir ayrılığı mövcuddur. Ən ifrat nöqteyi-nəzərə görə , həqiqətin kriteriyası yoxdur. Onun tərəfdarlarının fikrincə, ya ümumiyyətlə həqiqət yoxdur, yaxud da vardır, hamıya və hər şeyə xasdır.

İdealistlər-rasionalizm tərəfdarları həqiqətin kriteriyası kimi təfəkkürün özünü götürürdülər. Çünki yalnız təfəkkür predmeti aydın təmsil etmək qabiliyyətinə malikdir. Dekart və Leybnits kimi filosoflar ilkin həqiqətlərin öz-özünə olması fikrinə əsaslanaraq onun intellektual intuisiya vasitəsilə daha da aydın olmasını irəli sürdülər. Onların dəlilləri riyaziyyatın imkanları ilə əlaqələndirilirdi. İ. Kant həqiqətin yalnız formal, məntiqi kriteriyasını qəbul edirdi. Digər aqnostiklər də həqiqətin meyarı (kriteriyası) olmadığını əsaslandırmağa cəhd edirdilər. Bir çox filosoflar idrakın həqiqiliyi kriteriyasını təsəvvürlərin və anlayışların aydın və anlaşıqlı olmasında, bunların ümumi mənasında, kollektiv təcrübədə axtarırdılar.

Marks görə idrak özü öz həqiqiliyinin meyarı ola bilməz. Biliyin həqiqiliyinin meyarını idrak xaricində praktikada axtarmaq lazımdır. “İnsan təfəkkürünün predmeti həqiqiliyinə malik olub olmadığı məsələsi hec də nəzəriyyə məsələsi olmayıb, əməli məsələdir. İnsan öz təfəkkürünün həqiqiliyini, yəni gerçəkliyini və qüdrətini, bu dünyaya məxsus olduğunu praktikada subut etməlidir. Praktikadan təcrid olunan təfəkkürün gerçək olub-olmadığı haqqındakı mübahisə xalis sxolastik məsələdir” İnsan öz anlayışlarının obyektiv həqiqiliyini praktika vasitəsilə subut edir. İnsan idrakı mütləqdir, suverendir, çünki obyektiv həqiqəti verə bilir, şeylərin düzgün inkasını verə bilir. Fəlsəfədə mütləq və nisbi həqiqət anlayışlardan istifadə edilir. Dolğun və bitkin formada olan obyektiv həqiqətə mütləq həqiqət deyilir. Mütləq həqiqət elə bir biliyə deyilir ki,elmin və praktikanın sonrakı inkişafının gedişində onu təkzib etmək mümkün deyildir. İnsan mütləq həqiqətə birdən-birə gəlib çatmır. Mütləq həqiqət nisbi həqiqətlərdən əmələ gəlir.

Nisbi həqiqət elə bildirir ki, gerçəkliyi əsasən düzgün əks etdirir, lakin dolğun əks etdirmir, onu müəyyən hüdud daxilində, müəyyən şəraitdə və münasibətlərdə əks etdirir. Elmin sonrakı inkişafında bu bilik dürüstləşir, dolğunlaşır, dərinləşir konkretləşir. Dialektik fəlsəfədə həqiqətin meyarı kimi praktikanı götürür. Bu və başqa ideyanın, eli nəzəriyyənin həqiqiliyi haqqında istənilən qədər mübahisə etmək olar, lakin bu mübahisəni yalnız praktika – istehsal, siyasi həyat, elmi eksperiment həll edə bilər.

## XII Mövzu

## Cəmiyyətin sosial strukturu.

## Cəmiyyətin siyasi tərkibi.

Cəmiyyəti , onda gedən mürəkkəb prosesləri , adamlar arasındakı münasibətləri düzgün anlamaq üçün mühüm , hətta fundamental vəzifələrdən biri kimi onun sosial strukturu məsələsini təhlil etmək lazımdır. Hazırda praktiki olaraq hər bir dövlət qurumu mürəkkəb sosial struktura malikdir.

Müasir fəlsəfədə cəmiyyətin sosial strukturunun mahiyyəti və təbiətinə dair baxışlar bir neçə konsepsiyalarda cəmləşmişdir. Birinci konsepsiya siniflərin mövcudluğunu inkar edir , onların əvəzində qrup halında sosial qurumları qoyur , iddia edir ki , həmin qrupların köməyi ilə insan münasibətləri hərtərəfli nəzərdən keçirilə bilər . Bu konsepsiyanı Amerika sosioloqları T. Parsons , P. Lazarsfeld və digər mütəfəkkirlər fəal surətdə təbliğ etmişlər . İkinci qrupa cəmiyyətdə siniflərin və sosial qrupların mövcudluğunu qəbul edən marksistləri ğöstərmək olar . Üçüncü konsepsiyanın nümayəndəsi kimi M. Veberi qeyd edə bilərik. Sosial strukturun konsepsiyası
Sosial həyatın müxtəlif məsləkli sosioloqlarını məşğul edən başlıca problemlərdən biri müasir cəmiyyətin „ strategiyasıdır “. Onun ictimai təbəqələrinin və ya qruplarının müəyyən edilməsidir . Sosial qruplar nəzəriyyəsi amerikan sosiologiyasının patriarxı olan Eduard Ross ilə başlanır . Rossun fikrincə , cəmiyyət sosial qrupların məcmusundan ibarətdir . Fərdin ictimai həyatı – onun qrupdakı həyatda və quruparası münasibətdə iştirakıdır . 50 - 60-cıillərdə Amerikada cəmiyyətin ictimai qruplarının belə bir təsnifatı verilmişdir: „ İcma qrupları ; ailə qrupları ; tərbiyə qrupları ; irq , mülki , siyasi qruplar , „ Qruplardaxili “ və „qruplararası “ münasibətlər sosioloqlar tərəfindən araşdırılarkən „ sosial nəzarət “ anlayışından istifadə olunur . „ Sosial nəzarət “ öz üzvlərinin münasibətlərini tənzimləmək üçün qrupun müəyyən etdiyi „ tənzimedici normalar “dır . Bu cür „ nəzarət “ anlayışına adətləri , dəbləri , ictimai fikrin təsirini daxil edirlər .

Bir çox tədqiqatçıların fikrincə , cəmiyyətin sosial – sinfi strukturu hərtərəfli şəkildə marksizm klassikləri tərəfindən işlənmişdir . Siniflər və onların arasında mübarizənin mövcudluğunu marksizmin kəşfi hesab etmək olmaz . Bu nəzəriyyə fransız tarixçiləri , o cümlədən F. Gizo , J. Tyerri , F . Münye , A. Tyerri tərəfindən kəşf edilmişdir .

Marksizmə görə , siniflərin ,ictimai təbəqələrin və qrupların məcmusu , onların qarşılıqlı münasibətləri sistemi cəmiyyətin sosial strukturunu təşkil edir . Bir istehsal üsulunun yerini digəri tutduqda , sosial struktur dəyişilir , bir qisim siniflərin yerini başqaları tutur .

Cəmiyyətin sinfi bölgüsünün əsasını cəmiyyətin iqtisadi quruluşu təşkil edir , lakin bu bölgü cəmiyyətin siyasi quruluşunda da, mənəvi həyatında da cərəyan edir . Sinfi cəmiyyətin tarixində üç əsas sinfi əsarət forması məlumdur : köləlik , təhkimçilik , muzdlu əmək . Kapitalist istehsal üsulu cəmiyyətin sinfi bölgüsünü sadələşdirdi , kapitalizmdə istehsalçılar – fəhlələr hüquqi cəhətdən azaddırlar . Onlar kapitalistlərdən iqtisadi cəhətdən asılıdır . Buna görə də K. Marks və F. Engels kapitalist istismar üsulunu muzdlu köləlik sistemi adlandırmışdır .

Kapitalizm dövrü sinfi mübarizənin daha da kəskinləşməsinə səbəb olmuşdur . Sinfi mübarizə müxtəlif siniflərin cəmiyyətdəki mövqeyinin əksliyindən və onların mənafeyi arasındakı ziddiyyətlərdən irəli gəlir . Sinfi mübarizə cəmiyyət həyatının müxtəlif dairələrində - iqtisadiyyatda , sosial , siyasi və mənəvi sahələrdə baş verir . Sinfi mübarizənin müəyyən formalarının başqaları ilə əvəz edilməsi vəziyyətin dəyişilməsindən , müxtəlif siniflərin mənafeyi arasında ziddiyyətlərin kəskinləşməsi dərəcəsindən , hər bir sinfin inkişafından asılıdır . Sinfi mübarizə formaları sinfi təşkil formaları ilə bağlıdır . Bunu proletariatın sinfi mübarizəsi timsalında xüsusilə aydın görmək olar . Proletariat kapitalizmə qarşı öz mübarizəsini üç başlıca formada : iqtisadi , siyasi və ideoloji mübarizə formalarında aparır .

Cəmiyyət həyatının mühüm sahələrindən biri siyasi həyatdır . ,, Siyasi “ sözü ,,siyasətə , siyasətin həyata keçirilməsinə aid olan “ mənasında işlənmişdir . Siyasət böyük insan qruplarının mənafeyinin dövlət vasitəsilə həyata keçirilməsinə yönəlmiş məqsədlər və onlara nail olmaq vasitələridir . Hər hansı siyasətin həyata keçirilməsində dövlət mühüm rol oynayır . Çünki hər hansı ölkədə ordu , keşikçilər , polis , məhkəmə və həbsxanalar yalnız dövlətin əlindədir . Bunların köməyi ilə cəmiyyətdə insanların bir böyük qrupu öz iradəsini başqasına qəbul etdirir . Odur ki , cəmiyyətdə dövlət hakimiyyətini ələ keçirmək uğrunda sosial qruplar arasında siyasi mübarizə gedir . Bu mübarizə cəmiyyətin siyasi həyatının inkişafına mühüm təsir göstərir .

Cəmiyyətin sosial həyatına sosial təbəqələr və qruplar arasındakı münasibətlər , millətlər və onların arasındakı münasibətlər , ailə , ailədəki

münasibətlər , tərbiyə , tibbi xidmət və asudə vaxtla əlaqədar məsələlər daxildir . Cəmiyyətdə yaşayan hər bir insan müəyyən birliklərdə birləşir . Bu birliklərin ən kiçiyi ailədir . Ailədən başqa , insanlar orta məktəbdə , institutlarda , iş və yaşayış yerlərində müxtəlif kollektivlərdə birləşirlər . Bu birliklər sosial qruplar adlanır . Cəmiyyətlər bu sosial birliklərə və onların arasındakı əlaqələrə görə də fərqlənirlər .

Feodal cəmiyyətində ən böyük sosial qruplardan biri feodallar sinfi idi . Məsələn , Avropada bu sinfin içərisində müxtəlif feodal qrupları vardı : hersoq,qraf ,baron və cəngavər . Bu qruplar arasında senyor – vassal əlaqəsi vardır . Bu qruplara daxil olan feodallar arasında da müxtəlif əlaqələr vardır .

Avropadakı və Şərq ölkələrindəki feodal cəmiyyətlər öz sosial qruplarına və onlar arasındakı münasibətlərə görə bir – birindən fərqlənirdi . Ümumilikdə isə sosial birliklərdəki insanlar arasında , habelə bu birliklərin öz arasında olan əlaqələr feodalizm cəmiyyətini başqa cəmiyyətlərdən fərqləndirir .

Cəmiyyətin siyasi həyatı siyasi proseslərlə zəngindir . Siyasi proseslərin inkişafında siyasi fəaliyyət mühüm yer tutur . Siyasi fəaliyyətə qanun və xüsusi idarələr vasitəsilə dövlətin idarə olunması , siyasi partiyaların yaradılması , onların ictimai proseslərin gedişinə və dövlət qərarlarının qəbuluna təsiri , seçki kampaniyası , referendum və başqa vasitələrdən istifadə etməklə mövcud hökumətin istefaya çıxarılması və s . daxildir .

Geniş xalq kütlələrinin cəmiyyətin siyasi həyatında müxtəlif formalarda iştirakı siyasi fəaliyyətin təzahürüdür . Siyasi prosesin iştirakçıları əməkdaşlıq , qarşılıqlı yardım və ya mübarizə ilə qarşıdurma vəziyyətində ola bilər . İştirakçıların qarşılıqlı münasibətləri ilə əlaqədar olaraq , siyasi tələb və qərarların yerinə yetirilməsi və ya ləğv edilməsi siyasi proseslərdə əhəmiyyətli rol oynayır .

Hər bir insanın siyasətdə səmərəli iştirakı üçün :

1) hərtərəfli siyasi biliklərə malik olmalıdır .
2) demokratik cəmiyyətin dəyərlərinə və yaşayış qaydalarına istiqamətlənməlidir .
3) müxtəlif siyasi rolları ifa edə bilmək üçün qaydalara yiyələnməlidir .

Hər bir şəxsin siyasi mədəniyyəti ilə siyasi fəallığı bir – birindən asılıdır . Ona ğörə də həm iqtidar , həm də müxalifət şəxsiyyətlərə siyasi biliklər , siyasi davranış və fəaliyyət qabiliyyəti , siyasi hiss və emosiyalar aşılayıb ,

öz tərəfinə çəkmək istəyir . Bu yolla şəxsiyyətin siyasi yönümünə təsir ğöstərilir və o , siyasi həyatda iştiraka cəlb olunur . Siyasi həyatda iştirak etmək nəticəsində insanların siyasi – bilik və təcrübəsi artır , onlar hadisələri düzgün qiymətləndirməyi və nəticələr çıxarmağa bacarırlar .

Hakimiyyət siyasətin həm məqsədi , həm vasitəsidir . Hakimiyyət siyasətin özəyidir , mütəşəkkil, tənzimləyici və nəzarətedici başlanğıcdır . Siyasi hakimiyyət dövlət hakimiyyətindən daha genişdir . O , təkcə dövlət çərçivəsində həyata keçirilmir . Ölkəni idarə edən hakimiyyətlə dövlətlərarası münasibətlər siyasi mahiyyət daşıyır . Siyasi hakimiyyətin xüsusiyyəti ondadır ki , o qüvvəyə və zora deyil , ictimai münasibətləri qanunvericilik yolu ilə tənzimlənməyə əsaslanır . Siyasi hakimiyyət yalnız qanunların icrası üçün itaətsizlik halları olduqca məcburetmə vasitələrini tətbiq edir . Siyasi hakimiyyət aliliyi ilə fərqlənir . O , digər hakimiyyət formalarının təsirini məhdudlaşdıra bilər . Siyasi hakimiyyət həm də ümumiliyi ilə fərqlənir . Siyasi hakimiyyət ağalıq , rəhbərlik , idarəetmə və nəzarət formalarında mövcud olur .

Sosial hakimiyyətin əsasını sosial resurslar təşkil edir . Sosial resurslar vəzifəni , nüfuzu , təhsili , tibbi xidməti , sosial təminatı və s . amilləri özündə birləşdirir . Sosial resurslar siyasi hakimiyyətin müdafiə olunmasına xidmət edir . Sosial hakimiyyətin başlıca vəzifəsi vətəndaşların həyat şəraitini yüksəltmək , əmək şəraitini yaxşılaşdırmaq , cəmiyyətdə sosial ədaləti təmin etməkdən ibarətdir .

Cəmiyyətin sosial həyatının tənzimlənməsində dövlətin rolu böyükdür . Məsələn , dövlət cəmiyyətdə əmək qabiliyyəti olan hər bir adamın işlə təmin olunmasına çalışır , işsizliyin ləğv edılməsi istiqamətində tədbirlər görür .

Dövlət əhalinin müxtəlif qruplarının yaşayış səviyyəsinin yüksəldilməsi üçün fasiləsiz tədbirlər həyata keçirir . Bu məqsədlə qocalara , əlillərə , çoxuşaqlı ailələrə köməklik göstərir . Dövlət iqtisadi funksiyalarını həyata keçirərkən sosial funksiyanın uğurla həyata keçirilməsini nəzərə alır . Dövlət ölkədə siyasi sabitlik yaratmasa , o , biri funksiyaların yerinə yetirilməsi çətinləşər və ya heç mümkün olmaz . Əhalinin daha çox hissəsinin maraqlarına cavab verən siyasi xətt işlənib hazırlanması onun siyasi funksiyalarına aiddir .

Azərbaycanda siyasi partiyalar XX əsrin əvvəllərində meydana gəlmişdir . Siyasi partiyaların yaradılması və fəaliyyəti prinsiplərini əks etdirən sxemə nəzər yetirək :

**Siyasi partiyaların yaradılması və fəaliyyəti prinsipləri .**

| | | |
|---|---|---|
| Qanunçuluq aşkarlıq | **könüllük** | **Üzvlərin hüquqi bərabərliyi** |
| | **Özünüidarə** | |

Azərbaycanda müstəqillik qazandıqdan sonra bir sıra siyasi partiyalar təşəkkül tapmışdır . Onlardan Yeni Azərbaycan , Vətəndaş Həmrəyliyi , Ana Vətən , Azərbaycan Xalq Cəbhəsi , Azərbaycan Demokrat Partiyası və s. qeyd etmək olar . Son illərdə partiyaların sayı əlliyə çatmışdır . Demokratiyanın ilk mərhələsində çoxpartiyalılığın olması adi haldır . Bu partiyaların bəziləri hakimiyyətdən olan partiyaya – Yeni Azərbaycan Partiyasına müxalifətdir . Hazırda çoxpartiyalılıq müasir Azərbaycan reallığına çevrilmişdir . Parlament sistemini də çoxpartiyalılıq olmadan təsəvvür etmək mümkün deyildir . Respublikamızın həyatında başlanan yeni dövrün əsas xüsusiyyətlərindən birini siyasi sabitlik şəraitində çoxpartiyalılıq prinsipinin reallaşması təşkil edir . Azərbaycanda çoxpartiyalı sistem inkişaf etməkdədir . Zaman göstərir ki , respublikamızın ərazi bütövlüyünü , xalqın təhlükəsizliyini təmin etmək , onun rifahını yaxşılaşdırmaq üçün nüfuzundan və təsir gücündən asılı olmayaraq bir partiyanın , bir siyasi hərəkatın səyləri kifayət deyildir . Ölkədəki əsas aparıcı məsələlərin həlli üçün bütün qüvvələrin səyləri birləşdirilməlidir . Bu bütün siyasi partiyaların ümummilli vəzifəsidir .

Siyasi rejim cəmiyyətlə dövlət arasında qarşılıqlı münasibətlər ifadəsi kimi nəzərdə tutulur . İdarəetmə metodlarının və üsullarının məcmusu siyasi rejim adlanır . Siyasi rejim dövlət sistemində aparıcı yer tutur . O , siyasi sistemləri bir - birindən fərqləndirən əsas meyardır . Siyasi rejim dövlət hakimiyyətinin şəxsiyyətə , cəmiyyətə və ictimai təsisatlara

münasibətini səciyyələndirir . O , cəmiyyətdə siyasi azadlığın səviyyəsini və şəxsiyyətin hakimiyyətə münasibətini ifadə edir .

Siyasi sistemin əsası cəmiyyətin siyasi təşkilidir . Siyasi sistem demokratik , avtoritar və totalitar sistemlərə bölünür . Siyasi sistem daim inkişaf edir . Onun qərarlaşmasına sosial – iqtisadi və coğrafi amillər təsir göstərir . Sosial – iqtisadi amil cəmiyyətdə siyasi hakimiyyətin rolunun müəyyən edilməsinə və ölkədə siyasi sabitliyin formalaşmasına müəyyənedici təsir göstərir .

Dövlətin coğrafi – siyasi vəziyyəti və başqa dövlətlərə münasibətləri siyasi sistemə güclü təsir göstərir .

Siyasi rejimlər sosial bazasına görə demokratiya – xalqın əksəriyyətinin hakimiyyəti ; aristoqrafiya – nəcib mənşəyə malik adamlar qrupunun ( elitanın ) hakimiyyəti ; teokrafiya – din xadimlərinin hakimiyyəti kimi əlamətlər əsasında təsnif edilir .

Siyasi fəaliyyət metodlarına görə demokratiya – parlamentli , prezident , totalitar və avtoritar rejimlərə ayrılır .

Sosial tərəqqiyə görə inqilabi , mütərəqqi ,liberal , mühafizəkar və mürtəce siyasi rejimlər də ola bilər .

E. ə. V əsrdə qədim yunan tarixçisi Herodot siyasi rejimlərin ilk təsnifatını vermişdir . Platon və Aristotel bu ideyanı daha da inkişaf etdirmişlər .

Vətəndaşların cəmiyyət həyatında iştirakı formalarını iki qrupa ayırmaq olar :

Siyasi iştirak və sosial iştirak . Siyasi iştirak hakimiyyət orqanlarına təsir etməklə öz maraqlarını təmin etmək məqsədi daşıyır . Sosial iştirak isə vətəndaşların şəxsi və ictimai problemlərini , hakimiyyət orqanlarını cəlb etmədən , öz qüvvələri hesabına həllini nəzərdə tutur .

Siyasi və sosial iştirak formaları bir – birini inkar etmir . Onlar üst – üstə düşə bilər . Sağlam demokratiyanın mövcudluğu üçün həm siyasi , həm də sosial iştirak vacibdir .

Demokratik dövlətlərdə vətəndaşların dövlət siyasətini dəyişdirməsi mexanizmi mövcuddur . Bu mexanizm dövlət proseduralarından ibarətdir . Dövlət proseduralarına məhkəməyə əgər bu nəticə verməsə beynəlxalq təşkilatlara və beynəlxalq məhkəmələrə müraciətlər daxildir . Deputatlara müraciət də dövlət prosedurası hesab olunur .

# XIII Mövzu

## Şüurun ideal varlığı.

## İctimai həyatın təbii əsasları

Fəlsəfə tarixinin öyrənilməsi bir daha sübut edir ki, şüur problemi ən çətin və ən müəmmalıdır. İnsanın gözləri qarşısında dunya durur , çoxsaylı predmetlər , onların xassələri, hadisələr və proseslər bu qəbildəndir. Adamlar dünyanın sirlərini öyrənməklə , gözəlliklə , bəzən də eybəcərliklə rastlaşdıqda öz həyəcanlarının səbəblərini izah etmək , öz-fikirlərinin mənbəyini axtarmaq və s.ilə məşğul olmağa çalışırlar. Lakin bütün bunlar əhval- ruhiyyə, hiss və fikirlər şüur adlanan nə varsa onun vastəsilə bizə gəlib çatır.

Şüur dünyanın mənimsənilməsində insanın yol yoldaşıdır. Şüur aləminə daxil olmaqdan ötrü sadəcə olaraq fikirləşmək ,həyacan kecirmək, hiss etmək , qavramaq kifayət deyldir, bunun üçün bir növ əlavə aktlar da zəruridir.

Şüur- yalnız insana xas olan xüsusi vəziyyətdir ki, onunla dünya və eyni zamanda insanın özü başa düşülür.

Şüur – ani olaraq insanın gördüyünü , eşitdiyini, hiss etdiyini , düşündüyünü və yaşadığını əlaqələndirir. Bir çox filosoflar şüuru dünyanın möcüzəsi kimi , insana bəlli edilən ən böyük və ilahi hədiyyə kimi müəyyənləşdirirlər . Yalnız şüur vasitəsilə öz – özünə „ mən “ kimi təqdim olunur . „ Mən “ isə mənəvi varlığın ən yüksək zirvəsinə yüksələndir . Burada iztirab və məhəbbət , dostluq , sevinc və s .hisslər mühüm yer tutur . Şüur – dünyanın təkcə möcüzəsi deyil, həmçinin əzab və işgəncədir . Sovet dövrü fəlsəfəsininən istedadlı filosoflarından biri E . V. İlyenkov əmin idi ki , mütəfəkkirlərin əksəriyyəti ciddi surətdə hesab edirdilər ki , şüur – Allahın insana lənəti – hədiyyəsidir . Onsuz insan daha çox xoşbəxt ola bilərdi . Şüurda dünya haqqında bütün biliklərlə yanaşı , dünyanın bütün ağrı və dərdləri də əks olunmuşdur . İnsan şüuru olduğuna görə mənəvi əzaba hazırdır və bunu çəkir də ! İntihar – sırf insan aktıdır . Şüura malik olmayan heyvanlar intiharın nə olduğunu bilmirlər .

Şüur ayrıca predmet və yaxud bir şey kimi mövcud olmadığına görə onu dərk etmək , təsvir etmək , müəyyənləşdirmək olduqca çətindir. Bizə hər şey şüurun sayəsində verilmişdir. Şüur bizim bütün qavrayışlarımızı , hisslərimizi ,

fikirlərimizi bir an içində əlaqələndirir . Şüur haqqında təsəvvürlər hakim dünyagörüşü qaydaları ilə sıx əlaqədə olmuşdur . Şüur qeyri – maddidir . Şüuru təsvir etmək olduqca çətindir . Onun reallığı gizli , sürüşkən və ələkeçməz olur . Şüurun əsas xüsusiyyəti insanın öz daxilində cəmləşmək bacarığıdır , öz diqqətini daxili aləmə istiqamətləndirməkdir . Dini əhvali – ruhiyyənin ifadəsi üsullarını axtarmağa cəhd edən mütəfəkkirlər şüur probleminin yeni cizgilərini kəşf etdilər .

Şüur – təkcə xarici aləm haqqında bilik deyil , hər şeydən əvvəl , özünün şəxsi mənəvi təcrübəsi və onun məzmunu haqqında bilikdir. Şüur anlamı ruh hadisəsi kimi formalaşdırılmışdır. Lakin Plotin və müqəddəs Avqustindən başlayaraq şüura ikinci yer verilir. Həmin alimlərə görə , insanın mənəvi təcrübəsində ondan daha yüksək , daha həqiqi və daha yaxın olanlar vardır . Təsadüfi deyildir ki , orta əsrlərdə şüuru insanın günahlarına görə verilən cəza kimi təqdim edirdilər .

Birincisi , şüur sayəsində adam başa düşür ki , o , nə üçün və necə cəzalandırılmışdır .

İkincisi , şüur insanın əbədilikdən uzaqlaşmasıdır . Əbədiyyət – yüksək dəyərdir , zaman – ötəridir , ölümdür və s . Zamanda varlıq deməli , şüurda varlıqdır , ədəbiyyatda olan varlıqdan daha çox qeyri – həqiqidir .

Üçüncüsü , keçmişi indiyə qədər , indini gələcəyə qarşı ciddi şəkildə qoymaq şüurun mahiyyətidir . Elə buna görə də zamanın geriyə dönməzliyi mövcuddur . Ölüm həyatın hər bir anında görünür və şüur insana bunu unutmağa imkan vermir . İnsan yaşlandıqca zamanın ötəriliyini daha dərindən dərk edir .

Dördüncüsü , şüur əqlin inikasıdır , təfəkkür prosesinin inikasıdır .

Beşincisi , şüur insana xatırladır ki , o , təkcə təbii , fiziki və fizioloji məxluq olması ilə yanaşı , həm də mənəvi varlıqdır .

**İdealist fəlsəfədə şüur .**

Yeni dövrün Avropa filosofları və mütəfəkkirləri əsasən „ ontoloji nihilizm “ nəzəriyyəsini qəbul etmiş və onu əsaslandırmağa cəhd göstərmişlər . Onlar insanı həm şeyin əsası və başlanğıcı elan edirdilər . İnsandan başqa heç kim özünü insan kimi təsdiq edə bilməz . İnsan dünyanın imkanı və şərtidir .

İnsan öz fəaliyyəti ilə öz dünyasını yaradır . Yeganə və şübhə edilməyən reallıq kimi fərd və onun şüuru hesab edilmişdir .

Yeni Avropa fəlsəfəsinin banisi R. Dekarta görə ,, mən düşünürəm “ aktı insanın mövcudluğunun və dünyanın mövcudluğunun ən sadə və etibarlı əsasıdır . Obyektiv dünyanın mövcudluğuna şübhə etmək olar , lakin insanın varlıq kimi mövcudluğuna şübhə etmək olmaz . Fəlsəfə subyekti yüksəldərək , insan fəaliyyətini və qabiliyyətini mütləqiləşdirmişdir . Yeni dövrdə şüurun şərhində Plotindən fərqli olaraq iki səviyyəyə üstünlük verilirdi . Bunlar : refleksiya və mülahizələr səviyyəsi ilə hiss , emosiya və instinklər səviyyəsidir . Plotinin terminologiyasında bu mənəvi təcrübənin orta və aşağı səviyyəsidir .

Antik mütəfəkkirlər əmin idilər ki , bizim şüurumuzda olan predmet və hadisələrin obrazlarının xarici aləmdə real analoqları mövcuddur . Dünya əqldə mövcud olur . Şüur – özünü dərkdir . Yeni dövrün gəldiyi ən böyük nəticə bu idi . Özünüdərk altında şüur özünü bilir , öz strukturu və məzmununu aydınlaşdırır . Təsadüfi deyildir ki , Dekartı allahın varlığının sübutundan çox , insanı əhatə edən dünyanın mövcudluğunun metafizik əsaslandırılması maraqlandırırdı . Şüur obyektiv –təbii dünyanın aşkarlanması , onun mövcudluğunun sübut edilməsi vasitəsidir . Şüur problemini təxəyyül kimi işləyən alman filosofu İ. Kant olmuşdur . Ona görə də insanın şüurunda bütöv , tam haqqında xüsusi bilik faktları bilavasitə vardır . Kant fəlsəfi cəhətdən bizim biliklərimizin bünövrəsini əsaslandırmağa cəhd etmişdir .Onun fikrincə , şüur forması bütün bütün biliklərin sələfləridir . İnsan ,, mən fikirləşirəm “ fəlsəfi aktını kəşf edənə qədər işləyir . Şüur- yaradıcılıqdır . İnsan hadisə sayəsində dünyanın yaradılması missiyasını öz üzərinə götürür , təbiətin ali qanunvericisi olur . Dekart və Kantdan sonra şüurun varlıqda iştirakçı olduğu etiraf olunmuşdur .

## Marksizm və şüur problemi .

Bəşəriyyətin özünün rasional – şüurlu oriyentasiyasında sosial , maddi – iqtisadi , psixoloji və digər amillərin böyük qüdrətini kəşf etmişdir . K. Marks və F. Engelsin yaşadığı dövr burjua cəmiyyətinin ziddiyyətlərinin kəskinləşdiyi bir dövr olmuşdur . Bu dövrdə sosial – iqtisadi amillər adamların həyat fəaliyyətinə güclü təzyiq göstərmişdir . Nəticədə bazisin , maddi-iqtisadi münasibətlərin birinciliyi nə çox az adam şübhəylə yanaşmağa başladı . İnsanlar və onları əhatə edən təbiət təsərrüfat obyekti və ancaq təsərrüfat fəaliyyəti obyektinə çevrildi . Maddi tələbatlar aparıcı yer tutdu və maddi istehsal isə əsas istehsalın həlledici

üsuluna çevrildi . Maddi maraq və maddi tələbatlar əsas dəyərlər hesab olundu . Siniflərin maddi nemətlər uğrunda açıq və dərk edilmiş mübarizəsi başlandı .

K. Marks adamların həmin həyat üsulunu və ona müvafiq şüurun formalaşması mexanizmini öyrəndi . O , şüurun ikinciliyi ideyasının xarici amillərlə , xüsusilə iqtisadi amillərlə şərtləndiyini formulə etdi . Şüurun birinciliyi əleyhinə arqumentlərə gəldikdə isə hələ Dekartdan , xüsusilə Kantdan başlayaraq şüura – yaradıcılıq , dünya – şüur əlaqəsinin məzmunu kimi baxılırdı . Dünya şüur , şüurun fəaliyyəti kimi müəyyən edildi . O , isə hadisələr aləmini yaradırdı . İnsan şüurundan keçən dünya haqqında mülahizələr qəbul edilirdi . K. Marks göstərirdi ki , şüur dünyanı müəyyən etmir , dünya hadisələrini qura bilmir , əksinə varlıq şüuru müəyyən edir , şüur dərk edilmiş varlıqdır . Marks real bir faktı qeyd edirdi : burjua münasibətləri yalnız bir şəraitdə - adamların şüurunun dəyişilməsi şəraitində mümkündür . Bu dəyişikliklərin səbəbini o , xarici sosial – iqtisadi münasibətlərdə axtarmağa çalışırdı . Marks göstərirdi ki , şüurda insanın varlığının bütün mahiyyəti təzahür edir . Şüur həyatın maddi formaları ilə determinə edilmişdir . Dekartdan fərqli olaraq Marks üçün insan və onun şüuru , onun mənəvi həyatı ictimai – iqtisadi münasibətlərlə müəyyən edilir . Maddi həyatın istehsal üsulu ümumiyyətlə həyatın bütün prosesləri üçün şərt olur . İnsanların varlığını onların şüuru deyil , əksinə insanların ictimai varlığı onların şüurunu müəyyən edir .

Marksizm sübut edirdi ki , insana xas olan , həmçinin elementar formada adi heyvanlara da xas olan təfəkkür qabiliyyəti xarici və daxili aləm hadisələrinin canlı varlıqlar tərəfindən getdikcə mürəkkəbləşən inikası yollarında uzun tarixi inkişafın məhsuludur . K . Marksın ictimai şüur və ictimai varlıq haqqındakı fikirləri olduqca maraqlıdır . Onun fikrincə insanların varlığını onların şüuru müəyyən etmir , əksinə insanların ictimai varlığı onların şüurunu müəyyən edir . Cəmiyyətin maddi məhsuldar qüvvələri öz inkişafının müəyyən pilləsində mövcud istehsal münasibətlərinə , yaxud bu münasibətlərin ancaq hüquqi ifadəsi olub məhsuldar qüvvələri indiyədək öz daxilində inkişaf etdirən mülkiyyət münasibətlərinə zidd gəlir . Bu münasibətlər məhsuldar qüvvələrin inkişaf formalarından dönüb onlar üçün buxov olur . Onda ictimai inqilab dövrü başlanır .

Şüur probleminə dialektik materialist baxışı K . Marks və F. Engels formalaşdırmışlar . Şüurun təhlilinin Marks metodu şübhəsiz universal metod deyildir . Ona görə də hər şeydən əvvəl , orada şüurun məzmununun predmet – fəaliyyətindən və maddi , iqtisadi prinsiplərdən çox güclü asılılığı göstərir .

Şüurun təhlilinə Marks yanaşması şəxssizdir . O , fövqəlfərdi şüurun ümumi məzmununu , imkanlarını səciyyələndirməkdə ustadır . Nəticədə fərdin fəallığı , müstəqilliyi , həmçinin öz xüsusi şüurunun məzmununa görə məsuliyyəti nəzərdən qaçır . Əslinə qalanda şəraitə əsaslanaraq fərdi şüurun imkanlarına həmişə haqq qazandırmaq mümkündür . Fərdi şüurun cəmiyyətlə tam determinə edilməsinin etirafı zamanı o , hər cür mənəvi məsuliyyətdən kənara çıxır . Bu zaman cəmiyyətin yetkin olmadığını nəzərə alaraq bütün cinayətkarlara bəraət vermək lazım gəlir . Marks şüur anlayışını irəli sürərkən heç vaxt fərdi şüuru inkar etməmişdir . Bu baxışın mənfi cəhətləri ilə yanaşı , müsbət cəhətləri də vardır .

Həyat – varlığın formalarından biri olmaqla yanaşı , hərəkətin də ən ali formalarından biridir . Həyatın mahiyyətinin , onun kriteriyalarının , inkişaf qanunauyğunluqlarının dərk edilməsi fövqəladə dərəcədə çətin bir işdir . Müasir elm həyata baxışlarında canlı və cansızın keyfiyyətcə fərqini göstərən təsəvvürlərində çıxış edir . Həyatın təbii – elmi dərki çoxsaylı istiqamətlərlə həyata keçirilir . Praktiki olaraq bu işə bütün elm sahələri cəlb olunmuşdur . Lakin bunlara baxmayaraq əsas ağırlıq biologiyanın - həyat haqqında elmin üzərinə düşür . İnsan üçün həyatdan əziz , həyatdan şirin heç nə yoxdur və ola da bilməz . Əslində insanı yaradan həyatın özüdür və onun bioloji mexanizmi sosial amillərlə birlikdə insan təbiətin mahiyyətini təşkil edir .

Həyat – təbii maddi prosesdir . Yerdə həyat nəhəng , rəngarəng formalarla təzahür etmişdir . Həyatın mahiyyəti müəyyən maddi təşkilin funksiyasıdır . Həyat – qismən , fasiləsiz, tərəqqi edən və mühitlə qarşılıqlı təsirdə olan atomların elektron vəziyyətinin potensial imkanlarının özünüreallaşdırmasıdır . İnsanın özünün təbiətinin fəlsəfi izahı həyat haqqında təbii – elmi təsəvvürlərin cəlb edilməsini tələb edir , həyatın elmi dərkinin gedişində metodoloji prinsiplərdən istifadə edilməsi zərurəti , canlının struktur – funksional təşkilinin qanunauyğunluqlarının aydınlaşdırılması ən aktual , fəlsəfi dünyagörüşü suallarından birinə - insanın həyatının mənası sualına cavab verilməsinə imkan verə bilər .

İctimai həyatın inkişafının təbii əsasları Hegel , K. Marks və F. Engels tərəfindən irəli sürülmüş konsepsiyalarla bağlıdır . XIX əsrdə Marksın tarixi materializmi elmi fikrin mühüm nailiyyəti hesab olunurdu . Marks və Engelsə görə onlara qədərki tarix və siyasət məsələlərindəki baxışlarda hökm sürən hərc – mərclik və özbaşınalığın yerini elə bir nəzəriyyə tutdu ki , o , məhsuldar

qüvvələrin artması nəticəsində ictimai həyat tərzinin necə yetişib əmələ gəldiyini göstərdi .

Bəşər cəmiyyəti ilə , ictimai hadisə və proseslərlə müxtəlif elmlər məşğul olur , bunlardan hər biri ictimai həyatın yalnız bu və ya digər cəhətini , ictimai münasibətlərin və ya hadisələrin bu və ya digər növünü öyrənir . Tarixi materializmin predmeti cəmiyyət həyatının ayrı – ayrı tərəfləri deyil , onun yaşaması və inkişafının ən ümumi qanunları və hərəkətverici qüvvələridir , bütövlükdə ictimai həyatdır .

# XIV Mövzu
## Cəmiyyətin mənəvi varlığı .
## Mədəniyyət və sivilizasiya

Mənəviyyat – cəmiyyətin , ailənin , məktəbin və s . təsiri altında hər bir insanda formalaşmış iradə , əqidə və ideyalardır . Hər bir insanın əxlaqı onun mənəviyyatından asılıdır . Lakin mənəviyyat əxlaqa nisbətən daha geniş anlayışdır . Mənəviyyat – insanın əxlaqını formalaşdıran ruhi keyfiyyətdir .

Mənəvi şüurun formalaşmasına təsir edən amillərdən biri insanın ağılıdır . Mənəvi şüur əqldən , mənəvi hislər isə insanın ürəyindən qidalanır .Hislər insanın şüur və davranışına təsir edərək onun xarakterinə zənginlik , gözəllik bəxş edir və onu daha da ülviləşdirir . Mənəvi şüurun tərkib hissələrindən biri də mənəvi adətlər və vərdişlərdir . Mənəvi şüurun formalaşmasında motivlər mühüm yer tutur . Mənəvi şüur , mənəvi hislər , mənəvi adət və vərdişlər , motivlər bir – birilə vəhdətdə şəxsiyyətin mənəvi əqidəsini yaradır . Mənəviyyatın formalaşması prosesini sxem şəklində belə ifadə etmək olar :




Mənəvi mədəniyyət . Yüksək mənəviyyata sahib olmaq səyi ayrı – ayrı fərdlərə ən üstün keyfiyyətlər qazandırmışdır . Bu səy ailəni , dövləti , xalqı , bütün insanları sevməyi , hörmət etməyi , əsl insan olmağı öyrədir . Bütövlükdə isə xalqın təfəkkürünü dünyagörüşünü müəyyən edir . Yüksək mənəvi keyfiyyətlər özünü davranışda , ictimai münasibətlərdə, fəaliyyətdə

biruzə verir . İnsanın davranışı  onun əxlaqınıngöstəricisi , əxlaqı isə onun mənəviyyatının güzgüsüdür . İnsanı insan edən onun mənəviyyatıdır .

Mənəviyyatsızlıq isə humanizmdən , vicdandan , şərəfdən , ləyaqətdən , imandan və inamdan çox uzaqdır . Mənəviyyatsız insanda dosta xəyanət xalqına , millətinə , dövlətinə , mənsub olduğu nəslə qarşı laqeydlik , yadlıq var . Mənəviyyatsız adam böyük şairimiz M .Ə . Sabirin sözləri ilə desək , ,, Millət necə tarac olur – olsun , nə işim var “ prinsipi ilə yaşayır .

İnsanın mənəviyyatı bir tərəfdən genetik əsaslara malik olsa da , o , əsasən , sosial – mənəvi mühitin təsiri ilə formalaşır . İnsanın formalaşdığı ictimai mühit sosial və hüquqi normalar , mövcud dövlət quruluşu , ictimai münasibətlər , ailə münasibətləri , təhsil sistemi kimi elementlərin sintezindən ibarətdir . Mədəni – mənəvi mühit cəmiyyətin çağdaş dəyərləri ilə yanaşı , əvvəlki nəsillərdən qalmış sənət əsərlərinin , eləcə də bədii ədəbiyyat və kinonun təsiri ilə formalaşır . Bütün bunlar insanların bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır . Sosial – mənəvi  mühitdə böhran da baş verə bilər . Ona görə də sosial – mənəvi mühitin varlığının qorunması aktual problemlərdən biridir . Bayağı mədəniyyətin tüğyan etdiyi , milli -  mənəvi mühitimizə yad təsirlərin  gücləndiyi bir vaxtda cəmiyyətin mənəvi problemlərini öyrənmək və onları həll etmək lazımdır . Bu gün mədəni – mənəvi köklərimizə qayıdış istiqamətində aparılan mübarizə , həm də elmi – nəzəri əsaslara malik olmalıdır . Milli özünüdərk prosesi ilə özünüqoruma instinki vəhdət təşkil etməlidir . Yəni cəmiyyət həyatına kənardan daxil olan yad təsirlərdən qorunmaq üçün insanlarda sosial özünümüdafiə instinki formalaşdırılmalıdır .

İnsanın varlığı bütöv , tam kimi fiziki , təbii və mənəviliyin vəhdətini ifadə edir . Mənəvi varlığın iki forması mövcuddur :

1) fərdiləşmiş mənəvi varlıq
2) ümumbəşəri mənəvi varlıq

Mənəvilik anlayışı altında onun bütün mahiyyəti əhatə edilməsə də , insanın fəaliyyətində şüurluluq , mənəviyyat , bədii yaradıcılıq , bilik və s. konkret simvollarla maddiləşir .

Fərdiləşmiş mənəvi varlıq hər şeydən əvvəl , fərdin şüuru , yaxud təhtəlşüur elementləri də daxil edən dərk edilmiş fəaliyyətdir . Belə mənəvi varlıq forması mövcuddur və onu qısa şəkildə olsa da səciyyələndirmək vacibdir . Fərdi insan şüuru – hər şeydən əvvəl baş verən proseslərə olan reaksiya kimi başa düşülməlidir . Fərdiləşmiş

mənəvi varlıq müəyyən dərəcədə ( o qədər əhəmiyyətli olmasa da) ən ümumi varlığın təkamülü ilə əlaqədardır . Bu , varlığın nisbi müstəqil formasıdır . Ümumiyyətlə , o mövcuddur və özünü bildirir . Digər forma olan ümumbəşəri mənəvi varlıq , öz növbəsində , nisbətən müstəqil varlıq olsa da, fərdi insan şüuru olmadan mövcud ola bilməz . Ona görə də bu varlıq formalarını vəhdətdə götürüb nəzərdən keçirmək lazımdır .

Ümumbəşəri mənəvi varlığın predmet təzahürü rolunda ədəbiyyat , incəsənət əsərləri , istehsal – texniki predmetlər , əxlaqi prinsiplər, ictimai həyatı dövlət və siyasi quruluşu haqqında ideyalar və s .çıxış edir . Mənəvi varlığın bu forması praktiki olaraq əbədidir , həqiqidir , insan nəslinin mövcudluğu ilə determinə edilmişdir .

## Mədəniyyət və sivilizasiya

Mədəniyyət-cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur. Həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onları nəsildən-nəslə vermək bacarığıdır.

Mədəniyyət insanın sirli dünyasıdır. Mədəniyyət insanın özünü dərk etməsi və şəxsiyyətin mövcudluq üsuludur. Mədəniyyət-cəmiyyətin üzvü olan fərdin əldə etdiyi təcrübə, məslək, mənəviyyat, ədalət hissi, adət-ənənə, digər bacarıq və təcrübələrin də daxil olduğu mürəkkəb bir tamdır.

Böyük mütəfəkkirlər hələ qədim zamanlardan başlayaraq, mədəniyyət problemləri ilə məşğul olmuş, müxtəlif mövqelərdən ona öz münasibətlərini bildirmişlər. Məsələn, mədəniyyət termini özünün ilk, ənənəvi anlamında (latın dilində “sıllure”) “torpağı şumlamaq, belləmək, əkib-becərmək” mənalarını ifadə etmişdir. Lakin sonralar romalılarona yeni bir məna verməklə insanların intellektual səviyyəsinə, onların təhsil və tərbiyəsinə şamil etmişlər.

İslam intibahının yaranması və inkişafı ,, mədəniyyət “ anlayışınındaha geniş məna kəsb etməsinə səbəb oldu . ,, Mədəniyyət “ ərəb dilində ,, şəhərli “ deməkdir ,öz əhatə dairəsinə görə çox geniş olub , insanların və xalqların fiziki və əqli fəaliyyətinin , demək olar ki , bütün sahələrini özündə əks etdirir .

Şərq dünyasının böyük mütəfəkkirləri Nizamülmülkün ,, Siyasətnamə “ , Nəsirəddin Tusinin ,, Əxlaqi – nasiri “ , İbn –Xaldunun ,, Müqəddəsnamə “ əsərlərində yüksək mədəniyyətli insan deyərkən , hər şeyi bilən , hazırcavab

olan , dövrün siyasi – iqtisadi problemlərindən baş çıxara bilən adamlar nəzərdə tutulurdu . Beləliklə , orta əsrlər İslam aləmində bu anlayış həm maddi fəaliyyətə , həm də mənəvi sahələrə aid edilirdi .

Sonrakı dövrlərdə ,, mədəniyyət “ anlayışı daha geniş məna kəsb etdi . Mədəniyyət insanın yaradıcı fəaliyyətinin məhsulu olmaqla yanaşı , ayrı – ayrı insanların səviyyəsini müəyyən edən meyara çevrildi . Elə adamlar var ki , son dərəcə bilikli olsalar da , kobud və mdəniyyətsizdirlər . Elələri də vardır ki , heç bir ali məktəb bitirməmişlər , ömürlərində iri şəhərlərdə olmamışlar , lakin davranışlarında ədəbli və nəzakətlidirlər , insanlara , təbiətə qayğıkeş münasibət bəsləyirlər , mərhəmətlidirlər . Belələrinə ,, mədəni insan “ demək olar .

Mədəniyyət çox mürəkkəb ictimai hadisədir . Odur ki , mədəniyyət deyərkən insan fəaliyyətinin üsulları , nəticələri və yaratdığı sərvətlərin ümumi toplusu nəzərdə tutulur . Antropoloq Eduard Taylorun mədəniyyətə hələ 1871 – ci ildə verdiyi tərif bu gün də öz əhəmiyyətini itirməmişdir .

Hər bir cəmiyyət öz mədəniyyət ənənələri və tarixi inkişaf xüsusiyyətləri ilə səciyyəvidir. İnsanlar müxtəlif mədəniyyətlər yaratmış , sərvətə və texniki nailiyyətlərə müxtəlif münasibət bəsləmişlər . Mədəniyyət sırf sosial hadisə olub , insanların həyat fəaliyyəti ilə əlaqədardır . Mədəniyyət prosesləri bütün ictimai hadisələrlə qarşılıqlı əlaqədə baş verir . Bütün hallarda mədəniyyət spesifik cəhətlərə malik olur , özündə ümumbəşəri dəyərləri cəmləşdirir .

Mədəniyyət iki yerə ayrılır : Maddi və mənəvi mədəniyyətə .

Maddi mədəniyyət – insan əməyi və zəkası ilə yaradılmış maddi sərvətlərin məcmusudur. Maddi mədəniyyət insanın təbii gerçəkliyi mənimsəməsinin göstəricisidir . Yaşayış vasitələri , memarlıq nümunələri , körpülər , meşə zolaqları , bitki , heyvan növləri və s . buraya daxildir .

Mənəvi mədəniyyətə isə elm və onun nailiyyətlərinin istehsal prosesinə tətbiqi səviyəsi , təhsil və adət - ənənələr və s . daxildir .

Mədəniyyətin dörd əsas elementi vardır . Birinci element ümumi anlayışlardır ki ,insanlar onun köməyi ilə dünyanın və özlərinin dərin təcrübəsini ümumiləşdirirlər . İkinci element qarşılıqlı fəaliyyətdir . Hər bir mədəniyyət onu yaradanların kimliyindən asılı olmayaraq başqaları ilə əlaqədə inkişaf edir . Mədəniyyətin üçüncü elementini dəyərlər təşkil edir . Ümumbəşəri dəyərlərlə milli – mənəvi dəyərlər həmişə vəhdət təşkil edir . Nəhayət dördüncü element qayda və normalardan ibarətdir ki , insanlar onların köməyi ilə mədəniyyətə olan münasibətlərini ddiriəyərləndirirlər .

Bəşər tarixinin tədqiqatçıları mədəniyyətin bir neçə növünü fərqləndirirlər . Sosial cəhətdən bərabər olmayan cəmiyyətlər üçün elitar və xalq mədəniyyətləri bölgüsü səciyyəvidir . Elitar mədəniyyət – yüksək mədəniyyət ,

zərif incəsənət , klassik mədəniyyət və ədəbiyyat deməkdir . Xalq mədəniyyəti dedikdə nağıllar , dastanlar , folklor , xalq mahnıları və əsatirlər daxil edilir . Kütləvi informasiya vasitələrində ( radio , mətbuat , televizor , maqnitofon ) yüksək və xalq mədəniyyətləri arasındakı fərqlərin siilinməsi nəticəsində kütləvi mədəniyyət meydana gəlmişdir . Kütləvi informasiya vasitələri və kütləvi mədəniyyət bir – biri ilə sıx bağlıdır . Belə ki , onların vasitəsilə mədəniyyət kütləviləşir və geniş dairədə yayılır .

Gündəlik həyatda mədəniyyət dedikdə ilk növbədə incəsənət , ədəbiyyat , musiqi , rəssamlıq və s . sahələri nəzərdə tuturuq . Sosialogiyada mədəniyyət anlayışı yalnız yaradıcılıq fəaliyyətinin bu növlərini deyil , daha çox sahəni əhatə edir . Mədəniyyət cəmiyyət üzvlərinin bütün həyat tərzinə aiddir – geyinmək manerası , nigah mərasimi və ailə həyatı , əmək fəaliyyəti , dini mərasimlər və asudə vaxtın keçirilməsi buraya daxildir . Buraya həm də insanların yaratdıqları və onlar üçün dəyər hesab edilən predmetlər daxildir : maşın , fabrik , kompüter , kitab , mənzil və s . Nə qədər yaradan subyekt varsa , o qədər də mədəniyyət var . ,, Mədəniyyət insan varlığının dərinliyini və ölçüsünü ifadə edir . İnsan nə qədər tükənməz və müxtəlif simalıdırsa , mədəniyyət də o qədər çoxcəhətli , çoxaspektlidir .”

Mədəniyyət hadisələrinin öyrənilməsi ilə çoxlu konkret elmlər məşğuldur : arxeologiya , antropologiya , etnoqrafiya , tarix , sosiologiya . Buraya həmçinin incəsənəti , əxlaqi , dini və s. öyrənən elmlər də daxildir .

Sivilizasiya – cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi , mədəni dəyərlərin mənimsənilməsi , cəmiyyətin inkişafı ilə bağlı uğurları bildirir . Sivilizasiya – adətən , mədəniyyət sözünün sinonimi kimi işlədilir . Sivilizasiya anlayışı XVIII əsrdə Fransada meydana gəlib , ilk əvvəl ,, mədəniyyət “ terminini ifadə edirdi . XIX əsrdə isə ,, sivilizasiya “ deyərkən kapitalizmi başa düşürdülər . Belə ki , ictimai – iqtisadi formasiyalar sivilizasiya anlayışı ilə bir tutulurdu . Bir çox tədqiqatçılar mədəniyyətlə sivilizasiyanı eyniləşdirməyə , bəziləri isə əksinə , onları qarşı – qarşıya qoymağa çalışırlar . Mədəniyyət deyərkən mənəvi mədəniyyəti , sivilizasiya deyərkən maddi mədəniyyəti nəzərdə tuturlar . Əslində isə ,, mədəniyyət və sivilizasiya “ yaxın anlayışlar olsa da , onları fərqləndirən cəhətlər vardır :

Əvvəla , onu demək lazımdır ki , ,, mədəniyyət “ daha geniş anlayış olub , ,, sivilizasiya”nı da özündə birləşdirir ;

İkincisi , ,, sivilizasiya “ termini çox zaman cəmiyyətin müəyyən bir tarixi inkişaf pillələrinə aid edilir ;

Üçüncüsü , ,, milli sivilizasiya “ anlayışı minillikdən daha çox regional sahələri , bir neçə dövləətin sərhədləri daxilində olan ərazilərdəki mədəniyyətin

səviyyəsini göstərdiyi halda , maddi mədəniyyət hər bir millətə xas olan səciyyəvi xüsusiyyətləri əks etdirir .

Dördüncüsü , müəyyən bir sivilizasiya daha tez parlayıb sönə bildiyi halda , mədəniyyət nisbətən sabit və uzunömürlü olur , çox yaşayır və sonrakı nəsillər tərəfindən daha tez qavranılır;

Beşincisi , mədəniyyətin bir neçə qolu , növü , şaxəsi olduğu halda , sivilizasiyada bunu müşahidə etmək mümkün deyildir . Məsələn siyasi mədəniyyət , məişət mədəniyyəti , nitq mədəniyyəti , davranış mədəniyyəti və s . Halbuki ,, siyasi sivilizasiya " , məişət sivilizasiyası " , ,, nitq sivilizasiyası " , ,, davranış sivilizasiyası " və s . ifadələri işlətmək qeyri – mümkündür . Qeyd edək ki , mədəniyyət və sivilizasiya həm də bir – biri ilə əlaqə , vəhdət təşkil edir . Mədəniyyətsiz sivilizasiya , sivilizasiyasız isə mədəniyyət ola bilməz . Mədəniyyət sivilizasiya üçün əsas mənəvi dəyərlərdən ibarət özül rolunu oynayır .

## Sivilizasiyalı cəmiyyət .

XX əsr qitələrin və regionların arasındakı sədləri dağıtmışdır . İqtisadi , siyasi , mədəni və elmi – texniki əlaqələr bütün dünyanı əhatə etmişdir . Müxtəlif ölkələrdə yaşayan insanlar müasir nəqliyyat və rabitə vasitələrinin , telefonun , radionun , televiziyanın , kosmik rabitə peyklərinin və yeni yaranmış qlobal kompüter informasiya şəbəkəsi – internetin sayəsində bir – biriləri ilə daha asan ünsiyyət yarada bilirlər .

İnsanın özü də daha çevik , daha mobil olmuş , qısa müddətdə istənilən ölkəyə , qitəyə , planetin istənilən nöqtəsinə gedə bilmək imkanı əldə etmişlər . Bunların hamısı ən qabaqcıl , ən yeni kəşflərin ümumbəşəri olmadığına zəmin yaradır . Məhz belə bir qarşılıqlı təsirin nəticəsində ,, sivilizasiyalı cəmiyyət " anlayışı yaranmışdır .

## Müasir Azərbaycanın mədəni həyatı .

Müstəqil Azərbaycanda bütün sahələrdə olduğu kimi , mədəniyyət sahəsində də əsaslı islahatlar keçirildi . Azərbaycan mədəniyyətinin milli – mənəvi dəyərlərə söykənən özünəməxsusluğu saxlanılmaqla ümumbəşəri dəyərlərlə inteqrasiyası prosesi gücləndi .

Müasir Azərbaycan mədəniyyətinin səciyyəvi xüsusiyyətlərindən birini də onun dövlət qayğısı ilə hərtərəfli əhatə olunması təşkil edir . Azərbaycan dövləti iqtisadi cəhətdən gücləndikcə mədəniyyətin inkişafı sahəsində də uğurlu addımlar atılmağa başlandı . Teatr binalarının , muzeylərin bərpası , muzey

işinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər buna misaldır . Yeni tikilmiş „ Muğam mərkəzi “ , „ Xalça muzeyi “ və bir çox tikililər öz təkrarolunmazlığı ilə Azərbaycan memarlıq sənətinin ən monimental nümunələri sırasına daxil olmuşdur .

Son illər teatr binalarının təmiri ilə yanaşı texniki təchizat baxımından görülən işlər də göz qabağındadır . Muğam , aşıq sənəti , Novruz bayramı və xalçaçılıq sənəti UNESCO –nun qeyri – maddi irs siyahısına daxil edilmişdir . Yeni muzeylər və tarixi qoruqlar yaradılmışdır . Azərbaycan hər il idman yarışlarında , olimpiadanın keçirilməsində ev sahibliyi edir .

# XV Mövzu
## Cəmiyyətin iqtisadi həyatının fəlsəfi problemləri.
## Müasir dövrün qlobal problemləri

Bütövlükdə götürdükdə cəmiyyət təbii yarımsistemə və ictimai yarımsistemə ayrılır. **Birinci,** insan nəslinin istehsalı və təkrar istehsalını, coğrafi mühit və ölkənin geopolitik vəziyyətini, nəsillər arasında təbii münasibətləri əhatə edir. **İkinciyə** ictimai həyatın istehsalı və təkrar istehsal daxildir. Bunlarla yanaşı sosial sistemi birlik formalarına görə (cəmiyyət, sosial qrup, millət, xalq və sair), yaşayış məskənləri tipinə görə (şəhər, şəhərtipli qəsəbə və kənd). Habelə peşə, demoqrafık, yaş, cins və sair əlamətlərə görə də bölmək olar. Deyilənlərdən əlavə cəmiyyət ictimai sferalar üzrə də təsnif olunur.

Belə yanaşdıqda ictımai həyat iqtisadi, sosial, siyasi və mənəvi sferalara ayrılır, Bu bölgünün əsasında iki əsas əlamət durur: ictimai fəaliyyətm özünəməxsus növü və buna müvafiq olaraq qərarlaşan ictimai münasibətlər tipi. Yuxarıda qeyd olunan sferaların hər birində insanların fəaliyyəti özünəməxsus, spesifik xarakter daşıyır. Burada qərarlaşan ictimai əlaqələr və münasibətlər də başqalarında olduğundan fərqlidir.Cəmiyyətin sferalar üzrə bölgüsü həm də buna görə diqqəti cəlb edir ki, o ictimai həyatın müxtəlif tərəflərini funksional baxımdan vəhdətdə götürür. Belə ki, yuxarıda adı çəkilən dörd sferanın hər birində həm maddi, həm də mənəvi tərəflər əhatə olunur. İctimai sferalar sırasında iqtisadi həyat mühüm yer tutur. O çox geniş məzmuna malikdir. Buraya maddi istehsal, iqtisadi tələbatlar, mənafelər və iqtisadi fəaliyyət ilə əlaqədə olan digər tərəflər daxildir. İqtisadi sferanın və iqtisadi münasibətlərin spesifikliyinə məhəl qoymamaq, onu yalnız maddi, yaxud da istehsal münasibətləri ilə eyniləşdirmək doğru olmazdı. Bu, iqtisadi proseslərin insanların şüurundan və davranışından tam müstəqil olduğunu iddia etmək (obyektivizm) olardı. Əslində əmək prosesi yalnız onun maddi tərəflərindən (əmək vasitələri, əmək cismi və sair) ibarət deyildir. Burada insanların iradəsi, arzu və səyləri mühüm rol oynayır. Cəmiyyətin iqtisadi sferasını əsas etibarilə iqtisadi elmlər öyrənir. Lakin burada bir sıra məsələlər vardır ki, onlar sosial fəlsəfə ilə sıx bağlıdır. Məsələn, bütövlükdə cəmiyyət ilə iqtisadi həyat arasındakı münasibətlər; iqtisadi sferanın cəmiyyətin inkişafına təsiri; iqtisadi sferada obyekt-subyekt münasibətləri; iqtisadi münasibətlər ilə iqtisadi mənafelərin əlaqəsi (müxtəlif birlik formaların mənafeləri); iqtisadi sfera ilə dövlətin münasibətləri və sair. Bu məsələlərin rolu təkcə sırf iqtisadi sfera ilə məhdudlaşmır, bütöv bir tam kimi götürülən cəmiyyət sistemini əhatə edir. .

Sosial fəlsəfədə iqtisadi sferanın öyrənilməsi o dərəcədə əhəmiyyətli yer tutur ki, hətta son dövrlərin ədəbiyyatında «iqtisadi fəlsəfə» anlayışı geniş yayılmaqdadır. İqtisadi fəlsəfə sosial fəlsəfə sisteminə xüsusi bir hissə kimi

daxildir.

Göstərilməlidir ki, sosial fəlsəfə istehsalın texnologiyasını, müxtəlif məhsulların hazırlanması üsullarını və insanların təsərrüfat fəaliyyətinin maddi tərəfini öyrənmir. O öz diqqətini əmək məhsullarına müəyyən ictimai forma verən, ayrı-ayrı insanlar ilə cəmiyyətin əlaqəsi üsullarını müəyyən edən şərtlə bağlı məsələrə yönəldir. Əvvəla onu qeyd edək ki, ümumi mənada iqtisadiyyat dedikdə insan nəsli ilə təbiət arasında fərdlərin və ictimai birliklərin şüurlu fəaliyyətindən keçərək baş verən maddələr mübadiləsi başa düşülür. Müasir dövrdə iqtisadi reallığın mənzərəsinin dəyişilməsinə uyğun olaraq iqtisadiyyat anlayışı da yeni məzmun kəsb edir. Bu günkü iqtisadi reallıq «sərvətlər dünyası», «təsərrüfat mədəniyyəti dünyası» və təsərrüfatçılıq edən «subyektin dünyası»kimiüçəsaselmimənzərəniifadəedir.İqtisadi həyatı öyrənən təlimlər xeyli qədim tarixə malikdir. Onun əsasları Aristotel tərəfindən qoyulmuşdur.XII əsrdə yaşamış məşhur Azərbaycan filosofu Siracəddin Urməvi aşağıdakı suallara cavab verməyə çalışmışdır. Əmək və istehsal insanların ictimai həyatında nə kimi rol oynayır? Cəmiyyət və iqtisadiyyatın qarşılıqlı təsiri və inkişafı hansı yolla gedir? S.Urməvi, insanın bir fərd və ictimai varlıq olduğunu qeyd edərək, yaşamaq üçün maddi ehtiyacların ödənilməsinin zəruriliyini göstərirdi. O, mülkiyyət münasibətlərinin iki formasını (icma mülkiyyəti və xüsusi mülkiyyət) tədqiq etmişdir. Cəmiyyətin sosial quruluşu, hüquq və siyasət, idarəetmə və ideologiyasının bu mülkiyyət formalarına uyğun inkişaf etdiyini göstərmişdir. XIV əsr Şərqinin böyük mütəfəkkiri İbn-Xəldun da cəmiyyətin inkişafının əsasını maddi istehsal təşkil etdiyindən bəhs etmiş, tarixin inkişaf mərhələlərini qeyd etmişdir. Yeni dövrdə bu təlimi A.Smit və D.Rikardo inkişaf etdirmişdir.

XVIII əsrin iqtisadçı və filosofu olan A.Smit 1776-cı ildə yazdığı "Xalqların varlanmasının səbəbləri və mahiyyətinin tədqiqatı" əsərində əməyin dəyər nəzəriyyəsini yaratmış, onun başlıca kateqoriyalarını işləyib hazırlamışdır. O göstərirdi ki, gəlir fəhlə əməyinin məhsulunun bir hissəsi, qalığıdır. Lakin Smit səhvən belə düşünürdü ki, əmtəənin dəyəri kapital, torpaq və əməyin əsasında əldə edilmiş gəlir əsasında formalaşır. İlk dəfə olaraq o, burjua cəmiyyətinin sinfi bölgüsünü öyrənərkən muzdlu əməkçilər, kapitalistlər və torpaq sahibkarları siniflərini müəyyən etdi.Klassik alman fəlsəfəsində də maddi istehsal haqqında müəyyən fikirlər irəli sürülüb. Hegel, insan sirrini onun düşüncəsində, Feyerbax isə qəlbində görürdü. Feyerbax qeyd edirdi ki, insan həm rasional, həm də emosional varlıqdır, insan dünyanın hissi qavranılmasının xüsusi tərzinə malikdir. İnsan - **təbiətin bir hissəsidir, o, dünyanı emosional-hissi şəkildə qavrayır.** İnsanlar arasında ünsiyyət, öz mahiyyətinin qəbulu və təsdiqi şəklində baş verir, ünsiyyət pozulanda, Allah ideyası ortalığa atılır. Allahı sevmək lazım gəlir. Sevginin real və özgələşmiş formaları insan varlığını, ictimai həyatı müəyyən edir. İqtisadi təlimin sonrakı inkişafı K.Marksın adı ilə bağlıdır. O dəyər nəzəriyyəsini təkmilləşdirmiş və izafi dəyər nəzəriyyəsini

yaratmışdır. Təsadüfi deyildir ki, məşhur amerikan professoru Samuelson, Marksı, A.Smit, C.Keyns və digər iqtisadçıların daxil olduğu «intellektual nəhənglər»dən biri hesab edirdi.

Marksın iqtisadi nəzəriyyəsi xüsusilə də onun gəlir, əmək haqqı və kapitalist müəssisənin təbiəti haqqında fikirləri çox əhəmiyyətlidir.Marks da, insanı təbiətin bir hissəsi olduğunu hesab edərək, onun başlıca xüsusiyyətini-dünyanın dəyişdirilməsi, fəth edilməsində görüb. İnsan iki cismin dialektikasıdır - qeyri-üzvü və üzvünün**.** Qeyri-üzvü cisim insandan ayrılır: sosiallaşma prosesində təkrar istehsal edilir

, nəsildən-nəsilə ötürülür. Qeyri-üzvü cisim, artıq sivilizasiyanın qeyri-üzvü cisminə çevrilir, insan bunu nəzərə almadan dünyaya uyğunlaşa bilməz. Maddi istehsalda insan özünü iki komponentdə təkrar istehsal edir (üzvü və qeyri-üzvü). İnsanın mahiyyəti -maddi nemətlərin istehsalında ifadə olunur. Sivilizasiyanın inkişaf tarixi - istehsal prosesində predmetlərin istehlakının mürəkkəbləşməsi tarixidir. Bu, insan həyatını əsaslı şəkildə dəyişdirir. Məsələn qədim yunan polisinin dövründəki insanlarla müasir elmi-texniki inqilab dövrünün insanları arasında çox böyük fərqlər vardır. Sosial təkamül gedişində insanla birlikdə qeyri-üzvi cisim də inkişafedir.**Bu prosesin digər tərəfi - insanın insana olan münasibətidir.** İnsan dünyaya praktiki münasibətini formalaşdıraraq təbiəti istifadə etmək üçün vasitələrə əl atır, predmetlə kontakta girir, bu halda o başqa insanlarla münasibətlər yaratmağa məcbur olur. İnsan, əmək vasitələrindən istifadə edərkən, sosial münasibətlərin mürəkkəb sisteminə daxil olur. Sosial münasibətlər - insanın qeyri-üzvü cisminə aid olan münasibətlərin çox vacib bir hissəsi kimi çıxış edir. Bu əlaqələrin mürəkkəb sistemində Marks, istehsal münasibətlərinin başlıca olduğunu göstərir. Bu münasibətlər üzərində digərləri (siyasi, hüquqi) qurulur. Buraya həm də qrup, kollektiv, müxtəlif birləşmələrin münasibətləri və ünsiyyəti də daxildir.

## Müasir dövrün qlobal problemləri

Müasir dövrdə bəşəriyyətin mövcudluğu üçün mühüm həyati əhəmiyyət kəsb edən və ictimai tərəqqinin ondan asılı olduğu problemlərin məcmusu qlobal problemlər adlanır .

Müasir dövrün qlobal problemləri dedikdə - istilik – nüvə müharibəsi təhlükəsi , sülh şəraitinin təmin edilməsi , işsizlik , aclıq , savadsızlıq , əhalinin sürətlə artımı və onların maddi və mənəvi tələbatının ödənilməsi , ətraf mühitin , havanın ,suyun , atmosferin çirklənməsinin qarşısının alınması , bəşəriyyətin ərzaq və sənaye məhsullarına , enerji mənbələrinə daim artan tələbatının ödənilməsi və s . nəzərdə tutulur . Bunlarla yanaşı səhiyyə , təhsil , mənəvi tənəzzül və s . məsələlər də qlobal problemə çevrilə bilər . Qlobal problemlər

ictimai inkişafa mane olur , sivilizasiyanı məhv etmək təhlükəsi yaradır və bütün bəşəriyyətin mənafeyinə toxunur .

## Kütləvi qırğın silahları .

Müasir silahlar , xüsusilə də nüvə silahları nəhəng dağıdıcı gücə malikdir . Ən təhlükəli kütləvi qırğın silahlarından biri kimyəvi silahlardır . Onun tətbiqi vasitələri raketlər , mərmilər , minalar , aviasiya bombalarıdır . Nüvə silahı üzrə ilk işlər 1944 – cü ildə başlanmışdır . İlk nüvə bombası 1945 – ci ildə iyulda ABŞ- da Alamoqordo səhrasında partladılmışdır . Həmin ilin avqustunda isə Xirosima və Naqasaki şəhərlərinə nüvə bombası atılmışdır . Nüvə silahı sivilizasiyanı məhv etməyə qadirdir . Nüvə müharibəsi ozon təbəqəsinin dağılmasına , yer üzünün ultraqırmızı şüalanmasına və bunun da nəticəsində kütləvi xəstəliklərin yayılmasına səbəb ola bilər .

Sülhün və təhlükəsizliyin qorunması üçün dövlətlər və hökumətlər böyük məsuliyyət daşıyırlar . Lakin bu işdə elmin də böyük rolu var . Atom bombasının yaradılması elmin nailiyyətidir . Lakin bu nailiyyət Xirosima və Naqasakidə 260 min adamın ölümünə , 163 min adamın yaralanmasına səbəb oldu . Atom silahının yaradıcıları olan alimlər bu hadisədən dəhşətə gəldilər .

Son məlumata görə , yalnız səkkiz ölkədə ( ABŞ , Rusiya , Böyük Britaniya , Fransa , Çin , Hindistan , Pakistan və Cənubi Koreya ) nüvə bombası var .

## Müharibə və qlobal problemlər .

Müharibə - dövlətlər , siniflər və xalqlar arasında aparılan mütəşəkkil silahlı mübarizədir, həmin qüvvələr arasındakı əlaqə və münasibətləri ifadə edən siyasətin zor vasitəsilə , silah gücünə həyata keçirilməsidir . Müharibələr – güc işlətməyin müəyyən forması kimi qədim dövrlərdə də olmuşdur . Müharibələr bəşəriyyətə həmişə fəlakət gətirmişdir . Müharibələr yaradılmış maddi və mənəvi sərvətlərin məhv edilməsi ilə bağlı olduğundan , onların qarşısının alınması , bəşəriyyətin bu bəladan xilas olması məsələsi həmişə çox mühüm dünyagörüşü və fəlsəfi – qlobal problem olmuşdur .

XXəsrdə baş vermiş iki dünya müharibəsi bəşəriyyəti sivilizasiyanın qorunub saxlanılması problemini həll etmək haqqında düşünməyə məcbur etmişdir .

Birinci Dünya müharibəsi (1914-1918 ) özünəqədərki müharibələri xüsusi amansızlığı ilə çox – çox geridə qoymuşdur . Bu müharibəyə 38 dövlət cəlb olunmuşdur . 10 milyon insan həlak olmuşdur .

İkinci Dünya müharibəsində (1939 – 1945) 62 milyondan artıq insan həlak olmuşdur . Bu müharibəyə isə 72 dövlət cəlb olunmuşdur .

1988 – ci ildən etibarən ölkəmizə və xalqımıza qarşı erməni təcavüzünün nəticəsində ermənilər Dağlıq Qarabağı və onun ətrafındakı rayonlarımızı işğal etdilər . İşğalla barışmayan xalqımız torpaqlarımızı təcavüzdən qorumaq üçün mübarizə aparır . Xalqımız bu mübarizədə minlərlə şəhid vermişdir . Hər hansı xalq , dövlət təcavüzə məruz qalırsa , o , təcavüzkara qarşı həm siyasi , həm də güc vasitələrindən istifadə etməlidir . Çünki hər bir dövlətin qarşısında duran əsas vəzifə təhlükəsizliyin təmin edilməsidir .

Əlverişli geosiyasi məkanda yerləşən Azərbaycan zəngin enerji resurslarına malikdir . Təcavüzkar dövlətlərin Azərbaycana qarşı ərazi iddialarının əsas səbəbi də budur . İşğalçı müharibələr insanların vəhşilik instinkti ilə bağlıdır . Xocalı soyqırımında ermənilər insanlığa sığmayan vəhşiliklər törətməklə bunu bir daha sübut etdilər .

## Terrorizmlə mübarizə problemi .

,, Terror “ latın sözü olub , təzyiqetmə siyasəti , siyasi rəqiblərin güc işlətməklə məhv edilməsi deməkdir . Terrorizm – günahsız insanların qurbanı olduğu cinayət və təcavüzdür . Hazırda terror istənilən formada öz miqyasına , gözlənilməzliyinə və nəticələrinə görə bəşəriyyətin təhlükəli ictimai – siyasi və mənəvi problemlərindən birinə çevrilmişdir .

Terror ümumbəşəri cinayət , antidemokratik , antihumanist bir vasitədir . Son illərdə terror hadisələri artmaqdadır . Məhz ona görə də terrorçuluğa qarşı mübarizə beynəlxalq ictimaiyyətin gündəliyində duran ən mühüm məsələlərdəndir . Terror qarşıdurmanın təzahür formasıdır . Terror həm də siyasətdir . Bu siyasət qarşı tərəfi zəiflətmək , tabe etdirmək , ictimai rəy formalaşdırmaq , digər məqsədlər üçün tətbiq edilir . Terror mütəşəkkil və məqsədyönlü şəkildə həyata keçirilən aktdır . Bu səbəbdən ondan öz məqsədləri üçün istifadə edənlər müəyyən bir təşkilat strukturunda birləşir , yaxud əlaqəyə girirlər .

Müasir terrorizmin məqsədlərinə aşağıdakılar daxildir :

- müəyyən bir dövlətdən ərazi qoparmaq , yaxud bu ərazini başqa bir dövlətə birləşdirmək ;
- mövcud ictimai – siyasi quruluşu dəyişdirmək ;
- ölkənin daxili və xarici siyasətində konkret dəyişiklik etmək ;
- müəyyən bir hadisəyə , haqsızlığa dünya dövlətinin diqqətini cəlb etmək , ictimai rəy yaratmaq ;
- hakimiyyəti əldə saxlamaq ;
- siyasi rejimi möhkəmləndirmək ;
- ölkə daxilində sabitliyi pozmaq ;

## QİDS ( Qazanılmış İmmunçatışmazlığı Sindromu )

QİDS bəşəriyyət üçün böyük təhlükədir . QİDS – İİV ( İnsanda İmmunçatışmazlığı Virusu ) infeksiyası vasitəsilə inkişaf edən xəstəlikdir . Bu virusa yoluxmuş insanların immunmüdafiə sistemi kəskin zəifləyir . Bunun nəticəsində insanın orqanizmi xəstəlik və infeksiyalara müqavimət göstərmək qabiliyyətini itirir .

QİDS qlobal bəladır . Bəşəriyyət bu xəstəliyin müalicə üsulunu hələlik tapmamışdır . QİDS – dən qorunmağın yeganə yolu profilaktikadır . Hər bir insan şəxsi gigiyenasına və reproduktiv sağlamlığına məsuliyyətlə yanaşmalıdır . Bununla da insan həm öz həyatını , həm də bəşəriyyəti təhlükədən xilas edə bilər . İnsanın sağlığı onu əhatə edən ətraf mühitin təmizliyindən asılıdır . Uşaqlıq və yeniyetməlik dövründən başlayaraq insanın düzgün gigiyenik tərbiyəsinə , sağlam nəsilartırma qabiliyyətinin inkişafına , beləliklə , bəşər cəmiyyətinin qorunmasına yönələn səhiyyə maarifi və səhiyyə xidmətinin keyfiyyəti daim yaxşılaşdırılmalıdır .

## XIV Mövzu

## Cəmiyyətin mənəvi varlığı .

## Mədəniyyət və sivilizasiya

Mənəviyyat – cəmiyyətin , ailənin , məktəbin və s . təsiri altında hər bir insanda formalaşmış iradə , əqidə və ideyalardır . Hər bir insanın əxlaqı onun mənəviyyatından asılıdır . Lakin mənəviyyat əxlaqa nisbətən daha geniş anlayışdır . Mənəviyyat – insanın əxlaqını formalaşdıran ruhi keyfiyyətdir .

Mənəvi şüurun formalaşmasına təsir edən amillərdən biri insanın ağılıdır . Mənəvi şüur əqldən , mənəvi hislər isə insanın ürəyindən qidalanır .Hislər insanın şüur və davranışına təsir edərək onun xarakterinə zənginlik , gözəllik bəxş edir və onu daha da ülviləşdirir . Mənəvi şüurun tərkib hissələrindən biri də mənəvi adətlər və vərdişlərdir . Mənəvi şüurun formalaşmasında motivlər mühüm yer tutur . Mənəvi şüur , mənəvi hislər , mənəvi adət və vərdişlər , motivlər bir – birilə vəhdətdə şəxsiyyətin mənəvi əqidəsini yaradır . Mənəviyyatın formalaşması prosesini sxem şəklində belə ifadə etmək olar :

Mənəviyyat




Mənəvi mədəniyyət . Yüksək mənəviyyata sahib olmaq səyi ayrı – ayrı fərdlərə ən üstün keyfiyyətlər qazandırmışdır . Bu səy ailəni , dövləti , xalqı , bütün insanları sevməyi , hörmət etməyi , əsl insan olmağı öyrədir . Bütövlükdə isə xalqın təfəkkürünü dünyagörüşünü müəyyən edir . Yüksək mənəvi keyfiyyətlər özünü davranışda , ictimai münasibətlərdə, fəaliyyətdə biruzə verir . İnsanın davranışı onun əxlaqınıngöstəricisi , əxlaqı isə onun mənəviyyatının güzgüsüdür . İnsanı insan edən onun mənəviyyatıdır .

Mənəviyyatsızlıq isə humanizmdən , vicdandan , şərəfdən , ləyaqətdən , imandan və inamdan çox uzaqdır . Mənəviyyatsız insanda dosta xəyanət xalqına , millətinə , dövlətinə , mənsub olduğu nəslə qarşı laqeydlik , yadlıq var . Mənəviyyatsız adam böyük şairimiz M .Ə . Sabirin sözləri ilə desək , ,, Millət necə tarac olur – olsun , nə işim var " prinsipi ilə yaşayır .

İnsanın mənəviyyatı bir tərəfdən genetik əsaslara malik olsa da , o , əsasən , sosial – mənəvi mühitin təsiri ilə formalaşır . İnsanın formalaşdığı ictimai mühit sosial və hüquqi normalar , mövcud dövlət quruluşu , ictimai münasibətlər , ailə münasibətləri , təhsil sistemi kimi elementlərin sintezindən ibarətdir . Mədəni – mənəvi mühit cəmiyyətin çağdaş dəyərləri ilə yanaşı , əvvəlki nəsillərdən qalmış sənət əsərlərinin , eləcə də bədii ədəbiyyat və kinonun təsiri ilə formalaşır . Bütün bunlar insanların bir vətəndaş kimi yetişməsində mühüm rol oynayır . Sosial – mənəvi mühitdə böhran da baş verə bilər . Ona görə də sosial – mənəvi mühitin varlığının qorunması aktual problemlərdən biridir . Bayağı mədəniyyətin tüğyan etdiyi , milli - mənəvi mühitimizə yad təsirlərin gücləndiyi bir vaxtda cəmiyyətin mənəvi problemlərini öyrənmək və onları həll etmək lazımdır . Bu gün mədəni – mənəvi köklərimizə qayıdış istiqamətində aparılan mübarizə , həm də elmi – nəzəri əsaslara malik olmalıdır . Milli özünüdərk prosesi ilə özünüqoruma instinki vəhdət təşkil etməlidir . Yəni cəmiyyət həyatına kənardan daxil olan yad təsirlərdən qorunmaq üçün insanlarda sosial özünümüdafiə instinki formalaşdırılmalıdır .

İnsanın varlığı bütöv , tam kimi fiziki , təbii və mənəviliyin vəhdətini ifadə edir . Mənəvi varlığın iki forması mövcuddur :

3) fərdiləşmiş mənəvi varlıq
4) ümumbəşəri mənəvi varlıq

Mənəvilik anlayışı altında onun bütün mahiyyəti əhatə edilməsə də , insanın fəaliyyətində şüurluluq , mənəviyyat , bədii yaradıcılıq , bilik və s. konkret simvollarla maddiləşir .

Fərdiləşmiş mənəvi varlıq hər şeydən əvvəl , fərdin şüuru , yaxud təhtəlşüur elementləri də daxil edən dərk edilmiş fəaliyyətdir . Belə mənəvi varlıq forması mövcuddur və onu qısa şəkildə olsa da səciyyələndirmək vacibdir . Fərdi insan şüuru – hər şeydən əvvəl baş verən proseslərə olan reaksiya kimi başa düşülməlidir . Fərdiləşmiş mənəvi varlıq müəyyən dərəcədə ( o qədər əhəmiyyətli olmasa da) ən ümumi varlığın təkamülü ilə əlaqədardır . Bu , varlığın nisbi müstəqil formasıdır . Ümumiyyətlə , o mövcuddur və özünü bildirir . Digər forma olan ümumbəşəri mənəvi varlıq , öz növbəsində , nisbətən müstəqil varlıq olsa da, fərdi insan şüuru olmadan mövcud ola bilməz . Ona görə də bu varlıq formalarını vəhdətdə götürüb nəzərdən keçirmək lazımdır .

Ümumbəşəri mənəvi varlığın predmet təzahürü rolunda ədəbiyyat , incəsənət əsərləri , istehsal – texniki predmetlər , əxlaqi prinsiplər, ictimai həyatı dövlət və siyasi quruluşu haqqında ideyalar və s .çıxış edir . Mənəvi varlığın bu forması praktiki olaraq əbədidir , həqiqidir , insan nəslinin mövcudluğu ilə determinə edilmişdir .

Fərdiləşmiş mənəvi varlıq və ümumbəşəri mənəvi varlıq süni şəkildə yaradılmış olsa da , onlarsız bəşəriyyətin mövcudluğu qeyri – mümkündür .

Cəmiyyətin mənəvi fəaliyyət dairəsi : təhsil , peşə , ixtisas fəaliyyəti , elmi – texniki , bədii yaradıcılıq prosesi , əxlaqi estetik və hissi – psixoloji hərəkətləri , davranışı , mənəviyyatı , dünyagörüşü , adət - ənənələri və s . məcmusu isə mənəvi həyatı təşkil edir . Mənəvi həyat tərzi maddi yaşayış üsulu , maddi – ictimai varlıq əsasında formalaşır və ona uyğun olur . Cəmiyyətin mənəvi həyatını ictimai –iqtisadi formasiyanın xarakterinə uyğun spesifik mənəvi həyatı olur . Mənəvi həyat ən ümumini ifadə edib , geniş əhatə dairəsinə malikdir .

Beləliklə iqtisadi sistem – maddi və qeyri – maddi nemətlərin və xidmətlərin istehsalı bölgüsü , mübadiləsi və istehlakı zamanı xidmətlərin yaranmış təsərrüfat münasibətlərinin məcmusudur .

SSRİ- nin tərkibində Azərbaycan iqtisadiyyatı əsasən xammal mənbəyinə çevrilmlşdir . Ölkəmizdə yeni demokratik cəmiyyət quruculuğu şəraitində səmərəli qarışıq iqtisadiyyat sistemi formalaşmaqdadır .Bu problemin həllı üçün ilk növbədə dövlət mülkiyyətinin geniş miqyasda özəlləşdirilməsi , iqtisadiyyatın idarə edilməsi sisteminin yenidən qurulması tədbirləri həyata keçirilir .

Ölkənin iqtisadi sisteminin modeli onun təbii sərvət potensialını , tarixi təsərrüfat ənənələrini , demoqrafiq xüsusiyyətləri və digər əsas amilləri nəzərə almaqla yaradılır . Azərbaycanın iqtisadi sistemində dövlətin tənzimləyici funksiyaları daha çox iqtisadiyyatda azad sahibkarlığın təşəkkül və inkişafına yönəldilmişdir .

## Mədəniyyət və sivilizasiya

Mədəniyyət-cəmiyyətin bütün tarixi boyu əldə etdiyi maddi və mənəvi sərvətlərin məcmusudur. Həmçinin onların yaradılması qabiliyyəti və bəşəriyyətin tərəqqisi üçün onlardan istifadə etmək və onları nəsildən-nəslə vermək bacarığıdır.

Mədəniyyət insanın sirli dünyasıdır. Mədəniyyət insanın özünü dərk etməsi və şəxsiyyətin mövcudluq üsuludur. Mədəniyyət-cəmiyyətin üzvü olan fərdin əldə etdiyi təcrübə, məslək, mənəviyyat, ədalət hissi, adət-ənənə, digər bacarıq və təcrübələrin də daxil olduğu mürəkkəb bir tamdır.

Böyük mütəfəkkirlər hələ qədim zamanlardan başlayaraq, mədəniyyət problemləri ilə məşğul olmuş, müxtəlif mövqelərdən ona öz münasibətlərini bildirmişlər. Məsələn, mədəniyyət termini özünün ilk, ənənəvi anlamında (latın dilində “sıllure”) “torpağı şumlamaq, belləmək, əkib-becərmək” mənalarını ifadə etmişdir. Lakin sonralar romalılarona yeni bir məna verməklə insanların intellektual səviyyəsinə, onların təhsil və tərbiyəsinə şamil etmişlər.

İslam intibahının yaranması və inkişafı ,, mədəniyyət “ anlayışınındaha geniş məna kəsb etməsinə səbəb oldu . ,, Mədəniyyət “ ərəb dilində ,, şəhərli “ deməkdir ,öz əhatə dairəsinə görə çox geniş olub , insanların və xalqların fiziki və əqli fəaliyyətinin , demək olar ki , bütün sahələrini özündə əks etdirir .

Şərq dünyasının böyük mütəfəkkirləri Nizamülmülkün ,, Siyasətnamə " , Nəsirəddin Tusinin ,, Əxlaqi – nasiri " , İbn –Xaldunun ,, Müqəddəsnamə " əsərlərində yüksək mədəniyyətli insan deyərkən , hər şeyi bilən , hazırcavab olan , dövrün siyasi – iqtisadi problemlərindən baş çıxara bilən adamlar nəzərdə tutulurdu . Beləliklə , orta əsrlər İslam aləmində bu anlayış həm maddi fəaliyyətə , həm də mənəvi sahələrə aid edilirdi .

Sonrakı dövrlərdə ,, mədəniyyət " anlayışı daha geniş məna kəsb etdi . Mədəniyyət insanın yaradıcı fəaliyyətinin məhsulu olmaqla yanaşı , ayrı – ayrı insanların səviyyəsini müəyyən edən meyara çevrildi . Elə adamlar var ki , son dərəcə bilikli olsalar da , kobud və mdəniyyətsizdirlər . Elələri də vardır ki , heç bir ali məktəb bitirməmişlər , ömürlərində iri şəhərlərdə olmamışlar , lakin davranışlarında ədəbli və nəzakətlidirlər , insanlara , təbiətə qayğıkeş münasibət bəsləyirlər , mərhəmətlidirlər . Belələrinə ,, mədəni insan " demək olar .

Mədəniyyət çox mürəkkəb ictimai hadisədir . Odur ki , mədəniyyət deyərkən insan fəaliyyətinin üsulları , nəticələri və yaratdığı sərvətlərin ümumi toplusu nəzərdə tutulur . Antropoloq Eduard Taylorun mədəniyyətə hələ 1871 – ci ildə verdiyi tərif bu gün də öz əhəmiyyətini itirməmişdir .

Hər bir cəmiyyət öz mədəniyyət ənənələri və tarixi inkişaf xüsusiyyətləri ilə səciyyəvidir. İnsanlar müxtəlif mədəniyyətlər yaratmış , sərvətə və texniki nailiyyətlərə müxtəlif münasibət bəsləmişlər . Mədəniyyət sırf sosial hadisə olub , insanların həyat fəaliyyəti ilə əlaqədardır . Mədəniyyət prosesləri bütün ictimai hadisələrlə qarşılıqlı əlaqədə baş verir . Bütün hallarda mədəniyyət spesifik cəhətlərə malik olur , özündə ümumbəşəri dəyərləri cəmləşdirir .

Mədəniyyət iki yerə ayrılır : Maddi və mənəvi mədəniyyətə .

Maddi mədəniyyət – insan əməyi və zəkası ilə yaradılmış maddi sərvətlərin məcmusudur. Maddi mədəniyyət insanın təbii gerçəkliyi mənimsəməsinin göstəricisidir . Yaşayış vasitələri , memarlıq nümunələri , körpülər , meşə zolaqları , bitki , heyvan növləri və s . buraya daxildir .

Mənəvi mədəniyyətə isə elm və onun nailiyyətlərinin istehsal prosesinə tətbiqi səviyəsi , təhsil və adət - ənənələr və s . daxildir .

Mədəniyyətin dörd əsas elementi vardır . Birinci element ümumi anlayışlardır ki ,insanlar onun köməyi ilə dünyanın və özlərinin dərin təcrübəsini ümumiləşdirirlər . İkinci element qarşılıqlı fəaliyyətdir . Hər bir mədəniyyət onu yaradanların kimliyindən asılı olmayaraq başqaları ilə əlaqədə inkişaf edir . Mədəniyyətin üçüncü elementini dəyərlər təşkil edir . Ümumbəşəri dəyərlərlə milli – mənəvi dəyərlər həmişə vəhdət təşkil edir . Nəhayət dördüncü element qayda və normalardan ibarətdir ki , insanlar onların köməyi ilə mədəniyyətə olan münasibətlərini ddiriəyərləndirirlər .

Bəşər tarixinin tədqiqatçıları mədəniyyətin bir neçə növünü fərqləndirirlər . Sosial cəhətdən bərabər olmayan cəmiyyətlər üçün elitar və xalq mədəniyyətləri bölgüsü səciyyəvidir . Elitar mədəniyyət – yüksək mədəniyyət , zərif incəsənət , klassik mədəniyyət və ədəbiyyat deməkdir . Xalq mədəniyyəti dedikdə nağıllar , dastanlar , folklor , xalq mahnıları və əsatirlər daxil edilir . Kütləvi informasiya vasitələrində ( radio , mətbuat , televizor , maqnitofon ) yüksək və xalq mədəniyyətləri arasındakı fərqlərin siilinməsi nəticəsində kütləvi mədəniyyət meydana gəlmişdir . Kütləvi informasiya vasitələri və kütləvi mədəniyyət bir – biri ilə sıx bağlıdır . Belə ki , onların vasitəsilə mədəniyyət kütləviləşir və geniş dairədə yayılır .

Gündəlik həyatda mədəniyyət dedikdə ilk növbədə incəsənət , ədəbiyyat , musiqi , rəssamlıq və s . sahələri nəzərdə tuturuq . Sosialogiyada mədəniyyət anlayışı yalnız yaradıcılıq fəaliyyətinin bu növlərini deyil , daha çox sahəni əhatə edir . Mədəniyyət cəmiyyət üzvlərinin bütün həyat tərzinə aiddir – geyinmək manerası , nigah mərasimi və ailə həyatı , əmək fəaliyyəti , dini mərasimlər və asudə vaxtın keçirilməsi buraya daxildir . Buraya həm də insanların yaratdıqları və onlar üçün dəyər hesab edilən predmetlər daxildir : maşın , fabrik , kompüter , kitab , mənzil və s . Nə qədər yaradan subyekt varsa , o qədər də mədəniyyət var . ,, Mədəniyyət insan varlığının dərinliyini və ölçüsünü ifadə edir . İnsan nə qədər tükənməz və müxtəlif simalıdırsa , mədəniyyət də o qədər çoxcəhətli , çoxaspektlidir .”

Mədəniyyət hadisələrinin öyrənilməsi ilə çoxlu konkret elmlər məşğuldur : arxeologiya , antropologiya , etnoqrafiya , tarix , sosiologiya . Buraya həmçinin incəsənəti , əxlaqi , dini və s. öyrənən elmlər də daxildir .

Sivilizasiya – cəmiyyətin və mədəniyyətin inkişaf səviyyəsi , mədəni dəyərlərin mənimsənilməsi , cəmiyyətin inkişafı ilə bağlı uğurları bildirir . Sivilizasiya – adətən , mədəniyyət sözünün sinonimi kimi işlədilir . Sivilizasiya anlayışı XVIII əsrdə Fransada meydana gəlib , ilk əvvəl ,, mədəniyyət “ terminini ifadə edirdi . XIX əsrdə isə ,, sivilizasiya “ deyərkən kapitalizmi başa düşürdülər . Belə ki , ictimai – iqtisadi formasiyalar sivilizasiya anlayışı ilə bir tutulurdu . Bir çox tədqiqatçılar mədəniyyətlə sivilizasiyanı eyniləşdirməyə , bəziləri isə əksinə , onları qarşı – qarşıya qoymağa çalışırlar . Mədəniyyət deyərkən mənəvi mədəniyyəti , sivilizasiya deyərkən maddi mədəniyyəti nəzərdə tuturlar . Əslində isə ,, mədəniyyət və sivilizasiya “ yaxın anlayışlar olsa da , onları fərqləndirən cəhətlər vardır :

Əvvəla , onu demək lazımdır ki , ,, mədəniyyət “ daha geniş anlayış olub , ,, sivilizasiya”nı da özündə birləşdirir ;

İkincisi , ,, sivilizasiya “ termini çox zaman cəmiyyətin müəyyən bir tarixi inkişaf pillələrinə aid edilir ;

Üçüncüsü , „ milli sivilizasiya " anlayışı minillikdən daha çox regional sahələri , bir neçə dövləətin sərhədləri daxilində olan ərazilərdəki mədəniyyətin səviyyəsini göstərdiyi halda , maddi mədəniyyət hər bir millətə xas olan səciyyəvi xüsusiyyətləri əks etdirir .

Dördüncüsü , müəyyən bir sivilizasiya daha tez parlayıb sönə bildiyi halda , mədəniyyət nisbətən sabit və uzunömürlü olur , çox yaşayır və sonrakı nəsillər tərəfindən daha tez qavranılır;

Beşincisi , mədəniyyətin bir neçə qolu , növü , şaxəsi olduğu halda , sivilizasiyada bunu müşahidə etmək mümkün deyildir . Məsələn siyasi mədəniyyət , məişət mədəniyyəti , nitq mədəniyyəti , davranış mədəniyyəti və s . Halbuki ,, siyasi sivilizasiya " , məişət sivilizasiyası " , ,, nitq sivilizasiyası " , ,, davranış sivilizasiyası " və s . ifadələri işlətmək qeyri – mümkündür . Qeyd edək ki , mədəniyyət və sivilizasiya həm də bir – biri ilə əlaqə , vəhdət təşkil edir . Mədəniyyətsiz sivilizasiya , sivilizasiyasız isə mədəniyyət ola bilməz . Mədəniyyət sivilizasiya üçün əsas mənəvi dəyərlərdən ibarət özül rolunu oynayır .

## Sivilizasiyalı cəmiyyət .

XX əsr qitələrin və regionların arasındakı sədləri dağıtmışdır . İqtisadi , siyasi , mədəni və elmi – texniki əlaqələr bütün dünyanı əhatə etmişdir . Müxtəlif ölkələrdə yaşayan insanlar müasir nəqliyyat və rabitə vasitələrinin , telefonun , radionun , televiziyanın , kosmik rabitə peyklərinin və yeni yaranmış qlobal kompüter informasiya şəbəkəsi – internetin sayəsində bir – biriləri ilə daha asan ünsiyyət yarada bilirlər .

İnsanın özü də daha çevik , daha mobil olmuş , qısa müddətdə istənilən ölkəyə , qitəyə , planetin istənilən nöqtəsinə gedə bilmək imkanı əldə etmişlər . Bunların hamısı ən qabaqcıl , ən yeni kəşflərin ümumbəşəri olmadığına zəmin yaradır . Məhz belə bir qarşılıqlı təsirin nəticəsində ,, sivilizasiyalı cəmiyyət " anlayışı yaranmışdır .

## Müasir Azərbaycanın mədəni həyatı .

Müstəqil Azərbaycanda bütün sahələrdə olduğu kimi , mədəniyyət sahəsində də əsaslı islahatlar keçirildi . Azərbaycan mədəniyyətinin milli – mənəvi dəyərlərə söykənən özünəməxsusluğu saxlanılmaqla ümumbəşəri dəyərlərlə inteqrasiyası prosesi gücləndi .

Müasir Azərbaycan mədəniyyətinin səciyyəvi xüsusiyyətlərindən birini də onun dövlət qayğısı ilə hərtərəfli əhatə olunması təşkil edir . Azərbaycan dövləti

iqtisadi cəhətdən güclәndikcə mədəniyyətin inkişafı sahəsində də uğurlu addımlar atılmağa başlandı . Teatr binalarının , muzeylərin bərpası , muzey işinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər buna misaldır . Yeni tikilmiş „ Muğam mərkəzi “ , „ Xalça muzeyi “ və bir çox tikililər öz təkrarolunmazlığı ilə Azərbaycan memarlıq sənətinin ən monimental nümunələri sırasına daxil olmuşdur .

Son illər teatr binalarının təmiri ilə yanaşı texniki təchizat baxımından görülən işlər də göz qabağındadır . Muğam , aşıq sənəti , Novruz bayramı və xalçaçılıq sənəti UNESCO –nun qeyri – maddi irs siyahısına daxil edilmişdir . Yeni muzeylər və tarixi qoruqlar yaradılmışdır . Azərbaycan hər il idman yarışlarında , olimpiadanın keçirilməsində ev sahibliyi edir .

# XV Mövzu

## Cəmiyyətin iqtisadi həyatının fəlsəfi problemləri.

## Müasir dövrün qlobal problemləri

Bütövlükdə götürdükdə cəmiyyət təbii yarımsistemə və ictimai yarımsistemə ayrılır. **Birinci,** insan nəslinin istehsalı və təkrar istehsalını, coğrafi mühit və ölkənin geopolitik vəziyyətini, nəsillər arasında təbii münasibətləri əhatə edir. **İkinciyə** ictimai həyatın istehsalı və təkrar istehsal daxildir. Bunlarla yanaşı sosial sistemi birlik formalarına görə (cəmiyyət, sosial qrup, millət, xalq və sair), yaşayış məskənləri tipinə görə (şəhər, şəhərtipli qəsəbə və kənd). Habelə peşə, demoqrafık, yaş, cins və sair əlamətlərə görə də bölmək olar. Deyilənlərdən əlavə cəmiyyət ictimai sferalar üzrə də təsnif olunur.

Belə yanaşdıqda ictımai həyat iqtisadi, sosial, siyasi və mənəvi sferalara ayrılır, Bu bölgünün əsasında iki əsas əlamət durur: ictimai fəaliyyətm özünəməxsus növü və buna müvafiq olaraq qərarlaşan ictimai münasibətlər tipi. Yuxarıda qeyd olunan sferaların hər birində insanların fəaliyyəti özünəməxsus, spesifik xarakter daşıyır. Burada qərarlaşan ictimai əlaqələr və münasibətlər də başqalarında olduğundan fərqlidir. Cəmiyyətin sferalar üzrə bölgüsü həm də buna görə diqqəti cəlb edir ki, o ictimai həyatın müxtəlif tərəflərini funksional baxımdan vəhdətdə götürür. Belə ki, yuxarıda adı çəkilən dörd sferanın hər birində həm maddi, həm də mənəvi tərəflər əhatə olunur. İctimai sferalar sırasında iqtisadi həyat mühüm yer tutur. O çox geniş məzmuna malikdir. Buraya maddi istehsal, iqtisadi tələbatlar, mənafelər və iqtisadi fəaliyyət ilə

əlaqədə olan digər tərəflər daxildir. İqtisadi sferanın və iqtisadi münasibətlərin spesifikliyinə məhəl qoymamaq, onu yalnız maddi, yaxud da istehsal münasibətləri ilə eyniləşdirmək doğru olmazdı. Bu, iqtisadi proseslərin insanların şüurundan və davranışından tam müstəqil olduğunu iddia etmək (obyektivizm) olardı. Əslində əmək prosesi yalnız onun maddi tərəflərindən (əmək vasitələri, əmək cismi və sair) ibarət deyildir. Burada insanların iradəsi, arzu və səyləri mühüm rol oynayır.Cəmiyyətin iqtisadi sferasını əsas etibarilə iqtisadi elmlər öyrənir. Lakin burada bir sıra məsələlər vardır ki, onlar sosial fəlsəfə ilə sıx bağlıdır. Məsələn, bütövlükdə cəmiyyət ilə iqtisadi həyat arasındakı münasibətlər; iqtisadi sferanın cəmiyyətin inkişafına təsiri; iqtisadi sferada obyekt-subyekt münasibətləri; iqtisadi münasibətlər ilə iqtisadi mənafelərin əlaqəsi (müxtəlif birlik formaların mənafeləri); iqtisadi sfera ilə dövlətin münasibətləri və sair. Bu məsələlərin rolu təkcə sırf iqtisadi sfera ilə məhdudlaşmır, bütöv bir tam kimi götürülən cəmiyyət sistemini əhatə edir. .

Sosial fəlsəfədə iqtisadi sferanın öyrənilməsi o dərəcədə əhəmiyyətli yer tutur ki, hətta son dövrlərin ədəbiyyatında «iqtisadi fəlsəfə» anlayışı geniş yayılmaqdadır. İqtisadi fəlsəfə sosial fəlsəfə sisteminə xüsusi bir hissə kimi daxildir. Göstərilməlidir ki, sosial fəlsəfə istehsalın texnologiyasını, müxtəlif məhsulların hazırlanması üsullarını və insanların təsərrüfat fəaliyyətinin maddi tərəfini öyrənmir. O öz diqqətini əmək məhsullarına müəyyən ictimai forma verən, ayrı-ayrı insanlar ilə cəmiyyətin əlaqəsi üsullarını müəyyən edən şərtlə bağlı məsələrə yönəldir. Əvvəla onu qeyd edək ki, ümumi mənada iqtisadiyyat dedikdə insan nəsli ilə təbiət arasında fərdlərin və ictimai birliklərin şüurlu fəaliyyətindən keçərək baş verən maddələr mübadiləsi başa düşülür. Müasir dövrdə iqtisadi reallığın mənzərəsinin dəyişilməsinə uyğun olaraq iqtisadiyyat anlayışı da yeni məzmun kəsb edir. Bu günkü iqtisadi reallıq «sərvətlər dünyası», «təsərrüfat mədəniyyəti dünyası» və təsərrüfatçılıq edən «subyektin dünyası»kimi üç əsas elmi mənzərəni ifadəedir. İqtisadi həyatı öyrənən təlimlər xeyli qədim tarixə malikdir. Onun əsasları Aristotel tərəfindən qoyulmuşdur.XII əsrdə yaşamış məşhur Azərbaycan filosofu Siracəddin Urməvi aşağıdakı suallara cavab verməyə çalışmışdır. Əmək və istehsal insanların ictimai həyatında nə kimi rol oynayır? Cəmiyyət və iqtisadiyyatın qarşılıqlı təsiri və inkişafı hansı yolla gedir? S.Urməvi, insanın bir fərd və ictimai varlıq olduğunu qeyd edərək, yaşamaq üçün maddi ehtiyacların ödənilməsinin zəruriliyini göstərirdi. O, mülkiyyət münasibətlərinin iki formasını (icma mülkiyyəti və xüsusi mülkiyyət) tədqiq etmişdir. Cəmiyyətin sosial quruluşu, hüquq və siyasət, idarəetmə və ideologiyasının bu mülkiyyət formalarına uyğun inkişaf etdiyini göstərmişdir. XIV əsr Şərqinin böyük mütəfəkkiri İbn-Xəldun da cəmiyyətin inkişafının əsasını maddi istehsal təşkil etdiyindən bəhs etmiş, tarixin inkişaf mərhələlərini qeyd etmişdir. Yeni dövrdə bu təlimi A.Smit və D.Rikardo inkişaf etdirmişdir.

XVIII əsrin iqtisadçı və filosofu olan A.Smit 1776-cı ildə yazdığı "Xalqların

varlanmasının səbəbləri və mahiyyətinin tədqiqatı" əsərində əməyin dəyər nəzəriyyəsini yaratmış, onun başlıca kateqoriyalarını işləyib hazırlamışdır. O göstərirdi ki, gəlir fəhlə əməyinin məhsulunun bir hissəsi, qalığıdır. Lakin Smit səhvən belə düşünürdü ki, əmtəənin dəyəri kapital, torpaq və əməyin əsasında əldə edilmiş gəlir əsasında formalaşır. İlk dəfə olaraq o, burjua cəmiyyətinin sinfi bölgüsünü öyrənərkən muzdlu əməkçilər, kapitalistlər və torpaq sahibkarları siniflərini müəyyən etdi.Klassik alman fəlsəfəsində də maddi istehsal haqqında müəyyən fikirlər irəli sürülüb. Hegel, insan sirrini onun düşüncəsində, Feyerbax isə qəlbində görürdü. Feyerbax qeyd edirdi ki, insan həm rasional, həm də emosional varlıqdır, insan dünyanın hissi qavranılmasının xüsusi tərzinə malikdir. İnsan - **təbiətin bir hissəsidir, o, dünyanı emosional-hissi şəkildə qavrayır.** İnsanlar arasında ünsiyyət, öz mahiyyətinin qəbulu və təsdiqi şəklində baş verir, ünsiyyət pozulanda, Allah ideyası ortalığa atılır. Allahı sevmək lazım gəlir. Sevginin real və özgələşmiş formaları insan varlığını, ictimai həyatı müəyyən edir. İqtisadi təlimin sonrakı inkişafı K.Marksın adı ilə bağlıdır. O dəyər nəzəriyyəsini təkmilləşdirmiş və izafı dəyər nəzəriyyəsini yaratmışdır. Təsadüfi deyildir ki, məşhur amerikan professoru Samuelson, Marksı, A.Smit, C.Keyns və digər iqtisadçıların daxil olduğu «intellektual nəhənglər»dən biri hesab edirdi.

Marksın iqtisadi nəzəriyyəsi xüsusilə də onun gəlir, əmək haqqı və kapitalist müəssisənin təbiəti haqqında fikirləri çox əhəmiyyətlidir.Marks da, insanı təbiətin bir hissəsi olduğunu hesab edərək, onun başlıca xüsusiyyətini-dünyanın dəyişdirilməsi, fəth edilməsində görüb. İnsan iki cismin dialektikasıdır - qeyri-üzvü və üzvünün**.** Qeyri-üzvü cisim insandan ayrılır: sosiallaşma prosesində təkrar istehsal edilir

, nəsildən-nəsilə ötürülür. Qeyri-üzvü cisim, artıq sivilizasiyanın qeyri-üzvü cisminə çevrilir, insan bunu nəzərə almadan dünyaya uyğunlaşa bilməz. Maddi istehsalda insan özünü iki komponentdə təkrar istehsal edir (üzvü və qeyri-üzvü). İnsanın mahiyyəti -maddi nemətlərin istehsalında ifadə olunur. Sivilizasiyanın inkişaf tarixi - istehsal prosesində predmetlərin istehlakının mürəkkəbləşməsi tarixidir. Bu, insan həyatını əsaslı şəkildə dəyişdirir. Məsələn qədim yunan polisinin dövründəki insanlarla müasir elmi-texniki inqilab dövrünün insanları arasında çox böyük fərqlər vardır. Sosial təkamül gedişində insanla birlikdə qeyri-üzvi cisim də inkişafedir.**Bu prosesin digər tərəfi - insanın insana olan münasibətidir.** İnsan dünyaya praktiki münasibətini formalaşdıraraq təbiəti istifadə etmək üçün vasitələrə əl atır, predmetlə kontakta girir, bu halda o başqa insanlarla münasibətlər yaratmağa məcbur olur. İnsan, əmək vasitələrindən istifadə edərkən, sosial münasibətlərin mürəkkəb sisteminə daxil olur. Sosial münasibətlər - insanın qeyri-üzvü cisminə aid olan münasibətlərin çox vacib bir hissəsi kimi çıxış edir. Bu əlaqələrin mürəkkəb sistemində Marks, istehsal münasibətlərinin başlıca olduğunu göstərir. Bu münasibətlər üzərində digərləri (siyasi, hüquqi) qurulur. Buraya həm də qrup,

kollektiv, müxtəlif birləşmələrin münasibətləri və ünsiyyəti də daxildir.

## Müasir dövrün qlobal problemləri

Müasir dövrdə bəşəriyyətin mövcudluğu üçün mühüm həyati əhəmiyyət kəsb edən və ictimai tərəqqinin ondan asılı olduğu problemlərin məcmusu qlobal problemlər adlanır .

Müasir dövrün qlobal problemləri dedikdə - istilik – nüvə müharibəsi təhlükəsi , sülh şəraitinin təmin edilməsi , işsizlik , aclıq , savadsızlıq , əhalinin sürətlə artımı və onların maddi və mənəvi tələbatının ödənilməsi , ətraf mühitin , havanın ,suyun , atmosferin çirklənməsinin qarşısının alınması , bəşəriyyətin ərzaq və sənaye məhsullarına , enerji mənbələrinə daim artan tələbatının ödənilməsi və s . nəzərdə tutulur . Bunlarla yanaşı səhiyyə , təhsil , mənəvi tənəzzül və s . məsələlər də qlobal problemə çevrilə bilər . Qlobal problemlər ictimai inkişafa mane olur , sivilizasiyanı məhv etmək təhlükəsi yaradır və bütün bəşəriyyətin mənafeyinə toxunur .

## Kütləvi qırğın silahları .

Müasir silahlar , xüsusilə də nüvə silahları nəhəng dağıdıcı gücə malikdir . Ən təhlükəli kütləvi qırğın silahlarından biri kimyəvi silahlardır . Onun tətbiqi vasitələri raketlər , mərmilər , minalar , aviasiya bombalarıdır . Nüvə silahı üzrə ilk işlər 1944 – cü ildə başlanmışdır . İlk nüvə bombası 1945 – ci ildə iyulda ABŞ- da Alamoqordo səhrasında partladılmışdır . Həmin ilin avqustunda isə Xirosima və Naqasaki şəhərlərinə nüvə bombası atılmışdır . Nüvə silahı sivilizasiyanı məhv etməyə qadirdir . Nüvə müharibəsi ozon təbəqəsinin dağılmasına , yer üzünün ultraqırmızı şüalanmasına və bunun da nəticəsində kütləvi xəstəliklərin yayılmasına səbəb ola bilər .

Sülhün və təhlükəsizliyin qorunması üçün dövlətlər və hökumətlər böyük məsuliyyət daşıyırlar . Lakin bu işdə elmin də böyük rolu var . Atom bombasının yaradılması elmin nailiyyətidir . Lakin bu nailiyyət Xirosima və Naqasakidə 260 min adamın ölümünə , 163 min adamın yaralanmasına səbəb oldu . Atom silahının yaradıcıları olan alimlər bu hadisədən dəhşətə gəldilər .

Son məlumata görə , yalnız səkkiz ölkədə ( ABŞ , Rusiya , Böyük Britaniya , Fransa , Çin , Hindistan , Pakistan və Cənubi Koreya ) nüvə bombası var .

## Müharibə və qlobal problemlər .

Müharibə - dövlətlər , siniflər və xalqlar arasında aparılan mütəşəkkil silahlı mübarizədir, həmin qüvvələr arasındakı əlaqə və münasibətləri ifadə edən siyasətin zor vasitəsilə , silah gücünə həyata keçirilməsidir . Müharibələr – güc

işlətməyin müəyyən forması kimi qədim dövrlərdə də olmuşdur . Müharibələr bəşəriyyətə həmişə fəlakət gətirmişdir . Müharibələr yaradılmış maddi və mənəvi sərvətlərin məhv edilməsi ilə bağlı olduğundan , onların qarşısının alınması , bəşəriyyətin bu bəladan xilas olması məsələsi həmişə çox mühüm dünyagörüşü və fəlsəfi – qlobal problem olmuşdur .

XXəsrdə baş vermiş iki dünya müharibəsi bəşəriyyəti sivilizasiyanın qorunub saxlanılması problemini həll etmək haqqında düşünməyə məcbur etmişdir .

Birinci Dünya müharibəsi (1914-1918 ) özünəqədərki müharibələri xüsusi amansızlığı ilə çox – çox geridə qoymuşdur . Bu müharibəyə 38 dövlət cəlb olunmuşdur . 10 milyon insan həlak olmuşdur .

İkinci Dünya müharibəsində (1939 – 1945) 62 milyondan artıq insan həlak olmuşdur . Bu müharibəyə isə 72 dövlət cəlb olunmuşdur .

1988 – ci ildən etibarən ölkəmizə və xalqımıza qarşı erməni təcavüzünün nəticəsində ermənilər Dağlıq Qarabağı və onun ətrafındakı rayonlarımızı işğal etdilər . İşğalla barışmayan xalqımız torpaqlarımızı təcavüzdən qorumaq üçün mübarizə aparır . Xalqımız bu mübarizədə minlərlə şəhid vermişdir . Hər hansı xalq , dövlət təcavüzə məruz qalırsa , o , təcavüzkara qarşı həm siyasi , həm də güc vasitələrindən istifadə etməlidir . Çünki hər bir dövlətin qarşısında duran əsas vəzifə təhlükəsizliyin təmin edilməsidir .

Əlverişli geosiyasi məkanda yerləşən Azərbaycan zəngin enerji resurslarına malikdir . Təcavüzkar dövlətlərin Azərbaycana qarşı ərazi iddialarının əsas səbəbi də budur . İşğalçı müharibələr insanların vəhşilik instinkti ilə bağlıdır . Xocalı soyqırımında ermənilər insanlığa sığmayan vəhşiliklər törətməklə bunu bir daha sübut etdilər .

## Terrorizmlə mübarizə problemi .

„ Terror “ latın sözü olub , təzyiqetmə siyasəti , siyasi rəqiblərin güc işlətməklə məhv edilməsi deməkdir . Terrorizm – günahsız insanların qurbanı olduğu cinayət və təcavüzdür . Hazırda terror istənilən formada öz miqyasına , gözlənilməzliyinə və nəticələrinə görə bəşəriyyətin təhlükəli ictimai – siyasi və mənəvi problemlərindən birinə çevrilmişdir .

Terror ümumbəşəri cinayət , antidemokratik , antihumanist bir vasitədir . Son illərdə terror hadisələri artmaqdadır . Məhz ona görə də terrorçuluğa qarşı mübarizə beynəlxalq ictimaiyyətin gündəliyində duran ən mühüm məsələlərdəndir . Terror qarşıdurmanın təzahür formasıdır . Terror həm də siyasətdir . Bu siyasət qarşı tərəfi zəiflətmək , tabe etdirmək , ictimai rəy

formalaşdırmaq , digər məqsədlər üçün tətbiq edilir . Terror mütəşəkkil və məqsədyönlü şəkildə həyata keçirilən aktdır . Bu səbəbdən ondan öz məqsədləri üçün istifadə edənlər müəyyən bir təşkilat strukturunda birləşir , yaxud əlaqəyə girirlər .

Müasir terrorizmin məqsədlərinə aşağıdakılar daxildir :

- müəyyən bir dövlətdən ərazi qoparmaq , yaxud bu ərazini başqa bir dövlətə birləşdirmək ;
- mövcud ictimai – siyasi quruluşu dəyişdirmək ;
- ölkənin daxili və xarici siyasətində konkret dəyişiklik etmək ;
- müəyyən bir hadisəyə , haqsızlığa dünya dövlətinin diqqətini cəlb etmək , ictimai rəy yaratmaq ;
- hakimiyyəti əldə saxlamaq ;
- siyasi rejimi möhkəmləndirmək ;
- ölkə daxilində sabitliyi pozmaq ;

## QİDS ( Qazanılmış İmmunçatışmazlığı Sindromu )

QİDS bəşəriyyət üçün böyük təhlükədir . QİDS – İİV ( İnsanda İmmunçatışmazlığı Virusu ) infeksiyası vasitəsilə inkişaf edən xəstəlikdir . Bu virusa yoluxmuş insanların immunmüdafiə sistemi kəskin zəifləyir . Bunun nəticəsində insanın orqanizmi xəstəlik və infeksiyalara müqavimət göstərmək qabiliyyətini itirir .

QİDS qlobal bəladır . Bəşəriyyət bu xəstəliyin müalicə üsulunu hələlik tapmamışdır . QİDS – dən qorunmağın yeganə yolu profilaktikadır . Hər bir insan şəxsi gigiyenasına və reproduktiv sağlamlığına məsuliyyətlə yanaşmalıdır . Bununla da insan həm öz həyatını , həm də bəşəriyyəti təhlükədən xilas edə bilər . İnsanın sağlığı onu əhatə edən ətraf mühitin təmizliyindən asılıdır . Uşaqlıq və yeniyetməlik dövründən başlayaraq insanın düzgün gigiyenik tərbiyəsinə , sağlam nəsilartırma qabiliyyətinin inkişafına , beləliklə , bəşər cəmiyyətinin qorunmasına yönələn səhiyyə maarifi və səhiyyə xidmətinin keyfiyyəti daim yaxşılaşdırılmalıdır .

# ƏDƏBİYYAT

1. Mehdiyev. R. Fəlsəfə. Bakı, 2010

2. Zeynalov. M. Fəlsəfə tarixi.  Bakı, 1998

3. Paşayev. V. Fəlsəfə. Bakı, 1989

4. Ramazanov. F. Fəlsəfə. Bakı, 2001

5. Fərhadoğlu. M. Fəlsəfənin əsasları. Bakı,1996

6. Şükürov. A. Fəlsəfə. Bakı, 2004

7. Məmmədov. Ə. Bəşirov R. İsmayılov. Müasir təbiətşünaslığın konsepsiyaları. Bakı, 2003

8. İmanov. Ə. Fəlsəfənin əsasları. Bakı, 2007

9. Hacıyev. Z. Fəlsəfə. Bakı, 2001

10. Fərhadoğlu. M. Fəlsəfənin əsasları. Bakı, 2004

11. Kərimov. V.   Fəlsəfə və təbiətşünaslıqda varlıq və materiya problemi. Bakı, 2003

12. Rüstəmov. Y. Fəlsəfənin əsasları. Bakı, 2004